MÜASİR AZƏRBAYCAN ƏDƏBİYYATI



# MİKAYIL RZAQULUZADƏ

## SEÇİLMİŞ ƏSƏRLƏRİ

MİKAYIL RZAQULUZADƏ

84(Az)-5

Az2
R99

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

F. Köçərli adına
Azərbaycan Dövlət Uşaq
KİTABXANASI
İNV. № 26932

"ŞƏRQ-QƏRB"
BAKI–2006

*Bu kitab "Mikayıl Rzaquluzadə. Nəsillərdən nəsillərə" (Bakı, Azərnəşr, 1965), "Mikayıl Rzaquluzadə. Yaz günəşi" (Bakı, Gənclik, 1977) nəşrləri əsasında təkrar nəşrə hazırlanmışdır*

**894.3613-dc22**
**AZE**
**Mikayıl Rzaquluzadə. Seçilmiş əsərləri.** Bakı, "Şərq-Qərb", 2006, 312 səh.

Azərbaycan nəsrinin tanınmış yazıçısı, pedaqoq və tərcüməçisi sayılan Mikayıl Rzaquluzadənin "Seçilmiş əsərləri"nə, ustad sənətkarın altmışillik yaradıcılıq axtarışlarının məhsulları olan və geniş oxucu kütləsi tərəfindən sevilən və rəğbətlə qarşılanan şeirləri, satiraları, rəvayətləri, mənzum nağılları, poemaları və hekayələri daxil edilmişdir. Bu əsərlərin başlıca mövzusu Yer kürəsinin əşrəfi sayılan insanın şən, firavan həyatı, işıqlı, romantik duyğu və düşüncələridir.

**ISBN10 9952-34-053-2**
**ISBN13 978-9952-34-053-2**

© "ŞƏRQ-QƏRB", 2006

Azərbaycan Respublikasının Prezidenti

İLHAM ƏLİYEVİN

**"Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"**

12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

**DƏST 24668**

## ÖN SÖZ

Azərbaycan nəsrinin görkəmli nümayəndəsi, şair, tərcüməçi, pedaqoq Mikayıl Manaf oğlu Rzaquluzadə 17 mart 1905-ci ildə Bakı şəhərində anadan olmuşdur. İbtidai təhsilini yeni üsullu "Mədrəseyi-nur" və 5 nömrəli "Rus-müsəlman" məktəblərində almışdır. O, həmin məktəbin son sinfində ikən ekstern yoluyla imtahan verib Pedaqoji İnstitutun tarix-ədəbiyyat fakültəsinə daxil olmuşdur. İnstitut kitabxanasının müdir müavini, müdiri vəzifələrində işləmişdir (1926-1927). Pedaqoji İnstitutu bitirdikdən sonra, 1927-1931-ci illərdə Gəncə Pedaqoji Texnikumunda ədəbiyyat və pedaqogika-psixologiya müəllimi işləmişdir. O, "Qızıl Gəncə" jurnalı redaksiya heyətinin və Azərbaycan Proletar Yazıçıları İttifaqı Gəncə şöbəsinin büro üzvü və s. ictimai işlərdə çalışmışdır. 1931-1934-cü illərdə Moskvada İkinci Dövlət Universiteti yanında olan Pedaqoji Psixologiya-Pedologiya Elmi-Tədqiqat İnstitutunun aspiranturasında təhsil almışdır. Eyni zamanda SSRİ Xalq Komissarları Şurası nəzdindəki "Qanun və qərarlar" nəşriyyatının Azərbaycan şöbəsində tərcüməçi və stenoqrafiya kurslarında ədəbiyyat müəllimi işləmişdir. Sonra Azərbaycan Dövlət Elmi-Tədqiqat Pedaqogika İnstitutunda uşaq ədəbiyyatı sahəsində elmi işçi, "Azərnəşr"də tərcüməçi və redaktor olmuş, "İnqilab və mədəniyyət" (sonralar "Azərbaycan") jurnalı redaksiyasında məsul katib, baş redaktorun müavini, "Azərbaycanfilm" kinostudiyasında, Xarici Ölkələrlə Mədəni Əlaqələr Cəmiyyətində baş redaktor vəzifələrində çalışmışdır. "Gənclik" Nəşriyyatının və "Göyərçin" jurnalının, "Azərbaycan dilinin izahlı lüğəti"nin redaksiya heyətinin, Azərbaycan Yazıçılar İttifaqı qəbul komissiyasının üzvü olmuşdur. Ədəbi fəaliyyətə 1923-cü ildə "Müəllim" şeri ilə başlamışdır. İlk məqaləsi isə 1926-cı ildə "Maarif işçisi" jurnalında "Çocuq ədəbiyyatında üsul məsələsi" adı ilə dərc olunmuşdur. 1934-cü ildən Yazıçılar Birliyinin üzvü olmuşdur. Müxtəlif mövzularda yazıb-yaratsa da, 1945-ci ildən başlayaraq bütün kitablarını (19 adda) uşaq və gənclər üçün nəzərdə tutmuşdur. Bunlar Vətənə, xalqa, təbiətə məhəbbət, dostluq, sülh və əmin-amanlıq ideyalarını tərənnüm və təbliğ edən əsərlərdir. Yaradıcılığında bədii tərcümə başlıca yer tutmuşdur. Dünya və MDB ölkələrinin ədəbiyyatından tərcümələr etmişdir. Ədəbiyyat sahəsində xidmətlərinə görə iki medal, üç dəfə Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı ilə təltif edilmişdir. 1968-ci ildə "Azərbaycanın qabaqcıl maarif xadimi" adına layiq görülmüşdür.

M.Rzaquluzadə 1984-cü il noyabrın 10-da Bakıda vəfat etmişdir.



# Şeirlər

## BƏYAZ GECƏLƏR

Neçin belə hicranlıdır bu yaz gecələr?
Ah, dadlı bir əzab olan bəyaz gecələr!..

Gümüş Aydan könüllərə nur axar kimi,
dəniz inlər, qəlbində bir dərdi var kimi,
Ayın sərin işığında par-par parlayan
sədəf qumlar ağappaqdır, təzə qar kimi...

Neçin belə hicranlıdır bu yaz gecələr?
Ah, dadlı bir əzab olan bəyaz gecələr!..

Nə bir səs var, nə bir nəfəs,
təbiət bihuş.
Hər yer sakit,
şirin-şirin hamı uyumuş...
Ah, bu gecə uyumayan tək bircə mənəm,
bir də tənha sahillərdə inləyən bir quş...

Neçin belə hicranlıdır bu yaz gecələr?
Ah, dadlı bir əzab olan bəyaz gecələr!..

Ey qərib quş,
ey gümüş Ay,
ey həzin sular!..
Nə dadlıdır hicran dəmi, o xoş arzular!
Bəs siz neçin bezarsınız şirin yuxudan,
Ah, sizin də gözdən iraq yarınızmı var?..

Neçin belə hicranlıdır bu yaz gecələr?
Ah, dadlı bir əzab olan bəyaz gecələr!..

Bivəfamı?
Ya cəfamı eşqin həmdəmi?

Hicran – ümman,
vəfa – yelkən,
vüsal – bir gəmi...
Eşqimizin şahidisən, gözəl Ay, söylə,
söylə, onun gözləri də indi səndəmi?!

Neçin belə hicranlıdır bu yaz gecələr?
Ah, dadlı bir əzab olan bəyaz gecələr!..

*1927*

## ÇAĞIRIŞ

Analar, bacılar, əziz yoldaşlar!
Faşizm, o yırtıcı quduz canavar,
Odlayır asudə-dinc şəhərləri,
Talayır, yandırır-yaxır hər yeri.
İstəyir dünyanı boyasın qana,
insan qula dönsün, dünya zindana.
Ancaq bu xam xəyal baş tutmayacaq!
Hitler, o kor bayquş, o kor yapalaq
yaxşı seçməyibdir qaradan ağı,
başa düşməyib ki, sovet torpağı
azad insanların azad yurdudur.
İki yüz milyonluq polad ordudur –
birləşmiş qəhrəman sovet elləri!
Polad partiyadır onun rəhbəri...

Yoldaşlar, cəbhəyə çağırır Vətən!
Qızıl əsgərik biz hamı – bu gündən:
Vətən bu gün üçün böyütmüş bizi,
yetirək yerinə vəzifəmizi!
Əsgərlik şərəfdir hər vətəndaşa.
Bu əziz torpağa, bu dağa-daşa
borcluyuq hər damla qanımızı biz,



Vətənə borcluyuq canımızı biz!
Biz – Babək, Koroğlu, Cavanşirlərik,
Cavan qartallarıq, cavan şirlərik!
Biz Çapay, Frunze, Şorsdan dərs aldıq,
çox-çox qəsbkarı dərbədər saldıq!
Ey mərd qızıl əsgər, bu vəzifəni
tarix sənə verib, sınayır səni!
Ey əsgər, cəbhəyə! Hünər ordadır!
Mərdlik, qəhrəmanlıq, zəfər ordadır!
Siz, ey burda qalan əziz yoldaşlar,
Bilin, qələbənin bircə şərti var:
hər qarış torpağı müqəddəs bilmək,
şərəflə yaşamaq, şərəflə ölmək!
Bilin ki, cəbhədir indi arxa da,
Siz də möhkəm durun burda, arxada!
Sayıqlıq, igidlik, mərdlik, cəsarət,
fədakar döyüşlə fədakar zəhmət
birləşib gətirər Vətənə zəfər.
daim azad yaşar bu azad ellər.
Zəfər bizimkidir, işimiz haqdır!
Faşizm öz qanında boğulacaqdır!

*iyul, 1941*

## ANA ÖYÜDÜ

Ey əziz balalar, igid oğullar!
Dinləyin, mənim də sizə sözüm var:
İndi altmışı da ötübdür yaşım,
çəkdiyim dərdlərdən ağarıb başım.
Nələr görməmişəm mən bu dünyada?
indi o günləri salıram yada:
Çar dərdi, bəy dərdi, mülkədar dərdi
bizi canımızdan bezar edərdi.
Bilməzdik dünyada xoş həyat nədir,
deyərdik səadət bir əfsanədir...

Ancaq iyirmi il bundan irəli,
Bizim bu ellərə xoş gün gələli,
bildik səadətin dadını biz də,
insantək yaşadıq öz ölkəmizdə...
Könlümüz açıqdır, ürəyimiz şad,
Vətənimiz abad, elimiz azad!..
Amandır, igidlər, bu azad elə
qoymayın yenidən qara gün gələ!
Qoymayın bu ana Vətən torpağı
ola yad tapdağı, yağı tapdağı!
Qoymayın bu elin başı alçala,
dostlar yas saxlaya, düşmən əl çala!
Qoymayın bu yurda yad ayaq basa,
nişanlı qızları saçından asa...
Bura aslan yurdu, ər oylağıdır,
hər qarış torpağı mərd yatağıdır.
Ulu mərd babalar sizi səsləyir:
– Gedin, mərd vuruşun, mərd gəlin! – deyir.
Gedin, ay oğullar! Uğurlar olsun!
Gedin, vuran əllər-qollar var olsun!
Gedin! – Belə deyir bu gün hər ana:
ya özü, ya gözü dalda qalana
bizim saf südümüz halal olmasın!
Ana öyüdünə siz qulaq asın!
Müqəddəs Vətənin səsidir bu səs:
Oğul mərd olarsa, ana əyilməz!
Gedin, arxanızda durmuşuq dağtək,
gedin, bilin, orda deyilsiniz tək:
Sizinlə birgədir qəlbi bu elin!
Gedin, mərd vuruşun, zəfərlə gəlin!..

*iyul, 1941*



## AND

Azərbaycan,
ey Ana,
dinlə, ey əziz Vətən!
Milyonlardan biriyəm,
bir əsgər oğlunam mən.
Qoynunda yatır mənim
qəhrəman babalarım.
Qoynunda yaşamaqda
anam, sevgili yarım.
Müqəddəs torpağında
bir qovaqtək bitmişəm,
səndən qüvvət alaraq,
boya-başa yetmişəm.
Günəşindən, suyundan
yaranmış ətim-qanım,
səninkidir, anacan,
sənə qurbandır canım!

Azərbaycan,
ey Vətən,
sən mənimsən, mən sənin.
Boynumuzda haqqı yox,
minnəti yox kimsənin!
Bizimdir bu əyilməz
başı vüqarlı dağlar,
qırqovullu meşələr,
durnagözlü bulaqlar.
Bizimdir ceyran gəzən,
turac süzən düzənlər.
Bizimdir bu cüyürlü,
kəklikli göy çəmənlər.
Bizimkidir yaşılbaş
sonalı sədəf göllər.
Dəniztək dalğalanan.
Bərəkət dolu çöllər.

Dövləti aşıb-daşan
bu dəniz, çay bizimdir,
mədəniyyət ocağı,
şən saraylar bizimdir.
Anaların namusu,
pak vicdanı bizimdir.
Dünyaya işıq saçan
Bakı qanı bizimdir.
Bu Vətən, bu əzəmət,
bu şərəf-şan bizimdir!
Əziz, doğma anamız –
Azərbaycan bizimdir!

Azərbaycan,
ey Ana,
sən mənimsən, mən sənin!
Boynumuzda haqqı yox,
minnəti yox kimsənin!..
Bəs o qanlı canavar,
quduz Hitler nə deyir?
Bu Vətənə göz dikən
o quldur nə istəyir?
Bu şən əmək yurdunu,
Bu xoşbəxt Vətənimi?
Ey əziz Azərbaycan,
ana Vətən, sənimi?

And olsun anaların
o saf, təmiz südünə!
And olsun babaların
müqəddəs öyüdünə!
Anamızın gəlinlik
duvağına and olsun!
Babəkin, Koroğlunun
torpağına and olsun!
And olsun gənc qızların
mehriban gözlərinə!



Dil açan körpələrin
ilk şirin sözlərinə!
Vətən qurbanlarının
saf qanına and olsun!
Elimin pak, ləkəsiz
vicdanına and olsun!
And olsun aşıqların
telli-sədəf sazına,
sevib-sevilənlərin
əhdinə-vəfasına –
qoymarıq bu ana yurd,
əziz Vətən torpağı
ola yadlar, yağılar
ayağının tapdağı!..

*iyul, 1941*

## SƏADƏT VƏ ZƏFƏR

Mehtab...
Bülbül nəğməsi...
Suların sərin səsi...
İydə çiçəklərinin
məst edən rayihəsi...
İki könül əl-ələ,
yönəldilər sahilə...

Ərimiş gümüş kimi
şəfəqlənirdi dəniz...
Ərimiş gümüş kimi
ürəkləri tərtəmiz:
nə hicran,
nə iztirab
dadmamışdılar hələ...
Könül açıq,
ürək saf...

İlıq sədəf qumların üstünə oturdular...
İlk busə,
ilk etiraf...
Ay gördü, gülümsədi,
ulduzlar göz vurdular...

O nə dadlı səhərdi!..
O nə məşum xəbərdi!..
İlk eşqin
ilk səhəri
düşmənə sinə gərdi...
Bu nə böyük sınaqdı,
nə müqəddəs imtahan!..

Qanlar qaynadı-coşdu,
ürəklər cuşa gəldi;
Vətənin dəvətinə
könüllər qoşa gəldi:
könül məhəbbət istər,
məhəbbət isə – qurban!..

Alın açıq,
üzlər ağ...
Can qurban
ana yurdun,
torpağına-daşına!
İlk məhəbbət,
ilk fəraq:
Zəfər –
cəbhəyə getdi,
Səadət –
iş başına...

Dolandı aylar-illər...
Səadət ilə Zəfər
ilıq bir yaz axşamı
cəbhədə görüşdülər:



Biri –
vətən elçisi,
biri –
döyüş aslanı...
– Görəsən,
bir də nə vaxt,
görəsən,
bir də harda
görüşəcəyik? –
deyə, –
gözləri intizarda,
süzdü Səadət igid
cəbhəçi qəhrəmanı...

Avtomatı əlində
uzadıb
üfüqləri alışan qərbə sarı:
– Bu yaxında...
Berlində!.. –
dedi...
Uğurlu olsun Azərbaycan ilqarı!..

*3 noyabr 1944*

## YADINDAMI?..

Yadındamı,
eşqimizin ilk baharı:
gülgün səhər...
gümüş mehtab...
gecə yarı...
Busələrlə əhd-peyman...
Xiyabanda...

Yadındamı,
seyr edərdik bağçaları –
bənövşələr açılanda...



KİTABXANASI
İNV. № 24932

Yadındamı,
qönçə-qönçə olanda gül,
Yazdan müjdə gətirəndə şeyda bülbül,
Günəş yerdən busə alan bir zamanda –
eşqimizin nübarını dərdi könül,
bənövşələr açılanda...

Üç yaz
sənsiz
açdı-soldu bənövşələr...
Üç yaz
sənsiz
körpəmlə mən səhər-səhər
o bağçada,
yenə həmin xiyabanda, –
əsən mehdən,
uçan quşdan
sordum xəbər,
bənövşələr açılanda...

Ah...
bu sabah
çağıranda körpən səni,
– Gələr!.. –
dedim,
murad etdim qələbəni...
– Gələr! –
dedi,
təkrar etdi asiman da:
Qadir bir əl
çaldı qüdsi bir kamanda,
munis bir səs
bəstələdi
bu nəğməni:
Bənövşələr açılanda,
Bənövşələr açılanda!..

*20 noyabr 1944*



## GÜNƏŞ

Ey günəş,
asimanın ey əbədi çırağı!
Sönməz həyat məşəli,
qüdrət qaynağı, –
günəş!..

Ey qoca kainatın
alovlanan bayrağı! –
Ey yandırıb-yaradan,
ey yıxıb-quran atəş,
Səndəndir
göydə ziya,
Səndəndir
yerdə həyat!
Heyrandır qüvvətinə, qüdrətinə
kainat!..

Ey günəş,
babalarım sitayiş etdi sənə,
əlac istədi səndən
bəşər, düşdüyü dərdə...
Parladın əzəmətlə,
ucaldın asimana.
parladın
göydə,
yerdə,
sarayda,
məbədlərdə...
Yandın!
Ancaq
bəşərin dərdlərinə yanmadın!..
Qaranlıq güc gələndə, –
çəkildin,
dayanmadın!
Ey günəş,
əsrlərcə, dünyanı sardı zülmət.



F. Köçərli adına
Azərbaycan Dövlət Uşaq
KİTABXANASI
İNV. № 26932

Nurun girə bilmədi
qaranlıq zindanlara...
İnsanın həyatında
dəhşət qopardı zülmət.
Səndən əlac olmadı
ey günəş,
insanlara.

Əsrlərcə dünyada
hökm elədi
zülm-şər.
Əsrlərcə dünyada
günəş axtardı bəşər...

Ey günəş,
zülmətlə zülm
hökm edən bir zamanda,
bir yeni günəş doğdu
yer üzündə –
cahanda:
Oktyabr! –
İnqilab günəşidir bu günəş!
Həm yıxan,
həm də quran
bir atəşdir bu atəş!

Ey günəş,
onun nuru
tez yol tapır hər yerə,
işıq saçır ellərə.
İşıq saçır ən uzaq,
ən dərin zindanlara.
Nur verir,
şüur verir
mübariz insanlara!
Ey günəş,
onun nuru
düz yolu nişan verir.



F. Köçərli adına
Azərbaycan Dövlət Uşaq
KİTABXANASI
İNV. № 26932

Səadət yollarını
açır bəşəriyyətə.
Onun uğrunda insan
gülə-gülə can verir.
Qalan –
zəfərə çatır,
ölən –
əbədiyyətə!
Ona ad axtaranda,
el səni yada saldı,
ona – Günəş dedilər,
sənin adın ucaldı!

*1944-1945*

## HAQQIN ZƏFƏRİ

Zindanlar,
saraylar,
qanlı qılınclar
verdi əsrlərcə pəncə-pəncəyə,
hər quduz cahangir,
acgöz tacidar,
qüvvətə güvəndi:
– Haqq budur! – deyə.
Zindandan ucaldı
haqqın gur səsi,
zülməti
şimşəktək
yardı şöləsi...
Keçdi qərinələr,
dəyişdi dövran.
Dünyada yeni bir aləm yarandı:
Şüarı –
azadlıq!
Bayrağı –
vicdan!
Haqqa sədaqətdi onun ilk andı...

Əbədi düşməndir
nur ilə zülmət.
Yenə iki qüvvət
gəldi üz-üzə.
Qızışdı amansız bir mübarizə:
nur ilə zülmətin mübarizəsi,
haqq ilə qüvvətin mübarizəsi!..

Keçdi ağır illər,
keçdi nəhs illər...
Sevinsin,
öyünsün
bütün nəsillər:
parladı günəştək
haqqın zəfəri!
Ucaldı dünyada səhər nəğməsi,
səadət nəğməsi,
zəfər nəğməsi!..

*9 may 1945*

## DAHA DA YÜKSƏKLƏRƏ

Yüksəldi fəzalara
yenə də
üç qəhrəman! –
Üç sovet vətəndaşı, –
od qanadlı üç insan!
Heyran oldu könüllər
bu yeni şad xəbərə...
Uçun,
ey qəhrəmanlar,
daha da yüksəklərə!..
Qəlbimiz
qəlbinizlə bir vurur,
bir döyünür.



Sizinkidir bu qürur,
bizimkidir bu qürur!
Sizinlə
ana Vətən,
bütün dünya
öyünür!
Fəzalardan
xoş xəbər,
hünər
gətirin yerə!
Sağ-salamat qayıdın,
zəfər
gətirin yerə!
Uçun,
ey qəhrəmanlar,
daha da yüksəklərə!..
Alqış sənə,
min alqış,
ey sovet elmi-fənni!
Ey sovet texnikası!
Alqış sənə,
min alqış,
ey sovet adamının
tükənməyən zəkası!
Fəth elə fəzaları,
Yol aç bütün bəşərə!
Daima yüksəklərə!
Daha da yüksəklərə!

*2 oktyabr 1964*

## VƏTƏN NƏĞMƏSİ

Azərbaycan!..
Müqəddəs Odlar yurdu,
ey Vətən!
Ey dünyanın əbədi
odlu-nurlu çırağı!

Sən insana mehriban
məskən oldun əzəldən,
ey qəhrəman elimin
sönməz ata ocağı!

Minlər yaşa, ey Vətən,
sədaqətlə, vüqarla,
azad bir dünya quran
qardaşlıq ölkəsində!
Minlər yaşa, ey Vətən,
səadətlə, vüqarla
inqilab bayrağının
şərəfli kölgəsində!

Azad görmək istəmiş
mərd övladın hər zaman
Cavanşirin, Babəkin
alnıaçıq elini.
Səməndərtək yarandın
alovlardan, odlardan,
qardaş ellər uzatdı
sənə dostluq əlini.

Minlər yaşa, ey Vətən!
. . . . . . . . . . .

Sən, ey Şərqin üfüqündə
azad həyat günəşi,
Parla, ucal,
ellərə
fərəh versin gələcək!
Başın üstdə ucalan
azadlığın bayrağı
daha da ucalacaq,
daha da yüksələcək!

Minlər yaşa, ey Vətən!..
. . . . . . . . . .

*1965*



# İLK ADDIMLAR

İstirahət günü.
Axşam.
Bulvarda oturmuşam.

Bir yanımda –
həyatın şirin-acısını dadmış,
saçları
gümüştək,
ağbirçək,
yetmişlik bir qarı.

Bir yanımda –
odlardan-alovlardan keçərək,
altmışı addamış
bir zabit.

Bir də –
gənc bir ailə:
səsi-sifəti hələ
kişiləşməmiş ata.
Hələ üzündən-gözündən
qızlıq utancı silinməmiş,
qadınlaşmamış ana.
Bir də, –
ilkləri...

Yenicə dil açır körpə:
– pa... ma... ba... mə...
bu, – həm "papa" deməkdir,
həm – "baba",
həm – "mama".
həm də – "məmə"...

Bütün planetdə
beynəlmiləl bir dildir

hər bir körpənin dili,
bu dili hamı bilir!

Təzəcə ayaq açır körpə.
Tutub əlindən ana,
ilk addımları atmağı öyrədir
bu gün ona.

Körpənin addımları –
İlk addımlar!..
Gah sağa səntirləyir körpə,
gah sola.
Gənc ana
nəvazişlə, fərəhlə, iftixarla
addımlayır yanaşı,
qoymur körpə yıxıla.

Ana da gülümsəyir, körpə də,
ağbirçək qarı da,
qocaman zabitin sərtləşmiş dodaqları da...

Körpənin,
ananın,
qarının,
zabitin
üzlərindəki bu təbəssüm:
saf körpə təbəssümü,
ana təbəssümü,
nənə təbəssümü,
baba təbəssümü
qoy heç bir vaxt sönməsin!
Bu təbəssümlər –
körpənin üzündə –
qorxuya,
ananın üzündə –
dəhşətə,
qarının üzündə –



qəmə, kədərə,
zabitin üzündə –
kinə-qəzəbə,
dodaqlarında –
qorxunc əmrə
dönməsin!..

*20 oktyabr 1966*

## XƏZRİ, GƏL!

*Mən anamın ilkiyəm,*
*Ağzıqara tülküyəm,*
*Gilavar, yat!*
*Xəzri, gəl!*

***El sözü***

Hava tutqun,
sis, duman.
Buludlar yorğun-arğın,
Dəniz qurğuşun kimi...
sürünür ağır-ağır,
pozulmuş qoşun kimi...
Elə bil azar yağır
göyün qaşqabağından.
Yuxulu dəniz üstdə
qağayılar yerinə,
boz qarğalar uçuşur...
Hanı fırtına, tufan?
Hanı fırtına quşu?
Hanı fırtına quşu?

Hardasan,
ey dəli xəzri?
Hanı o yel qanadın?

Hanı hər kişnəyəndə
yeri-göyü titrədən
o harın köhlən atın?
Sür atını çaparaq,
şimşəklərinlə gurla!
Qop, ey xəzri,
gəl yağışla-yağmurla!
Təmizlə üfüqlərdən
hisi,
sisi,
dumanı.
Təmizlə
bu sis-dumanlı havanı!

*29 dekabr 1966*

## KİM

– Nədir şikayətiniz?
– Yaxşı eşitmirəm.
– Məsələn, nəyi?
– Xırdaca quşların ötüşməsini,
İnci şeh damcılarının sədəf qumlara düşməsini,
yarpaqların pıçıltısını,
narın yağış çiləyəndə, –
otların xışıltısını,
səba yelinin həzin təranəsini...
Bir sözlə:
təbiətin nəğməsini...

Həkim baxdı xəstəyə
altdan-altdan,
oğrun-oğrun,
şübhə ilə.
Düşündü:



"Məni dolayır görəsən?"
Amma yaşlı-başlı bir kişiydi xəstə, –
gözlərində həm kədər,
həm ümid,
həm arzu...
"Bəlkə də huşu azıb?"

Başını buladı həkim:
– Yox,
mən nə belə xəstəlik bilirəm,
nə də buna bir əlac!..

Xəstə buladı başını:
– Heyif!..
Çıxdı getdi...

"Qəribə adamdır!.."

Görəsən kim?
Xəstə, ya həkim?!

*27 aprel 1967*

## BULVARDA

*"Bulvar şeirləri"ndən*

Hər şəhərin
görməli-göstərməli
bir yeri vardır.
Bakınınkı – bulvardır...

Yenicə dil açan,
yenicə ayaq açan
körpələrdən

saç-saqqalı ağarmış,
qocalmış babalara,
ağbirçək nənələrədək, –
səhər, günorta, axşam
kimi axtarsan, –
hardadır, –
hamı bir söz deyəcək:
– Bulvardadır...

Körpələr hər biri
bir qönçə-çiçəkdir.
Gözəl bir gələcəkdir.
Qocalar – canlı tarix...
Ürəklərin içinə girə bilən,
bir qətrədə – ümmanı,
bir zərrədə – cahanı
görə bilən bir gözlə baxsan əgər –
nələr görərsən bulvarda, nələr:
şən, məzəli, ləzzətli
və ibrətli
nə səhnələr!..

Nə gizli görüşlərdən,
nə oğrun öpüşlərdən,
nə də başqa belə-belə işlərdən
deyil "bulvar şeirləri",
gözəlliyə məhəbbətdən,
çirkinliklərə nifrətdən,
azacıq da
həyatdakı hikmətdən
deyir
"bulvar şeirləri..."

*4 oktyabr 1967*



# İKİ BULVAR

Bulvar...
hərənin yanında öz həmsöhbəti,
öz yoldaşı.
Gəzişirəm mən də
Mayakovski ilə yanaşı.

Gəzirik addım-addım,
seyr edirik hər bir yeri:
cərgə-cərgə
yaşıl salxım söyüdləri.
Hovuzlarda fəvvarələr şırıldaşır.
Qızılgüllər qucaq-qucaq,
nərgiz, zanbaq
qalaq-qalaq
dalğalanır, aşır-daşır.
Meh də əsir yavaş-yavaş,
sərin-sərin...

Deyirəm ki:
– Şair yoldaş,
yadındamı bu sözlərin:
"Qız qalası önündə –
bütün bulvarda ancaq,
sanasan,
olar-olmaz
doqquz cüt, bir tək yarpaq..."

Gəl bulvara indi bax!..
Fikrə gedərək şair,
xatırlayır
o günləri, o çağları:
"Bakı –
hisdir yarpaqları...
Məftillərdir budaqları.
Bakı –

küləkli bir şəhər,
qumu gözlərə tüpürər..."

Sonra dönüb seyr edir
yamyaşıl xiyabanları.
Güllərin-çiçəklərin məst edən rayihəsi...
Bulvar:
"Sağlamlıq sahəsi"...
Burda şəfa verirlər adamlara
Çiçəklərin nəfəsilə,
musiqinin xoş səsilə.
Gəncləşdirir qocaları,
qüvvət verir ürəklərə
göy Xəzərin duzlu, sərin havası.
Qoca Xəzər –
loğmanların babası...

Cavanlarçın
əyləncələr, oyunlar:
göy sularda,
Venesiyatək
kanallarda qayıq sürmək,
güc sınamaq,
tüfəng atmaq,
Paraşütlə hoppanmaq –
nə desən var...

Uşaqlarçın – yelləncəklər,
hoppancaqlar,
oyuncaqlar...
Adı-şəkli
ensiklopediyalara düşmüş
uşaq kino-teatrı.
Qoy heç kəsin
inciməsin
xatırı...
Gəzdin, acdın, susadınmı, –
"Gəl-gəl!" – deyir



"Qağayı";
sərin şərbət, dondurma, su...
Təzədəm Bakı çayı...
Gecə dənizin aynasında
oynaşan Ay zolağı.
Sahildəcə rəng-rəng
nəhəng
sədəf "Balıqqulağı" –
Ürəkaçan görkəmilə
dəvət edir qonağı:
hamı dadsın Xəzərin nemətini,
qoy görsün ləzzətini:
dadlı balıq kababı,
yanında narşərabı...

Baxır şair sevə-sevə,
baxır bulvara.
Baxır sevinə-sevinə,
gülümsəyir...
Bu təbəssüm sanki deyir:
– Bax, buna varam!
O bulvar hara,
bu bulvar hara!..

Ancaq birdən
nə duyursa,
nə dəyirsə
iti şair gözünə, –
deyəsən peşman olur
dediyi sözünə.
Baxır-baxır
bir bulvara,
bir də çirkli, zir-zibilli sulara.
– Düşmənəm, – deyir, – mən
əzəldən
hər cür çirkə, çirkinliyə
həm havada,
həm dənizdə,

həm quruda,
həm də – şüurda!..

Neftçi dostlar,
gəlin yarışa girək,
əl-ələ verək,
təmizləyək zir-zibili,
çirkinliyi, üfunəti
siz – sulardan,
biz – şüurlardan!
Tərtəmiz olsun gərək dəniz, –
dumduru, gömgöy, tərtəmiz!..

*may-iyun, 1967*

## RƏSSAM-SNAYPER

*Rəssam dostum*
*Həsən Haqverdiyevə*

Gözlər –
qartal gözləri,
heç nə yayınmaz ondan;
qələmilə fırçası –
əlində oxla-kaman.
Gecə-gündüz,
hər zaman
keşikdədir deyəsən...

Dostlarına tikansız,
düşmənlərə –
amansız...

Mahir snayper kimi,
hədəfini həmişə
sərrast vurandır Həsən.

*19 may 1967*



## MİNARƏLƏR

Minarələr, –
insanın göydələn
dərdi-qəmi,
donmuş əməlləridir.

Minarələr, –
İnsanın göylərə uzanaraq,
daş olmuş əlləridir...

*25 iyun 1967*

## AXŞAM GÜNƏŞİ

Həzin olardı qürub,
qoynunda sabahı daşımasaydı.
Seyr etdikcə üfüqdə gün batan yeri,
bilirəm ki, sabah yenə alışacaq dan yeri.
Açılacaq səhər;
Yenə alovlanacaq
İndi solğun üfüqdə sönən atəş,
yenə doğacaq günəş!
Açılacaq
bu günkündən daha parlaq,
daha saf,
daha şəffaf
bir səhər...
Buna görə axşam
günün batması mənə
nə qəm gətirir, nə qüssə, nə kədər.
Bilirəm ki, yenə
açılacaq səhər!..

*may, 1968*

## ÜRƏKDƏ İZLƏR

Ürək qranitdən möhkəm olsa da,
Yanan şamlar kimi bəzən yumşalır.
Onda məhəbbətin, səmimiyyətin,
Qəzəbin, nifrətin izləri qalır.

Gah munis bir baxış, gah şirin bir söz
İncə, xoş naxışlar salır ürəkdə.
Gah acı bir böhtan, gah kəc baxan göz
Sağalmaz yaratək qalır ürəkdə.

Nə rentgen şüası, nə kardioqraf
Əsla tapa bilməz qalan izləri.
Cizgilər müntəzəm, ürək-ciyər saf...
Göstərməz cihazlar pünhan izləri.

Bu izlər şairin ürək sözündə,
Rəssamın rəngarəng lövhəsindədir.
Ya da bəstəkarın musiqisində,
Böyük simfoniyanın gur səsindədir.

*20 sentyabr 1968*

## ÜRƏK YANIR

Yanır ürək...
Qarsalayan alovu yox,
istisi yox,
göz çıxaran tüstüsü yox...
Yanır ürək –
içi alov,
üstü soyuq...
Yanır ürək –
dodaq gülür,



göz də gülür;
ancaq gözdən
yanar qəlbə
köz tökülür...

*28 sentyabr 1968*

## İNSAN ÜRƏYİ

Poladdan möhkəmdir insan ürəyi,
Onun mətanəti hanı poladda?
Yersiz məzəmmətə, haqsız töhmətə,
Nadan buyruğuna dözməz polad da.

Civədən həssasdır insan ürəyi.
Onun duyuqluğu hanı civədə?
Bir oğrun baxışı, incə gülüşü,
Qəmzəni-ədanı duymaz civə də.

Büllurdan kövrəkdir insan ürəyi,
Onun incəliyi hanı büllurda?
Bir soyuq nəfəsdən, bir sözdən sınar,
Şişə də tay deyil ona, büllur da.

*28 sentyabr 1968*

## HƏKİMLƏ SÖHBƏT

Deyirsiniz, ürəyə zərəri var!
Nə olar, –
ataram ürəyə zərəri olan hər şeyi:
ataram ləzzətlə yeyib-içməyi.
Ataram yağı da,
qaymağı da,
hətta günəşin atəşin buseli qızı –

konyakı da...
Sözüm yoxdur,
doktor...

Ancaq...
Deyəsən, yenə sözümüz baş tutmayacaq...
Deyirsiniz ürəyə zərəri var
dərin duymağın,
çox düşünməyin,
ürəkdən yanmağın,
çox sevinməyin,
coşub alovlanmağın, –
yəni görməyin-qanmağın!..

Bax, buna təhrim yoxdur,
doktor!
Bir ürək ki
sevinməyəcək,
yanmayacaq!
Bir beyin ki düşünməyəcək,
qanmayacaq...
O nə beyindir,
o nə ürəkdir?!
Onda bunlar nəyə gərəkdir?..

*28 sentyabr 1968*

## ÖPÜŞLƏR

Öpüş var, – buz kimi,
dondurur yanağını.
Qalır izi ömür boyu
soyuq bir kölgə kimi.
Qalır, yuyulmaqla, silinməklə getməyən
bir ləkə kimi...



Öpüş var, – alov, atəş,
Yandırır dodağını.
Qalır izi ömür boyu
Yanar köz kimi...

Öpüş də var, –
ılıq, mehriban, əziz.
Körpə nəfəsi kimi, – tərtəmiz.
Ürəyə dirəkdir belə öpüş,
damara qan,
hər dərdə dərman...

Bir qız gördüm bir səhər,
səkkiz-doqquz yaşlarında,
Əlində bir məktub...
Yaxınlaşdı poçt qutusuna,
qalxdı pəncələri üstə,
əli güclə çatdı.
Məktubu öpdü, öpdü, öpdü,
Sonra ehmalca qutuya atdı...

Görəsən, hansı xoşbəxtə çatacaq
o məktub, o öpüşlər!..

Əgər,
alacaqsa onu
uzaq-uzaq sərhəddə duran
bir əsgər, –
duyacaq bu öpüşlərin
dadını, ləzzətini,
hərarətini,
sehrli qüdrətini.
Ürəyi fərəhlə dolacaq,
sərhəddə daha ayıq,
daha sayıq olacaq...

Əgər,
alacaqsa onu
uzaq buzlu dənizlərdə
balıq ovlayan bir balıqçı,
ya Arktikada kəşfiyyat aparan
bir alim, –
duyacaq bu öpüşlərin dadını-ləzzətini,
hərarətini,
sehrli qüdrətini...
Bu öpüşlər
yaxın edəcək uzaqları,
güllü-çiçəkli çəmənə dönəcək önündə
coşqun dəniz,
buz dağları...

Əgər,
alacaqsa onu
yerin dərin-dərin qatlarında,
ya dalğaların qoynunda
ölkəyə qüvvət qaynağı axtaran
bir şaxtaçı, bir neftçi, –
duyacaq bu öpüşlərin dadını-ləzzətini,
hərarətini,
sehrli qüdrətini...
Birə-yüz artacaq
gücü-hünəri,
əzmi-iradəsi...
Sıxmayacaq, qorxutmayacaq onu
alt qatların ağır nəfəsi,
dənizin qorxunc ləpələri...

Bəli, bunlardır bu öpüşlərin
misilsiz qiyməti,
sehrli qüdrəti...

Uzaqlarda olanlara,
atalara-analara,
bacılara, qardaşlara,



dostlara-tanışlara
ən gözəl sövqat –
məktublarda hərarət göndərin,
məhəbbət göndərin,
əlbət, əlbət, göndərin!..

*30 sentyabr 1968*

## KÖRPƏLƏR

Bulvarda
üç körpə:
it körpəsi,
pişik körpəsi,
insan körpəsi...
Durmuşlar üz-üzə,
göz-gözə,
oynaşırlar...

İt körpəsi
incə-incə hürə-hürə,
pişik körpəsi
məzəli-məzəli miyoldaya-miyoldaya,
insan körpəsi
qığıldaya-qığıldaya, gülə-gülə...

Oynaşırlar dalaşmadan bir-birilə, –
öyrənməyib çünki hələ:
it körpəsi –
qapmağı,
pişik körpəsi –
cırmaqlamağı,
insan körpəsi –
qurub-yaratmağı...
Körpədirlər axı hələ!

*3 oktyabr 1968*

## PLANETDAŞ

Ey kosmosda
ilk planetə
ilk ayaq basan
insan!
Sən
nə rus,
nə amerikan,
nə xaçpərəst,
nə müsəlman olacaqsan.

Sən
Yer planetində
hər insanın qardaşı,
ürəkdaşı,
diləkdaşı,
yerdaşı, –
sən
dünya vətəndaşı,
insanların planetdaşı, –
ilk insan olacaqsan!

*21 iyul 1969*

## KÜSÜ-BARIŞ

Küsüşdülər,
ayrıldılar...
Kar etmədi
nə dostların,
qohumların nəsihəti,
nə də məhkəmənin
qəti hökmü...

Barışdırdı küsənləri
gənc ananın qucağında
körpənin
bir təbəssümü.

*11 dekabr 1970*



## EŞQ OLSUN

*Azərbaycan Dövlət mükafatı veril-
məsi münasibəti ilə xalq rəssamı,
dostum Səttar Bəhlulzadəyə*

Eşq olsun –
rənglərini
göy qurşağından alan,
fırçasında kamantək
muğamlar-rənglər çalan
nəğməkar sənətkara!

Eşq olsun –
sənətilə
elləri sevindirən,
Füzuli rübabının
tellərini dindirən
Bəhluloğlu Səttara!

*28 aprel 1972*

## ADAM VAR Kİ...

*Adam var ki, adamların naxşıdır,
Adam var ki, dindirməsən yaxşıdır.*

***El sözü***

Hər adamın bu dünyada
azdan-çoxdan izi qalar.

Adam var ki,
özü gedər,
yaxşı-yaman sözü qalar.

Adam var ki,
nakam gedər, –

bu dünyada
gözü qalar.

Adam var ki,
xeyrə-şərə yaramayan, –
onun ancaq
hisi qalar, tozu qalar!

Adam var ki,
zaval görməz:
heykəl olar,
gəmi olar,
şəhər olar,
nəğmə olar,
dastan olar, –
özü qalar!..

*12 oktyabr 1972*

## HƏRƏKƏT

Dünyada hər şey
hərəkət edir:
Günəş də, Ay da,
dəniz də, çay da;
hər şey, həmişə
hərəkətdədir...

Gündüz, ya gecə,
həmişə, hər vaxt;
bir an
durmadan,
işləyir beyin,
döyünür ürək;
gah ağır-ağır,



gah yeyin-yeyin, –
onlar həmişə
hərəkətdədir.

Yalvarır bədən:
– Di bəsdir, durun,
dincəlin bir az...
Mən
düşdüm əldən!..

Beyinlə ürək
Söyləyir:
– Yox, yox,
yalvarma, olmaz!..
Gündüz, ya gecə,
həmişə, hər vaxt
bir an
durmadan,
ürəklə beyin
gah ağır-ağır,
gah yeyin-yeyin
işləsin gərək.
Biz dursaq bir an,
sən məhv olarsan!

Bizim canımız,
diriliyimiz
hərəkətdədir!..

Dünyada hər şey
hərəkət edir:
Günəş də, Ay da,
dəniz də, çay da
hər şey həmişə
hərəkətdədir!..

*14 mart 1974*

## SÜRÜNƏNLƏR, UÇANLAR

*Sürünmək üçün yaranan uça bilməz!*

***Maksim Qorki***

Sürünməkçün yaranan
uça bilməz! –
deyibsən;
Qorki, –
ey böyük ustad!
Doğrudur,
düz deyibsən!

Ancaq bunu da bilsin,
bilsin bunu da hər kəs:
uçmaqçın yaranan da
yerdə sürünə bilməz!
Şahin ölsə də hətta,
yerdə sürünüb ölməz.
Uçar, uçar, ucalar –
şimşəklərin qoynunda,
ucada, göydə ölər!..

*14 mart 1974*

## ALMAZ

Deyirlər ki almazdan
qiymətli şey tapılmaz.
Bəs kim deyər, –
hardadır
ən qiymətli şah almaz?

Axtarmayın şahların
taclarında siz onu.
Çar xəzinəsində də



tapa bilməzsiz onu.
Axtarmayın ən böyük
fironların qəbrini.
Axtarmayın ən qədim
sarayların yerini.
Axtarmayın çayların,
göllərin kənarını,
Dağların təpəsini,
yerin alt qatlarını.
Axtarmayın,
şah almaz
bu yerlərdə tapılmaz!..

* * *

Azad zəhmət diyarı:
Tarlada səhər-səhər
əmək qəhrəmanları
Can-başla işləyirlər.

Tunc üzlü, tunc biləkli
igid Vətən gəncləri
bərəkətli torpağa
qatırlar alın təri.

Torpaq alın tərindən
Güc alır, qüvvət alır.
Artır onun qüdrəti,
ən yüksək qiymət alır.

Bir damcı alın təri
düşsə torpağa ancaq,
ən qiymətli almaza
çevrilər qara torpaq!..

*15 mart 1974*

## ODLAR QUŞU

Mən bir quşam, –
Odlar quşu!
Mən odlardan-alovlardan doğulmuşam!
Ümidlərdən, əməllərdən yoğrulmuşam!

İnsanları köləlikdən qurtarmağa
özlərini oda atan
ürəklərdə yaşaram mən.
Arzularda-diləklərdə yaşaram mən.

Mən bir quşam, –
Odlar quşu!
Ürəklərdə od olmağa doğulmuşam!
Ürəkləri odlamağa doğulmuşam!

Prometey şimşəyi yox, –
məni qapdı səmalardan,
Dankonun da başı üstə
qəlbi deyil,
Mənəm yanan!

Qəlblərində şimşək çaxan igidlərlə,
zindanları yıxıb-yaxan igidlərlə,
mən də yanıb kül olaram;
yana-yana yenə oddan doğularam.

İgidlərin qəbri üstdə daim yanan,
vüqar ilə dalğa-dalğa alovlanan
o pak, sönməz od içində yaşaram mən,
o müqəddəs od içində yaşaram mən.

Mən bir quşam, –
Odlar quşu!
Çoşqun, odlu ürəklərdə doğulmuşam!
Arzularda-diləklərdə doğulmuşam!

*12 aprel 1974*



## BİZİM GÜNƏŞ

*Şüarımız belədir:*
*"Bizim atom əsgər deyil, fəhlədir!"*

***Dubnada bina üzərində yazı***

Söndü ekran,
nəhəng
dağtək
yüksələrək,
od yağdıran
o dəhşət də söndü.
Qorxunc-uğultulu səs də
batdı...
Otaq bir anlığa
sükuta və qaranlığa
büründü...
Nə bir səs var, nə bir nəfəs...
Yorğun-arğın insan yatdı...

* * *

Səhər-səhər
al şəfəqlər
alışanda,
büllur sular allaşanda, –
çay oyandı.
Ağ ləpələr al boyandı.
Səmaların al tonqalı
sərin-sərin
çayda yandı.

* * *

Ancaq birdən
göydən-yerdən,
tüstülənən sahillərdən
saf sulara

yanar küllər səpələndi,
od ələndi...
Çay çalxandı,
su bulandı,
yatağını aşdı-daşdı,
qatılaşdı...
Çay dayandı...
Yazıq
balıq
su içində susuzluqdan
sızıldaya-sızıldaya
çayda yandı.
Dözmədi çay
bu dözülməz cinayətə,
bu dəhşətə, –
alovlandı,
çay da yandı...

* * *

Yox!.. Yox!.. Olmaz!
Ola bilməz!..
Oyan,
İnsan!..
Yuxudur bu –
Pis bir yuxu!..
Oyan, oyan
bu yuxudan!
Oyan, bir bax!
Bax bu parlaq
şəfəqlərə:
nur çilənib göyə-yerə!

Bax, ey İnsan,
bax, gör, inan:
səmadakı günəş deyil,
göydə yanan, –



bizim atom günəşidir!
Bizim – insan şüurunun
cansızlara həyat verən,
canlılara qüvvət verən,
qüdrət verən
atəşidir!..

*may-oktyabr, 1974-1975*
*Dubna-Bakı*

## İNAM

İnan, günəşə inan!
Nə qədər qaralsa da,
əsla sönməz heç zaman.
Düz deyiblər atalar:
"Hər qaranlıq gecənin işıqlı gündüzü var!"

İnan, torpağa inan!
Əməyə qiymət verər, haqq itirməz heç zaman:
parlaq almaza dönər qoynunda hər damla tər,
bərkiyər, polad olar yolunda tökülən qan.
Yaxşının məzarında əlvan gül-çiçək bitər,
Yamanın məzarında – boz qanqal, qara tikan.

İnan, insana inan!
Nə qədər bərkə düşsə, sönməz qəlbində vicdan –
Doğrunu deyən dili, düzü görən gözü var!

İnan, elinə inan!
Can deyənə – can deyib daim, qan deyənə – qan!
Nə çoxdur yer üzündə mərd ellər, şirin dillər...
Hər eli sev, hər dili öyrən, – bacarsan əgər.
Ancaq doğma elini,
əziz ana dilini
Yadırğama heç zaman!

*27 dekabr 1975*

## XOŞ GÖRDÜK

Xoş gördük!
Ey
yetmiş il bundan əvvəl
ilk dəfə görüşdüyüm
ilk bahar!..

Gün aydın!
Ey yetmiş il bundan əvvəl
gördüyüm yaz günəşi!..

Xoş gördük!
Ey mehriban
qoynunda doğulduğum,
hüsnünə vurulduğum,
sevimli, gözəl Bakı!

Gün aydın!
Ey yetmiş il
sevən oğlu olduğum
anacan –
Azərbaycan!..

Xoş gördük!
ey güzgüdən
gözaltı məni güdən,
göz vurub gülümsəyən
yetmişillik sirdaşım, –
ağ saçlı cavan oğlan!
Hələ tələsmə, dayan!
Demə ki
gəl dincələk,
daha çatdıq mənzilə!..
Yox, yox!
Tələsmə hələ,
hələ doymayıb ürək –
gözələ, gözəlliyə,
yaxşıya
məhəbbətdən!



Çirkinə, çirkinliyə,
yamanlığa
nifrətdən!..

Nə qədər ki bunlar var, –
ey məni oğrun-oğrun
güzgüdən
güdən oğlan, –
durmağı, dincəlməyi
hələ yadından çıxar,
hələ mənzilə çox var!..

*10 fevral 1975*

## YANĞI

Yanğı –
bağrıyanıq torpağın
əbədi su həsrəti.

Yanğı –
doymaz insan qəlbinin
amal-arzu həsrəti.

Yüksəklərdən doymayan qartalın
kəhkəşana
əks edən son nəfəsi...

Coşqun ürəkdən qopan,
fırtınada-tufanda
ürəklərdə əks edən
eşq və qəzəb nəğməsi...

Yanğı –
doymaq bilməyən susuzluq,
coşqun atəş.

Yanğı –
ürəkdə yanan
sönməz, əbədi atəş!..

*15 fevral 1975*

## BƏNÖVŞƏLƏR AÇILANDA

Sərin-sərin meh əsəndə
səhər-səhər,
üfüqləri bəzəyəndə
al şəfəqlər,
ürəklərdə ilk duyğular
dilə gələr –
bənövşələr açılanda.

Dəniz sakit, hava aydın,
sular şəffaf,
Səma gömgöy, günəş parlaq,
üfüqlər saf...
Yadındamı ilk məhəbbət,
ilk etiraf, –
bənövşələr açılanda?!

İllər ötsə, dağ başını
qar alsa da,
gün batanda al şəfəqlər
saralsa da,
yaz ətirli ilk arzular
gələr yada –
bənövşələr açılanda,
bənövşələr açılanda...

*22 fevral 1975*

## GÖZLƏR

Yum gözünü bir anlığa, –
qərq olarsan qaranlığa...
Nursuz ömür ömür deyil, –
gözlərinin qədrini bil!

Dünya gözəl, dünya qəşəng,
səhər-axşam şəfəq rəng-rəng...
Nursuz şəfəq şəfəq deyil,
Gözlərinin qədrini bil!



Çıx gülşənə səhər-səhər,
hər yer əlvan, şux çiçəklər...
Nursuz çiçək çiçək deyil, –
Gözlərinin qədrini bil!

Gözlər: qara, ala gözlər,
xumar gözlər, şəhla gözlər!..
Nursuz gözlər gözlər deyil, –
gözlərinin qədrini bil!

*mart, 1975*

## İNSAN ÖMRÜ

*Dostum, şair Osman Sarıvəlliyə*

*Deyirsən ki:*
*"Hər kəs yüz il yaşamasa,*
*günah onun özündədir".*

Yüz il?!
Çoxdur, yoxsa az?
Axı insan ömrünü
günlər, aylar, illərlə
ölçərək, saymaq olmaz...
Bizim müdrik babalar
bunu deməyib əbəs:
"Gün var min ilə dəyər,
il var bir günə dəymez!"

Zibildə eşələnən
qarğa, yüz il nədir ki,
yaşasa da yüz illər,
şimşəklərlə yarışan
qartalın bircə günü
onun yüz ildən artıq
bütün ömrünə dəyər!..

Qarğatək, koramaltək
yüz il yaşamaqdansa,
qartaltək bir gün yaşa!

Qarğa-qartal bir yana...
İnsan həyatı gərək
layiq ola insana:
neçə-neçə qəhrəman,
neçə-neçə sənətkar,
kimi öz əcəliylə,
kimi cəllad əliylə,
amma vaxtsız-zamansız
getdisə də dünyadan, –
hələ də yüz illərlə
yaşayacaqlar, inan!

Yaşamaq – yaratmaqdır:
torpağa toxum əkmək,
körpü salmaq, ev tikmək,
diriltmək – yaşatmaqdır!..

Bunlarsız, boş-boşuna
yüz il...
Ya çox, ya da az, –
yox ikən var görünmək,
mövcud olmaq – sürünmək
insan ömrü sayılmaz!..

İnsan ömrü
ən uzun ömürdür bu dünyada:
keçsə də min-min illər,
yox olsa da dünyadan
neçə-neçə nəsillər, –
Kolizey dağılsa da,
Dante həmişə sağdır.
Qocaman Olimp bir gün
yerlə yeksan olsa da,
Homer yaşayacaqdır!

*fevral-aprel, 1975*



# Satiralar

## MƏSLƏKBAZ TİMSAH

Bir timsah yaşarmış
bir zaman
Nildə.
Məslək dəyişərmiş
hər ayda-ildə:
bir gün kəbr olarmış,
bir gün müsəlman.
bir gün atəşpərəst,
bir gün brahman...
Axır təngə gəlib
bütün timsahlar,
onu Nil çayından
etdilər kənar.
O da istihalə etdi
bir sabah:
yarı – insan oldu,
yarı da – timsah!

*1938*

## KAMAL VƏ CAMAL

Şairlər aşiqdir hüsnə əzəldən
gül yanaq,
al dodaq,
xoş surət olsun!..
Bu bir rəvayətdir,
nəql eləyim mən,
surətpərəstlərə qoy ibrət olsun...

Deyirlər, hərcayi bir gözəl varmış,
zər-ziba içində nazla yaşarmış.
Dillərdə əzbərmiş hüsnü-camalı,
ancaq seyrək imiş əqli-kamalı...

Bir də bir filosof varmış o yerdə,
Loğmantək məşhurmuş bütün ellərdə.
Kamaldan – məmnunmuş,
camaldan – məğmun...
üzünə baxmazmış gözəllər onun...

Bir gün həmin gözəl doyub həyatdan,
hər cür təmtəraqdan, hər cür büsatdan...
Guya fədakarlıq etmək istəmiş,
gəlib filosofa naz ilə demiş:
– Mən dünya gözəli,
sən də ki – Loğman,
əgər biz evlənsək,
bu izdivacdan
bir gözəl törər ki, –
əla, mükəmməl:
sənintək ağıllı,
mənimtək gözəl!..

Filosof gülərək demiş:
– Nə olar!
Can-başla razıyam, –
ancaq bir iş var:
düzü, qorxuram ki,
o yazıq səhvən,
hüsnü məndən ala,
kamalı səndən!..

*18 aprel 1946*

## DAĞ KƏLİNİN HEYKƏLİ

Dimdik durub
yekə, nəhəng –
bir dağ kəli.



Yağış tökür təpəsinə...
Donqar
burnundan
su dama-dama,
dimdik durub
zorbalığın,
lovğalığın
bəd heykəli.
Dombalan
kəl gözlərilə
üstdən baxır adama...
Sanki deyir:
– Qorxun məndən!
Ay yazıq kəl!
Yazıq heykəl!..
Həm qorxunc, həm gülüncsən sən!
Axı özüm yaratmışam səni mən!

*17 dekabr 1955, Soçi*

## ADAM – ALİM

"Alim olmaq asandır,
adam olmaqsa, çətin!"
Bu atalar sözünü
hamı eşidib yəqin.
Bir gün bir qoca alim
bu sözə şübhə etdi,
bir qoduğa dərs verdi,
ədəb-ərkan öyrətdi.
Qoduq da itirmədi
ustadın zəhmətini;
sərf edib var gücünü,
bütün fərasətini,
yazı-pozu öyrəndi,
hətta şeirlər yazdı,

hekayə, roman, tənqid...
Daha çox şeylər yazdı...
Axır "alim" də oldu,
qazandı hörmət-izzət.
Ustad ona kənardan
baxıb alırdı ləzzət.
Hərdən öyünürdü də,
"şagirdimdir" – deyərək...

Ancaq qoduq böyüyüb
axırda oldu eşşək.
Lovğalandı, qudurdu,
bəyənmədi heç kəsi.
Bürüdü hər tərəfi
onun məğrur nərəsi:
"Mənəm, mənəm alim də,
ədib də, – hər şey mənəm!
Dilim hamıdan uzun,
hamıdan bərkdir çənəm!"
Belə deyib dik tutdu
"alim" öz boş başını,
tanımadı görəndə
dostunu, yoldaşını.
Güvənib öz qondarma
şöhrətinə-adına,
bir gün də şıllaq atdı
öz qoca ustadına...

Görənlər dedilər ki:
"Fikir vermə, nə olar,
adı alim olsa da,
bir az nadanlığı var".
Qoca ustad heç bir söz
demədi, gülümsündü,
Başını yırğaladı,
yalnız belə düşündü:
"Onun şıllağı mənə
etmədi əsla əsər.



Mənə dəyən budur ki,
əməyim oldu hədər.
Hayıf ki, axırda o,
öz əslini göstərdi.
O öz eşşəkliyilə
mənə yaxşı dərs verdi.
Bildim ki, el sözünün
mənası çox dərinmiş:
"Asanmış alim olmaq,
adam olmaq çətinmiş!.."

*oktyabr, 1958*

## TOVUZ VƏ DƏNİZ

"Hər gözəlin bir eybi var",
belə deyib babalar...

Bulvarda mərmər hovuz,
kənarında bir tovuz...
tovuz açıb rəngbərəng
qəşəng lələklərini,
nəhəng bir yelpazətək.
Cilvələnib seyr edir
hovuzun aynasında
əlvan bəzəklərini, –
heyran olur özünə...

Birdən öz ayaqları, –
qarğanınkından da çirkin,
kobud, iyrənc ayaqlar,
dəyən kimi gözünə,
dərdindən fəryad edir,
ulayır bayquş kimi...
Görəsən, bədbəxt varmı
dünyada bu quş kimi!..

– Var!.. Var!..
Səslər ucalır dənizin kənarından,
Bakının bulvarından:
– Mən də sənin kimiyəm,
hər yerim gözəl-göyçək.
Qoynumda xiyabanlar,
rəng-rəng əlvan gül-çiçək...
Ancaq...
Bir bax:
sahilimdəki mazut, lehmə, üfunət!..
İyrənirəm özümdən, nifrət edirəm, nifrət!..
Daşlarım dilə gəlir,
ucalır ahım-dadım,
əfsus
"daş ürəklərə əks eləmir fəryadım!.."
Təmsil burda qurtarır.
Nəticəsi nədir bəs?
Eşitsin-bilsin hər kəs:
İki dərdli gözəlin iki böyük dərdi var:
birinci –
tovuzun ayaqları.
İkinci –
bulvarın sahilində mazut, lehmə anbarı.

Birincinin yoxsa da əlaca ehtiyacı,
Bizim əlimizdədir ikincinin əlacı!..

*24 may 1967*

## SƏXAVƏTLİ XANIM

Oturub trolleybusda,
bulvara gedir xanım:
gözlərinin altı-üstü qapqara,
kirpiklər bir qarış,
(sintetika yapışdırılmış).



Bir aptek boyaqdan suvaq çəkilmiş
üzünə,
gözünə,
yanaqlarına,
dodaqlarına...
Bircə şey çatmır ancaq, –
yazılı bir varaq:
"Diqqət, diqqət!
Rənglənmişdir!"

Bulvara gedir xanım,
görüşə,
hüsnünü nümayişə,
ya da başqa bir işə...
Günəş gözlüyü də var,
şüşələri – qağayı qanadları.
Gündən qorunmaq üçün deyil,
modalı görünmək üçün...

– Bilet alın, vətəndaş! –
"Vətəndaş" – yəni xanım,
dörd qəpik uzadır
bilet satana,
barmaqlarının ucunda,
iyrənə-iyrənə,
ədalı-ədalı
işarə edir:
"Lazım deyil bilet!"
Bu nə kərəm!
Bu nə səxavət!..
Bilet satan qız, –
boyasız,
suvaqsız,
əynində sadə paltar,
sadə və ucuz,
ayağında adi çust,
gözlüksüz gözlərində,

ütülməmiş qaşlarında,
tərtəmiz alnında
zəhmətkeşlərə məxsus
bir vüqar, –
səxavətli xanımı süzür
və
sillə kimi vurub üzünə
bu səxavətini
uzadır ona biletini,
acı-acı gülə-gülə...

Xanım dodaqlarını büzür,
az qalır suvağı qopub tökülə.

*12 may 1967*

## GÖZƏLLİK BARƏSİNDƏ

Ceyranla qurbağadan
çox yazıb şairlər.

Nə olar!
Hər ölkənin, hər elin,
hər dövrün, hər ilin
və hər təmsilin
öz ceyranı,
öz qurbağası var...

...Bir gün ceyran
su içməyə gəldi gölə.
Baxdı gölün güzgüsündə
öz əksinə:
gülə-gülə,
bir azca da
öyünə-öyünə...

İnsafa qalanda,
haqqı da vardı!
O nə qamət,



o nə əda,
o nə vüqardı?!
Hələ gözlər, hələ gözlər!..
Birdən
ziyilli bir qurbağa
hoppandı,
ceyranla yan-yana dayandı.
Və başladı
gölün güzgüsündə
öz hüsnünə baxmağa.
Baxdı, baxdı,
oldu özünə heyran
və dilləndi:
– A ceyran,
düzü,
sən də gözəlsən,
mən də...
Bir iş var ancaq:
sənə gözəl deyir hər kəs,
Amma mənim gözəlliyimi
hər yetən qiymətləndirə bilməz!..

Burda mən
istədim yazam:
Ceyran bu sözlərdən
od tutdu, yandı.
Yay kimi gərilib birdən tullandı!
Özünü gölə atdı...
Və batdı...

Amma heyfim gəldi ceyrana,
təmsil də bitdi...
Gəldim yekun vurmağa:
Dedim:
– Yazıq! –
Ancaq bilmədim
kim? –
Ceyran, ya qurbağa?

*15 iyun 1967*

## UŞAQ, AT VƏ HƏYAT

Bulvarda
bir oğlan minib taxta atına,
sürür
çaparaq...
Əslində özü yüyürür.
Ancaq
yavaş gedəndə,
taqsırı atda görür.
Döyür atı,
söyür atı.
– Ay çər dəymiş,
nə olub sənə?..
Ay çər dəymiş,
yerisənə!..
Bərk gedən də özüdür,
yavaş gedən də...
Ancaq yavaş gedəndə,
taqsırı atda görür...
Qınamaq olmaz onu,
uşaq oyunudur bu!..
Olmaz ona demək:
– Ay bala,
qamçını hərdən
özünə də çək!
Axı sürən də
sənsən,
yüyürən də
sən!..
Ancaq...
Di gəl, böyüklərə bax!
Hərdən
belə də olur həyatda:
bir də görürsən
bir kolxozda,
bir sovxozda,



ya başqa bir təsərrüfatda
rəis deyən olmadı.
Öz planı dolmadı...
o saat rəis
"götürür ciddi ölçü"
(yəni tədbir görür).
Od püskürür:

– Filankəsə ciddi xəbərdarlıq!
Filankəsə şiddətli töhmət!..
Filankəsi bərk məzəmmət!
Və belə-belə bir çox tədbir...

Bir deyən gərək:
– Ay rəis yoldaş,
bir özün də düşün, fikir et.
Axı bu qatara minən də sənsən,
Sürən də sən!
Özünə də bir azca zəhmət versənə!
Ya da heç olmasa,
Yumşaqca bir töhmət versənə!..

*28 iyul 1967*

## QORUCU

Ağac əkmək,
gül-çiçəklə bəzəmək
talvar qurmaq,
həyətləri, küçələri yaşıllıqla,
gül-çiçəklə bəzəmək
və bunları qorumaq
yaxşı işdir, şübhəsiz.
Hər kim belə bir iş görsə, gərək
sağ ol! –
deyək
ona biz...

Ancaq...
Budur,
hərdən belə də olur:
bir cavan oğlan
suvarırdı hər səhər
küçədəki ağacları bir-bir.
Gah açır diblərini,
gah budaqlarına dərman səpir,
gah kötüklərini əhəngləyirdi.
Qoruyurdu həşəratdan
və hər cür ziyanəvərdən...
Hər görən deyirdi:
– Afərin, əhsən!..

Ancaq...
işə bir bax:
bir gün
bir tula qovdu bir pişik balasını.
Pişik qaçdı, qaçdı,
canını qurtarmaq üçün ağaca dırmaşdı.

Burda qəribə nə var?
Qədimdən belədir qayda, –
pişik bərkə düşəndə,
ağaca dırmaşar.
Hətta,
hərdən adamı da qısnaşdırırlar
"pişiyini ağaca dırmaşdırırlar".

Ancaq bizim cavan –
həmin qoruyucu oğlan
xəbərsizdi deyəsən
bu adi həqiqətdən.
Pişiyi ağaca dırmaşan görəndə,
beyninə vurdu qanı.
Qapıb əlinə yekə bir yabanı,
cumdu ağaca sarı.



Pişiyi qovmaq üçün,
ağacı qorumaq üçün
vurdu, vurdu,
vurduqca qızışdı, qudurdu.
Qırdı-tökdü yarpaqları,
körpə yaşıl budaqları...
Axır vurub pişiyi də saldı.
Pişik qan içində yerindəcə qaldı...

Amandır, vətəndaşlar, aman!
Qoruyun ağacları,
çiçəkləri,
pişikləri,
körpələri
belə qoruyuculardan!..

*5 iyun 1967*

## MƏRD-NAMƏRD

Belə eşitmişik dədə-babadan:
"Mərdi qova-qova namərd eləmə!"
Ancaq dədə-baba olsa da insan,
yanılmaz, – demə.
Nə çoxdur belə söz:
çəkin,
baxma,
görmə,
eşitmə,
qanma!..
Amma bu sözləri eşit, inanma!..
Namərdlik eləməz qovulmaqla mərd!
Mənsəblə, rütbəylə mərd olmaz namərd...
Qılınc sınar, əyilməz, –
mərd namərd ola bilməz!

*16 oktyabr 1967*

## CANAVARLAR

Cürbəcürdür canavar,
Dördayaqlısı da var,
İkiayaqlısı da...
Hansı daha qorxuncdur?
Hansı yamandır? – desən, –
Bir əhvalat danışım,
Cavabı özün de sən:

Çovğunlu, qar-boranlı
Qış günü bir canavar
Şığıdı bir ceyrana.
Ceyran, –
neyləsin yazıq?
Qaçdı, qaçdı, qorxudan
Sığındı bir insana...

Canavar canavardır:
Yırtıcı, balta dişli...
İnsanınsa əlində
Qorxunc silahı vardı, –
Vuran-yıxan, atəşli...

İnsan bircə güllədə
Canavarı öldürdü.
Bunu ceyran da gördü.
Qorxdu da, sevindi də...
Canavardan qurtardı,
insanın əlindəydi
onun canı indi də...

Sonra...
insan neylədi?
Əgər ceyranı tutub,
sonra azad etməkçün
yaza kimi bəsləsə, –
insan oğlu insandı.



Əgər ovlayıb yesə,
onda canavardan da,
kaftardan da yamandır!

*mart, 1974*

## BƏDBİN-NİKBİN

I

Fransanın ən əla
Fin-şampan konyakını
Venetsiya qədəhinə
tökərək içir yenə
bir darıxmış milyoner.
Sonra burnunu tutur,
üz-gözünü turşudur
və deyinir:
– Nə yaman
taxtabiti qoxusu gəlir
bu zəhrimardan!..

II

Bir barda xidmət edən
yoxsul tələbə oğlan
taxtapuşda-çardaqda,
yaşadığı otaqda
dırnağıyla əzərək
taxtabitini bir-bir,
qoxlayıb dırnağını,
şən-şən mahnı oxuyur:
"Bəh!.. Bəh!..
Taxtabitilər
əla konyak qoxuyur!.."

*mart, 1975*

## CƏLLADIN ÖLÜMÜ

Öldün...
...Ey cəllad, öldün...
Ellərin gözü aydın!
Hayıf ki, rahat öldün, –
sən gərək asılaydın!..

## TİKANLI SÖZLƏR

Əqlini başına yığ,
tamah salma daşbaşa.
Zəhmətlə ağ günə çıx,
Yoxsa, daş düşər başa!

* * *

Düzdür:
"Yaşda deyil, başdadır əqil".
Ancaq əqli başa
yaş gətirir, – bil!

* * *

Ana – yaxşı ana olarsa əgər,
Ağlamayan uşağa da süd verər.

* * *

Ağ pulu yığa-yığa
ağ gündən qara günə,
döndərmə ağ gününü
indidən qara günə.



* * *

Tamahkardan öz üzü də bezardır:
ağız yeyir,
yazıq üzü qızardır.

* * *

Pendiri saxlar dəri!
Arvadı...
Yox, əri yox, –
öz işi,
öz hünəri!

* * *

Asta gedən tez gedər...
iş-gücü yoxsa əgər!

* * *

Əgər azar-bezardan
olmaq istəsən azad:
az ye,
az danış,
az yat!..

* * *

"Az ver,
çox yalvar! –
Çox ver,
az yalvar!" –
deyib babalar...

Nə ver! Nə yalvar!

* * *

Pul deyib:
"Saxla məni, –
mən də saxlaram səni!"
Ancaq bu vaxta qədər
saxlamayıb kimsəni!..

* * *

Yaxşı işlə,
yaxşı dincəl,
yaxşı yat:
ayağını yorğanına görə yox,
yorğanını boyuna görə uzat!

* * *

Guya "ağıllı düşmən
yaxşıdır nadan dostdan".

Düşmənə vermə aman, –
hansından olur olsun,
ya ağıllı, ya nadan!.."



# Rəvayətlər

## UZUN VƏ BÖYÜK

*Uzun adamın ağlı dabanında olar*

***El məsəli***

Babalar yəqin ki, həmin məsəli,
Şuxluqla deyiblər, – şirin, məzəli.
Yoxsa nə boydadır, nə də yaşdadır,
ağlı olan bilir – ağıl başdadır!..

Böyük bir sərkərdə varmış bir zaman,
heyranmış ondakı zəkaya cahan.
Cürətdə,
qüdrətdə,
hikmətdə
təkmiş.
Amma...
deyirlər ki,
boydan gödəkmiş...

Bir gün bu sərkərdə uca bir rəfdən
boylanıb bir kitab almaq istərkən,
əli çatmayanda,
uzun bir yavər
deyib ki:
– Sərkərdəm, mənə izin ver,
götürüm...
Axı mən səndən böyüyəm!

Sərkərdə gülərək söyləyib o dəm:
– Ver...
Ancaq əzizim,
düzünü bilsən,
sən məndən uzunsan,
böyük deyilsən!..

Kim bilir, bəlkə bu bir əfsanədir,
eləsə, bəs bunun mənası nədir?
Qoy bilsin-eşitsin uzun yazanlar:
uzunla
böyüyün
böyük fərqi var!..

*30 aprel 1946*

## TORAĞAYIN NƏĞMƏSİ

Meşədə müsamirə hazırlayırdı quşlar,
nəğməkarları seçməyə
baş münsif sağsağandı.
Əla deyildisə də
səsi-nəğməsi,
ancaq hökmü rəvandı.

Uyub xoş bir həvəsə,
bir torağay da gəldi.
Münsiflərin önündə
uçub göyə yüksəldi...
Göyün uca qatında
ən xoş diləklərini,
sevincini-eşqini,
dərdini-kədərini,
bütün həyəcanını,
ürəyinin qanını,
qataraq öz səsinə,
başladı nəğməsinə...

Min-min büllur zəng kimi
cingildəyir üfüqlər,
rəng verib-rəng alırdı
bu nəğmədən şəfəqlər.



Bu nə bülbül, nə qumru,
nə qaranquş, nə turac,
nə sığırçın səsiydi, –
Torağayın öz səsi,
öz ürək nəğməsiydi.
Elə bundaydı onun
saflığı, təravəti,
dadı, bütün ləzzəti...

Günlər keçdi-ötüşdü.
Bir gün torağayın yolu
yenə oradan düşdü.
Asılmışdı ağacdan
müsamirə elanı,
iştirak eləyənlər:
başda – qarğa, sağsağan,
dolaşa, ağacdələn
və sair və sairə...
Bu siyahı məlumdu
hamıya əvvəlcədən:
daimi bir qaydaydı, –
bu "adlı-sanlı" quşlar
gərək həmişə başda olaydı...

Torağay siyahını
başdan-başa oxudu,
Yox, onun adı
siyahıda yoxudu...

Torağay incimədi.
Öz-özünə dedi:
– Nə olar!..
Hərənin öz zövqü var.
Mənə də xoş gəlmir, onların nəğməsi,
qarğanın, sağsağanın,
dolaşanın səsi...
Və çıxıb getmək istədi.

Ancaq
elə bu zaman
gəlib çıxdı sağsağan.
Gözlərini qıya-qıya
baxıb üstdən aşağıya:
– Bura bax, –
dedi, – a torağay,
səsin də yaxşıdır, nəğmən də.
Diqqətlə qulaq asdıq
bizim böyüklər də, mən də...
Amma bir şey də var:
axı... səsin nə qarğa, nə dolaşa...
("Təvazödən" öz adını çəkmədi)
nə bülbül, nə sığırçın,
nə qumru, nə qaranquş,
nə başqa quş səsidir.
Nəğmən də heç nəyə bənzəmir,
bəs bu nə nəğməsidir?!
Qərəz, qərarımızı qoy deyim bil:
"Məsləhət deyil!"

Torağay baxdı, baxdı sağsağanın üzünə,
qıyılmış çəp gözünə,
şən, xoş nəğmələr dolu ürəyi kövrəldi
və dilə gəldi:
– Mən nə böyüklərə
qoşuram nəğməmi,
nə də onlara – ayaqaltı kötüklərə...
Mənə lazım deyil
nə qiyməti,
nə töhməti
heç kəsin.
Qoy məni
qızaran üfüqlər,
al şəfəqlər,
açılan səhər
dinləsin!

*19 iyun 1967*



## DOZANQURDU VƏ SAİR HƏŞƏRAT

Biri vardı, biri yoxdu,
dünyada həşərat çoxdu;
dozanqurdu da bunlardan biri...
Olmuşdu meşədə
sakit bir guşədə
guşə müdiri...
Yığmışdı başına
soxulcanı,
cırcıramanı,
çəyirtkəni...
müxtəsər,
işinə yarayanı, xoşuna gələni...

Ancaq
müdirin əli dəyən hər şey
pis qoxuyurdu yaman:
məzəli-dadlı çiyələk,
göbələk,
ətirli al-əlvan gül-çiçək,
əli dəycək
olurdu zay, –
qoxuyurdu üfunət,
dadırdı acı-əzvay.

Baş müdirlə olub əlbir,
ötürürdü əlinə düşəni.
Söz müxtəsər
kor qoymuşdu meşəni...
Hamı şikayət eyləyirdi,
kimi küncdə-bucaqda,
kimi də yığıncaqda
açıq-aşkar bunu deyirdi.

Bir gün bir yığıncaqda
bülbül də dedi ona:

– Axı bu pis adətdir,
natəmizlik, nadürüstlük cinayətdir.
Ayıbdır, təmizkar olsana...

Bu sözlər
dozanqurduna xoş gəlmədi bir qədər.
Nə isə,
görüb çox qudurduğunu,
müdirlikdən götürdülər dozanqurdunu...
Aradan xeyli keçdi.
İşlər dəyişdi.
Dozanqurdu yenə oldu müdir,
meşədə,
xəlvəti bir guşədə
yenə hökmranlıq edir.
Yığıb başına soxulcanı,
çəyirtkəni...

Karına yarayanı,
işinə gələni...
Yetənə yetir,
yetməyənə şıllaq atır.
Əlindən çıxan hər şey
yenə üfunət qoxuyur, əzvay dadır.
Yanında, yeri gələndə
bülbülün adı çəkiləndə,
turşudur üz-gözünü;
qıyır qıyıq gözünü:
– Eh, nə bülbül?
Onun da adı var ancaq!
Hələ öz məlahətli fısıltımı demirəm,
budur,
bizim cırcıramanı dinlə bir,
cırıldayanda adamın ürəyi əsir!..

Bülbülə dedilər bu sözü,
güldü,
cəh-cəh basdı meşəni.



Dimdiyindən sanki inci töküldü,
dedi:
– Gedin deyin ona, –
dozanqurduna, –
sözüm sözdür:
dozanqurdu natəmizdir.
Əldə,
dildə
natəmizlik, nadürüstlük pis adətdir.
Buna dözmək cinayətdir!..

*8 oktyabr 1968*

## ASLAN ÜRƏYİ

### I

Dünyada qəribə işlər var:
bir aslanın ürəyini çaqqala caladılar,
işi düzəldi.
Çaqqal
sağaldı, dirçəldi.
Aslan kimi gəzməyə başladı vüqarla.
Durub-oturmadı daha
tülkü kimi, çaqqal kimi
cana-cuna heyvanlarla.
Onlara gülürdü.
Özünü doğrudan da aslan bilirdi.
Həqiqi aslan kimi nərildəyirdi də hərdən,
Gecələr, yuxuda...
Çünki ayıqlıqda utanırdı özündən
şəklini görəndə suda...

Bəli,
yaşayırdı belə
aslan ürəkli çaqqal,
özünü aslan bilə-bilə.
Bəlkə də çox yaşayacaqdı hələ...

Ancaq
bir gün meşədə
ağzı, pəncələri qanlı bir canavar gördü.
Çaqqal tez yüyürdü,
təriflədi canavarı:
"Sən böyük qəhrəmansan
pələng nədir,
aslan nədir,
fil nədir?
Bu dünyada sən əsil hökmransan!"
Sonra da onun qanlı çənəsini,
qanlı əl-ayağını yaladı...
Elə bu an
dözməyib yaltaqlığa
köksündəki aslan ürəyi partladı...

II

Bu qissədən hissə də var,
o da budur:
Ey ürək calaşdıran
cərrah dostlar,
əlac edəndə
ürək azarı kimi ağır bir dərdə,
heç vaxt
mərd ürəyini calamayın namərdə!
Toxumalar uyuşar bəlkə,
xəstə sağalar, yaşar bəlkə,
amma yenə
əməyiniz itər əbəs.
Çünki
mərd ürəyi
namərdliyə tab gətirməz!

*8 oktyabr 1968*



## DÜŞÜNCƏ

Deyirlər qocaman, müdrik bir alim
soruşdu çalışqan bir şagirdindən:
– Gündə neçə saat işləyirsən sən?
Şagird öyünərək dedi sevincək:
– Yuxudan durandan yatana qədər,
səhərdən ulduzlar batana qədər.
– Bəs sonra?
– Yorulub azca yatıram...
– Demək, gecə-gündüz hey işləyirsən?!
– Bəli!.. –
deyə şagird tərif gözlədi.
Ustad məzəmmətlə şagirdə dedi:
– Qoçaq, bəs sən nə vaxt fikirləşirsən?
Şagird gözlərini döyüb qaldı mat...
Əlavə elədi qocaman ustad:
– Doğrudur, zinətdir insana zəhmət.
Ancaq ki, bunu da bilmək gərəkdir, –
insana yaraşan başlıca cəhət,
əzizim, düşünmək, fikirləşməkdir!..

*1977*

## TƏRİFNAMƏ

Dünyada ad qazanmış,
savaşlardan usanmış
qocaman bir sərkərdə
dalıb acı-əzablı
xəyalat aləminə,
öz-özü vicdanına
gileylənirdi yenə.

"Bəli, zəfər qazandım:
Məğlub oldu düşmənim!

Amma qanım qaradır,
könlüm açılmır mənim:
hər iki tərəfə də
fəlakət oldu zəfər:
həlak oldu minlərlə
cavan ərlər-igidlər,
dul qaldı gənc gəlinlər,
yetim qaldı oğul-qız,
gənc qızlar nişanlısız,
analar da oğulsuz...
Yox, yox, hərb hünər deyil,
ancaq ölümdür-qandır,
qırğına hünər deyən
arif deyil, nadandır!
Yaxşı deyib babalar:
"Qanla yumazlar qanı".
Bunu anlayan hanı?!
"Qana – qan"– deyə-deyə,
qan yoxalmaz dünyadan.
Zülmə-şərə bir zaman
"qılıncla yox, ağılla
qalib gələcək insan."

Bu vaxt məşhur bir şair
hüzura izn istədi.
Gəlib diz çöküb dedi:
– Mən bir aciz şairəm,
budur əlimdən gələn,
naqis qələmimlə mən
"Zəfərnamə" yazmışam
sizin şərəfinizə,
icazənizlə indi
oxuyum onu sizə...

Sonra qalxıb ayağa,
başladı oxumağa:
"Sən, ey ulu qəhrəman,
sən, ey dahi sərkərdə,



mislin-bərabərin yox
bütün qərinələrdə.
Bu şanlı zəfərinlə
dünyanı azad etdin,
təkcə bu dünyanı yox,
kainatı şad etdin!
Günəş kimi parladı
qılıncının şöləsi,
anaların, qızların,
gəlinlərin şən səsi
Min alqış deyir, sənə
alqış!.."

Elə bu yerdə
daha dözə bilməyib
yaltaqlığa sərkərdə
qapdı "zəfərnamə"ni
parça-parça elədi,
tulladı çaya, sonra
şairə belə dedi:

– Bir də belə şey yazsan,
bax, bu uca qayadan
şerinlə özünü də
ataram çaya, inan!
Şərəfli bir insana
məddahlıq həqarətdir,
tərif də rüşvət kimi
dözülməz bir adətdir!..

*1978*

## RƏSSAM VƏ HÖKMDAR

Deyirlər çox mahir bir rəssam varmış,
şərəfli-vüqarlı bir sənətkarmış,
Saymazmış bəyi də, əyanları da,
xanı, zadəganı, hökmdarı da...

Çəkdiyi şəkillər: əkinçi, çoban,
daşyonan, evtikən, dəmirçi, bağban,
ipəkçi, xalçaçı el gözəlləri,
onların yaradan-quran əlləri.
Bir də qorxubilməz mərdlər, qoçaqlar,
üsyankar igidlər, nəcib qaçaqlar...
O, xalqa xidmətkar, xalq ona həyan,
özü ac, gözütox sürərmiş dövran...

Hökmdar dözməyib buna nəhayət,
edir bir gün onu saraya dəvət.
Rəssamın yanına gəlir bir əyan
deyir:
– Sevin, öyün, ey bədbəxt insan,
zillətdən qurtardın, oldun bəxtiyar,
saraya çağırır səni hökmdar...
Gedək, şəklini çək əlahəzrətin,
artsın şan-şöhrətin, varın, dövlətin!..

Rəssam gülə-gülə deyir:
– Doğrusu,
mənimçün çox böyük bir şərəfdir bu,
mən hara, hökmdar sarayı hara!
Ancaq get ərz elə o hökmdara, –
mən öz xarabamdan kənar çıxanda,
sənətim-qüdrətim itir bir anda,
gözlərim yumulur, sustalır əlim...
Bu üzlə saraya mən necə gəlim?!

Əyan qəzəblənib deyir:
– A bədbəxt,
bəs bura gələcək o əlahəzrət?

Rəssam cavab verir gülümsünərək:
– Özü gəlməsə də olar, neyləyək?
Yox, zəhmət çəkməsin hökmdar hədər,
başını gətirin, kifayət edər!..

*1978*



## YUXU DƏRMANI

Müdrik filosoflar, böyük ədiblər
kitab barəsində çox söz deyiblər:
Kitab bir günəşdir – qaralmaz-sönməz.
Kitab xəzinədir – bitməz-tükənməz.
Kitab – asimandır,
kitab – ümmandır.
Kitab həm loğmandır,
həm də dərmandır!..

Acıdil bir şair çıxıb bu yandan,
uydurub kitaba bir belə böhtan:
Kitab var – soğantək yaşardar gözü,
kitab var – tikantək batar hər sözü,
elə kitab da var...
Qəribə işdir, –
bir görün başıma nə iş gəlmişdir:
Kitab oxumağa bərk həvəskaram.
Bir kitab almışdım – düz on kiloqram!
Əvvəlcə “giriş”də büdrədim bir az...
(uzun yol enişsiz-yoxuşsuz olmaz!)
“Bu heç, keçib gedər, ötüşər” – deyə,
başladım kitabı mütaliəyə...
Elə ki ilk fəsli yarıya çatdım,
özüm də bilmədim heç nə vaxt yatdım.
Yenə o kitabı gördüm yuxumda,
oxudum, darıxdım... qaçdı yuxum da...
Yenə də oxudum, – yatdım... –
Bu minval
neçə yol ayıldım-yatdım dalbadal...

Əhsən!.. Belə kitab yazana əhsən!
Kitabda hünərə, qüdrətə bax sən!
Əhsən!.. Kitab deyil – yuxu dərmanı!
Həkimdən qurtarır insanın canı:
al, oxu kitabı, yat... kefinə bax...

Çalış ki, yuxuna girməsin ancaq!
İndi də az deyil belə kitablar...
– Adı? Müəllifi?..
– Axtaran tapar!..

*1978*

## QURBAĞACIQ

Güllü-çiçəkli yazın
sözlü-sazlı elçisi –
qaranquş
bir meşədə
qonmuşdu bir budağa.
Altdakı gölməçədə
lildə mürgüləyərək,
quruldayırdı hərdən
ziyilli bir qurbağa...

Qaranquş yaxın-uzaq
ölkələrdən-ellərdən,
şirin-şirin dillərdən
yığdığı nəğmələri
ötürdü həzin-həzin...

Qurbağanı görəntək,
qaranquş sevinərək
soruşdu:
– Ay qurbağa,
heç xoşuna gəldimi
yaxın-uzaq ellərdən
şirin-şirin dillərdən
yığdığım bu nəğmələr?

Qurbağa öz dombalan
gözlərini qıyaraq,
quruldadı:



– Qurrr, qurrr, qurrr...
İncimə ha, kvak, kvak, kvak...
nəğmələrin qurrudurrr...
Qurrr, qurrr, qurrr...

Qaranquş incimədi,
özü-özünə dedi:
– Neyləsin qurbağacıq?
Axı ömründə yazıq
dayaz gölməçəsindən
başqa yerə getməyib,
öz sulu "nəğməsindən"
başqa səs eşitməyib...
Ay yazıq qurbağacıq!
Ay yazıq qurbağacıq!..

*1978*

## DOSTLUQ

Belə deyib babalar, –
Dünyada üç cür dost var:
Birincisi,
dil dostu – dilçək dostu.
İkincisi,
diş dostu – çörək dostu.
Üçüncüsü,
can dostu – ürək dostu...
Dostunu yaxşı seçsən,
peşman olmazsan heç sən!

Dil dostu – dilçək dostu –
dildə-ağızda qoçaq,
söhbətdə-sözdə qoçaq:
tériflər çuval-çuval,
vəd elər qucaq-qucaq –
ağızda-dildə ancaq...
Belə dostlardan uzaq!..

Diş dostu – çörək dostu
dalbadal can-can deyər,
doymadan içər-yeyər,
bir gün yaddan çıxarmaz,
sənə can qurban deyər, –
süfrən açıqsa əgər...
Belə dostlardan həzər!..

Can dostu – ürək dostu
tez-tez can-can demədən,
sevər candan-ürəkdən.
Yansan, səninlə yanar,
gülər səninlə, gülsən...
Güvən belə dostluğa,
bunun qədrini bil sən!

*1978*

## DİRİLİK SUYU

*Deyirlər ki, zülmətdə*
*dirilik suyu varmış,*
*o da ki, hər min ildə*
*bir udum tapılarmış...*

Bir qoç igid tilsimli
dərələr-dağlar aşdı
qorxunc əjdahalarla,
nəhənglərlə savaşdı.
Qırx gün, qırx gecə sonra
gedib çatdı zülmətə.
Döyüşdə üstün gəlib
hər cür qara qüvvətə, –
qırx bağlı qapı açdı,
qırx dərin quyu keçdi,



axırda qırx birinci,
son quyuya yetişdi.
Bir sehrli şüşədə
tapıb gətirdi onu –
o dirilik suyunu...

Suyu tapmaq-gətirmək
çətindən də çətindi,
ancaq ondan çox çətin
bir iş də vardı indi:
– Bu su kimə çatacaq?
Axı bircə udumdu,
bircə içimdi ancaq!..
İgid dedi:
– Anadan əziz dünyada kim var?
Bu su anaya çatar!..

Ana dedi:
– Ay oğul,
mərd oğulsan, çox sağ ol!
Ancaq sənsiz, atansız
bu dünyada mən necə
yaşaram, yapyalnız?
İgid ataya dedi:
– Buyur, sən iç, atacan!
Ata dedi:
– Ay oğul,
mərd oğulsan, çox sağ ol!
Ancaq sənsiz, anansız,
bu qoca dünyada tək
yaşaya bilərəmmi
azmış bir yalquzaqtək?
Onda sevgilisinə
dedi igid:
– Gəl sən al,
iç dirilik suyunu,
dünyada əbədi qal!

Sevgilisi dedi ki:
– Mən sənsiz bircə an da
qalmaram bu cahanda!..
O dirilik suyunu
heç bir kəs istəmədi.
hamısı belə dedi:

– Tay-tuşsuz, dost-aşnasız
Vətən də qürbət olar,
qürbətdə tək yaşamaq
həyat yox – dəhşət olar!..

İgid çırpdı şüşəni
bir daşa var gücüylə.
Səpilib gilə-gilə,
gilələr gəldi dilə.
– Sən öz insan ömrünü
yaxşılıqla vur başa,
şərəfli ad-sanınla
sonra min illər yaşa:
Saf-sərin bir bulaq ol –
ürəyi yananlara!
İşıqlı bir çıraq ol,
yol göstər azanlara!
Məsəl ol – dildə yaşa,
mahnı ol – teldə yaşa!
Mərdlikdə-yaxşılıqda
örnək ol – eldə yaşa!

*1978*



# Mənzum nağıllar

## NAĞIL

"Biri vardı, biri yox..."
Dünyada ölkələr çox,
ellər də, dillər də çox.
Hər ölkənin öz eli,
hər bir elin öz dili,
hər dilin öz nağılı –
çeşid-çeşid, rəngbərəng,
biri-birindən gözəl,
biri-birindən qəşəng...

Nağıl mahnıya bənzər, –
nəğmətək eldən-elə,
nəğmətək dildən-dilə
bütün dünyanı gəzər.
Nağıl məclislər bəzər.

Yaxşı-gözəl, məzəli
nağılı dinləməkdən,
sevə-sevə ürəkdən
nağılı söyləməkdən
deyən də,
dinləyən də
nə yorular, nə bezər...

Nağıl min illər yaşar,
dərin dənizlər keçər,
uca dağlardan aşar,
illərlə, yüzillərlə
nağıl dolduqca yaşa,
nə qocalar, nə ölər
getdikcə cavanlaşar.

Uzaq-uzaq çağlarda
çağdaşı var nağılın.

Uzun-uzun yollarda
yoldaşı var nağılın.
Hər dildə dildaşı var,
hər yerdə bacısı var,
qardaşı var nağılın...

Min illər yaşasa da,
köhnəlməz, təzələnər.
İllərin ələyindən,
dillərin ələyindən,
yüzlərcə nəsillərin,
ellərin ələyindən
keçər...
Yaxşısı qalar, –
yamanı tez ələnər...

Hər yerdə, hər məkanda,
hər çağda, hər zamanda
nağılı "nəql eyləyən",
candan sevib söyləyən
öz qanından, canından
ona təzə can verər,
ya onu təzələyər
ya təzə nağıl deyər.
Yaxşı nağıl deyəni
yaxşı dinləyər hamı.
Nağılsız keçməz elin
nə toyu, nə bayramı.

*1978*

## DƏCƏL ÇƏPİŞ

Bir nənənin balaca
bir qız nəvəsi vardı.
İkisi bir daxmada
rahat-rahat yaşardı.



Bir alabaş itləri,
bir keçiləri vardı.
Keçinin də bircə cüt
bacı-qardaş çəpişi...
Nənə ilə nəvənin
yaxşı gedirdi işi.
Keçiləri otlağa,
sulayıb otarmağa
gah nənə aparardı,
gah nəvə aparardı.
Alabaş da həmişə
onları ötürərdi.
Qurd, ya çaqqal görəndə,
bərkdən-bərkdən hürərdi.
Gecələr də daxmanı
səhərəcən güdərdi.
Oğru-əyriləri də
qorxudar, hürküdərdi...

Keçilər çəmənlərdə
Gül-çiçək yeyərdilər,
Dadlı-dadlı göbələk,
çiyələk yeyərdilər.
Sərin-sərin sulardan,
şirin-şirin sulardan
içərdilər doyunca.
Çox gəzib yorulunca,
sərin kölgəliklərdə
yatıb dincələrdilər.
Axşam da yavaş-yavaş
kefi kök, damağı çağ,
daxmaya gələrdilər.

Nənə keçini sağar,
bişirərdi südlü aş,
nəvəsilə oturub
şirin-şirin yeyərdi.

Öz payını alardı
südlü aşdan Alabaş.
Nənəyə hər ikisi:
– Sağ ol, var ol! – deyərdi.

Yaşayırdılar belə –
kefi kök, damağı çağ.
Bircə narahatlıqları
vardı onların ancaq:
balaca oğlan – çəpiş
yaman dəcəldi, yaman!
Aman onun əlindən
aman, aman, ay aman!..
Bir də görərdin qaçıb,
uzaqlaşıb hamıdan,
dik qayanın başında
otdan səbət toxuyur,
atılıb düşə-düşə
belə mahnı oxuyur:

"Mə...mə...mə...mə...mə-ə-ə-ən
çəpiş deyiləm, quşam!
Bir görün, quş qonmayan
dik qayaya qonmuşam!
İstəsəm qanadlanıb
uçaram uzaqlara,
qonaram buludlardan
ucada dik dağlara!.."

Ana keçi çəpişə
qorxa-qorxa baxardı,
yazıq-yazıq mələyib
yalvarıb-yaxarardı:
– Ay bala, gəl aşağı,
yıxılıb əzilərsən.
Canavara, ayıya,
çaqqala rast gələrsən.



Tutub səni bir anda
didərlər, parçalarlar,
bir cüt lümə buynuzun,
bir çəngə tükün qalar!..

Çəpiş sözə baxmayıb
bildiyini edərdi.
Yazıq ana keçini
yamanca incidərdi.

Qarı nənə çəpişə
deyərdi:
– Belə olmaz!
Ay çəpiş, gəl ananın
sözlərinə qulaq as!
Görər səni qaraquş,
caynaqlarına alar.
Ya əqrəb sancar, bala,
ya da ki, ilan çalar!..

Çəpiş yenə dinləməz,
bildiyini edərdi,
mehriban nənəni də
özündən incidərdi.

Nəvə deyərdi ona:
– Ay çəpiş, belə olmaz,
gəl ananın, nənənin
sözlərinə qulaq as!
Külək əsər, qayanın
başından yıxılarsan,
qol-qabırğan qırılar,
şikəst olub qalarsan!..

Dəcəl çəpiş yenə də
bildiyini edərdi,
öz dostu nəvəni də
yamanca incidərdi...

Çəpiş bacı da ona
qorxa-qorxa baxardı.
Öz dəcəl qardaşına
yalvarıb-yaxarardı:
– Mə...mə... Ay dəcəl, mə... mə...
Bəsdir, tərslik eləmə...ə...ə...
Ay qardaş, belə olmaz,
gəl ananın, nənənin,
gəl bacının, nəvənin
sözlərinə qulaq as!

Dəcəl çəpiş yenə də
bildiyini edərdi, –
çəpiş bacısını da
özündən incidərdi.

Bunu görüb Alabaş
O yana yüyürərdi,
bu yana yüyürərdi,
bərkdən-bərkdən hürərdi:
– Ham, ham, ham, ham... a çəpiş,
bu saat aşağı düş!
Yoxsa gəlib o yekə
qulağından tutaram,
səni o dik qayadan
başı üstə ataram!..

Tərs çəpiş Alabaşdan
qorxardı, çəkinərdi;
qayadan yavaş-yavaş
aşağıya enərdi...

Günlər ötdü... aradan
həftələr, aylar keçdi.
Ötdü yay da, payız da,
şaxtalı qış yetişdi.
Nəvə keçilərini
otarmağa apardı.



Meşənin qırağında
yerdə bir diz qar vardı.
Qız kollardan çomaqla
vurub qarı çırpırdı,
keçilər də yarpaqdan,
otdan tapıb qırpırdı.
Alabaş da o yana –
bu yana yüyürürdü,
qurd-quşu qorxutmaqçın
bərkdən-bərkdən hürürdü...
Dəcəl çəpiş yenə də
gah o yan, gah bu yana
göz gəzdirib boylandı,
gah o yan, gah bu yana
dovşan kimi hoppandı.
Gah o yan, gah bu yana
vaz atdı, qaçdı-qaçdı,
öz ana-bacısından,
Alabaşdan, nəvədən
bir xeyli uzaqlaşdı.
Axır gedib meşədə
Bir ağaca dırmaşdı.
Yenə qonub quş kimi
uca haça budağa,
başladı həmişəki
nəğməni oxumağa:

"Mə-mə-mə-mə-mə-ə-ən
çəpiş deyiləm, quşam.
Bir görün necə uca
bir budağa qonmuşam!..
İstəsəm qanadlanıb
uçaram uzaqlara,
qonaram buludlardan
uca qarlı dağlara!.."

Qoy dəcəl çəpiş burda,
Ağac başında qalsın,

öz şirin nəğməsini
oxuyub ləzzət alsın...
Mən sizə deyim kimdən,
mən sizə deyim hardan, –
meşədə ov axtaran
bir yekə canavardan:
üç gündü ki, əlinə
heç bir ov keçməmişdi.
Üç gündü ki, dilinə
bir tikə dəyməmişdi.
Uzaqdan eşidəndə
çəpişin nəğməsini,
bala keçi səsini, –
dimdik durub boylandı,
ağzı-burnu sulandı.
Şığıdı, yan-yörəni
ələk-vələk elədi,
heç bir yerdə çəpişi
tapıb görə bilmədi.
Birdən çəpiş dırmaşan
ağacın lap altından
keçəndə, çəpiş onu
görüb qorxdu: – Ay aman!..
Qorxudan əl-ayağı
əsdi, birdən sürüşdü
ancaq birbaş yerə yox,
aşağıdakı qalın
budağın üstə düşdü.
Bərk silkələndi budaq,
canavarın üstünə
qucaq-qucaq ağappaq
o ki var qar səpildi.
Canavar da çəpişin
yerini indi bildi.
Qan daman gözlərilə
çəpişə baxa-baxa,
ağız-burnunun suyu



süzülüb axa-axa
dedi: – Səni xoş gördük!
Ay çəpiş, xoş gəlmisən!
Bəs mənim payım hanı?
Bəs əliboş gəlmisən?
Səni yerdə axtarıb,
göydə tapmışam, ancaq
bir de görüm, havaxtdan
quş olubsan, ay qoçaq?
Bir de görüm ki, orda,
Ağacda neyləyirsən?
Yerdən otu qurtarıb,
orda yarpaq yeyirsən?
Bəlkə acsan, ay bala?
Gəl gedək, qonağım ol,
Gəl gedək, sənə ceyran
kababı verim bol-bol...

Qorxusundan çəpişin
dili-ağzı tutuldu.
Dodağı əsə-əsə
dedi: – Sağ ol, qurd lələ,
Meşədə göy ot boldu,
otlamışam doyunca,
acımamışam hələ...

Dişlərini ağardıb
gözlərini bərəltdi,
çəpişə gülə-gülə
canavar belə dedi:
– Hə... hə!.. Deməli belə,
deməli, ac deyilsən!..
Mənim meşəmin bütün
otlarını yeyib sən
doyubsan... Əhsən! Əhsən!..
Sən toxsan, amma qoçaq,
acından ölürəm mən!

Di cəld ol, düş aşağı,
mən də doyunca yeyim,
səni doğan anaya
ürəkdən "sağ ol!" – deyim!

Belə deyib canavar
ağaca sarı cumdu,
qorxudan yumurlanıb,
çəpiş gözünü yumdu.
Ancaq qurdun ağzı heç
budağa da çatmadı.
Onun iti dişləri
tərs çəpişə batmadı.
Bərk silkələndi ağac,
çəpiş yenə sürüşdü,
dayandığı budaqdan
azca aşağı düşdü.
Var gücünü toplayıb,
dırmaşdı üst budağa,
yenə də mahnısını
başladı oxumağa...

Mahnı həmin mahnıydı,
ancaq iş dəyişmişdi.
Mahnının sözlərini
çəpiş çox dəyişmişdi:

"Mə, mə, mə... mə-ə-ə-ən
quş deyiləm, çəpişəm,
yaman bərkə düşmüşəm,
aman, bərkə düşmüşəm!..
Ay aman!.. Ana!.. Nənə!..
Ay Alabaş, ay nəvə!..
Kömək eləyin mənə!..
Ay dad!.. Ay aman!.. Mə-mə!.."

Qoy bunlar burda qalsın...
Kimdən deyim sizə mən,



Çəpişin anasından,
Alabaşdan, nəvədən:
onlar evə qayıtmaq
istəyəndə, çəpişi
axtarıb tapmadılar.
Başa düşdülər işi...
Hər tərəfi o ki var
arayıb-aradılar,
Çığırıb-bağırdılar.
Dəcəli öz adıyla
ucadan çağırdılar:
– Hardasan, gəl, ay çəpiş!
Bir haray ver, ay haray!
Gizlənpaç vaxtı deyil,
biz gedirik, özün bil!..
Tək qalırsan, qal burda,
Yem ol ayıya-qurda!..

Çəpişdən nə bir haray,
nə də bir hay gəlmədi.
Ana keçi bu dərdə
daha dözə bilmədi.
Başladı yazıq-yazıq
hər yana baxa-baxa,
öz dəcəl balasını
oxşayıb ağlamağa:

– Mənim göyçək balam vay,
tükü ipək balam vay!..
Hardasan, gəl, balacan,
qoyma məni bağrı qan!..
Aman, bala, ay aman!..

Alabaş hər tərəfi
axtarıb qarın üstdə
bir neçə ləpir gördü.
Ləpiri qoxlayaraq,
Alabaş bərkdən hürdü.

Qoxlayıb iz dalınca,
düz meşəyə yüyürdü.
Ana, bala, bir də qız
getdi onun dalınca.

Az gedib üz getdilər,
iz tutub düz getdilər,
təpələrdən yel kimi,
dərələrdən sel kimi,
getdilər, hey getdilər,
birdən dəcəl çəpişin
ağlayan, zarıldayan
səsini eşitdilər:

“Aman, bərkə düşmüşəm,
yaman bərkə düşmüşəm!
Ay aman, ana, nənə,
Ay alabaş, ay nəvə,
kömək eləyin mənə!..
Ay dad, ay aman... mə... mə...”

Ana keçdi: – Ay aman!
Can bala!.. – deyə-deyə,
bala keçi ağlayıb,
hey mələyə-mələyə,
qız çığıra-çığıra.
Alabaş hürə-hürə...
Hamısı var gücüylə
bərk yüyürə-yüyürə
cumdular hay-harayla
səs gələn yerə sarı...
Bu hay-küy, bu hay-haray
qorxutdu canavarı.
Çəpişə baxa-baxa,
ağız-burnundan yenə
su süzüb axa-axa, –
çarəsiz, qoyub qaçdı.
Dovşantək qorxa-qorxa



o yerdən uzaqlaşdı.
Ana-bala keçilər,
balaca qız, Alabaş
o ağacın dibinə
gəlib çatdılar birbaş.
Çəpiş bunları görcək,
tez budaqdan sürüşdü,
kəlləmayallaq aşıb,
qarın içinə düşdü...

Hamısı bir-birini
öpüb qucaqlaşdılar.
Yamanca sevindilər,
gülüşüb ağlaşdılar.
Sonra hamı sevincək
tez yola düzəldilər.
Hamısı sağ-salamat
evlərinə gəldilər...

Nənə həmişəkitək
ana keçini sağdı.
Keçinin məmələri
elə bil ki, bulaqdı,
südü sanki qaymaqdı.
Nəvə şirin su verdi,
nənə xəmir yoğurdu.
Nəvə odun gətirdi,
nənə ocağı qurdu,
nazik lavaş bişirdi,
bol südlü aş bişirdi,
hamı doyunca yedi,
nənəyə “sağ ol!” – dedi.
Qoy hamının kefi kök,
damağı da çağ olsun,
bu nağılı deyən də,
dinləyən də sağ olsun!..

*1978*

## ŞİRİNBULAQ

Gəlin, gəlin, ay uşaqlar,
qulaq asın, a qoçaqlar,
yaxın gəlin, gəlin sizə
gördüyümdən-bildiyimdən
nəql eləyim,
nağıl deyim,
həm qəribə, həm də təzə:

Biri vardı, biri yoxdu,
meşələrdə-çəmənlərdə
sərin-şirin bulaq çoxdu.
Ancaq bizim başı qarlı
dik dağların ətəyində
mərmər daşlar arasından
şırıl-şırıl şırıldayan
baltək şirin,
buztək sərin
çox göyçək bir bulaq vardı.
Quşlarla bir cəh-cəh vurub,
nəğmə deyər, şırıldardı.
Dadı şirin,
adı şirin:
Şirinbulaq!..
Bu şən bulaq, şirin bulaq
suvarardı yan-yörədə
şux gülləri, çiçəkləri,
məzəli çiyələkləri,
yeməli göbələkləri.
Alagözlü ceyranlar da,
tükü ipək dovşanlar da,
budaqbuynuz marallar da,
qılquyruq qırqovullar da,
bildirçinlər, turaclar da,



körpə kollar-ağaclar da
bu şipşirin sudan içər,
bu səpsərin sudan içər,
verib bulaqla səs-səsə,
bir-birilə girib bəhsə,
parıldaşan şəfəqlərlə,
işıqlaşan üfüqlərlə
elə bil yarışardılar,
şirin nəğmə qoşardılar:

“Gecə-gündüz
şırıl-şırıl
şırıldaşır Şirinbulaq,
gecə-gündüz
gözəl-göyçək çiçəklərlə
şən quşlarla, böcəklərlə
şirin-şirin
pıçıldaşır Şirinbulaq.
Yaşa, yaşa!
Şırıldaşa-şırıldaşa,
pıçıldaşa-pıçıldaşa.

Bu bulağın qırağında
yamyaşıl bir söyüd vardı,
bahar, yay, payız çağında
qıvrım-salxım saçlarını
Şirinbulaqda yuyardı.
Salxım söyüd – Şirinbulaq
yayda, qışda, hər bir zaman
quraqlıqdan, susuzluqdan,
həm istidən, həm soyuqdan
bir-birini qoruyardı.
Yaşıl söyüd, Şirinbulaq
olmuşdular bir-birinə
yaxşı arxa, hayan, dayaq...

Bir bülbül də o söyüdün
qonub yaşıl budağına,
yuva qurub sığınmışdı
onun ana qucağına.
Səhər-səhər meh əsəndə,
söyüdün şax budaqları
yelləncəktək yellənərdi,
yuvadakı bala quşlar
civildəşər, dillənərdi.
Şirinbulaq, salxım söyüd,
boz bülbül də qəmdən azad
yaşardılar könlüaçıq,
damağı çağ, ürəyi şad.
Ən mehriban dostlar kimi,
rahat, xoşbəxt yaşardılar,
bir-birinə nağıl deyər,
şən mahnılar qoşardılar...

Ancaq bir gün...
Səhər-səhər meh əsəndə,
yarpaqlara-budaqlara
inci kimi şeh düşəndə,
budaqlar da yırğalanıb
yelləncəktək yellənəndə,
körpə quşlar civildəşib
şirin-şirin dillənəndə...
Birdən-birə
göy gurladı, yer gurladı,
göy titrədi, yer titrədi,
sarp qayalar parçalandı,
çaylar-göllər aşdı-daşdı,
sanki yer də, göy də yandı,
göylər yerə alov saçdı.
Sonra qopdu güclü tufan,
hər tərəfi basdı duman,



qapqaranlıq oldu hər yer,
yaman oldu işlər, yaman...

Azmı keçdi, çoxmu keçdi,
axır bir gün doğdu günəş.
Tüstüləri, dumanları,
qaranlığı qovdu günəş.
İşıqlandı əvvəlkitək
yer də, göy də.
Cana gəldi yenə hər şey –
yerdə, göydə...
hayıf, göyərmədi daha,
nə o yaşıl salxım söyüd,
hayıf ki, axmadı ancaq
nə o gözəl Şirinbulaq!..

Həmin bulaq çıxan yerə,
çıxıb şır-şır axan yerə
torpaq, kəsək, kül dolmuşdu,
onun gözü tutulmuşdu,
Şirinbulaq boğulmuşdu...
Qayaların arasından
gilə-gilə, damcı-damcı
dama-dama, ovunmadan
ağlayırdı acı-acı...
Əziz dostu salxım söyüd
külə dönüb qaralmışdı,
nə bir budaq,
nə bir yarpaq –
qaraca kötük qalmışdı...

Bunu görüb maral, ceyran,
sona kəklik, cüyür, dovşan,
torağay da, qırqovul da,
böyük-kiçik, hər quş, heyvan

hamı düşüb bərk təşvişə,
dilbir olub,
əlbir olub
birləşdilər,
işə möhkəm girişdilər.
Açmaq üçün o bulağın
qaynağını-yatağını,
dayanmadan işə saldı
kimi iti dırnağını,
kimi güclü ayağını,
kimi əyri caynağını...
Təmizləyib daş-kəsəyi,
töküntünü, toz-torpağı, –
yol açdılar, ancaq yenə
hayıf ki, iş düzəlmədi,
açılmadı bulaq, yenə
əvvəlkitək su gəlmədi.
Tutulmuşdu onun gözü,
bulaq özü
bunu görüb, göz yaşını
tökə-tökə,
damcı-damcı damlayırdı.
Yazıq-yazıq,
acı-acı ağlayırdı...
Bulaq belə,
söyüd elə!..
Bəs bunların nazlı dostu,
o söhbətli-sazlı dostu,
o boz bülbül? Balaları?
Hanı?.. Sağmı onlar barı?!
Sağdır, dostlar, onlar sağdır,
bir az sonra
hamı gəlib çıxacaqdır!..

Həmin o gün səhər-səhər
o qorxunc tufan qopanda,



od-alovlu o tufanda,
titrəyəndə yerlər, göylər,
od ələnəndə dağlara –
bülbül balaları ilə
uçub qaçdı uzaqlara.
Sonra tufan ötüşəndə,
işlər qaydaya düşəndə
xəbər gedib çatdı ona,
dönüb gəldi öz yurduna...
Gəlib nə gördü: ay aman!
Nələr edib odlu tufan!..
Yanıb söyüd, batıb bulaq,
nə bir kol var, nə bir yarpaq...
Orda qəmgin-qəmgin duran
o quşlara, heyvanlara –
cüyürlərə, ceyranlara
dedi: – Keçmiş olsun, dostlar!
Dərdlənməyin, qəmlənməyin,
hər gecənin gündüzü var!..
Dedilər: – A nazlı bülbül,
a söhbətli-sazlı bülbül,
hər şey keçər, ancaq bulaq?

Bəs biz susuz necə qalaq?
Su olmasa, nə ot bitər,
nə gül-çiçək, nə bir ağac.
Bəs meyvəsiz, gül-çiçəksiz
biz neyləyək?
Bülbül dedi: – Heç qorxmayın,
arxayın olun çeşmədən.
Dostlarımın köməyilə
bu gün-sabah açacağam
o bulağın gözünü mən!
Dedilər: – A nazlı bülbül,
a söhbətli-sazlı bülbül,
maral – güclü ayağıyla,

ceyran – iti dırnağıyla,
qırqovullar caynağıyla
açmadığı çeşməni sən
incə-iynə dimdiyinlə
necə aça biləcəksən?
Bülbül dedi:
– O bulağın gözünü mən
dimdiyimin gücüylə yox,
ürəyimin nəğməsilə,
o nəğmənin xoş səsilə,
dostlarımın bizə kömək
etməsilə açacağam!..
Belə deyib, bülbül ordan
ləngiməyib, çox durmadan,
qanadlanıb uçdu getdi,
uçdu getdi, gözdən itdi...

İndi sizə deyim kimdən,
indi sizə deyim hardan,
bizim qoçaq uşaqlardan:
Böyük, geniş el bağında,
göy dənizin qırağında,
əllərində kürək, kətmən,
bel, kərənti, suçiləyən, –
kimi yeri belləyirdi,
kimi qırır alaqları,
kimi əkilmiş ləklərə,
cücərən gül-çiçəklərə
həvəslə su çiləyirdi, –
hamı əlbir,
hamı dilbir, –
şirin-şirin işləyirdi...

Elə bu vaxt nazlı bülbül,
sözlü bülbül-sazlı bülbül



gəlib çatdı həmin bağa,
qondu orda yarpaqları
puçurlanmış bir budağa
Və başladı qəmli-qəmli,
dərdli-dərdli, ağlar səslə,
ürək yaxan bir nəfəslə
bu nəğməni oxumağa:

"Gecə-gündüz
şırıl-şırıl şırıldaşan
Şirinbulaq,
gözəl-göyçək çiçəklərlə
əlvan, rəng-rəng böcəklərlə
gecə-gündüz
şirin-şirin pıçıldaşan
Şirinbulaq
indi dərdə düşüb yaman...
Gecə-gündüz
ovunmadan-dayanmadan,
gildir-gildir
göz yaşları töküb ağlar...
Ay uşaqlar, dayanmayın!
A qoçaqlar, yubanmayın!..
Dayanmayın, yeyin-yeyin,
Yubanmayın, gedin, gedin,
o bulağa kömək edin!.."

Bu nəğməni eşidəndə,
uşaqlar da bircə anda
yubanmadan, dayanmadan,
əllərində kürək, kətmən,
bel, kərənti, – ləngimədən,
bir-birini çağıraraq,
haray salıb çığıraraq,
yola düşüb tez getdilər...

Az getdilər, düz getdilər,
dərə-təpə düz getdilər,
dərələrdən sellər kimi,
təpələrdən yellər kimi,
hay-harayla hey getdilər...

Uzaqlardan bu hay-küyü
budaqbuynuz marallar da,
cüyürlər də, ceyranlar da,
kəklik, turac, qırqovullar,
dələlər də, dovşanlar da –
qorxa-qorxa eşitdilər,
canlarına qorxu düşdü.
Birdən hamısı hürküşdü:
– Aman, ay dad!.. – deyə-deyə,
daban alıb qaça-qaça,
qanadlanıb uça-uça,
üz qoydular meşə sarı...
Uşaqlar görüb bunları
bir anlığa yubandılar,
səslərini kəsib sakit
dayandılar.
Biri çıxıb tez ağaca,
yumşaq-yumşaq, amma uca
səslə dedi uçan-qaçan
o quşlara, heyvanlara:
– A qılquyruq qırqovullar,
a kəkilli torağaylar,
xallı turac, boz dovşanlar,
a cüyürlər, a ceyranlar,
heç qorxmayın, heç qaçmayın!
Ay əzizlər, mehribanlar,
nə oxatan-tüfəngatan
deyilik biz, –
nə quşvuran, heyvantutan



deyilik biz,
sizə dostuq, sizə düşmən
deyilik biz!..
Sazlı-sözlü boz bülbülün
nəğməsini,
onun yanıqlı səsini
eşidəndə ürəyimiz
qana dönüb, gəlmişik biz.
Əlbir olub kömək edək, –
Şirinbulaq axsın yenə,
şirin-şirin, sərin-sərin
su çiləsin dövrəsinə.
Suyu axsın şırıl-şırıl,
quşlar uçsun pırıl-pırıl,
otlar bitsin, güllər açsın,
salxım söyüd yaşıllaşsın,
yenə rəng-rəng çiçəklərlə,
əlvan, qəşəng böcəklərlə
Şirinbulaq pıçıldaşsın...
Heç qorxmayın, heç qaçmayın,
siz, a quşlar, a heyvanlar,
ay əzizlər, mehribanlar,
biz hamımız indi gərək
əlbir olaq, dilbir olaq, –
bir işləyək, köməkləşək, –
Şirinbulaq axsın yenə,
şirin-şirin, sərin-sərin
su çiləsin dövrəsinə!..

Bu sözləri eşidəndə,
uçan quşlar
geri döndü uça-uça,
heyvanlar da
döndü geri qaça-qaça,
hamı gəlib,

əlbir olub birləşdilər,
işə möhkəm girişdilər:
açmaq üçün o bulağın
qaynağını-yatağını, –
hamı birdən işə saldı:
kimi iti dırnağını,
kimi güclü ayağını,
kimi əyri caynağını...
Bizim qoçaq uşaqlar da
bellə, yabayla, kürəklə, –
hamı birgə can yandırıb,
canla-başla işləməklə
o bulağı arıtdılar.
Yan-yörədə gölmələnmiş
bataqlığı qurutdular.
Dövrəsini yaxşı-yaxşı
bellə, kətmənlə təpdilər,
sonra bol-bol, çeşid-çeşid
gül-çiçək toxmu səpdilər.
Suvarmaqçın hər tərəfə
xırdaca arxlar çəkdilər.
Pöhrə ağaclar əkdilər.
Sonra orda hamı birgə
düzüldülər cərgə-cərgə
quşlar ilə heyvanlar da,
qızlar ilə oğlanlar da
nəğmə qoşub o bulağa,
hamı coşqun bir həvəslə,
hamı gözəl, şən bir səslə
başladılar oxumağa:

"Gecə-gündüz sərin-sərin,
gecə-gündüz şirin-şirin
şırıldaşa-şırıldaşa
gecə-gündüz gül-çiçəklə



pıçıldaşa-pıçıldaşa,
yaşa, yaşa, Şirinbulaq!
A toxumlar, tez cücərin,
a pöhrələr, tez dirçəlin!
Tez açılın, a çiçəklər,
a cücülər, a böcəklər,
uçun, qonun güldən-gülə,
a quşlar, siz cəh-cəh vurun,
budaqlarda yuva qurun!
Qoy yamyaşıl olsun hər yan!
Gül-çiçəklə dolsun hər yan!.."

Belə nəğmə deyə-deyə
uşaqların arasından
çoxbilmiş bir qoçaq oğlan
bir qovuğu üfürdü bərk,
qovuq şişib yekələrək,
yekələrək-kökələrək
döndü nəhəng əlvan şara,
qalxıb çatdı buludlara.
Buludları da adladı,
birdən göydə "part" – partladı.
Partlayışdan sonra yerə,
səpdikləri toxumlara,
əkdikləri pöhrələrə
inci kimi incə-parlaq
damcılarla şeh çiləndi.
Bir qırpımda həmin yerdə
toxumlar da, pöhrələr də
yaşıllandı-çiçəkləndi...

İndi yenə, başı qarlı
dik dağların ətəyində
mərmər daşlar arasından
şırıl-şırıl şırıldaşan,

üzərində rəng-rəng quşlar
pırıl-pırıl pırıldaşan
baltək şirin,
buztək sərin,
gözəl-göyçək bir bulaq var:
Şirinbulaq!..
Quşlarla bir cəh-cəh vurur,
nəğmə deyir çiçəklərə,
rəng-rəng əlvan böcəklərə,
nəğmə deyir pıçıldaşan
yarpaqlara-budaqlara,
ana təbiəti sevən
qəlbi köyrək, qoçaq-zirək
uşaqlara!..

*1978*



# Poemalar

## QARANQUŞ YUVASI

### I

### GÖZƏL KƏND

Dəniz gülür, oynaşır,
fərəhlənir qayalar.
Sahildə gözəl-göyçək
bir balıqçı kəndi var...

Sığınmış bir yamacın
sərin zümrüd qoynuna;
dənizin dalğaları
nəğmələr deyir ona.

Ağappaq daxmacıqlar
düzülmüşdür baş-başa;
uzaqlardan bu kəndə
eylədikcə tamaşa, –
sanki yamac üstündə
durna qatarı süzür,
ya da yaşıl sularda
bir dəstə ağ qu üzür...

Səhər sular şəfəqdən
əlvan rəngə boyanır;
gözəl kənd rahat-şirin
yuxusundan oyanır.

Ağ yelkənli qayıqlar
yayılır su üzünə;
kənddə əmək həyatı
coşur-qaynayır yenə.

Qayıqlar bərəkətli
yüklərlə dolur-daşır;
torlarda gümüş kimi
balıqlar parıldaşır...

Axşamlar sahillərdə
coşur tar-kaman səsi,
Qafqaz igidlərinin
azad əmək nəğməsi...

## II

### ARSLAN

Arslan bu gözəl kənddə
böyümüş, boy atmışdı.
Qoçaq bir igid olmuş,
on dörd yaşa çatmışdı.

Dəniz kimi coşqundu,
qayalar kimi möhkəm;
bilməzdi əsla nədir
dünyada qüssə, dərd-qəm.

Ruhu azad, könlü şad,
qəlbi üfüqtək geniş.
Ona ləzzət verərdi,
azad həyat, azad iş...

Dalğalar dağlar kimi
qopub coşan zamanda,
onlar kimi coşardı,
sevinərdi Arslan da.

Dənizə atılardı,
gedərdi üzə-üzə;



dağ kimi dalğalarla
güləşərdi üz-üzə.

Arslan bilməzdi nədir
dünyada qorxu, azar.
Onun mistək bədəni
polad kimi qəlbi var...

Belə mərd böyümüşdü
bizim bu gənc qəhrəman;
belə mərd böyümüşdü
bizim bu igid Arslan.

* * *

Dəniz gülür, sevinir,
– Əhsən! – deyir qayalar.
Sahildə mərd oylağı,
bir balıqçı kəndi var...

## III

### YAZDA XƏZAN

Bir gün top səslərinə
kənd yuxudan oyandı.
Dənizin göy suları
qızıl qana boyandı.

Göydən, yerdən, dənizdən
od ələndi sahilə.
Sahildən tüstü-duman
çəkilməmişkən hələ,
faşistlər ac qurd kimi
gəlib doluşdu kəndə.

Əli silah tutanlar
işi belə görəndə,
qoca-cavan,
qız-oğlan,
bir-birinə qoşuldu;
dağlara çəkilərək,
hamı partizan oldu.

Analar vəhşilərdən
uzaq olsunlar, – deyə,
körpələri götürüb
sığındılar meşəyə.

Bağlardan-bağçalardan
quşlar da uçdu-getdi.
Hamı bu gözəl yurdu
yetim qoydu, tərk etdi...

Yazın gözəl çağında
bağlara çökdü xəzan.
Bürüdü hər tərəfi
yanğın, tüstü, ölüm, qan...

* * *

Dəniz coşur, qaynaşır,
fəryad edir qayalar.
Sahildə tüstülənən
bir balıqçı kəndi var.

## IV

### KİN

Arslanın da atası
olmuşdu bir partizan;
anası körpələri
alıb getmişdi çoxdan.



Öz xəstə nənəsilə
qalmışdı Arslan, ancaq
gözləyirdi görsün ki,
işlər necə olacaq...

Çox keçmədən vəhşilər
daxmaya doluşdular;
başladılar soymağa,
talamağa hər nə var.

Xəstə qarını tutub,
tulladılar həyətə.
Arslan dözə bilmədi
bu vəhşi cinayətə.

Onları qandırmağa
çalışdısa nə qədər, –
faşistlər yaman döyüb
onu yerə sərdilər.

Yıxıldı, qaldı yerdə,
Arslanı qan apardı...
həyətdə, bir kənarda
köhnə bir mətbəx vardı.
Qarı götürüb ora
apardı nəvəsini.
Ağlayıb, yalvarmadı,
çıxarmadı səsini.

Bir neçə gündən sonra
Arslan durdu birtəhər.
Getdi kəndin içinə
öyrənməyə bir xəbər.

Alovlanan yanğınlar
artıq çoxdan sönmüşdü.
Kəndin yarıdan çoxu
yanıb külə dönmüşdü.

Meydanın ortasında
qudurğan hitlerçilər
tutub kolxozçulardan
asmışdılar üç nəfər.

Məktub tövlə olmuşdu,
klub da bir meyxana...
Arslan kinli nəzərlə
göz yetirdi hər yana;

Küllükdü, xarabaydı,
məzarlıqdı kənd tamam...
Hər xaraba, hər məzar
sanki deyir:
– İntiqam!..

* * *

Dəniz kinlə hayqırır,
qəzəb saçır qayalar.
Sahildə qan ağlayan
bir balıqçı kəndi var...

## V

## QARANQUŞ YUVASI

Arslan qayıtdı evə –
qəlbi od, qanıqara.
Dalmışdı ən dəhşətli,
qorxulu xəyallara...

Bir qaranquş yuvası
vardı divarda...
Hər yaz
gələrdi yuvasına
o vəfalı quşcuğaz.



Demək, quş da sevirdi
yuvasını-yurdunu!..
Arslan nələr düşünür,
indi görəndə bunu!..

Birdən nənəsi dedi:
– Bura bax, oğlum, Arslan!
Daha dözə bilmirəm,
gəl, apar məni burdan!

Evimizi donuzluq
etdilər bu heyvanlar.
Yığışıb dolub bura
yüzdən artıq canavar.

Cəmdək qoxusu gəlir
ev-eşikdən, həyətdən.
Daha qala bilmərəm
bunlarla bir yerdə mən.

Abır-həya qanan yox –
içlərində bir nəfər
Gözümün qabağında
ədəbsizlik edirlər...

"Həyasızdan həyanı
saxla!" –
deyib babalar,
hər şey getdi əlimdən,
barı qalsın namus-ar!..

Gedək, bala, razıyam
çöllərdə ölüm özüm.
Təki bu köpəkləri
görməsin daha gözüm!..

Arslan düşündü bir an...
Yox, yox! Hara gedəcək?
O gərək burda qalsın,
intiqam alsın gərək!..

Ancaq... Nənəsi getsə,
qala bilməz Arslan da...
O, nənəyə deməyə
bir səbəb axtaranda, –

Birdən qaranquş gəldi
yuvasına bacadan.
Balalar şirin-şirin
civildəşdi ucadan...

Arslan dedi:
– Can nənə,
sözüm yox, gedək, ancaq...
bircə başını qaldır,
orda yuvaya bir bax!

O quş, balalarıyla
sığınıb evimizə.
Neçə ildir, hər bahar
o, qonaq gəlir bizə.

Yurd salıb, yuva tikib,
bala çıxarır hər yaz...
Nənə, əziz qonağı
düşmənə vermək olmaz!

Bir neçə gün gözləyək,
qanad açsın balalar, –
onda biz də gedərik...
Söylə, nənə can, olar?

– Sənin o saf, o təmiz
qəlbinə nənən qurban!
Niyə olmur, gözlərik,
qoy uçsunlar, bala can!



* * *

Dəniz dərdli-kədərli,
fikrə gedib qayalar...
Sahildə həzin-qəmgin
bir balıqçı kəndi var...

## VI

### FÜRSƏT

Arslan çıxdı həyətə,
qovsun qotur bir iti!
Onu gördü, çağırdı
kök bir alman zabiti.

Bir təpik vurub dedi:
– Hə, aldınmı payını?..
İndi get çağır gəlsin
öz partizan dayını!..

Al görüm bu baltanı, –
çox fikir etmə, ziyandır, –
Bu bağçadan bizimçün
yandırmağa odun qır!

Arslan bu ağacları
öz əliylə əkmişdi.
Hər biriyçin min qayğı,
min əziyyət çəkmişdi.

Arslan aldı əlinə
iti polad baltanı;
baxdı, baxdı zabitə
beyninə vurdu qanı.

Var gücüylə qaldırdı
baltanı birdən Arslan.
Zabit yarpaqtək əsdi,
rəngi qaçdı qorxudan...

Ancaq Arslan qaldırıb
baltanı xeyli uca
vurdu... – Yox... zabitə yox, –
yamyaşıl bir ağaca...

Sonra zabit əmr etdi
həyətdə soldatlara, –
bir maşını boşaldıb
daşıdılar anbara...

Arslan baxdı gizlicə,
qutular çox ağırdı.
Soldatların üzündən
tər və zəhər yağırdı.

Bildi ki, qumbaradır,
gülllədir, bunlar bütün.
Vətən övladlarına
yağdıracaqlar bir gün...

Arslan düşündü bir an:
Evin altı anbardı;
bir azca kənarda da
susuz bir quyu vardı...

Deməк, ordan anbara
bir lağım atmaq olar.
Bu faşist yuvasını
onda partlatmaq olar!..

Arslanın bu planı
xəyal deyil, gerçəkdi,
Ona da çoxdan bəri
belə fürsət gərəkdi!..



* * *

Dəniz bərk uğuldayır,
qıjıldayır qayalar.
Sahildə qəzəblənən
bir balıqçı kəndi var!

## VII

### QORXUNC KÖLGƏ

Gecə...
Heç bir işıq yox,
göylər qara, yer qara.
Ulduzlar da gömülüb
qapqara buludlara...

Gecə səssiz-səmirsiz,
sükut qəlbləri dəlir.
Yalnız hərdən uzaqdan
tutqun top səsi gəlir.

Gecə tənha, kimsə yox,
kənd bomboş məzarlıqtək:
qapıda qorxa-qorxa
bir keşikçi durub tək...

Gecələr...
düşmənlərə
əzab olan gecələr.
Gecələr...
düşmənlərə
yoxdur aman, gecələr!..

Gecələr düşmənlərin
qəlbinə qorxu dolur:
Burda bir kölgə gəzir,
baxan kimi yox olur...

Keşikçi tir-tir əsir,
kim bilir, yenə bəlkə
gözünə görünəcək
o qorxunc, sirli kölgə?..

Budur, yenə də gəlir,
gah qalxır, gah sürünür;
gecənin zülmətində
gah itir, gah görünür...

Bu qorxunc kölgə nədir?
Bunu bilmək mahaldır, –
intiqam pərisimi,
yoxsa boş bir xəyaldır?!

Yox, yox, bu canlı kölgə
nə xəyaldır, nə pəri –
Bizim igid Arslandır
yatmayır gecələri...

Partizanlarla gizlin
görüşüb, olub əlbir.
Düşmənləri qırmağa
görüblər belə tədbir:

Zülmət çöküb bayırdan
əl-ayaq çəkilincə,
Arslan susuz quyuya
gedib girir hər gecə...

Quyudan addım-addım
anbara lağım atır:
yavaş-yavaş binanın
özül daşına çatır...

Yuvadan qaranquşlar
uçacaq bu gün-sabah...
Nə çətindir intizar,
nə dadlıdır ümid, ah!..



* * *

Dəniz susur, dinməyir,
pıçıldaşır qayalar.
Sahildə vahiməli
bir balıqçı kəndi var...

## VIII

## QARANQUŞLAR UÇDULAR

Sübh oldu, bir qızartı
çökdü üfüqə, suya;
otlara, yarpaqlara
qan çilənmişdi guya.

Günəş qanlı nəzərlə
boylananda hər yana,
sanki bir pəri qızı
boyanmışdı al qana...

Arslan dedi:
– Nənəcan!
Qaranquşlar uçdular!
Hazırlaş, yavaş-yavaş
bizə də getmək olar.

Ancaq nöyütqabının
yerini söylə, gedim,
onu ağla gəlməyən
bir bucaqda gizlədim.

Düşmənə bir damcı da
yanacaq qoymayaq biz,
çünki belə əmr edib –
partizan sərkərdəmiz...

– Odur hey, təndirdədir,
götür apar, balacan!
Ağlına, kamalına
bu qoca nənən qurban!

Onlar düşdülər yola,
dərə-təpə keçdilər.
Bir neçə saat sonra
Meşəyə yetişdilər.

Dəniz həsrət içində,
gözü yolda qayalar.
Sahildə intizarlı
Bir balıqçı kəndi var...

## IX

### CANAVARIN BAYRAMI

Meşə...
Dörd bir tərəfi
sərt qayalar, dik dağlar...
Meşə...
Moruq, çiyələk,
durnagözlü bulaqlar...

Meşə əzəldən bəri
məskən olmuş insana.
Həyat mübarizəsi
burda gəlmiş meydana.

Burda hər bir mağara,
hər bir zağa, hər qaya
şahid olmuş kim bilir
neçə qanlı qovğaya:

Burda qədim babalar,
ayılarla, fillərlə



gəlmiş pəncə-pəncəyə, –
çarpışmış yüz illərlə...

Can qurtarmaqçın vəhşi,
azğın yırtıcılardan,
bura pənah gətirmiş,
bura sığınmış insan...

İndi də əsrimizin
qaniçən vəhşiləri
yırtıcılıqda ötmüş
o keçən vəhşiləri...

Budur, bax, arvad-uşaq
qaçıb qandan-ölümdən,
yenə doğma meşəni
etmiş özünə məskən.

Kimi qazmaya girmiş,
mağarada oturmuş.
Kimi də budaqlardan
özünə dəyə qurmuş...

Hamının qəlbi qırıq,
hamının gözündə yaş,
kimi ata itirmiş,
kimi də bacı-qardaş...

Arslangilin başına
yığıldı qohum-tanış,
dedilər:
– Kənddə nə var?
Tez ol, barı bir danış!

Arslan dedi:
– Nə deyim,
bir söz tapmıram buna...
Bir sürü ac qurd girmiş
arslanların yurduna...

Ancaq... bir xəbər də var,
deyim sizə gizlicə:
deyəsən kənddə bayram
edəcəklər bu gecə...

– Nə bayram? Necə bayram?
Bu vaxt bayram olarmı?
Kənd bomboş bir xaraba...
Bayramın yeri varmı?..

Arslan inamla dedi:
– Olar, yoldaşlar! Olar!
Hər yasın, hər bayramın
özünün bir hökmü var!..

Bəli, bu gecə kənddə
atəşbazlıq olacaq,
üfüqlər bu atəşin
şöləsilə dolacaq.

Vəhşilər nərə çəkib,
ulaşıb hürəcəklər.
qanlı "zəfərlərinin"
dadını görəcəklər...

İstəyirsiniz keçin
bu balaca dərəni.
Seyr eləyin uzaqdan
gecə bu mənzərəni!

* * *

Dəniz coşqun, əsəbi,
həyəcanlıdır qayalar!
Sahildə qəlbi dolu
bir balıqçı kəndi var...



## X

### AZAD HƏYAT YOLUNDA

Gecə kardır, gecə lal,
hər yan qapqara zülmət.
Nə qədər ləzzətliymiş
işıq, gün, azad həyat!

Azad həyat yolunda
Ölümə gedir Arslan:
Dik atıldı dənizə
sıldırım bir qayadan.

Amandır, ana dəniz,
çox yorma mərd oğlunu!
Ana dəniz, amandır,
sahilə çatdır onu!

Arslan yetişdi evə,
səssiz girdi içəri.
Bircə anda topladı
lazım olan şeyləri:
Odlu Azərbaycanın
ürəyini, qanını,
əziz dəftərlərini,
nənənin Quranını...
Aldı, düşdü quyuya,
getdi divara çatdı.
Bir neçə böyük daşı
səssiz çıxartdı, atdı...

Anbar...
Qumbaralarla,
barıtla dolu anbar...
Üstündə sərxoş yatmış
bir sürü ac canavar...

Arslan dəftər-kitabı
parça-parça edərək,
üstünə neft çiləyib,
sonra da od vurantək, –

Özü quyudan çıxdı
güllə kimi bir anda...
Arslan səssiz yüyürüb
qayalığa çatanda, –
dəhşətli bir partlayış
yeri-göyü titrətdi.
Bir yığın canavarı
bircə anda məhv etdi.

Zəfər kimi yüksəldi
onun gurlayan səsi.
Qaranlıqları dəldi
şimşək kimi şöləsi...

Aydınlatdı sahildə
Arslanın heykəlini,
qaya əyildi, öpdü
qəhrəmanın əlini...

Dəniz məğrur, vüqarlı,
od püskürür qayalar:
Sahildə üsyan edən
bir balıqçı kəndi var!

*1943*



## LEYLA

### I

Dağlar, vüqarlı dağlar,
dik başı qarlı dağlar,
şahin, qartallar yurdu,
möhkəm ilqarlı dağlar!

Dağların ətəkləri
bərəkətli düzənlər,
qan-tərlə suvarılmış
burda hər bir qarış yer.
Bağ, bağça, tarla, bostan,
çəmənliklər, otlaqlar,
sonalı sədəf göllər,
sərin sulu bulaqlar...
Yurd salıb, yuva tikmiş
burda min ildən bəri
Qafqaz ətəklərinin
igid qardaş elləri.
Qaraçaylı, kabardin,
Noqay, osetin, inquş,
əsrlərcə döyüşdə,
əməkdə qardaş olmuş;
xoş gündə, qara gündə
əl-ələ vermiş hamı:
birgə qarşılamışlar,
həm yası, həm bayramı.
Çox cahangir at başı
salıb gəlmiş bu yurda;
çoxları öz qanında
boğulub qalmış burda.
Qaçan qaçmış, qırılan
məhv olub getmiş... Yenə
bu gözəl ölkə qalmış
öz əsil sahibinə...

II

Yamacda bir gözəl kənd,
üstünə bulud çökmüş.
Təbiət qəzəblidir,
qaşqabağını tökmüş.
Çiskin, duman, qırov, çən, –
payız yelləri əsir;
dağların buz nəfəsi
iti qılınctək kəsir.
Hər yerə çökmüş xəzan,
bağ-bağçalar sapsarı,
qırılmış qovaqların
qolları, budaqları.
Nə bir bülbül səsi var,
nə də güldən bir əsər.
Hər tərəfi bürümüş
matəm, qüssə, qəm, kədər.
Nə bir quzu mələyir,
nə gəlir insan səsi, –
arabir əks eləyir
ac qurdların nərəsi...

III

O nədir?.. Bir tərəfdən
ucalır tüstü-duman;
görəsən yenə çöldə
tonqal qalamış çoban?
Yox, yox, bu tonqal deyil,
bir daxmacıqdır, yanır,
alov coşur get-gedə,
od buluda dayanır.
Bəs niyə söndürməyir
yanan daxmanı heç kəs?!
Odur, bir dəstə adam
niyə gendən baxır bəs?..



Ah, bunlar adam deyil,
bir sürü canavarmış,
yalnız gendən baxanda
adama oxşarlarmış...
Bunlar hitlerçilərdir, –
odlamışlar daxmanı,
bəlkə soyuq Berlində
qızsın Hitlerin canı.
Daxmanın "təqsiri" var:
sahibi partizandır:
onu tutmaq çətinsə,
ev yandırmaq asandır...

Faşistlər neçə aydır
soxulmuşlar bu kəndə, –
"igidlik" göstərirlər
ələ fürsət düşəndə.

Odur, iki arvadı
asmış onlar saçından.
Kənddə qalanları da
öldürürlər acından.

Ancaq nə dar ağacı,
nə qanlı işgəncələr
kəndin igidlərinə
əsla eləmir əsər.
Hər gün telefonların
məftilləri kəsilir:
ya bir neçə faşistin
sərsəm başı əzilir;
ya görürsən od düşür
taxıl dolu anbara,
ya partlayır körpüdə,
qərargahda qumbara...

Komendant hey axtarır –
bunları kimdir edən?
Kəndin yolu bağlıdır,

nə gələn var, nə gedən.
Kəndi "təmizləmişlər",
burda qalanlar ancaq
qarılar, qocalardır,
beş-on da oğul-uşaq...

Komendant anlamamış,
anlaya bilməz bunu:
bizim uşaqlar necə
sevir ana yurdunu!..

IV

Kəndin yanmış yerində
qaralır bir zirzəmi;
kənardan baxanları
qorxudur bu görkəmi.
Ev yanıb külə dönmüş,
uçmuş damı, eyvanı;
qorxunc bir xarabadır
hər tərəfi, hər yanı...

Burda gənc partizanlar
yığışırlar gizlicə;
yenə də gəlib hamı,
burdadırlar bu gecə.
Zirzəmidən kənara
çıxmır onların səsi,
yavaşca oxuyurlar
gənc partizan nəğməsi:

N ə ğ m ə

"Ana yurd, əziz Vətən,
sevirik səni candan!
Əziz yurd, ana Vətən,
canımız sənə qurban!



Mehriban ana qoynun
boyandı al qanlara;
oğlun-qızın sürüldü
yad elə, zindanlara.

And olsun əmdiyimiz
təmiz ana südünə!
And olsun babaların
müqəddəs öyüdünə!

Qoymarıq gül bağında
qarğalar salsın məkan.
Ana yurd, əziz Vətən,
canımız sənə qurban!"

Nəğmə bitdi, hamısı
hörmətlə susdu bir an;
coşdu ürəklərində
müqəddəs bir həyəcan.
Sonra dəstə rəhbəri
komsomolçu Xaspolad
dedi:
– Yoldaşlar, bu gün
radiomuz, son saat
çox fərəhli bir xəbər
verdi, söyləyim sizə;
yeni bir qüvvət gəlsin,
sizin də qəlbinizə:
Qəhrəman Qızıl Ordu
bərk əzmiş faşistləri;
indi onlar döyülmüş
köpəktək qaçır geri...

Hamının gözlərində
ümid işığı yandı:
bu şad xəbər səssizcə
ürəkdən alqışlandı.

Xaspolad davam etdi:
– Ancaq bircə iş də var,
bəd olar, bilirsiniz,
yaralanmış canavar.
Onlar geri qaçarkən, –
bizə qalmasın, – deyə,
döndərirlər hər kəndi,
şəhəri xarabəyə.
Azuqəni, sursatı
aparırlar, gedirlər.
Adamları ya əsir,
ya da tələf edirlər.
Ancaq bir yandan Ordu,
partizanlar bir yandan
düşmənə göz açmağa
əsla vermirlər aman.
İndi daha məsuldur
bizim də vəzifəmiz,
birə-on qat artıraq
işimizi gərək biz...

Birdən bayırda pişik
miyoltusu duyanda,
şamı söndürüb, hamı
dik qalxdı tez, bir anda.
Bir az sonra miyoltu
bir də təkrar edərkən,
bildilər özgə deyil,
özlərinkidir gələn.
Yenə şam yandırıldı,
gəldi addım səsləri,
dağların igid qızı –
Leyla girdi içəri.

Bu dəstədə hamıdan
kiçikdi bu gələn qız.
On ikicə yaşına
bu il girmişdi yalnız,



hamı sevirdi onu;
Leyla gözəl-göyçəkdi,
həm ağıllı-kamallı,
həm də qoçaq-zirəkdi...
Meşənin ortasında
bir daxmaları vardı.
Atası sülh zamanı
bu meşəyə baxardı.
İndi partizanlara
Başçı idi meşədə.
atadan yadigardı
Bu meşə də, peşə də...

Leyla – partizan qızı,
partizanın nəvəsi,
rabitəçilik idi
dəstədə vəzifəsi.
İndi də bu dəstəyə.
tapşırıq gətirmişdi.
Bu, düşməni boğmaqçın
Vacib, mühüm bir işdi...

Kəndin hər üç tərəfi
dik qayalar, meşələr...
Burdan qaçanda düşmən
bir yerdən keçə bilər.
Bircə tərəfdən ancaq –
bütün ili: qış, yaz, yay, –
axır sahili dimdik,
dərin, dalğalı bir çay.
Bu çayın üstündəki
körpü partlasa əgər,
çıxa bilməz bu kənddən
faşistlərdən bir nəfər...

Leyla bu tapşırığı
Xaspolada yetirdi;
partizanlar göndərən
bağlamanı da verdi...

## V

Kənddə bərk vurnuxmadır;
soldatlar ac qurdlartək
gəzirlər həyətləri,
soyğunçuluq edərək.
Komendantın üzündən,
gözündən zəhər yağır;
ağzı alov püskürür,
gözləri şimşək çaxır.
Tələsik taxıl-sursat
yüklənir maşınlara.
Zabitlər girir-çıxır, –
Hamının qanı qara...

Ordumuz zəhər qatmış
quldurların aşına.
Kim bilir, nə gələcək
Hər birinin başına?

Bu gecə sübh olunca
əngəl çıxmasa əgər,
kəndi yaxıb-yandırıb
körpünü keçəcəklər...
Ancaq hələ gündüzdür,
top səsləri ucalır, –
bu, qorxaq cəlladların
canına qorxu salır...

## VI

Leyla tanış cığırla
meşəyə qayıdanda,
birdən hənirti duyub,
səs eşitdi...
Bir anda
o, hürkmüş cüyür kimi



sıçrayıb qaçan zaman,
dörd-beş tüfəng açıldı, –
taq-taq, taraq...
Hər yandan...
Ayağından bir güllə
yaraladı Leylanı...
Beş canavar sürüdü
bir yaralı ceyranı...

Bir cındır sarıyaraq
yaralı ayağına,
saldılar komendantın
bəzəkli otağına.
Komendant çağırtdırıb
koxanı hüzuruna,
tanımaqçın göstərdi
yaralı qızı ona.

Koxanı elə bil ki,
qəlbindən ilan çaldı;
qarğa qarıltısıtək
murdar səsi ucaldı:

– Ax, ay komendant ağa,
bu şeytan qırmızıdır!
Partizanlar başçısı
Qandəmirin qızıdır!
Yəqin mühüm bir işçin
gəlib bu qız bu kəndə...
Ax, küçük!
– deyə, qıza
bir təpik endirəndə, –
Komendantın Leylaya
sanki ürəyi yandı.
Ayağını döyərək,
koxaya acıqlandı.
Tez bir həkim çağırdıb
sarıtdı yarasını,

sildirdi üst-başının
qanını-qarasını...
Komendant, – qoca tülkü
hiylə etmək istədi.
Leylanı aldatmaqçın
şirin dil ilə dedi:

– Dünən gecə yuxuda
öz qızımı görmüşəm;
Allaha and içərək,
qızıma söz vermişəm.
Yaxşılıq edəm gərək
mən burda uşaqlara.
Axı mən də atayam.
Ata hara, zülm hara?..
Qızım, bu heyvan kimi
soldatlara baxma sən.
Mən atayam, heç əsla
qorxub çəkinmə məndən!
Bilirəm, çox sevirsən
öz atanı, ananı.
İndi öz əlindədir
bil ki, onların canı...
Bu dava bu gün-sabah
bitəcək, qurtaracaq.
Qızım, sən ağıllı ol,
bircə şeyi bil ancaq:
inadcıllar boş yerə
öləcək-öldürəcək;
dünyanın ləzzətini
sağ qalanlar görəcək.
Sən, gəl düzünü söylə:
hardadır atan-anan?
Mən sənə söz verirəm –
öz qızımın adından:
onları bağışlaram
sənin göyçək üzünə.



Bil ki, sevən bir ata
sadiq olar sözünə.
Kəndə koxa qoyaram
sənin qoçaq atanı.
Varlanar-dövlətlənər,
artar şöhrəti-şanı.
Bir də söylə, gözəl qız,
bu kəndə necə keçdin?
Hara, kimin yanına
nə iş üçün gəlmişdin?..

Qız dinmədi... Zabitsə,
yandırıb bir siqara,
dedi: – Qızım, necədir,
çox ağrıtmır ki, yaran?
Fikir etmə, çox çəkməz,
bir həftəyə sağalar.
Ölüm pisdir...
Yaranın
hər zaman əlacı var...
Hə, nə deyirdim, qızım!..
Bil ki, özün bilmədən,
qanlı bir fəlakətə
səbəb ola bilərsən!..
Hamı həlak olacaq
açıb deməsən əgər...
Bil ki, qızım, sənə də
bundan çox ziyan dəyər!..
Xilaskar bir mələk ol,
sözlərimə qulaq as.
Atanı, dostlarını –
hamını eylə xilas!..
Ah... mənim əziz qızım
necə bənzəyir sənə!..
Qızım, niyə dinmirsən?
Bir kəlmə dillənsənə!..
Leyla dözə bilmədi

bu saxta ahü-zara:
altdan-yuxarı baxdı
hiyləgər canavara.
Dedi:
– Kimsən, bilmirəm:
bilirəm ki, zabitsən.
Sən də qana susamış
quduz, azğın bir itsən!
Sən "mələksənmiş", onda
bəs burda kim hakimdir?
Arvadları saçından
asdıran cəllad kimdir?
Sən kimsən? Neçin gəldin
söylə, bu əziz yurda?
Babanın kəlləsimi
basdırılmışdı burda?!.

Zabitin boğazından
qopdu vəhşi bir nərə.
Həmin saat qapıdan
girdi iki heyvərə.
Qızı süpürlədilər,
qudurmuş canavartək.
Zabit dil-dodağını
qəzəbdən gəmirərək,
donquldanıb, yaralı
qabantək öz-özünə,
közərmiş siqarını
basdı qızın üzünə...
Əmr etdi cəlladlara:
– Aparın bu çuşkanı!
Salın buzlu anbara,
bir az qızışsın canı...
Duz basın yarasına,
hörüklərindən asın!
Qoy alman zabitinin
qüdrətini anlasın!..



VII

Gecə keçib yarıdan,
göyün üzü ləkəli.
Könüllər intizarda,
ürəklər səksəkəli...

Kəndə lap yaxınlaşıb
Qızıl Ordu hissəsi.
Yolu kəsib arxadan
partizanlar dəstəsi.
Bir işarə gözləyir
qəti hücuma hamı:
– Görəsən necə oldu,
körpü partlayacaqmı?!.
Leyla soyuq zindanda
asılmış saçlarından.
Duz kəsir yarasını,
ancaq etmir ah-aman...
Onun da indi yalnız
bir şeydir arzu-kamı.
Düşünür:
"Necə oldu,
körpü partlayacaqmı?!"

Buztək suyun içində
üzür qoçaq Xaspolad.
Qoltuğunda dinamit,
qəlbində möhkəm səbat:

"Biz qalib gələcəyik!..
Bizim işimiz haqdır!.."

Belə düşünür:
– Hökmən
körpü, partlayacaqdır!..

Dəhşətli bir gurultu...
Yer-göy lərzəyə gəldi.

Bu səs:
– İrəli! Hücum! –
əmri kimi yüksəldi...

Üfüqlər aydınlaşıb,
dan yeri söküləndə,
qəhrəman Qızıl Ordu
artıq girmişdi kəndə...

Kənddən çıxa bilmədi
düşmənlərdən bir nəfər...
“Düşmən təslim olmasa,
onu məhv eləyərlər!..”

VIII

Komendantlıq binası
odlar içində yanır.
Tüstü ucalır göyə,
Buludtək dalğalanır...

Leyla ordadır, aman!..
Bunu varmı bir bilən?!
Kimdir üstü-başı yaş,
belə yüyürüb gələn?!

Xaspolad ildırımtək
cumdu oda bir anda.
Çıxdı bir azdan sonra
Leyla da qucağında...

– Aman, sağdırmı Leyla?
– Sağdır, oxucum, sağdır!
Leyla xoş gün görəcək,
azad yaşayacaqdır!..

*1943*



## BOZ BÜLBÜLÜN NƏĞMƏLƏRİ

*Payız nağılı*

Yay qurtardı, gəldi payız;
Səhər-axşam hava sərin,
Şux rəngləri soldu bütün
Yarpaqların, çiçəklərin.

Sarı-qızıl rəngə çaldı
Çəmənlər də, ağaclar da;
Şirələnib dada gəldi
Alma-armud ağaclarda.

Şeh düşəndə üstlərinə,
Bağ-bağçalarda meyvələr
Dondurmatək şirin olur,
Sərin olur səhər-səhər.

Göy üzündə ağır-ağır
Qara-boz buludlar gəzir;
Çiskin olur, yağış yağır,
Qırov düşür, külək əsir.

Bağçalarda, meşələrdə
Hər yer yumşaqdır, nəmişdir;
Sanki yerə allı-güllü
Əlvan xalça döşənmişdir.

Qaranquşlar, boz bülbüllər
Uçur isti ölkələrə;
Ördək, qaz, qu qatar-qatar
Qonaq gəlir bizim yerə.

Bağçalarda boz bülbüllər
Duyur qışın nəfəsini,
Gecə-gündüz oxuyurlar
Bu fəslin son nəğməsini...

***

Ovçu Eliş, qoçaq Aytək,
Payız günü səhər-səhər,
Yanlarında zirək Çapal,
Ovdan evə gəlirdilər...
Gördülər bir qoca bağban,
Becərir bir bağça-bağı;
Pambıq kimi saç-saqqalı,
Dəmir kimi əl-ayağı...
Salam verdilər qocaya
Hörmət ilə Eliş, Aytək.
Eliş dedi:
– Ay əmican,
Biz də sizə kömək edək!

Qoca bağban gülüb dedi:
– Çox sağ olun, ay qoçaqlar,
Yox, aldada bilməzsiniz,
Bilirəm, kələyiniz var...

Eliş dedi:
– Yox, əmican, kələk nədir?
Aytək dedi:
– Əmican, nə deyirsiniz?
Bağban dedi:
– Mənə kömək edə-edə,
Yəqin, məndən bağbanlığı
Öyrənmək istəyirsiniz!
Sözüm yoxdur, edin kömək, –
Ancaq bunun üçün bir cüt
Kəklik verəsiniz gərək!..

Eliş, Aytək gülə-gülə
Dedilər ki:
– Ay əmican,
Bir cüt nədir, buyurunuz,
Lap hamısı sizə qurban!.. –



Deyib gülüşə-gülüşə
Girişdilər onlar işə:
Əkdilər bir neçə tənək
Bir neçə calaq vurdular.
İşlədilər...
Sonra gəlib
Dincəlməyə oturdular.
Qoca bağban alma-armud,
Üzüm gətirdi süfrəyə.
Onlar şirin söhbət etdi
Meyvələrdən yeyə-yeyə...

Aytək dedi:
– Ay əmican,
Nə dadlıdır bu meyvələr!

– Niyə belə ləzzətlidir? –
Deyib soruşdu Elsevər.
Bağban dedi gülə-gülə:
– Yeyin, yeyin, ay balalar!
Bu tək meyvə dadı deyil,
Bir də zəhmətin dadı var!..
Eliş dedi:
– Ay əmican, bu bağı siz
Təkcəmi becərirsiniz?
Bağban dedi:
– Tək əldən səs çıxmaz, oğul!
Təklikdə bir fayda yoxdur...
Məktəbindir bu böyük bağ,
Mənim gənc köməkçim çoxdur...
Ancaq elə bu saat da
Çoxdur mənə kömək edən.
Əgər yaxşı-yaxşı baxsan,
Özün onları görərsən!

Eliş, Aytək boylandılar,
Çox baxdılar hər ikisi:
Ancaq bağda görmədilər
Heç bir kəsi...

Bağban gülə-gülə dedi:
– Görmədiniz? Baxın ora,
O xırdaca arılara...
Onlar bizə bal da verir,
Həm də yazda
Çiçəklərə qona-qona
Gəzir bir-bir ağacları,
Çiçək tozu
Aşılayır bundan ona...
Bax, bu bağı becərməkdə,
Çil sığırçın, sarıköynək,
Qumru, bülbül, ağacdələn –
Hamı mənə edir kömək...
Sevin, qoruyun quşları!
Yaxşı bilin, ay balalar!
Yediyiniz meyvələrdə
Onların da zəhməti var!..
Odur, baxın o ağacda
Cəh-cəh vuran boz bülbülə!
Səhər-axşam sevə-sevə
Nəğmə deyir qızılgülə.
O da bizim ağaclarda
Yuva qurur...
Balalara yem axtarır,
Gündə yüz-yüz cücü qırır...
Həmin bülbül bu bağçada
Yuva qurub yazdan bəri,
İndi daha böyütmüşdür,
Uçurtmuşdur körpələri.
Hər gün qonur bu bağçada
Bu vaxt uca bir budağa,
Başlayır öz şirin-gözəl
Nəğməsini oxumağa...

Qoca bağban, Eliş, Aytək
Alma-armud yeyirdilər.
Bülbülün də nəğməsini
Ləzzətlə dinləyirdilər.



Birdən quşun gözəl səsi
Kəsildi, boğulan kimi;
Elə bil ki, şirin yerdə
Birdən qopdu tarın simi.
Aytək gördü bir yekə ley,
Aldı onu çaynağına,
Dik havaya qalxdı, aman!..
Aytək çığırdı ucadan:
– Eliş! Dur, dur!
Boz bülbülü ley apardı!
Qoyma, tez ol, dur, leyi vur!..

Eliş qapdı tüfəngini,
Yaman atdı, yaman vurdu!
O qaniçən quldur leyin
Lap dümdüz başından vurdu!..
Bülbül düşdü caynağından
Xəzəl olmuş bir yarpaqtək,
Ley yayıldı qaldı yerdə
Çoxdan ölmüş yapalaqtək...

Bacı-qardaş, boz bülbülü
Axtardılar, tapmadılar.
Səslədilər tez Çapalı:
– Çapal, axtar!
– Çapal, axtar!
Çapal sıx bir kola girdi;
Çox vurnuxdu, çox axtardı;
Bülbülü tapdı, gətirdi...

Yazıq bülbül qan içində,
Duyulmurdu heç nəfəsi,
Açıb-yumurdu ağzını,
Ancaq heç çıxmırdı səsi.
Balaları qəmli-qəmli
Boylanırdı dörd bir yana,
Aytək, Eliş baxırdılar
Ürəkləri yana-yana...

Aytək onu yavaş-yavaş
Götürdü, evə apardı.
Tumarlaya-tumarlaya
Yarasını yudu, sardı.
Damcı-damcı su içirtdi,
Su çilədi üz-gözünə,
Yazıq bülbül yavaş-yavaş
Dirçəldi, gəldi özünə.
Hər gün ona öz vaxtında
Dən də, su da verdi Aytək;
Qəfəsinin dövrəsinə
Düzdü rəngbərəng gül-çiçək.
Xoş havada bir ağacdan
Asırdı o, qəfəsini;
Oxuyurdu yavaş-yavaş
Bülbül də öz nəğməsini.
Balaları, yoldaşları
Yığışırdı dövrəsinə;
Qoşurdular səslərini
Boz bülbülün xoş səsinə...

Ancaq hava soyuduqca,
Bülbüllər də azalırdı,
Köçüb getmək vaxtı idi;
Daha qışa az qalırdı...

Bir gün balaları dedi:
– Ata, bəs biz necə edək?
Sənsiz yolda qırılarıq,
Ata, gedək! Ata, gedək!..

Ata bülbül çıxmaq üçün
Çırpdı özünü qəfəsə,
Elsevərlə, Aytək də
Eşidib gəldilər səsə.
Gördülər ki, yarasından
Hələ axır az-az al qan, –



Aytək dedi:
– A bülbülcan;
Hələ bizdə bir az da qal.
Hər gün sənə dən-su verim,
Sağal, yaxşı-yaxşı sağal!

Balalar da budaqlardan
Səsləndilər:
– Qal, nə olar?
Qal, atacan, yaxşı sağal,
Hələ ki xoşdur havalar...

Bülbül dedi:
– Çarə yoxdur,
Bir neçə gün qalam gərək...
Sonra daha necə olsa,
gərək gedək!..
Aytək dedi gülə-gülə
boz bülbülə:
– Niyə belə darıxırsan?
Bu çöllərdə nə var məgər?..

Bülbül dedi:
– Bu sözləri söyləməzdin
Mən biləni bilsən əgər;
Bilirsənmi, gün doğmadan,
Səhər-səhər meh əsəndə,
Gül-çiçəklər necə gözəl
Ətir saçır çöl-çəməndə!

Bilirsənmi, dan qızarıb,
Səhər-səhər şeh düşəndə,
Otlar necə almaz kimi
Parıldaşır dağ döşündə!..

Bilirsənmi, aylı gecə
Yel əsdikcə narın-narın,
Necə gözəl görkəmi var
Göydə üzən buludların!..

Bilirsənmi, şimşək çaxıb
Gurlayanda ildırımlar,
Bir qayanın daldasından
Seyr etməyin nə dadı var!..

Mən qəfəsdə qalsam əgər,
Günüm bəlkə də xoş olar.
Ancaq onda nəğmələrim
Quru, dadsız, bomboş olar!..

Eliş dedi boz bülbülə:
– A boz bülbül, söylə, neçin
Hərdən şən-şən gəlir nəğmən?
Hərdən oxtək lap adamın
Ürəyini dəlir nəğmən?..

Bülbül dedi:
– Bu ellərdə
Qızılgülü şən görəndə,
Dağda lalə, bağda çiçək,
Göy çəmən, gülşən görəndə, –
Sizin kimi balaları
Deyib, gülüşən görəndə, –
Ürəkdən şən gəlir nəğməm!
Sevinclə yüksəlir nəğməm...

Yad ellərdə, yaz günündə
Çən bürüyəndə dağları.
Dustaqxana tikmək üçün
Baltalayanda bağları,
Gözüyaşlı görəndə mən
Körpə-körpə uşaqları, –
Fəryadtək yüksəlir nəğməm,
Ürəkləri dəlir nəğməm!..

Bu ellərdə bağ-bağçalar
Salınanda qum çölündə;
Bataqlıqlar çevriləndə
Allı-güllü qu gölünə;



Dad verəndə şən nəğmələr
İnsanların da könlünə, –
Ürəkdən şən gəlir nəğməm,
Sevinclə yüksəlir nəğməm!

Orda ağ saçlı əmilər
Dava-dava oynayanda;
Öldürməyi, dağıtmağı
Mərdlik, igidlik sayanda,
Göy çəmənlər, əlvan düzlər
Od içində qaynayanda,
Buludlardan su yerinə
Alovlu küllər yağanda;
Bulaqlardan, çeşmələrdən
Zəhərli sular axanda, –
Fəryadtək yüksəlir nəğməm,
Ürəkləri dəlir nəğməm!..

Az ömrümdə yaxşı-yaman
Çox görmüşəm mən dünyada...
Tülkülərdən, çaqqallardan,
Yırtıcı quşlardan, ya da
Bəzi dəcəl uşaqlardan
Çəkdiyim düşəndə yada, –
Gah şən-şən yüksəlir nəğməm,
Gah ürəyi dəlir nəğməm...

Aytək dedi:
– A bülbülcan,
Nə olar ki, bir qədər sən
Danış bizə
Yad ellərdə gördüyündən!
Eliş dedi:
– Danış, danış!
Bülbül dedi:
– Eh, balalar?
Gördüklərim çoxdur mənim.
Nəql eləsəm, uzun olar.
Qulaq asın, deyim sizə

Bunu yalnız,
Nələr gördüm mən gedəndə
Bir ölkədə keçən payız:

Getdik, çatdıq bir ölkəyə;
Xarabaydı hər bir yeri,
Üzügülər görmədik biz
Böyükləri, körpələri.
Gəzdik...
Gecə oldu, qonduq
Bir ağaca biz birtəhər.
Aydınlıq bir gecə idi...
Nələr gördük, aman, nələr:
Yarı uçmuş bir daxmacıq,
Daş-kəsəkdi sağı-solu.
Həyəti yox, bağçası yox,
Böyründə bir tikan kolu...
Yanında bir yekə saray,
Zər naxışlı başdan-başa;
Rəng-rəng büllur çilçıraqlar...
Saray deyil, bir tamaşa!..
Dövrəsində yekə bir bağ;
Lumuluqlar, xurmalıqlar;
Ortada bir böyük hovuz,
İçində qızıl balıqlar...
Bağda var nə meyvə desən:
Armud-alma, gülöyşə nar...
Torpağa tökülüb qalıb
Naringilər, portağallar...
Birdən uçuq daxmacıqdan
Bir zarıltı eşitdim mən.
Uçub kola qondum, görüm
Kimdir belə inildəyən?
Hisli çıraq işığında
Bir xəstə qız, bir də ana...
Yazıq uşaq zarıyırdı
Qızdırmadan yana-yana...
– Yandım, ana! Yandım... mənə



Bir portağal ver, anacan!..
Ana deyir:
– Axı yoxdur,
Portağalı hardan alım,
anan qurban?
Uşaq yanır, sayıqlayır:
– Ana, yandım!.. bir portağal!..

Yazıq arvad durdu axır;
Ona ağır gəldi bu hal...
Çıxdı çölə...
Yerə düşmüş
Bir portağalı götürdü.
Bunu duyub, həyətdəki
İri köpək bərkdən hürdü.
Həyətdən bir nökər çıxıb
Yaxaladı o arvadı...
– Od içində yanır balam!.. –
Deyib yazıq çox yalvardı.
Heç baxmadı nökər, onu
Harasa çəkdi-apardı...
Çox zarıdı, çox inlədi
Səhərədək o yazıq qız:
– Ana, yandım!..
Bir portağal!..

Otaq bomboş, uşaq yalqız...
Sübhə yaxın səsi batdı...
Çıraq söndü...
Elə bildim yazıq yatdı...
Ancaq səhər,
Gördüm, adamlar gəldilər;
Bürüdülər onu ağa,
Apardılar
Yazıq qızı basdırmağa...
Eliş dedi: – Ah, yazıq qız!..
– Ah, yazıq qız!.. –
Dedi Aytək!..

– Bəs dalısı?..
– Dalısını danış görək!..
Bülbül dedi:
– Həmin o gün o sarayda
Xanın oğluna toy oldu.
Tar-kamança, zurna-qaval...
Böyük bir məclis quruldu.
Axşamadək çox yedilər,
Çox içdilər, çox çaldılar...
Gecə oldu əllərinə
İri məşəllər aldılar.
Töküldülər bağ içinə,
Axtardılar hər bir yeri;
Tutub yığdılar kisəyə
Bağdan bütün bülbülləri.
O kisədə mən də vardım...
Bağrımız lap çatlayırdı.
Orda bizi yekə bir əl
Bir-bir tuturdu, sayırdı.
– Bax, bu kökdür, bu arıqdır! –
Deyib bir-bir yoxlayırdı.

Axır seçib ayırdılar
Bu sayaqla bir-bir bizi;
Doldurdular bir qəfəsə,
Saxladılar neçəmizi.
Sonra durdu çox yekəbaş,
Yekəburun, yekəçənə
bir heyvərə...
Gərək ki, xan bu özüydü...
Dedi: – Mənə
Qulaq asın, ay ağalar!
Eşitmişik babalardan:
“Yeyərsən qaz ətini, –
Görərsən ləzzətini!”
Ancaq mənim öz fikrim var:
Düz deməyib heç babalar.
Qaz da, qu da, qırqovul da



Çox görmüşük, çox yemişik.
Amma bülbül kababının
Ləzzətini bilməmişik!
Qaz nə şeydir, toğlu nədir?
Bunların quru adı var.
Bu gün bülbül kababını
Yeyin, görün nə dadı var!..
Bülbül əti yeyilməyib
Məclisində heç bir kəsin...

Sonra dedi nökərinə:
– Qalan bülbülləri kəsin!..
Dönüb bizə baxdı o xan
Dedi:
– Bunları saxlasam,
Gərək yaxşı oxusunlar;
Axı mən də bülbülbazam!..

Səhərədək hay-küy ilə
Kef çəkdilər, əyləndilər.
Göyün üzü tünd qızardı,
Açıldı bir qanlı səhər...

Bütün yazıq bülbüllərin
Boğazlarını üzdülər.
O xırdaca canlarını
Bir-bir şişlərə düzdülər.
Çox keçmədi, kabab gəldi
Bir neçə şiş hər qonağa...

Xan qəfəsləri göstərib,
Durdu yenə də ayağa:
– İndi gərək bunlar bizə
Cəh-cəh ilə nəğmə deyə.
Biz dinləyək bülbülləri,
Bülbül əti yeyə-yeyə!..
Xan:
– Oxuyun! –
Dedi bizə;

Biz dinmədik, dillənmədik.
O çığırdı...
Mən söylədim
Lap gözünün içinə dik:
– Bülbül əti kabab olan
Bir məclisdə, ay bülbülbaz,
Bülbüllər nəğmə oxumaz!
Xan qudurdu, dedi:
– Üzün
Bunların da başlarını!
Ətlərini çəkin şişə,
Qatın öz yoldaşlarına!

Nökər bizə əl atanda,
Xan çığırdı:
– Dayan, aram!
Qoşa-qoşa burax, gərək
Mən bunları
Tüfəng ilə göydə vuram!
Qoy görsünlər qonaqlar da
Tüfəng atmaq necə olar!..

Nökər bizi buraxanda,
Xan da atdı:
– Daranq! Daranq!.. –
Sanki yandım,
alovlandım,
Yer-göy başıma dolandı.
Nə oldu, bilmədim daha...
Ayılanda,
Gördüm, uçuq bir daxmacıq;
Lap azca qalır sabaha...
Bir kiçik qız basıb məni
Sevə-sevə öz bağrına.
Mən köksümdən yaralıyam;
Qızın əli batıb qana...
Mən tərpəşdim, qız sevindi;
Dedi:
– Ana, diridir, bax!..



Mənim quşum sağ qalacaq!..
Çox mehriban bir uşaqdı
o qızcığaz...
Mən özümə gəldim bir az;
Bir neçə gün orda qaldım,
O qız mənə dən-su verdi,
Yavaş-yavaş lap sağaldım.
Qız məni buraxıb dedi:
– Uç, get, quşum!..
Uçdum-getdim, gəzdim yenə
Gəldim bu gözəl vətənə...
Eliş dedi: – A boz bülbül,
Bir də ora getmə!
Səni
Yenə vurar quduz xanlar...
Aytək dedi:
– A bülbülcan,
Getmə, bizdə qal, nə olar!..
Bülbül dedi:
– Yox balalar.
Gərək gedəm, ölkə-ölkə,
Şəhər-şəhər, kənd-kənd gəzəm...
Qəfəsdə qalsam, getməsəm,
Günüm bəlkə də xoş olar,
Amma onda nəğmələrim
Qovuq kimi üstü bəzək,
bomboş olar!
Çox olub ki, mən qalmışam
Bir neçə gün susuz-dənsiz;
Qalmamışam, qalmaram da,
Bir gün də gülsüz-çəmənsiz!..
Aytək dedi:
– Ay bülbülcan,
Yenə ora gedəcəksən?
Eliş dedi:
– Yox, doğrudan,
Söylə, hara gedəcəksən?
Bülbül dedi:
– Yox, oranı gördüm daha,

Bu payız da gedəcəyəm çox uzağa:
Hində, Çinə...

Bu sözləri eşidəntək,
Bir ağızdan Eliş, Aytək
Dedi sevinə-sevinə:
– Bax, bu yaxşı!..
– Bax, bu gözəl!..
Onda bircə arzumuz var:
Bizim eldən o ellərə
Çoxlu-çoxlu salam apar!
Salamat get, salamat gəl!
Çox qalma ha!.. Tez qayıt gəl!

Bir neçə gün gəldi keçdi,
Ayrılmaq vaxtı yetişdi.
Eliş, Aytək bir gün səhər,
Açdılar şən, üzügülər
Boz bülbülün qəfəsini;
Bülbül qondu bir budağa,
Tez başladı oxumağa
Son ayrılıq nəğməsini:

"Çox sağ olun, gül balalar!
Arzunuzu
Yetirərəm mən yerinə,
Çox sağ olun, gül balalar!
Görüşərik bir gün yenə!

Hara getsəm, gələcəyəm;
Yurdum-yuvam bu yerlərdir!
Mən ki burda böyümüşəm,
Elim-obam bu yerlərdir!

Hara getsəm, gələcəyəm;
Gələcəyəm mən bir səhər:
Qanadımda – qızıl günəş,
Ürəyimdə – şən nəğmələr!..

*1955*



# BEŞBARMAQ

## I

### LƏPƏLƏRİN SƏSLƏRİ

Dəniz...
Ruzgar...
Qayalar...
Dağlar kimi dalğalar...
Bu çırpınan ürəkdə
min bir əsrin sirri var...
Min bir əsrin şahidi
hər bir dalğa, hər qaya,
min bir eşqə-sevdaya,
min bir qanlı qovğaya
sirdaş olub bir zaman
qayalarla dalğalar...
Bu çırpınan ürəkdə
min bir əsrin sirri var...

Bəzən dadlı öpüşlərlə
qayaları oxşar dəniz.
Nə küləkdən əsər qalar,
nə dalğadan kiçik bir iz.
Sanki onda pıçıldayar
ləpələrin şirin səsi.
Min bir sirrin içindən bir
sevdalı eşq əfsanəsi.

Bəzən həzin-həzin səslə
hıçqıraraq ağlar sular.
Dalğaların sinəsindən
yanıqlı bir nəğmə qopar.
Sanki tərənnüm eyləyər

ləpələrin həzin səsi
min-min sirrin içindən bir
dərdli sevda təranəsi...
Bəzən tutqun üfüqlərdən
Xəzri qopar gecəyarı
Dəniz ac bir əjdahatək
udmaq istər qayaları.
Onda qəzəb, dəhşət saçar,
hayqıraraq coşar dəniz,
azğın aslan nərəsilə
sahilləri aşar dəniz.
Dalğaların çarpışması
alov saçar, duman saçar,
dik qalxaraq cumar suya,
şahə qalxan bir at kimi.
Qayalardan qayalara
çarpan ağ bir qanad kimi,
çarpışmadan didiklənər
onun ağappaq tükləri,
belə uçar sahillərə
dənizin ağ köpükləri.
Ürəyindən ox vurulmuş
bir yaralı quş səsilə,
azğın-coşqun, ancaq dərdli
bir musiqi bəstəsilə
yada salar onda dəniz
faciəli bir gecəni,
min-min sirrin içindəki
ən dəhşətli faciəni...

## II

## ÖLÜM VƏ QAN SARAYI

Bir zaman Bakı belə
gözəl və şən deyildi.
Sinəsi gül-çiçəkli,



əlvan gülşən deyildi.
Bakının dörd bir yanı
tikanlı səhralardı.
Səmumtək yel əsəndə,
toz adamı boğardı.
Nə bu bağlar, bağçalar,
nə bu evlər-saraylar,
nə göylərlə yarışan
yerdə ulduzlar-aylar,
nə sahildə gecələr
sayrışan bu işıqlar,
boynunda inci kimi
bəzəklər-yaraşıqlar,
nə ölkəyə can verən
bu mədən, fabrik, zavod,
nə bu qaynayan həyat,
nə bu alov, nə bu od,
nə bu əngin fəzada
uçan qanadlı quşlar,
nə bu bərəkətli qış,
nə gül-çiçəkli bahar...

Bir zaman qoca Bakı
sanki xarabazardı.
Bu cəfakeş ölkənin
nə pis günləri vardı!
Üç yanı qumlu-tozlu
qat-qat, boz daş divarlar,
sanki burda nə həyat,
nə ondan bir əsər var.
Daşlarına qəm çökmüş
canlı bir məzarıstan.
Məzarlığın içində
başdaşı kimi qalxan
sağır göydən mərhəmət,
diləyən minarələr,
arada sərsəm kimi

gəzişən avarələr...
Bir qərib qəbri kimi
kimsəsiz Qız qalası, –
dəbdəbəli keçmişin
yetim qalmış balası...
sahil qumluq-bataqlıq,
hər tərəf toz, daş-kəsək.
Nə bir damcı axar su,
nə bir yarpaq, nə çiçək...
Bu dünyaya gələli
görməmiş sanki bahar.
Bahara həsrət qalmış
baxtı qara bir diyar...
Miskin, zavallı, yazıq,
işgəncəli bir həyat.
Nə bir nəşəli mahnı
nə bir şən nəğmə... heyhat!..
Yalnız matəm, ağlaşma,
növhə-sinəzən səsi.
Məzar kimi evlərdən
yüksələn şivən səsi;
inildəyən bir laylay,
beşik qıçırtıları...

Ancaq dəmirçixana
ocaqlarında yanan
alovların şöləsi.
Əsnaflar məhləsində
çəkiclərin gur səsi
deyir ki: – Yox, şəhərin
vuran ürəyi sağdır.
Bu ölkə zəhmət ilə
ağ günə çıxacaqdır!..

Yalnız bircə bina var:
dikbaş, lovğa, qaniçən.
Qorxusundan titrəyir



onun yanından keçən.
Orda yüksəlir göyə
sərsəri qəhqəhələr.
Ən arsız əyyaşların
yeyib-içdiyi bir yer...
Orda ən iyrənc işlər:
səfahət, fisq-fücur,
ən qəddar hökmranlıq,
gülünc-saxta bir qürur.
Zirzəmidə ahü-zar,
məhbuslar dolu zindan...
Bu səslərə qarışıb
yüksəlir göyə əzan.
Yırtıcılar, bayquşlar
yuvası – Xan sarayı...
Ən dəhşətli rəzalət,
ölüm və qan sarayı...
Bu iyrənc mənzərəni
Ağuşunda saxlamış,
sirrini gizlətməkçün
qol açıb qucaqlamış –
üç yanı qumlu-tozlu
qat-qat, boz daş divarlar,
nə bərəkətli bir qış,
nə çiçəkli bir bahar...

## III

### ELOĞLU ELXAN

Bir zaman buralarda
zalım bir xan yaşardı.
Bu qansızın zülmündən
el canından bezardı.
Bu xan da hər xan kimi
Qorxunc bir yol tutmuşdu.

Ölkəsini unutmuş,
elini unutmuşdu.
Xalqın acından sözü
donarkən dodağında,
bu xan, qışlar – sarayda,
yayları – xan bağında
həmişə kef içində
qan içib zövq alardı...
Elin də dönməz üzü,
bükülməz qolu vardı!..

Divanxanada bir gün...
Divarda – zər naxışlar.
Bir dustaq qoca kəndli,
üzü – dərin qırışlar.
Naxışlar – el sənəti,
divarları bəzərdi.
Qırışlar – el qisməti,
elin tükənməz dərdi...

Bu gün... Sazaq, şaxtalı
soyuq bir qış günündə
xan məhkəmə qurmuşdu
divanxana önündə.

Hamıya ibrət olsun,
gözləri qorxsun, – deyə
xalqı toplamışdılar
zorla bu məhkəməyə...

Qocanı gətirdilər.
Yazıq tabsız-tavansız.
Gözləri nurdan düşmüş,
sözləri düz, – yalansız:
– Xan sağ olsun, neyləyim,
quraqlıq keçdi qış-yaz.
Yoxluğun üzü qara, –
yoxdan Allah da ummaz.



Bir sürü yetim nəvəm,
Allah bilir, qaldı ac.
hələ ət-yağ bir yana,
yavan çörəyə möhtac...

– Sus, bəsdir, qoca tülkü!
Mən yoxdan da alaram!
Mən xanam, onu bil ki,
Qan da, can da alaram!..

Fərraşlara əmr etdi,
yıxıb yerə qocanı,
o qədər vurdular ki,
ordaca çıxdı canı.
Yetim-yesir nəvələr
vay-şivən qoparanda,
camaatın içindən
bir şahintək bu anda
bir cavan şığıyaraq, –
səsində qəzəb-vüqar, –
bərkdən çığırdı xana:
– Ey qaniçən canavar!..

Fərraşlar tökülüşdü,
ara qarışdı yaman.
El igidi qoruyub,
tez çıxardı aradan.

Bu qorxubilməz igid
nə bəydi, nə əyandı, –
mərd və aslan ürəkli
çoban oğlu Elxandı.

O gündən xana qarşı
nifrətlə üçyan etmiş,
özü kimi bir dəstə
qoçaq igidlə getmiş,
şahinlər yurdu olan

dağlara çəkilmişdi.
O, çox canlar qurtarmış,
çox göz yaşı silmişdi.
İndi əzilənlərin
o olmuşdu pənahı.
İndi məzlumların da
vardı istinadgahı...

Elxan şəhərdən uzaq,
bu ölkədə, bu eldə-
doğulub böyümüşdü
qayalıq bir sahildə.
Mavigözlü dənizin
o geniş üfüqləri,
dəniz üfüqlərinin
o rəngin şəfəqləri,
hər səhər şüasını
içdiyi gözəl günəş,
hər səhər üfüqlərdən
əsən saf-təmiz külək
onda üfüqtək geniş,
onda odlu günəştək
təmiz, möhkəm, saf, şəffaf
bir ürək yaratmışdı.
Elxan belə böyüyüb
boya-başa çatmışdı.
İndi o el igidi
tanınmış qəhrəmandı.
Dillərdə dastan olan
məşhur qaçaq Elxandı.

Elxanın dərələrdən
köpüklü sellər kimi,
dağlardan-təpələrdən
bac alan yellər kimi
uçan bir atı vardı,
bu at ruzgar qanadlı,
ceyrangözlü boz atdı...



## IV

## XAN QIZI – BAĞBAN QIZI

Xanın öz aləmində
bir dərdi vardı yalnız:
övladı qalmayırdı,
nə bir oğul, nə bir qız.
Gəncliyində uyaraq
kefə, eyş-işrətə,
qul olmuşdu tiryəkə,
səfahətə, şəhvətə.
Odur ki, doğulantək
ölürdü hər övladı.
Alıb bədbəxt etmişdi
neçə yazıq arvadı...

Ancaq bir gecə yenə
xan arvadı doğanda,
elə həmin o gecə,
elə həmin o anda
bağbanın da arvadı
bir qız doğdu, çox gözəl...
Ancaq... Yazıq ananı
aldı-apardı əcəl.
Xanın uşağı öldü,
bağbanınsa – arvadı.
Xan arvadı qorxudan
çox yalvardı-yaxardı.
Axır bağban qızını
verdilər ona övlad.
Xanın könlü açıldı,
üzü güldü, oldu şad.
Qəzanın hökmü ilə
sadə bir bağban qızı
böyüyərək sarayda
tanındı bir xan qızı.

Ancaq yenə axırdı
damarında el qanı.
Ürəyi el ürəyi,
canı da ki, – el canı.
Öz elini-yurdunu
el qızıtək sevirdi.
El ilə həmdərd olub,
el ilə sevinirdi.
Uşaqlıqdan qaynayıb
qarışmışdı el ilə.
Elin uşaqlarıyla
çiyin-çiyinə, əl-ələ
əylənərdi, oynardı.
Uşaqlıq günlərinin
ayrı ləzzəti vardı.
Boy-buxunu sərvtək,
hörüklər qulac-qulac,
qızlarla-oğlanlarla
oynardı "Topaldıqaç",
"Bənövşə-bəndə düşə"
"Keçdi-keçdi", "Gizlənpaç"...
Hoppanardı, üzərdi,
xoş sözü, gül üzüylə
məclisləri bəzərdi.

İndi o böyümüşdü,
on səkkiz yaşı vardı.
El bayramında, toyda
gənclərlə yarışardı.
Qalmazdı ox atmaqda
heç bir oğlandan geri,
ötərdi at çapmaqda
ən adlı igidləri...
El içində böyüyüb
öz elini sevərdi.
Böyüdükcə görürdü
böyükdür elin dərdi!..



Qınardı elin üstə
hərdən öz atasını.
Atası da çəkərdi
tək qızının nazını.
Bəzən qız yeməz-içməz,
günlərlə ac qalardı.
O zalım atasından
axırda izn alardı.
Zindanda nahaq yerə
əzab çəkən, çırpınan
biçarə dustaqları
əzabdan qurtarardı.
Dərdlilər öz dərdinə
ondan dərman arardı.
Öz ağlı-hünəriylə
Dillərdə dastan olan
bu gözəl – Gülbahardı...

## V

## İLK MƏSUM GÖZ YAŞLARI

Bir gün...
Gözəl baharın
sevimli bir günüydü.
Düzlərdə-təpələrdə
güllər, əlvan çiçəklər.
Üstlərində titrəşir
rəngbərəng kəpənəklər.
Açmışdı ürəyini
bülbüllər şux güllərə.
Nazlanırdı kollarda
Güllər də bülbüllərə:
Mavigözlü Xəzərin
o sevdalı səsində,
təbiətin o ilıq,

ətirli nəfəsində
çırpınan bir ürəyin
duyğuları yaşardı.
Bu çırpınan ürəkdən
eşq və sevda daşardı...

Bu səhər Gülbahar da
baharın bəstəsinə,
cəh-cəh ilə ötüşən
bülbüllərin səsinə
qarışıb qəlbə axan
sevdaya qapılmışdı.
Qapılmışdı könlünün
o coşqun həvəsinə.
Yenə də silahlanmış,
geyinmiş, atlanmışdı.
Gənc, coşqun bir tərlantək
sanki qanadlanmışdı.
Qəlbinə dar görünən
üfüqləri aşaraq
uçmuşdu...
At çaparaq.
Bir ceyranın dalınca,
gəlmişdi-yovuşmuşdu
aslanlar yatağına,
qaçaqlar oylağına...

Bakının yaxınında,
sahildən bir az uzaq
sıldırımlı bir dağ var –
əfsanəvi "Beşbarmaq..."
Bura tərlanlar yurdu,
şahinlər yatağıdır.
Bura qoçaq məskəni,
qaçaqlar oylağıdır.
Elxan öz dəstəsilə
etmiş buranı məskən.



Bura pənah gətirir
hər tərəfdən, hər yerdən
xanın, bəyin, darğanın
zülmündən təngə gələn
elin igid ərləri.
İndi "Beşbarmaq" olmuş
mərd igidlər yığnağı,
elin-yurdun pənahı,
xana-bəyə göz dağı!..

Sübhə azca qalıbdır,
işıqlanır üfüqlər.
Dənizdən çıxan günəş
saçır əlvan şəfəqlər.
Elxanın da bu səhər
bir görünməz, gizli əl
röyasına əfsunlar,
əfsanələr qatmışdı.
Onu da sanki bir səs
yuxudan oyatmışdı.
Dərd bilməz ürəyində
kədər duymuş o sabah,
o aslan ürəyindən
qopmuşdu odlu bir ah...

...Nədənsə uşaqlığı
düşmüşdü xatirinə,
gedər-gəlməz günləri
xatırlayırdı yenə...

Yenə belə bir səhər...
Sevimli yaz sabahı,
sevişərkən göylə yer, –
yaymışdı sürüsünü
bağ yanında otlağa.
O səhər Gülbahar da
gəzməyə gəlmiş bağa.

Bir yerdə hər ikisi
xeyli oynamışdılar.
Rəngbərəng çiçəklərdən
dərmişdilər o ki var.
Bunlardan tac hörərək
quzuların başına,
gülmüş, əylənmişdilər...

Bəli, belə bir səhər!..
Onlar belə sevinclə
gülüşüb əylənərkən,
sanki şimşəklər çaxmış,
göy gurlamışdı birdən.
Xan, görmüşdü onları,
coşmuşdu, qudurmuşdu.
Elxanı söyüb qovmuş,
qamçısıyla vurmuşdu.
Acığından qışqırıb
Ağlamışdı Gülbahar...
Ah... Məsum göz yaşları!
Ah... O ilk məsum yaşlar!..
Bu göz yaşı suvardı
hələ kiçik Elxanın
incik qəlbindəkini.
O gündən bəri vardı
Onun qəlbində kini,
Göz yaşları tökdürən
o qoca zalım xana...

Röyasında o gecə
görünmüşdü Gülbahar,
yanağında göz yaşı, –
o saf, o məsum yaşlar...
Dərdbilməz ürəyində
kədər duymuş o sabah,
o aslan ürəyindən
qopmuşdu odlu bir ah...



İndi Elxan da qalxmış,
geyinmiş, atlanmışdı.
Gənc və coşqun şahintək
sanki qanadlanmışdı.
Dağıtmaqçın könlünün
dərdini-ələmini,
unutmaqçın qəlbinin
ovudulmaz qəmini.
Boz atla dağdan enib
kol-kosları yarırdı.
Çiynində oxu-yayı,
o da ov axtarırdı...

Boz atı çapa-çapa,
bir təpəni enərkən,
qarşıda batdaq kimi,
at keçməyən bir yerdən
bir ceyran çıxdı birdən, –
dalınca çapan atlı
keçə bilmədi ordan,
bu ləzzətli, bu dadlı
ovu çıxdı əlindən.
Bunu görəndə Elxan,
şığıyıb sanki tərlan, –
tez səyirtdi atını,
ovun üstünü aldı.

Ceyrana yanaşanda,
birdən kəməndə saldı.
Bir an içində artıq
o gözəl, incə, göyçək
ovu qucağındaydı.
Elxan indi öpərək,
oxşayaraq ovunu,
sevinərək söndürdü
qəlbinin alovunu...

Könlü nəşəylə dolu,
Elxan geri dönərkən,
çıxdı birdən üz-üzə
bir az əvvəl təpədən
ceyranı qovan ovçu.
Bu, sevimli bir qızdı;
həm də yan-yörəsində
heç kəs yoxdu, yalnızdı.
Onu görcək, Elxanı
fikir-xəyal apardı,
görəntək tanımışdı,
bu gələn – Gülbahardı!..

Canlandı göz önündə
o balaca Gülbahar,
yanağında göz yaşı, –
o saf, o məsum yaşlar...
Bircə anda boz atı
sürərək irəliyə,
təqdim etdi ceyranı:
– Bu ov sənindir! – deyə.

Gülbahar gülümsünüb,
bir an baxdı göz-gözə.
Sonra büllur səsilə
belə başladı sözə:

– İgid! – dedi Gülbahar, –
Çox sağ ol!.. Ancaq söylə
çobanlardan qurbanlıq
alanlar kimi belə,
ovunu hazır almaq
ovçuya yaraşarmı?
Səndə heç oçvu qanı,
ovçu ürəyi varmı?
Yaxşı, bağla ceyranı
bax, o quru ağaca.



Uzaqlarda görünən
o yaşıl yamacadək
atları çapaq, görək
kimə yetişər ceyran?
Hər kim ötsə yarışda,
bax, ona düşər ceyran!

Razılıq verdi Elxan,
Şərtə əməl etdilər.
Yerin bağrını yarıb
çapdı, nə çapdı atlar!

Ancaq heyif!..
Uduzdu
bu yarışda Gülbahar...
Köksünü parçalayan
yaxıcı bir nəfəslə,
alovlanan qəlbindən
çıxan yanıqlı səslə:
– Oğlan! – dedi Gülbahar, –
mənim atımı hələ
bir at da ötməmişdir.
Bu necə atdır, oğlan?
Oğlan, bu necə işdir?!.
Sən, sən...
Yox, sənin atın
ilk dəfə həyatımda
məğlub elədi məni.
İndi ov da, atım da,
əlbəttə, sənə çatar...
Ancaq bircə sözüm var, –
bu atını sat mənə...
Ağırınca qızıl da
istəsən, verərəm mən!

Elxanın da sevincdən
tıxanmışdı nəfəsi,
titrəyirdi onun da

həyəcandan gur səsi:
– Gözəl qız!..
– dedi Elxan, –
bu atı həyatımdan,
canımdan çox sevirəm.
Ancaq yenə də inan,
min minnətlə verərdim...
Amma... Bircə şeyi bil,
mən vermək istəsəm də,
heyif ki, mümkün deyil!..
Çünki mən, atan – xanla
ən barışmaz düşmənəm.
Bil ki, dağların oğlu,
o qaçaq Elxan mənəm!
Bil ki, məncə, qızılın
heç bir qiyməti yoxdur.
Qızıl ki azad qəlbə
ən zəhərli bir oxdur...
Bir də... Gözəl Gülbahar,
tanımadınmı məni?
Unutdunmu səninlə
yoldaşlıq eləyəni?
Yadındamı?..
...Biz hələ
xırdaca uşaqlardıq.
Bir gün yazda səninlə
bağda gəzməyə çıxdıq.
Yenə belə sevimli,
Sevdalı bir səhərdi.
Yenə belə bülbüllər
güldən busə dilərdi...
Mən yaymışdım sürümü
bağ yanında otlağa,
o gün sən də atanla
gəzməyə gəldin bağa.
Xeyli gəzib, oynadıq
o sabah səninlə mən.
Sonra yığıb gətirdik



rəngbərəng çiçəklərdən.
Tac qoyaraq onlardan
quzuların başına,
əylənmişdik o ki var...
Yadındamı, Gülbahar?
Biz gülüb-oynayanda
sanki şimşəklər çaxdı,
göy gurladı bir anda.
Atan, – xan bizi görüb
qəzəbləndi-qudurdu,
Məni söydü o ki var,
qamçısıyla da vurdu.
Acığından qışqırıb
sən də ağladın yaman.
Töküldü yanağına
o ilk saf, məsum yaşlar...
Yadındamı Gülbahar?..

Eşitdi bunları gözəl Gülbahar,
canlandı gözündə sanki o çağlar:
dadlı illərilə uşaqlıq çağı,
cənnətə bənzəyən gözəl xan bağı.
O sevdalı səhər, sevimli bahar,
yamacda otlayan körpə quzular.
Onları otaran o bala çoban,
o şən, gülərüzlü balaca Elxan,
onunla oynayıb gəzişdikləri,
saf uşaq eşqilə sevişdikləri...
Sonu görünməyən o dadlı günlər,
bir daha dönməyən o dadlı günlər...

## VI

## İLK BUSƏ, İLK ETİRAF

Baxışdılar həzin-həzin bir an göz-gözə,
sonra yenə Elxan özü başladı sözə:
– Odur, o gündən bəri,

o andan bəri məndə
durmadan alovlanan
bir üsyan var, bir kin var.
Sonra da nələr olmuş –
eşitmisən, Gülbahar...
Mənə o dadsız həyat
tükənməz bir işgəncə,
bir əzab kimi gəldi.
İnsanın ömrü məncə,
gərək coşqun dəniztək
həmişə coşub-daşa.
Dəhşətli sıldırımlar,
sarp qayalardan aşa,
xəstə bir çiçək kimi
saralmaya, solmaya,
həyat acı da olsa,
gərək dadsız olmaya!..
İnsanı mürgülədən
qanunlar, ənənələr,
bəyə-xana itaət,
ibadət... Nələr, nələr...
Mən bu əfsanələrdən
təngə, zinhara gəldim.
O miskin güzəranı
atıb dağlara gəldim.
Atan məni, – el oğlu
deyə təhqir etmişdi.
Daha o miskin günlər,
o aciz günlər keçdi.
İndi xan özü gördü
El oğlunun gücünü;
El qanı, el ürəyi,
el oğlunun gücünü...
Ancaq gözəl Gülbahar,
mənim sözlərim sənin
o təmiz, o nəcib, saf
ürəyinə dəyməsin.



El çox yaxşı tanıyır
həm dostu, həm düşməni.
Sən eli sevdiyintək
el də çox sevir səni.
Sənsən bizim ölkənin
ən işıqlı ulduzu.
El sənə məhəbbətlə
ad qoyubdur – El qızı!
Elin əziz qızına
Bir at nədir, – istəsə,
İnanın, canımı da
verməyə hazıram mən...
Ancaq bil ki, Gülbahar,
xan, əyanlar boz atı
çox yaxşı tanıyırlar...
Bunu səndə görsələr...
– Yox, yox!..
– dedi Gülbahar, –
mənim başqa bir arzum,
başqa bir qərarım var...

Belə deyib baxdı o
yerdə bağlı ceyrana,
titrək, yanıqlı səslə
sonra dedi Elxana: –

Əvvəl o ceyranı aç,
burax getsin, sovuşsun.
Azad, geniş düzlərdə
dostlarına qovuşsun...

Sonra qaçan ceyranın
ardınca baxa-baxa,
gözlərindən qəlbinə
odlu yaş axa-axa,
davam etdi:
– Bax, mən də

sarayda bu ceyrantək
zavallı bir dustağam.
Ancaq bu azadlığa
mən də qovuşacağam!
Mən əzəldən elimlə
ağlamışam-gülmüşəm.
El qızı olduğumu
ancaq təzə bilmişəm.
Ölən qoca mamaça
Veribdir mənə xəbər...
Əvvəlləri birtəhər
dözə bilirdim yenə,
indisə, mənə saray
zindan kimi dar gəlir.
Xan qızı... adlanmaqsa
ağır gəlir, ar gəlir...
Bu gün də, – sözün düzü,
bu təpəni, bu düzü,
bu dağları gəzməkdən
qəsdim səni tapmaqdı.
Əgər razılıq versən,
mən daha bir azadə
quş olmaq istəyirəm,
mən də sizin dəstəyə
qoşulmaq istəyirəm!..

Bu gözlənməz təklifdən
Elxanı qayğı aldı.
Dinmədən-danışmadan
bir qədər fikrə daldı.
Sonra dedi:
– Gülbahar!
Bu iş xanın əlində
böyük bəhanə olar: –
qızı qaçırdıq, – deyə
böhtan atarlar bizə.
Böyük ləkə yaxarlar



böyük məqsədimizə...
Hələlik sarayda qal,
əlaltı eylə kömək.
Fikirləşək bir qədər,
sonra bir tədbir görək...

Daha sisli səhərlər
günəş doğduğu zaman,
yaşıl dağlar qoynunda
yalnız deyildi Elxan.
Daha güllər-çiçəklər
almaz piyalələrlə,
bülbüllər, kəpənəklər
sevdalı lalələrlə
mey içib məst olanda,
sevişib öpüşəndə,
eşqin ılıq nəfəsi
duyulanda gülşəndə –
Elxanla Gülbahar da
sevinərək, coşaraq,
at belində, yan-yana
dağlar, düzlər aşaraq,
yaşıl çəmənliklərdə
gəzirdilər doyunca.
Bəzən meşə qoynunda,
bəzən sahil boyunca...
Dalmışkən səssiz-sözsüz
bir yaz sabahı yenə
dənizin, ləpələrin
sevdalı ahənginə,
atəşin baxışları
sanki şimşək çaxmışdı.
Bu mənalı baxışlar
atəş olub axmışdı
sevdalı ürəklərə.
Susamış dodaqları
titrəşərkən həsrətlə,
gözləri öpüşmüşdü...

Ah!..
O səhər, o sabah
dənizdən çıxan günəş
nə qədər sevdalıydı!..
Bülbüllər ötüşmüşdü
o səhər nəğmələrin
ən xoş, ən gözəlini,
onlar sözsüz sıxanda
bir-birinin əlini...

Üfüq şəffaf,
dəniz saf...
Bəli, belə olmuşdu
ilk busə,
ilk etiraf...

## VII

## HƏR DÖVRÜN BİR HÖKMÜ VAR

Hər hökmün bir dövranı,
hər dövranın hökmü var:
"Yaşayan, yaşayanı
basıb yeməklə yaşar!"
Cəngəllərdə hökm edən
bu vəhşilər qanunu
olmuşdur yer üzündə
səltənətlər qanunu.
Vətən, millət, din, iman,
haqq, həqiqət, ədalət
pərdəsinə bürünmüş
ən alçaq bir rəzalət.
Bu saxta şüarlarla
ən qəddar hökmdarlar
ölkələri-elləri
eləmişlər tar-mar.



Bu saxta şüarlarla
çar, şah, sultan o zaman
qıcamışdı dişini
Od yurduna hər yandan...

Bu dəhşətin önündə
xan vəzirdən bir tədbir
istədi... Fikirləşib
belə söylədi vəzir:
– Xan sağ olsun, ölkənin
var tək bircə pənahı, –
O da ki, şan-şövkətli,
qüdrətli İran şahı...
Gözəl bir imkan da var:
sənin sevimli qızın
aybənizli Gülbahar
daha şahlara layiq
bir yaşa yetişmişdir.
Bu, gec-tez olmalıydı,
Şərən vacib bir işdir.
Gəl, verək Gülbaharı
şövkətli şahzadəyə,
əbədi ittifaqın
bir yadigarı, – deyə...

## VIII

## SARAY LƏRZƏYƏ GƏLDİ

Öz kiçik otağında
oturmuşdu Gülbahar.
Bürümüşdü qəlbini
düşüncələr, xəyallar.
Baxırdı pəncərədən
yenicə doğan aya.
Dənizin həzin səsi

əks edərkən saraya,
sularda ayın əksi
titrəyərək parlardı.
Bu titrək parıltıda
sanki bir sehr vardı...

O nədir?
Qapıda ayaq səsi var!
Birdən diksinərək qalxdı Gülbahar
Qapını açanda, daxil oldu xan,
öpdü Gülbaharın büllur alnından:

– Gözlərimin işığı,
əziz qızım Gülbahar,
o gündən ki lütf edib
qüdrətli pərvərdigar,
səni bəxş eyləməklə
sevindirmişdir məni,
mənim də bircə arzum,
xoşbəxt görməkdir səni...
Qızım, Allah buyurub,
peyğəmbər xəbər verib,
bu dünyaya hər gələn
axır murada yetib:
evlənib, gedib ərə,
Allah lütf edib övlad...
Qızım, belə qurulub,
belə gedir, bu həyat...
Sən ki ən gözəlisən
dünyada gözəllərin, –
indiyə qədər sənə
uzadılan əllərin
hamısın boş qaytardın;
heç nə söyləmədim mən.
Hərçənd hər gün hüzura
bu xoş niyyətlə gələn



elçilər ağalardan,
bəylərdən-xanlardandı;
səni xoşbəxt edəcək
nəcib insanlardandı.
Ancaq bu dəfə, qızım,
bu gələn elçi – mənəm,
mən ki səni bu boya,
bu yaşa yetirənəm.
Sənə bir ər seçmişəm –
bütün ərlərin şahı.
Bu yazıq ölkəmizin
bircə odur pənahı.
Qüdrətli-əzəmətli,
əsil-nəcib, şahzadə...
Şərqdən-Qərbə axtarsan,
bütün geniş dünyada
tapılmaz bərabəri,
tapılmaz ona bir tay...
Sənin olacaq, qızım,
cavahirat, xəzinə,
kaşanə... bütün saray!..
Qocanın bu ani qorxunc təklifi
qızın ürəyinə yaman toxundu.
Sanki büllur alnı öpülən yerdən
buz kimi soyudu, bir anda dondu.
Bir anda elə bil buz kimi tərdən
bir pərdə bürüdü solan üzünü...
Qoca xan nigaran, nursuz gözünü
zillədi üzünə qızın diqqətlə,
bəlkə ürəyindən keçəni bilə,
bəlkə baxışından bir məna sezdi...
Ancaq o görməzdi, görə bilməzdi,
o fərsiz gözlərlə qəlbin içini,
o qəlbin içində nifrəti, kini,
o qəlbin içində qaynayan qanı,
o qəlbdə baş verən odlu üsyanı...

Gülbahar susmuşdu...
Nəydi bu sükut?
Şimşək-alov dolu sakit bu bulud
Onun ürəyini od bürümüşdü...
Susmaqçın dişlədi al dodağını,
odlu gözlərindən bir damla düşdü,
yandırdı od kimi gül yanağını...

Bu uzun sükuta aldandı qoca,
bunu utancaqlıq, naz sandı qoca
Ağlamaq?.. Yəqin ki, o da bir nazdı.
Həyalı bir qıza hələ bu azdı.
Nə qədər görmüşdü uzun ömründə
nişanlı qızların toyda-düyündə
ağlayıb-hıçqırıb naz etdiyini,
sonra ər evinə şad getdiyini...
Ancaq yanılmışdı, aldanmışdı xan:
– Çox gözəl!.. – deyib o qalxdığı zaman,
alovlu bir səslə dedi Gülbahar:
– Yox, yox!.. Mənim ürəyim
bir quş kimi azadə
qalacaqdır həmişə...
Onunçun şah-şahzadə
sarayları bir zindan,
qızıldan bir qəfəsdir.
Bu qəlbim ki, dünyada
bir yetimdir, bikəsdir... –
Yox, xoşbəxt ola bilməz
Qızıl kaşanələrdə...
Vətəndən-eldən uzaq,
qürbətdə, yad bir yerdə
şaha qul olmaqdansa,
min dəfə xoşdur ölüm!
Yox, kimsəyə qul olmaz
mənim azadə könlüm!..

Xan dəyişdi bir anda,
dodağını gəmirdi.



Ancaq qızının inad
olduğunu bilirdi.
Saxta bir təbəssümlə
qımışdı, gülümsədi.
Soyuq, acı gülüşlə,
istehza ilə dedi:
– Qızım, utanma, söylə,
bəlkə bir istəklin var?!

Gülbaharın qəlbində
coşub-qaynadı qanı.
Dözə bilmədi buna
qəzəblə süzüb xanı,
birdən dedi:
– Bəli, var!
– Kimdir o?
– Qaçaq Elxan!..

Ox dəydi ürəyindən,
vuruldu elə bil xan.
Acı bir fəryad qopdu
yaralı sinəsindən.
Saray lərzəyə gəldi
o vəhşi nərəsindən...

O gündən zindan oldu
otağı Gülbahara.
Daha çıxa bilmədi
o, saraydan kənara...
Qapıda-pəncərədə
yaraqlı keşikçilər...
Elxanın gözü yolda:
"Bu gün, ya sabah gələr..."

Durma, Gülbahar, durma,
göndər ona elçini!
Göndər – vəfalı dostun
kəkilli göyərçini!..

## IX

## ƏN LAYİQ BİR HƏDİYYƏ

Sərbazlar at belində,
sıx kolları yarırlar.
Qızmış xanın əmrilə
Elxanı axtarırlar.
Yayılıb dağa-daşa
qoşunlar, sərkərdələr.
Bürclər, qalalar bomboş,
keşiksiz qalıb şəhər.

Çoxdan bəri sərhəddə
yığışıb fürsət güdən
şah qoşunu bürüdü
şəhəri hər tərəfdən...
Çaxnaşmadır sarayda:
xan, vəzir, əyan-ərkan
qarışıb bir-birinə,
tir-tir əsir qorxudan.
Nəhayət, tədbir üçün
məclisə yığışdılar,
verdilər düşmənlərə
təslim olmağa qərar...

O gün bir göyərçin də
uçub getdi saraydan.
Bu acıqlı xəbəri
bildi qaçaqlar, – Elxan.
Onlar da məclis qurub
bir tədbir axtardılar,
hamısı dilbir-əlbir
olub verdilər qərar.

Qoşa Qala qapısı
önündə mərəkə var:



Əllərində hədiyyə,
xan, yanında əyanlar, –
düzülüblər nizamla.
Düşməni gözləyirlər
yaltaq bir ehtiramla...
Məxmər döşəkçə üstdə
Baş qalanın açarı, –
onu təslim alacaq
indi düşmən sərdarı...

Ancaq o kimdir, elə –
xandan-əyandan uzaq, –
çiynində bir yapıncı,
başında tüklü papaq?
Yeriyir yavaş-yavaş,
divara sinə-sinə.
Yaxınlaşmaq istəyir
əyanlar dəstəsinə?..

Camaatın içindən
keçərək aram-aram
qarışır əyanlara
həmin naməlum adam...

Şeypurlar, nağaralar
lərzə saldı meydana.
Birdən bir dəstə atlı
qatıb tozu dumana,
çapa-çapa uzaqdan
gəldi qalaya sarı.
Hamıdan öndə, atda
məğrur düşmən sərdarı...

Bu sərdar talamışdı
Qarabağı, Şirvanı,
odlara qalamışdı
Tiflisi, Yerevanı...

İndi xan təmtəraqla
təslim olurdu ona...
Bu təntənə, bu dəsgah
gəldi onun xoşuna.
Bu yaltaq istiqbaldan
kibrləndi, qudurdu,
oynadaraq atını,
lap öndə gəldi durdu:
– Afərin olsun sizə,
ey şahın nökərləri!..

Birdən naməlum adam
addımladı irəli:
– Al, bu da bizdən sənə
ən layiq bir hədiyyə!
Bütün sərkərdələrə
qoy ibrət olsun! – deyə,
zərli bir oxla yayı
sərkərdəyə uzatdı,
Birdən kirişi çəkib,
zəhərli oxu atdı...

O qabarmış sinədən
qopdu bir vəhşi nərə.
Sərdar al qan içində
yıxıldı atdan yerə...
Qorxunc bir hay-küy qopdu
meydanda...
Bircə anda
sərkərdənin dəstəsi,
hamı, – əyan da, xan da
kimi çölə, kimi də
şəhrə qaçdı, yoxaldı.
Bu naməlum qəhrəman
meydanda təkcə qaldı...

Bir anda mərd qaçaqlar
hücum etdi hər yandan.



Çobansız sürü kimi
Çöllərdə başsız qalan
cahangir şah qoşunu
pozuldu, məğlub oldu.
Elin əlbirliyilə
bu ölkədən qovuldu.

Şad oldu bu xəbərdən
Qarabağ, Şəki, Şirvan,
başı bəlalı ellər:
Gürcüstan, Ermənistan...
O sərdarın ölümü
ilk atəşi yandırdı.
Azadlıq savaşını
təkrar alovlandırdı.
Hər yerə bir qığılcım
sıçradı bu alovdan,
hər ölkədə yanğıntək
qopdu coşqun bir üsyan...

Ancaq bu ilk atəşi
əvvəl yandıran kimdi?
Bəs bu böyük yanğını
alovlandıran kimdi?
Onu, kimi bəyzadə,
kimi bir əyan sandı.
Bu naməlum qəhrəman
bizim qaçaq Elxandı!..

## X

## DİK QAYA, ƏNGİN DƏNİZ

Elin qələbəsindən
dəhşət götürdü xanı.
Şahın vahiməsindən
dondu yassarın qanı:

"Ay aman, şah qoşunu
gəlib ölkəni basar.
Bu qətlin əvəzində
yəqin ki, məni asar...
Gərək Elxanın başı
tez şaha göndərilsin.
Gülbahar da xəracla
şaha girov verilsin!..

Bəlkə bu yalvarışla
razı salsınlar şahı.
Təslim olmaqla, – xanın
bağışlansın günahı".

Gülbahar kəcavədə, –
bac-xərac dolu karvan
hazırdır hərəkətə,
çatışmır bircə Elxan...

Elxanı kim tanıyır?
Bir kəsik başa nə var!..
Onu da sahmanlayıb
karvanla yollayırlar...

Qumlu sahil boyunca
karvan düzəlir yola.
Atlı-piyada qoşun
düzülüb sağa-sola...
Gülbaharı yadlara
sovqat aparır karvan...
Hardasan, ay Eloğlu?
Hardasan, gəl! Ay Elxan?

Əks edir lal sularda
karvanın şux rəngləri,
qayalara səs salır
dəvələrin zəngləri...



Gecə...
Birdən üfüqdən
dəli xəzri qopanda,
toz dumana qarışdı,
karvan durdu...
Bir anda
bir qayanın dibindən
Boz at çapdı, nə çapdı!..
Şığıyıb Gülbaharı
Elxan bir anda qapdı, –
Boz ata qıy vuraraq,
çapdı şimala sarı.
Ardınca tökülüşdü
padşahın sərbazları...

Amandır, boz at, qurtar
dardan qəhrəmanları!
Boz at, qurtar, amandır,
qurtar dardan onları!..
Cəld ol, ceyrantək vaz at!
Tərlan kimi qanadlan,
cəld ol, amandır, boz at!
cəld ol, amandır, boz at!

Heyhat!
Neyləsin boz at!..
Mənzil uzaq, yük ağır...
Hər tərəfdən üstünə
qıjıltıyla ox yağır...

– Yox, yox... Axsayır boz at...
Yox... Çatmaq olmayacaq!
Ölümdən qurtarmağa
tək bircə yol var ancaq:
dik qaya, əngin dəniz!
Nə deyirsən, Gülbahar?

– Sür, Elxan, dəniz – ana
bizi qoynunda saxlar!..
Azad ölmək yaxşıdır
qul kimi yaşamaqdan!
Sür, dənizin qoynuna.
Sür, dayanma, sür, Elxan!

Boz at sanki bir anda
şahintək qanadlandı,
dik sıldırım qayadan
uçan quştək atlandı.

Bərkdən kişnədi birdən,
aslantək hayqıraraq, –
səs verdi gur səsinə
mərd oylağı Beşbarmaq...

Dəniz...
Ruzgar...
Qayalar...
Dağlar kimi dalğalar...
Bu çırpınan ürəkdə
min bir əsrin sirri var!..

*1967-1968*



## NAXIŞLAR

(*Dramatik poema*)

Şeir-sənət yurdudur əzəldən Azərbaycan,
heyrandır sənətinə ölkəmin butün cahan.
Minillik qayalarda sənətinin izi var,
tarixdə-dastanlarda söhbəti var, sözü var.
Ürəkləri dindirən şeri, sədəfli sazı,
daşların sinəsində incitək, incə yazı.
Şəbəkə gözlərinin o munis baxışları,
Elimin xalçasının füsunkar naxışları...
Nələr, nə əsrarəngiz rəvayətlər nəql edir,
neçə dərin mənalı hekayətlər nəql edir, –
yaşayır el içində min-min illərdən bəri,
budur, bu hekayət də o min-minlərdən biri:

### I

Xalçaçı karxanası... Badamı gözlü qızlar,
gözəl, nazlı-ədalı, söhbətli-sözlü qızlar
yun darayır daraqda, qalayır qalaq-qalaq,
tunc biləkli igidlər, əllərdə iri toxmaq,
yun təpirlər həvəslə... Elə keçə gərəkdir,
elə gəbə gərəkdir, palaz-xalça gərəkdir,
divarlarda rəngbərəng çəmən kimi çiçəkli,
naxış-naxış butalı, həşyələri bəzəkli
kilim, cecim, məfrəclər, heybələr, xalça-palaz,
yəhəraltı, yapıncı... El bunlarsız dolanmaz.
Bunlar elə gərəkdir,
bunlar elə bəzəkdir...
İşlədikcə qız-oğlan, artdıqca həvəsləri,
ucalır karxanadan coşqun mahnı səsləri:

Qızların mahnısı

Yun gərək tel-tel olsun,
dara, darağım, dara!
Daransın, tel-tel olsun,
dara, darağım, dara!

İgidlərə yapıncı,
atlara yəhər gərək, –
dara, darağım, dara!

Hər sənətdə məharət,
hər işdə hünər gərək, –
dara, darağım, dara!..

Görək kim kimi yorar,
görək kim tez qurtarar!..

Oğlanların mahnısı

Elə xalça gərəkdir,
güc verin toxmaqlara!
Elə keçə gərəkdir, –
güc verin toxmaqlara!..

Dağda çobana dəyə,
aranda otaq-keçə –
güc verin toxmaqlara!

Evlərdə xalça-palaz
başlarda papaq-keçə,
güc verin toxmaqlara!..

görək kim kimi yorar,
Görək kim tez qurtarar!..

(Cavan bir şahzadə də düşüb xoş bir həvəsə,
sanki məftun olubdur, bu mahnıya, bu səsə.
Ancaq əsil səbəbi eşqdir – məhəbbətdir,
dostu vəzir oğluna dərdini izhar edir)



Şahzadə

Məhəbbət!.. Məhəbbət!.. Ey ulu qüvvət!
Nə böyük hikmətdir səndəki qüdrət!..
Səndəndir insanda şərəflə vüqar,
səndəndir mətanət, səbat, etibar.
Sənə sadiq olan əsla əyilməz,
əsla nə xəyanət, nə riya bilməz.
Sənə layiq olan nə bəxtiyardır!
Əsirin olsa da, o, hökümdardır!
Ramolmaz qəlbimi sən ram eylədin!
Hər zövqü-səfanı haram eylədin!
Qalmadı əlimdə əsla ixtiyar,
ixtiyar yarındır, qoy versin qərar.
Bu gün edəcəyəm eşqimi bəyan,
Ya ölüm – ya qalım... Qoy olsun əyan!..

Mərdan

Tələsmə, bir düşün, şahzadə, səbr et,
axı sən – şahzadə, o qız – rəiyyət!

Şahzadə

Dönmərəm bu yoldan, bil ki, dünyada,
birdir məhəbbətdə şah ilə gəda!

(Birdən sanki bu yerə bahar gəlir, yaz gəlir,
Əlində burma kağız, ceyrantək bir qız gəlir.
Karxananın canıdır, misilsiz ustadır bu,
Gözəllərin gözəli nəqşəçi Gülyazbanu)

Gülyaz

Salam, usta baba, günaydın, qızlar!..

Usta

Xoş gördük, ay qızım, gəl görək nə var?

Gülyaz

Nəqşələr hazırdır, buyurun, baxın!..

Usta

A qızlar, oğlanlar, bir gəlin yaxın,
gəlin, siz də baxın!.. Gör nə qəşəngdir!..

Qızlar, oğlanlar

(*yer-yerdən*)

Bəh-bəh, nə gözəldir, nə rəngbərəngdir!..
Butası, qozası, qönçəsi gözəl!
Kənarəsi gözəl, həşyəsi gözəl!
Dağlarda çəməntək, güldür-çiçəkdir,
Bəh-bəh, nə gözəldir, necə göyçəkdir!..

(Baxır şahzadə, baxır Gülyaza heyran-heyran,
Onun baxışlarını, onun qəsdini duyan,
Xalçaçı qız Gülpəri araya şuxluq qatır.
Gülyaza sataşaraq, ona belə söz atır)

Gülpəri

Gülyaz, gözün aydın, bax, oğlan gəldi!
Sağ əlin başıma... İşin düzəldi!..



Gülyaz

Nə oğlan? Dəlisən nədir, ay Pəri?

Gülpəri

Di yaxşı, nazlanma, bəri gəl, bəri,
Odur bax!.. Tanıdın? Elədir ki, var!..

Gülyaz

Nə olub? Nə var ki?

Gülpəri

Düz bir ay olar
gəlir, guya burdan mal alıb gedir...
Amma həmişə də gözü səndədir.

Gülyaz

Yaxşı, sözbaz olma, bəsdir, ay Pəri,
bura azmı gəlir hər cür müştəri?

Gülpəri

Ha-ha-ha... Müştəri... Müştəriyə bax!
O sənə müştəri çıxıbdır ancaq.

Usta

Di bəsdir, cavanlar, hava qaralır,
qurtarın, axşama daha az qalır.

Şahzadə

(*Mərdana*)

O nə qaş, o nə göz, ah, o nə qamət!..
Əqlimi-huşumu aldı o afət!..
Aslanlar pəncəmdən zara gələrkən,
Bir ahu ram etdi məni nəhayət!
O mənim sultanım, başımın tacı,
daha taxta-taca qalmadı hacət!..

Mərdan

Şahzadə, özünü ələ al, yetər,
ilk eşqə aludə olma bu qədər!
Eşq üçün deyiblər: afəti-candır,
bəladır, cəfadır...

Şahzadə

Yox, yox... Yalandır!
Eşqdir sərəfraz edən insanı,
eşqdir insanın şərəfi-şanı!..

(Karxanadan çıxaraq Gülyaz yola düzəlir,
Şahzadə cürətlənib, düz ona sarı gəlir)

Şahzadə

Bir an ayaq saxla, sözüm var, gözəl!

Gülyaz

Xeyir ola?



Şahzadə

İnşallah xeyir olar, gözəl!
Bu dünya bir yana, sən də bir yana, –
bil ki, min könüldən vurğunam sana!
Bir aydır nə gecəm, nə gündüzüm var,
eşqin əsiriyəm, bircə sözüm var:
sənin əlindədir bütün ixtiyar.
Ya öldür, ya eylə məni bəxtiyar!

Gülyaz

Nə olar... Məhəbbət qadağan deyil,
ancaq könül vermək çox asan deyil!
Məhəbbət güldürsə, tikanı da var,
hər yetən aşiqdə olmaz etibar?..

Şahzadə

Yandırma bu sevda oduna məni,
hər necə istərsən, gəl, sına məni.

Gülyaz

Oğlan, bir de görüm, qiymətin nədir?
Yəni – peşən nədir, sənətin nədir?

Şahzadə

(*qürurla*)

Nə peşə, nə sənət?.. Şahzadəyəm mən!
Peşədən, sənətdən azadəyəm mən.

Gülyaz

(*istehzalı*)

Ha-ha-ha... Şahzadə!.. Şahzadəyə bax!..
Bu ki sənət deyil, zinətdir ancaq!
Kişinin zəhmətdir adı-şöhrəti,
sənətsiz insanın nədir qiyməti!..
İstər şahzadə ol, istər rəiyyət, –
insanın şərəfi zəhmətdir, zəhmət!..

Şahzadə

(*qürurla*)

Yoxsa inanmırsan?

(*Mərdana*)

Gəl, sən de, Mərdan!

Mərdan

Düz deyir, gözəl qız, sən ona inan!
Mən vəzir oğluyam, o da şahzadə.
Ən xoşbəxt bir qızsan sən bu dünyada...
Sözə inanmırsan, libasına bax!

(Mərdan tez gedib açır dostunun yaxasını,
Göstərir zərli, ipək şahzadə libasını)

Gülyaz

Onu da görürəm, görürəm... Ancaq
Sözüm yenə sözdür, oğlan, bəri bax,
şahzadə nədir ki? Lap şah da olsan,
sənətin yoxdursa, deyilsən insan!..



Mərdan

(*acıqlı*)

Ay qız, baş aparma!.. Bu nə cəsarət!
O bir şahzadədir, sən bir rəiyyət!

(*şahzadəyə*)

Şahzadə, gəl gedək, öz qədrini bil!
Bu məğrur, dikbaş qız sənə tay deyil!

Gülyaz

(*qürurla*)

Buyurun, yol açıq!

Şahzadə

Yox, yox, bir dayan!

(*Mərdana*)

Özün baş aparma, sən sus, a nadan!

(*Gülyaza*)

Ona fikir vermə, bir az nadandır...
Sənin hər bir sözün mənə fərmandır!
De görüm, bəs nədir fərmanın mənə?

Gülyaz

Mən bayaq söylədim, deyirəm yenə,
İstər şahzadə ol, istər rəiyyət,
insanın şərəfi zəhmətdir, zəhmət!
Get, əvvəl zəhmət çək, bir sənət öyrən,
mənim cavabımı sonra bilərsən!

Ş a h z a d ə

Baş üstə, göz üstə, bu sözə varam,
bir sənət öyrənib, usta olaram.
Mən də dərk elədim bu həqiqəti,
Sənətsiz insanın yoxdur qiyməti.
İstər şahzadə ol, istər rəiyyət,
insanın şərəfi zəhmətdir, zəhmət!

II

(Bundan neçə ay keçir, saraya çatır xəbər,
Şahın xoşuna gəlmir bu sözlər, bu söhbətlər.
Oturub vəzirilə sarayda qanıqara,
Cavab istəyir ondan bu dedi-qodulara...)

Ş a h

Görürəm, keçmişi saldıqca yada,
heç nə baqi deyil fani dünyada.
Fələk kəməndini atdıqca, bir-bir
taylarım-tuşlarım dünyadan gedir.
Bu taxtı-tacı da bu gün, ya sabah
Qoyub getməliyəm... Ah, neyləyim, ah!..
Şahzadə... Vəliəhd... O da ki, belə:
Gedib ülfət edir rəiyyət ilə.
Yəqin anasına çəkdi o bifər...
Vəzir, heç xoşuma gəlmir bu işlər:
şahzadə gözümə birtəhər dəyir.
Ona nə olmuşdur? Oğlun nə deyir?
Yoldaşın sirrini soruş yoldaşdan...

V ə z i r

Şahım, onu bir qız çıxarıb başdan!



Ş a h

(*qəzəblə*)

Necə? Nə qız? Tez ol, açıq de, vəzir!
Sənin oğlundadır yəqin ki, təqsir.
O da atasıtək şorgözdür yaman,
yəqin o çıxarıb oğlumu yoldan!..

V ə z i r

Şahım, mənim oğlum sənə bir quldur,
Nökərin olmağa layiq oğuldur...
O mənə ərz edib... xalçaçı bir qız...

Ş a h

(*coşqun*)

Xalçaçı?.. Elə bu qalmışdı yalnız!..
Bu saat de, gəlsin hüzura onlar.
Bir-bir danışsınlar, bir görüm nə var?
Nə gəlib sarayda gültək qızlara,
Gedib baş qoşurlar əxlaqsızlara?
Di çağır, gəlsinlər!..

V ə z i r

Şahım, səbr elə,
dəmiri yumşaltmaq olar səbr ilə!
Şahzadə cavandır, sərtliklə olmaz.
Qoy hələ acığın soyusun bir az.
Əmr elə, hüzura xanəndə gəlsin,
rəqqasələr gəlsin, sazəndə gəlsin!..

(Bəli, qayda beləydi: padşah darıxan zaman,
Gərək könlünü aça onun çalan-oxuyan,
Musiqi də, sənət də şahın xidmətindədir.
Sazəndələr çaldıqca, rəqqasələr rəqs edir.
Şux bir qəzəl söyləyir xanəndə qız avazla.
Həmahəngdir nəğməsi tarla, kamanla, sazla).

Xanəndə qızın mahnısı

Ey könül, şura gəl cahan eşqinə,
Məhəbbət eşqinə, canan eşqinə.

Cananın bir nazı min cana dəyər,
keçmə səfasından, bir can eşqinə.

Meydir, məhəbbətdir dərdlərə dərman,
Yalvarma təbibə dərman eşqinə.

Gəzdir peymanəni məclisdə, saqi
Nuş olsun badələr peyman eşqinə!

Cahan – bir işvəli nazəndə canan,
Eşq olsun cahana, canan eşqinə!..

(Şahın könlü açılmır, başqa bir çarə gərək...
Qəhqəhələrlə gəlir məclisə iki təlxək)

Birinci təlxək

Xoş gördük, ay bəxtəvər!

İkinci təlxək

Xoş gördük, ay dilavər!

Birinci təlxək

Ay bəxtəvər, neyləyək
şahın xoşuna gəlsin?



İkinci təlxək

Gəl tapmaca söyləyək,
gülsün, kefi kökəlsin.

Birinci təlxək

Əhsən sənə, de gəlsin!

İkinci təlxək

Al, gəldi:
O nədir ki, başı yekə, içi boş?

Birinci təlxək

Necə? Necə?
Başı yekə, içi boş?

İkinci təlxək

Lap eləcə:
başı yekə, içi boş!

Birinci təlxək

Tapdım, tapdım:
ya günbəzdir, ya molladır, ya dövlət!
Oldu, olmadı?

İkinci təlxək

Oldu, afərin, əhsən!

Birinci təlxək

İndi mən deyim, tap sən.

İkinci təlxək

De gəlsin!

Birinci təlxək

Al, gəldi:
O nədir ki, dadı acı, adı xoş?

İkinci təlxək

Necə, necə?
Dadı acı, adı xoş?

Birinci təlxək

Lap eləcə:
dadı acı, adı xoş!

İkinci təlxək

Tapdım, tapdım:
Ya dərmandır, ya qanun, ya həqiqət!
Oldu, olmadı?

Birinci təlxək

Oldu, afərin, əhsən!

İkinci təlxək

İndi mən deyim, tap sən.



Birinci təlxək

De gəlsin!

İkinci təlxək

Al, gəldi:
O nədir ki, dövləti çox, özü ac?

Birinci təlxək

Necə, necə?
Dövləti çox, özü ac?

İkinci təlxək

Lap eləcə:
Dövləti çox, özü aç!

Birinci təlxək

Tapdım, tapdım:
Ya xəsisdir, ya torpaq, ya rəiyyət!
Oldu, olmadı?..

(Bu anda qəzəbli şah qədəhi çırpıb yerə,
Acıqlı bir səs ilə çığırır birdən-birə)

Şah

Rədd olun hüzurumdan!.. Yox, bunlarla kar aşmaz!
İndi mənə mey-məzə, tap-tapmaca yaraşmaz!
Vəzir, hüzura gətir şahzadəylə oğlunu,
Bir görək bu nə işdir, necə tapmacadır bu?

(Vəzir işarə edir pişxidmətə bu zaman,
Gəlir şahzadə ilə vəzirin oğlu Mərdan)

Şah

(*kinayəli*)

Buyurun, xoş gəlibsiz... Nə var, nə yox, cavanlar?
Gözümə dəymirsiniz mənim axır zamanlar.

Şahzadə

Şah babamın canına daim duaçı varıq.

Mərdan

Şahın hər fərmanına hazır, sadiq qullarıq.

Şah

Çox gözəl, bəs şahzadə nə iş görür, neyləyir?
Cürbəcür rəvayət var, hərə bir söz söyləyir...

Şahzadə

(*sevinərək*)

Şah baba, muştuluq ver, indi var mənim peşəm:
xalçaçılıq işini yaxşıca öyrənmişəm!
Bir kilim toxumuşam şah babama ilk baxşış, –
baharda çəmən kimi, başdan-başa gül-naxış...

Şah

(*acı-acı*)

Ha-ha-ha!.. Gözüm aydın!.. Peşəçi olub oğlum!
Saray karxana olsun, xalçaçı olub oğlum!..
Ay oğul, şahzadələr qılınc-qalxan oynadar,
at çapar, çövkən oynar, şikar edər, ox atar!..



Vəzir

(*yaltaqlanır*)

Şah sağ olsun, elədir, əhsən bu fərmayişə!

Mərdan

Mən dedim şahzadəyə layiq deyil bu peşə!

Şah

Ay-hay!.. Peşəçiyə bax!
Ay-hay!.. Xalçaçıya bax!..
Bəsdir, şahzadə oğlan, həvəsdir, daha bəsdir!
Bil ki, şahzadə üçün peşə-filan əbəsdir!..
Bu gündən bu saraydan kənara basma ayaq,
Qılınc-qalxan məşqilə məşğul ol burda ancaq!

(Araya sükut çökür, acı, ağır bir sükut...
Şahzadə məyus, qəmgin, donub qalır mat-məbhut.
Zülmət çökür gözünə, dəhşət götürür onu,
Görünür gözlərinə sevimli Gülyazbanu)

Gülyazın xəyaləti

Şahzadə nədir ki, lap şah da olsan,
sənətin yoxdursa, deyilsən insan!
İstər şahzadə ol, istər rəiyyət,
insanın şərəfi zəhmətdir, zəhmət!

(Şahzadə cürətlənir, işıqlanır gözləri,
Təkrar edir Gülyazın söylədiyi sözləri)

Şahzadə

İstər şahzadə ol, istər rəiyyət,
insanın şərəfi zəhmətdir, zəhmət!..
Şah baba, bağışla cəsarətimi,
ürəkdən sevmişəm bu sənətimi.
Bu, əsla əyləncə, ya həvəs deyil,
şaha sənət bilmək heç əbəs deyil!

Şah

Bəs onda tac-taxt, bəs qoşun-ləşkər?

Şahzadə

Tarixə bir nəzər yetirsən əgər,
görərsən nə qədər böyük hökmdar
ya alim olmuşdur, ya da sənətkar.
Sənətkar olarsa padşah, əlbət,
artar rəiyyətdə sənətə rəğbət,
Ölkə abad olar, rəiyyət də şad,
yaşar ehtiyacdan, zillətdən azad!

Şah

(*yumşalmış*)

Oğul, bu sözlərin haqdır deyəsən...

(*vəzirə*)

Dinib danışmırsan, vəzir, niyə sən?

Vəzir

Fərman səninkidir, nə deyim, ey şah,
şahzadə bəxtiyar olar, inşallah!..

Şahzadə

(*cürətlənmiş*)

Şah baba, nə olar, izin versənə,
Ustam hədiyyəmi göstərsin sənə.



Şah

(*maraqla*)

Göstərsin, göstərsin, bir görək nədir?

Şahzadə

Oğuldan ataya ilk hədiyyədir!

(Şahzadə bircə anda, yaydan çıxmış ox kimi,
Gedib Gülyazla birgə gətirdiyi kilimi,
Şahın taxtı önündə açaraq yerə sərir,
İlk sənət əsərini atasına göstərir)

Şah

(*heyranlıqla*)

Bəh-bəh!.. Nə qəşəngdir, necə göyçəkdir!
Elə bil çəməndə güldür-çiçəkdir!
Afərin, ay oğul, afərin, əhsən!
Yəni bütün bunu sən işləmisən?

Şahzadə

(*Gülyazı göstərir*)

Nəqşi Gülyaz çəkib, toxumuşam mən,
Odur bu sənəti mənə öyrədən!

Şah

(*vəzirə*)

Vəzir, nə durubsan? Ustaya ənam!
İçi qızıl dolu bir cüt gümüş cam!

(Vəzir təqdim edəndə Gülyaza bu ənamı
O, qürurla rədd edir, mat-məbhut qalır hamı)

G ü l y a z

Yoxsul qız olsam da, mən ac deyiləm,
Qızıla-gümüşə möhtac deyiləm!
Şahdan da artıqdır mənim sərvətim!
Bitməz xəzinədir halal zəhmətim!
Dövlətdən ucadır gözümdə sənət,
insanın şərəfi sənətdir, sənət!
Ənamçın gəlmədim mən bu saraya...

(*mənalı-mənalı şahzadəyə baxır*)

Dostluqla sədaqət girdi araya!

(*vəzirə*)

Mən sənət satmıram, mən sənətkaram!
Ənam sənin olsun, almışcan varam!..

Ş a h

(*acıqla*)

Vəzir, öyrət ona qanun-qaydanı,
şahın hüzurunda ədəb-ərkanı!

V ə z i r

Ay qız, dikbaş olma, sözə qulaq as,
şahın ənamını rədd etmək olmaz!

Gülyaz

(*qürurla*)

Mən ki rədd etmirəm, verirəm sənə!



Ş a h z a d ə

Şah baba, ənamı mənə versənə!
Belədir Gülyazla bizim əhdimiz:
həmişə hər işdə əlbir olaq biz.
İzin ver, bu əhdə, bu səadətə!
İzin ver, bu əhdə, bu sədaqətə!

Ş a h

Məni valeh etdi qızın sənəti,
tox gözü, haq sözü, bir də cürəti!
Hamı əhsən desin bu səadətə,
bu əhdə, ilqara, bu sədaqətə!..

III

(Meşə. Yaşıl bir tala... Sükut içində hər yan,
Bir bulaq şırıldayır... Bir də çox-çox uzaqdan
Zənglərin səsi gəlir, yorğun karvan zəngləri.
Rəngarəng çiçəklərtək nə xoşdur ahəngləri!
Bir azdan yaxınlaşır, çatır talaya karvan,
Yorulmuş yolçuları çağırır bura sarban.
Şahzadə də Gülyazın gözəl məsləhətilə,
Xalqın dərdi-sərini öyrənmək məqsədilə,
Kimsəyə tanınmadan qoşulub bu karvana,
Gəzir eli-obanı, göz yetirir hər yana...)

S a r b a n

Yollar yorğunuyuq, bir bura gəlin,
bir az sərinlənin, bir az dincəlin.
Ancaq tez tərpənin, cəld olun bir az,
Bura qorxuludur... Ləngimək olmaz!

Ş a h z a d ə

Niyə qorxuludur, nə olub məgər?

S a r b a n

Bir qəddar quldur var burda, deyirlər,
Soymağı cəhənnəm, hərisdir qana.
Baxmır nə qocaya, nə də cavana,
kim düşsə əlinə, eyləyir əsir,
gündə neçəsini qoyuntək kəsir...

Ş a h z a d ə

Quldur çalar-çapar, qan tökməz nahaq,
bəs niyə əbəs qan tökür o alçaq?

Q o c a  y o l ç u

Oğul, eşitmişik dədə-babadan,
hökmdar qan istər, din isə qurban.
Yəqin bu da burda bir hökmrandır,
onun da istəyi ölümdür, qandır.

S i l a h l ı  y o l ç u

Budur, bax, bu silah olmasa, heç kəs
ölkədə bir addım yol gedə bilməz.
Şah bir yandan soyur, quldur bir yandan!

(*şeypur səsi gəlir*)

Dur, karvan tərpənir, gedək, ey cavan!

Ş a h z a d ə

Yox, mən yorulmuşam, dincəlim bir az...



Q o c a  y o l ç u

Dur gedək, ay oğul, dur, qalmaq olmaz!
Yoxsa rast gələrsən o canavara,
anan yasa batar, geyinər qara.

Ş a h z a d ə

Siz gedin, babacan, bir azdan mən də
durub gedəcəyəm bu yaxın kəndə...

(*hamı gedir, şahzadə tək*)

Bəli, şah bir yandan, quldur bir yandan! –
Hamı xalqı soyur, hamı tökür qan...
Yox-yox, belə olmaz, ölkədə gərək,
xalqla əlbir olub, nizam düzəldək.
Hamı dinc yaşasın, öyrənsin sənət,
insanın şərəfi zəhmətdir, zəhmət!
Açılsın ölkədə hər cür karxana,
hər yerdə mədrəsə, yol, bimarxana.

(*bir qədər sükutdan sonra*)

Bəli, şah bir yandan, quldur bir yandan!
Yox-yox, bu yolda mən keçərəm candan...
Əvvəl bu qulduru yox edim... Ancaq
qoşunla üz-üzə gəlməz o qorxaq.
Bir görüm kimdir o, acgöz canavar?
Gözləyim, qoy gəlsin... Nə olar, olar!..

(Şahzadə bir ağacın dibində yatır yerə,
aradan xeyli keçir. Nəhayət, birdən-birə,
Quldurbaşı, yanında quldurlar, qanıqara
gəlir, bərk-bərk deyinir, acıqlanır onlara)

Quldurbaşı

Eh... Qorxaq tülkülər!.. Ov çıxdı əldən!..
Bir-bir sizi kəsəm indi gərək mən...
Bir gün qan tökməsəm qanım qaralır;
bir də ki, sursat yox, pul da az qalır...
Acından öləkmi?

Birinci quldur

Neyləyək axı?
Çoxdular, hamının əldə yarağı!

İkinci quldur

Daha camaat da dönüb ləşkərə,
elliklə yaraqlı çıxır səfərə...
Gərək başımıza bir çarə tapaq!

Quldurbaşı

Boş-boş çərənləmə, ay kor yapalaq,
Bu saat ətini çəkərəm şişə!
Canavar ovunu tapar həmişə...

(Qamçını qulaylayıb ona sarı cumanda,
şahzadəni görərək bərk sevinir bir anda)

Quldurbaşı

Ha-ha-ha!.. Budur bax, tapdım-tapmadım?
Taygöz canavar da çağrılsa adım, –
sizin hamınızdan itidir gözüm,
budur, bax, ovumu tapmışam özüm!



(*şahzadəyə*)

Lalsan, yoxsa karsan? Niyə susursan?
Burda neyləyirsən? Bizi pusursan?

Şahzadə

Karvanla gedirdim, yatıb qalmışam...
Bəlkə qonaq olum sizə bu axşam?

Quldurbaşı

(*istehzalı*)

Ha-ha... Qonağa bax!.. Hələ yıxıl yat!

(*bir quldura*)

Qonaq yuxuludur, onu bir oyat!..

(O quldur şahzadəni qamçısıyla vurarkən,
şahzadə cəld tərpənib, badalaq vurur birdən.
Quldur çultək sərilib yerə, bərkdən çığırır.
Quldurbaşı vəhşi bir qəhqəhəylə hayqırır)

Quldurbaşı

Ha-ha!.. Buna varam! Bax, buna varam!

(*şahzadəyə*)

Sən ki qoçaqmışsan! Afərin, əhsən!
Yaxşı, bir de görüm, nəçisən, kimsən?

Şahzadə

Adəmin nəvəsi... Sənin qardaşın,
ömür yollarında sənin yoldaşın!..

Quldurbaşı

Bilirsən mən kiməm? – Taygöz canavar!..

Şahzadə

Düzdür, canavara çox bənzərin var!..

Quldurbaşı

Bura bax, deyəsən axı çaşırsan,
sənə üz verdikcə, həddi aşırsan!

(*quldurlara*)

Haydı, köpəklərim! Durmayın, cumun,
onun o hərzəçi ağzını yumun!
Tutun, bu ağaca sarıyın möhkəm!
Onu öz əlimlə gərək öldürəm,
ləzzətli-ləzzətli alam canını,
tökəm ovuc-ovuc qızıl qanını!..

(*fit səsi gəlir*)

Deyəsən, gələn var, haydı, cəld olun!
Sağını-solunu tez kəsin yolun!

(*gedirlər*)



Şahzadə

(*zarıyır*)

Hardasan, dadıma yetiş, a Gülyaz!
Eşit fəryadımı, eşit, a Gülyaz!
Gəl, bu dar günümdə havadarım ol,
vəfalı yarım ol, xilaskarım ol!..

(Şahzadənin gözünə qaranlıq çökür yenə,
Gülyazın xəyalatı görünür gözlərinə)

Gülyaz

İgid dara düşsə, yalvarmaz yada,
hər iş zorla aşmaz, bil, bu dünyada.
Düşmən güc gələndə, tədbir gərəkdir,
Əqil qüvvət ilə əlbir gərəkdir.
Qüvvət iş görməsə, əqli sal işə,
çatarsan məqsədə onda həmişə.
Sən ki həm igidsən, həm də sənətkar,
əlində sənəttək bir silahın var!

Şahzadə

Ah, Gülyaz, sən mənə çarə öyrətdin!
Gülyaz, bir yaxın gəl!

(*Gülyaz yox olur*)

Ah, hara getdin?

(Şahzadə huşa gəlib gözünü açan zaman,
görür quldurbaşını önündə hırıldayan)

Quldurbaşı

Ha! ha!.. Mən burdayam, burdayam, qoçaq,
xoşuna gəlirmi, bax, bu küt bıçaq?
Səni, bax, bununla kəsəcəyəm mən,
mənim hünərimi onda görərsən!..

Şahzadə

(*quldurbaşıya*)

İgid basdığını, məsəl var, kəsməz!
Nə çıxar sən məni öldürsən əbəs?
Macal ver, qoy deyim mən də sözümü,
sənə nişan verim mən də özümü.

Quldurbaşı

Yaxşı, aman verdim, de görüm kimsən?
Yoxsa cadugərsən, ya münəccimsən?

Şahzadə

(*qalxır*)

Yox, yox... Nə münəccim, nə cadugərəm,
Amma bir xəzinə yeri bilirəm!..

Quldurbaşı

Xəzinə?.. Yox, məni aldatmaq olmaz!

Şahzadə

Tələsmə, sözümə yaxşı qulaq as:
xalça ustasıyam, sənətkaram mən,
bir ayda min qızıl qazanaram mən!
Aman ver, qoy burda işləyim sənə,
satdır, al qızılı, olsun xəzinə!



Quldurbaşı

(*təhdidlə*)

Ancaq bil: aldatmaq istəsən məni,
barmaqca elərəm hər bir tikəni!

(*quldurlara işarə edir, şahzadəni aparırlar*)

Şahzadə

(*gedə-gedə*)

Ah, Gülyaz, sən mənə yaxşı yar oldun,
belə dar günümdə xilaskar oldun!

## IV

(Yenə matəm içində, yenə yaslıdır saray,
şahzadədən xəbər yox, aradan keçib bir ay.
Şah qəmlidir, dərdlidir, oğlundan nigarandır,
o, vəzirlə dərdləşir, işi ahdır-fəğandır)

Şah

İlahi, qalmadı səbrim, taqətim,
nə yaman qismətmiş mənim qismətim!
Yeganə övladım, oğlum, şahzadəm
yox olub... Öldürür məni qüssə-qəm.
İlahi, nə qara baxt imiş baxtım!
Bəs kimə qalacaq bu tac-taxtım?..
Şahzadəm, övladım, başımın tacı...
İlahi, bu dərdin yoxdur əlacı!..
Sən özün kömək ol mənə, İlahi,
sənədir ümidim yenə, İlahi!..

(*vəzirə*)

Vəzir, bir çarə qıl, eylə bir tədbir,
nə yaman günlərə qaldım! Ey vəzir!..

Vəzir

Şahım, haqqa yetir iman, səbr elə,
hər dərdə tapılar dərman səbr ilə.
Buyruq ver, rəmmallar, ya münəccimlər
fal açıb, oğlundan versinlər xəbər.

Şah

(*məyus*)

Onlara ümidim qalmayıb daha,
əlacım qalıbdır bircə Allaha.
Əgər çarə qılsa, bircə o qılar,
o çarə qılmasa, evim yıxılar.
Yetiş, dada yetiş, amandır, Allah!
İlahi, sənədir gümanım... Eyvah!..

(Dərin, ağır bir sükut çökür araya bu an,
Gülyaz, əlində kilim, gözlərində həyəcan,
Təngnəfəs cumaraq gəlir birdən içəri,
yox olmuş şahzadədən gətirir bu xəbəri)

Gülyaz

(*əlində kilim*)

Budur, şahzadədən gəldi bir xəbər!

Şah

Nə xəbər?

Vəzir

Hardadır?



Şah

O nədir?

Gülyaz

Xəbər!
Budur, bu kilimi o toxuyubdur,
Sadə kilim deyil, bu bir məktubdur!

Şah

(*səbirsiz*)

Nə kilim? Nə məktub? Oğlum hardadır?

Gülyaz

Şahzadə sağ-səlim... Ancaq dardadır.

(*Kilimin naxışlarını göstərir*)

Budur, bu naxışlar bir əlamətdir,
hər biri mənalı bir hekayətdir.
Onu bir canavar eyləyib əsir,
gündə talan edir, gündə baş kəsir.
Şahzadə dustaqdır, bəli, dardadır,
O kömək istəyir, intizardadır.

Şah

Bu kilim hardandır?

Gülyaz

Mən tapmışam, mən!
Şahzadə səfərə çıxdığı gündən
gözlərim yoldadır, qulağım səsdə.
Bir iz axtarırdım mən hər nəfəsdə.

Bu səhər bazarda ararkən xəbər,
gördüm bunu satır orda bir nəfər.
Kilimi tanıdım... Gözləmək olmaz,
gərək şahzadəni eyləyək xilas!

Ş a h

Vəzir, hazır olsun, əmr elə ləşkər,
yaraqlı-yasaqlı min nəfər əsgər!..

G ü l y a z

Yox, yox... Qoşun-ləşkər burda iş görməz,
arada şahzadə məhv olar əbəs.
Quldur xəbər tutsa ləşkərdən əgər,
özü qaçar-gedər, onu məhv edər.

Ş a h

Bəs onda neyləyək? Neyləyək, vəzir?
Vəzir, tədbir elə, təcili tədbir!..

V ə z i r

Şahım, onda bollu ənam göndərək,
Quldura həm ənam, həm mənsəb verək,
Olsun qalabəyi, ya da ki, sərdar,
sonralar böyüyər, əyan da olar.

Ş a h

Mən razı... Ənam da, mənsəb də verək...
Ləngimə, bu saat adam göndərək!



G ü l y a z

(*kənara*)

Bəli, tədbirə bax, – quldura ənam!..
Cəza əvəzinə – mənsəb, ehtiram!

(*şaha*)

Yox-yox... O canavar yaman sayıqdır,
tülküdən hiyləgər, qazdan ayıqdır.
İşi başa düşər... Yox, belə olmaz,
Özüm şahzadəni eylərəm xilas.
Bu kilimsatanı tutmuşam dilə, –
bahalı sifariş bəhanəsilə
adam göndərmişəm on-on beş nəfər,
hər biri tədbirli, aqil, dilavər...
Mən gedim, onlar da gözləyir məni,
gedib xilas edək tez şahzadəni.

(*gedir*)

Ş a h

(*vəzirə*)

Vallahi, olmuşam bu qıza heyran,
onda bu zəkavət, cəsarət hardan?
Rəiyyət olasan, özü də uşaq,
belə ağlın ola! Ecaza bir bax!
Vəzir, heç incimə, öz aramızdır,
səndən də, məndən də ağıllı qızdır!

V ə z i r

Şahım düz buyurur, elədir ki, var:
ecazlar yaradan o pərvərdigar
bəzən qarışqanı elə xəlq edir
ki, o, Süleymana əqil öyrədir.

(Pişxidmət daxil olub, şaha təzim eləyir,
qorxa-qorxa ikiqat əyilib belə deyir)

P i ş x i d m ə t

Şahım, el adından gəlib üç nəfər,
yalvarıb hüzura izn istəyirlər.

Ş a h

Gəlsinlər!..

(*vəzirə*)

Yenə də giley, şikayət!..
Vəzir, susacaqmı bunlar nəhayət?

V ə z i r

Şahım, fikir vermə, dünyada insan,
daim narazıdır öz həyatından.
Olsun, ya olmasın qanun-ədalət,
rəiyyət edəcək daim şikayət.

(Bir-birinin ardınca daxil olub içəri,
təzim edirlər şaha camaat elçiləri)

B i r i n c i  e l ç i

Şaha ehtiramlar, salamlar olsun!

İ k i n c i  e l ç i

Səhhəti-dövləti bərqərar olsun!

Ş a h

Xeyir ola, kişilər, nə ərziniz var?



E l ç i

Xeyirdir, inşallah, adil hökmdar,
mən tacirbaşıyam, alverdir peşəm.
Tacirlər adından ərzə gəlmişəm.
Şahın sayəsində ömr edirik şad,
şükr olsun Allaha, ölkəmiz abad.
Daim xəzinəyə xərac veririk,
bol rüsum veririk, bol bac veririk...
Ancaq xətərlidir, heyif ki yollar,
çox olur yollarda qaçaq-quldurlar.
Onlar əngəl olur gediş-gəlişə,
bir tədbir görülsün gərək bu işə...

Ş a h

Yaxşı!..

(*ikinci elçiyə*)

Qoca, söylə, sən nə deyirsən?

E l ç i

Şahım, əsnafların elçisiyəm mən.
Özüm həm bənnayam, həm də memaram,
həmişə şahıma duaçı varam.
Nə çoxdur ölkədə gözəl peşələr:
xalçaçı, keçəçi, dəmirçi, misgər...
Ancaq bazarımız kasaddır, kasad,
çox çəkməz sənətdən qalar boş bir ad.
Müftəxor sahibkar talayır bizi.
Koxalar, darğalar talayır bizi.
Hamı ağzın açıb, hamı "ver", – deyir,
hamı pay istəyir, rüşvət istəyir...
Halal zəhmətimiz...

Vəzir

Kişi, bir dayan!
Elə mətləbini müxtəsər bəyan.
Ədəblə-ərkanla de, görək nə var?

Elçi

Nə ədəb, nə ərkan? Bizi soyurlar!..

Şah

Bəsdir!..

*(üçüncü elçiyə)*

Sən de görək kimsən, nəçisən?

Elçi

Şaha ərz olsun ki, rəncbərəm mən.
Bizim də halımız yamandır, yaman.
Əkdiyimiz toxum, biçdiyimiz qan!..
Acından öldürür bizi üç azar:
qarayel, quraqlıq, bir də mülkədar!..
Yer bəyin, yurd da ki, – xanın... a rəncbər,
işlə hey, qoy çıxsın canın, a rəncbər!..

(Ürəkdələn bir fəryad qopur birdən bayırdan;
Ağbirçəkli bir qadın cumub içəri bu an,
əsla fikir vermədən fərraşa, pişxidmətə,
başlayır acı-acı fəryada, şikayətə)

Qadın

Ey şah, göydə Allah, yerdə sən, ey şah!
Yetiş, dada yetiş, hardasan, ey şah!



Şah

Nə olub, ay arvad, sakit ol bir az!

Vəzir

Şahın hüzurunda hay-haray olmaz!

Qadın

Şah nədir, Allahın hüzurunda da
haqqım var naləyə, aha-fəryada...
Anayam, şahdan da haqqım ucadır,
dərdim dağlarcadır, dəryalarcadır!
Analar adından şikayətim var,
Yanıqlı-yanıqlı hekayətim var!
Bir quduz canavar, acgöz əjdaha
bizdə tab-tavan qoymayıb daha!
Deyirlər susayıb insan qanına,
Kim düşsə əlinə, qıyır canına.
Deyirlər, baş kəsir, hər gün tökür qan.
Gündə yoxa çıxır nə qədər cavan.
Övlad yetim qalır, ailə başsız...
Analar övladsız, bacı qardaşsız...
Analar adından gəlmişəm dada,
sənə yalvarıram, yetiş imdada.
Amandır, onu tap, məhv elə, ey şah,
ey şah, göydə Allah, yerdə sən... Eyvah!

(Hönkür-hönkür ağlayır, hıçqırır... Elə bu an
Gülyaz ilə şahzadə, bir də bir dəstə cavan,
gətirirlər hüzura quldurbaşını dustaq.
Əli-qolu sarıqlı, qorxudan rəngi dümağ...)

Gülyaz

Budur canlar alan acgöz əjdaha!

Ş a h z a d ə

Budur o qaniçən taygöz əjdaha!

Ş a h

(*həyəcanla*)

Afərin, şahzadəm!.. Əhsən, igidlər!..

Ş a h z a d ə

Gülyaza eşq olsun, onundur hünər!
Odur xilas edən məni ölümdən.
Ona həmişəlik minnətdaram mən!..

(Gülyaz da qaldıraraq əlindəki kilimi,
ucaldır başı üstə vüqarla, bayraq kimi.
Göstərir bir əliylə xilaskar igidləri,
qürurla, iftixarla addımlayır irəli)

G ü l y a z

Alqış igidlərə, əqlə, cürətə!
Eşq olsun dostluğa, saf məhəbbətə!
Xilaskar zəhmətə, gözəl zəhmətə...

H a m ı

Eşq olsun zəhmətə, əhdə, ilqara!
Eşq olsun sənətə, sənətkarlara!

*fevral–iyun, 1968*



# Hekayələr

# YARALI GÖYƏRÇİN

## I

## İKİ SAHİL

Bir baharda, bir də payızda hava tez-tez dəyişir. Bu gün xoş, günəşli, işıqlı olan hava, sabahı buludlu, küləkli, çiskinli bir hal alır. Gün-günə bənzəmir, hətta eyni gün bir neçə dəfə dəyişir. Buludsuz, açıq, gömgöy səma birdən-birə bulanır, ani qopan külək qalaq-qalaq buludları qovub gətirir. Gah narın, iliklərə işləyən bir çiskin saatlarca davam edir, gah iri gurşad yağmur şimşəklər, ildırımlarla bir anda gəlir və gəldiyi kimi də çəkilib gedir; ehtiyatsız yolçuları islanmış cücəyə döndərir. Sonra seyrələn buludlar ardından doğan günəş, zərif ipək paltarları əndamlarına yapışan şıq cavanlara, saçlarının, qaşlarının boyası üz-gözlərinə yayılan modabazlara baxıb, öz nadincliyindən zövq alan bir dəcəl kimi şən-şən gülümsəyir. Belə gurşad yağmurlar üçün babalar deyiblər ki: "Yağış yağar, varlının süsünü aparar, yoxsulun hisini – ağ ilə qara aşkar olar".

Belə tez-tez dəyişən bir payız günü idi. Günortaya qədər ürəkaçan xoş bir hava vardı. Göz işlədikcə yamyaşıl otlar, göy çəmənlər, rəngarəng yarpaq və meyvələrlə bəzənmiş ağaclar gözlərə fərəh verir, yüngül ətirli ılıq hava adamın köksünü qabardırdı. Turacların, bildirçinlərin, torağayların bir-birindən xeyli fərqli, lakin bir ahəng təşkil edən ötüşmələri ən xoş bir musiqi təsiri ilə insanı heyran edirdi. Üfüqdə başı qarlı, döşləri, ətəkləri sarımtıl-yaşıl məxmərli dağlar baxışları oxşayırdı...

Yol uzunu bu ucsuz-bucaqsız düzənləri, dörd bir tərəfdə, yaxında-uzaqda qovaqlar, söyüdlər, meyvə ağacları arasından tez-tez görünən qırmızı kirəmit damlı cərgə-cərgə qəşəng ağ evləri, bacaları tüstülənən nəhəng zavodları, şəbəkəli polad betonlu körpülər üstündən uçaraq keçən yüklü-minikli qatarları, göy üzündə bərq vurub süzən polad qanadlı təyyarələri seyr etdikcə, insanın köksü qürurla qabarır, alnı vüqarla ucalır...

Axşama doğru biz getdiyimiz yerə – Araz sahilinə yaxınlaşırıq. Payız havasının oynaqlığındanmı, yoxsa Bakı ilə buranın arasındakı məsafənin uzaq olmasındanmı, nə isə, hava xeyli dəyişmişdi. Üfüqdə günün batması elə gözəl görünürdü ki, təsvir etmək mümkün deyildir.

Şairlər, rəssamlar günün batmasını çox-çox təsvir etmişlər. Bunlar bir-birinin eyni olmadığı kimi, indi qarşımda canlanan mənzərə də bunların heç birinə bənzəmirdi. Yəqin ki, təbiət də sənət kimi təkrarı sevmir.

Araz, əfsanəvi Araz, qəhrəman Arazın, igid Cavanşirin, mərd Babəkin, qoçaq Nəbinin atlarının su içdiyi Araz çayının bu sahili al şəfəqlərlə şölələnərkən, sular ortada gümüş rənginə çalır. Sonra tutqun bir qurğuşun rəngi alıb, get-gedə qaralır və o biri sahil qaranlıq içində gözdən itir. Buludlar başıaşağı çevrilmiş nəhəng bir tonqala bənzəyir. Arazın üstündə gur yanan bir alov rəngi getdikcə al-qırmızı, daha sonra tünd qan rəngi alıb, daha da qatılaşan bənövşəyi, mor rənglərə qarışır və qalın tüstü kimi o sahilə enir, sahilin zülmətinə qovuşur. Bu qaranlığın ardından dəstə-dəstə, qatar-qatar durnalar qaqqıldaşa-qaqqıldaşa süzüb, bu taya keçir və al şəfəqlər saçan səmaya ucalır...

Qaranlıq getdikcə qatılaşır. Bu tayda alışan cərgə-cərgə yer ulduzları açıq səmada əks edir. Üfüqdə səhər şəfəqinə bənzər bir işıq parıldayır. O tayda qatı zülmət pərdəsi arxasında, orda-burda işıqlar görünür. Bu işıqlar tapdanıb söndürülən nəhəng bir tonqalın közərən qığılcımlarına bənzəyir. Elə qığılcımlar ki, bir an içində alışıb alovlanaraq, coşqun-daşqın bir vulkan halını ala bilər...

* * *

Gecəni Araza yaxın bir kənddə, gənc bir müəllimin evində keçirdim. Bu gənc, keçmişdə yeri-yurdu olmayan, həmin bu kənddə onun-bunun bağında, bostanında, tarlasında işləyən bir muzdurun oğlu idi. Heç ata üzü görməmişdi; zirək bir arvad olan anasının köməyi ilə böyümüş, məktəbə girmiş, sonra öz çalışqanlığı və bacarığı ilə kənd camaatının rəğbət və məhəbbətini qazanmış, komsomolçu olmuş, rayon komsomol komitəsinin köməyi ilə pedaqoji məktəbi



bitirmişdi. Müəllim olaraq, öz kəndlərinə qayıtmaq əvəzinə, cəbhəyə getməli, əvvəlcə faşist basqınçılara "dərs" verməli olmuşdu. Əynində onun mütənasib bədəninə, dik baxışlı qumral gözlərinə, çatma qara qaşlarına, narın qıvrıcıq bığlarına, enli-açıq alnından geri daranıb qulaqlarının üstünə tökülən saçlarına və qarabuğdayı çöhrəsinə çox yaraşan poqonsuz bir kitel vardı. Döşündəki iki cərgə orden və medallar onun tərcümeyi-halını qısa, lakin çox aydın və dərin mənalı bir dillə ifadə edən iki misra şerə bənzəyirdi.

Axşamdan bəri Eldar müəllimlə xeyli söhbət etmiş və iki köhnə dost kimi bir-birimizə isinişmişdik, cavan müəllim dərin və böyük bir eşqlə öz sənətini sevir, ondan coşqun bir məhəbbətlə danışırdı.

O, xeyli danışdıqdan sonra ürəyi dolu olan, lakin bunları ifadə etməyə söz tapa bilməyən adamlar kimi susdu, dişlərini bir-birinə sıxdı, gözləri isə, çox şeylər söyləyirdi. O, gözlərini otağın divarlarında gəzdirdi və bir nöqtəyə zilləyib durdu. Mən də o nöqtəyə baxdım... Divardan bir ov tüfəngi, bir də bir saz asılmışdı.

* * *

Mən, hələ otağa girərkən, bunları görmüşdüm və bir ov maraqlısı kimi, tüfəngi alıb baxmaq istəmişdim. Lakin indi məni tüfəngdən artıq saz maraqlandırırdı; çünki cavan dostum da gözünü ona zilləmişdi. Araya çökən sükutu pozmaq və o tayı yad etməkdən doğan qəmginliyi dağıtmaq məqsədi ilə dilləndim:

– Deyəsən saz da çalırsınız, eləmi?

Bu sual yerinə düşmüşdü. Eldar (gənc müəllimin adı belə idi) hələ gözünün yaşı qurumamış, gülümsəyən bir körpə saflığı ilə qəzəbli üzündə yüngül bir təbəssümlə mənə baxdı. Sonra ayağa qalxıb, sazı divardan aldı, kökləyə-kökləyə mənə sarı gəldi və qarşımda durdu.

– Bu saz atamdan qalan yeganə yadigardır, – dedi. – Bunun da qəribə bir macərası var: atam cavanlığında həm bu tayda, həm də o tayda kənd-kənd gəzər, həm muzdurluq edər, həm də oxuyub-çalarmış. O tayda xanın qaravaşlarından bir qıza vurulubmuş; qız da ona könül veribmiş. Əlbəttə, xan onların evlənməsinə razılıq verməyib. Atam da bir gün qızı götürüb qaçıb, xanın nökərləri ilə vuruşub yaralanıbmış... Bu saz da çiynində imiş...

– Görürsünüzmü, – deyə o, sazın üstündə tünd-qara ləkələri mənə göstərdi. – Bunlar onun qanının izləridir. Bu əhvalatı mənə sonralar anam danışmışdı...

Eldar dərindən köksünü ötürdü və sazı sinəsinə basıb, gözlərini uzaq bir nöqtəyə zilləyib, çaldı, çaldı və yanıqlı bir səslə oxudu:

Arazı ayırdılar,
Qumdan bənd qayırdılar.
Mən səndən ayrılmazdım,
Zülm ilə ayırdılar!..

Eldarın çaldığı sazın səsinin ahəngində və gözlərində elə bir ifadə vardı ki, bu yanıqlı nəğmə insanda kədər və qüssə deyil, coşqun bir ümid doğururdu.

Mən bu təsirli musiqinin və nəğmənin hələ çox uzanmasını arzu etdiyim halda, Eldar birdən, ürəyinin sirrini tamam açmaqdan çəkinib, söhbəti dəyişmək istəyirmiş kimi, nəğməni kəsdi, sazı yerinə asdı və tüfəngi götürüb yanıma gəldi:

– Deməli, səhər ova çıxırıq, – dedi, – yaxşı vaxtında gəlmisiniz. İndi turac, qırqovul çolpalarının böyüyüb üzə çıxan vaxtıdır...

Düzü, Eldarın etdiyi söhbətlər, xüsusən çalıb-oxumağı ovu təmiz yadımdan çıxarmışdı. Ancaq onun söhbəti dəyişmək istədiyini görüb, etiraz etmədim.

– Əlbəttə, – dedim, – payız ovun ən yaxşı vaxtıdır. Ancaq bircə şərtim var: mənim çolpadan-fərədən xoşum gəlməz, təkcə xoruzları vuracayıq...

* * *

Bu gün yol gəlib yorulduğuma, yorğan-döşəyimin yumşaq və təmiz olmasına baxmayaraq, gözümə yuxu getmirdi. Bunun səbəbi yerimin dəyişmiş olması da deyildi. Düzdür, bəzi adamlar yataq nə qədər rahat olsa da, başqa bir yerdə yata bilmir. Lakin ovçuluğa alışmış adam belə deyildir. O, narahat maşında da, açıq havada da, quru yerdə də yatıb, yuxusunu alır...



Bəs səbəb nə idi?..

Otaqda lampanı söndürmüşdüksə də, ancaq ayın şöləsi pəncərədən düşüb, otağın yarısını işıqlandırmışdı. Açıq pəncərədən payız çiçəkləri və meyvə ağaclarının ətri ilə qarışıq gecənin sərin nəfəsi, bir də bülbüllərin gözəl gecə nəğməsi otağa dolurdu.

Pəncərənin qabağındakı ağaca qonmuş bir bülbül azca ara verə-verə öz gözəl nəğməsini oxumaqda idi: lakin "gözəl" sözü bu nəğmə barəsində bir təsəvvür verə bilərmi? Biz qəfəsdə doğulub-qəfəsdə böyüyən, ötməyi də qəfəsdə öyrənib, laqeydliklə təkrar edən sarı kanarya nəğməsinə də gözəl deyirik. Ancaq azadlığın nə olduğunu bilməyən, hətta onu arzu belə etməyən, əsarəti bir səadət kimi qəbul edib, ona nəğmələr qoşan kanaryanın nəğməsi hara, bu azad bülbülün nəğməsi hara!..

Bu bülbül axşam şəfəqindən sabah şəfəqinə qədər davam edən nəğməsi ilə kiçicik vücudunu sarsıdan, hər nəfəsində ürəyinin bir parçacığı qopurmuş kimi, yanıqlı hıçqırıqlarla dolu nəğməsi ilə nə deyirdi?

Gül və bülbül haqqında saysız-hesabsız əfsanələr hamıya məlumdur. Şərqin və qərbin şairləri bu barədə bitməz-tükənməz şeirlər, dastanlar qoşmuşlar. Cürbəcür bioloqlar cinsiyyət və irsiyyət haqqında cild-cild elmi əsərlər yazmışlar. Bu nəğməni izah etmişlər... Amma bu nəğməni dinlərkən, bunların hamısı yaddan çıxır...

Bu nəğmədə həm hicran dərdi, həm vüsal arzusu, həm yas, həm də ümid vardı. Bülbül – o kiçicik nəğməkar quşcuğaz bunlardan tamamilə xəbərsiz idi. Lakin insan – dünyanın bütün sirlərini öz arzu və əməllərinə görə açan və şərh edən insan özünü bu sirrə də vaqif bilirdi...

Bu yanıqlı nəğməni dinlərkən, sanki bir həqiqəti daha aydın duyurdun; daha dərindən hiss edirdin ki, dünya ikiyə ayrılmışdır; səadət və azadlıq dünyası, bir də əsarət və ağalıq dünyası... Mən bu iki dünyanı ayıran bir çayın yaxınlığında idim, bülbül də orada ötürdü. Sanki bülbül öz nəğmələri arasındakı fasilədə nə isə dinləyir, o taydan nə isə eşidir və qəlbinin dərinliklərindən qopan o coşqun nəğmə ilə ona səs verirdi.

Doğrudan da, bir az əvvəl Eldarın oxuduğu o nəğmə ilə bülbülün nəğməsi arasında nə böyük bir bənzəyiş vardı?!

* * *

Ovçu yuxusu sayıq olar: o, nə qədər yorğun olsa, nə qədər gec yatsa da, bir sövqi-təbii hiss ilə əvvəlcədən təyin etdiyi vaxtda saatsız-zəngsiz oyanar.

Lakin bu dəfə belə olmadı. Araz sahilində gördüyüm o həzin qürub mənzərəsi və Eldarın yanıqlı nəğməsi ovu tamam yadımdan çıxarmışdı. Səhərə yaxın məni yenicə huş aparmışdı. Bu, yuxu ilə oyaqlıq arasında elə bir hal idi ki, həqiqət, xəyal və röya bir-birinə qarışmışdı.

Gah üfüqlərinə qan rəngi çökmüş bir zülmət aləmində dar ağaclarında yırğalanan qara cəsədlər görür, ürək parçalayan ana fəryadı eşidirdim; gah bu zülmət dünyasının səmasını bürümüş qara qanlı buludlarda şığıyan şimşəklərdən yerə tökülən qığılcımlar hər tərəfi çulğalayan bir yanğına çevrilir; yanan xanimanlardan körpələrin ağlaşma səsləri ucalır; bu ana fəryadları ilə körpə nalələri bir-birinə qarışıb ucalır-ucalır, səmalarda yox olur; sonra əks-sədaya dönüb, Eldarın nəğməsində yenidən canlanırdı. Gah üfüqlər bahar günəşinin ilk şəfəqləri ilə nurlanıb aydınlaşır: mərmər qayalardan sakit, güzgü gölə daman irili-xırdalı büllur damcılar xoş bir ahənglə səslənirdi...

Yox... Bu daha nə xəyal, nə röya deyil, bir həqiqət idi. Bəli, mən oyaq idim, pəncərədən yasəmən budaqları arasından saf və şəffaf, buludsuz, ləkəsiz payız səması görünür və gecədən açıq qalmış reproduktor radionun siqnalını çalırdı...

Eldar yəqin ki, məni yatmış bilib, pəncələri üstündə yeriyərək reproduktorun səsini kəsmək üçün əlini uzatdıqda:

– Dəyməyin, – dedim, – qoyun qalsın!

– Oyaqsınızmı? – deyə o, xoş bir təbəssümlə gülümsündü. – Elə bildim ki, gec və narahat yatdığınızdan, hələ qalxmaq istəməzsiniz... – Sonra əlavə etdi: – Mən bu səsi eşitməyi çox xoşlayıram. Qarlı-boranlı səngərlərdə də, o tayda, o ağalar-qullar diyarında da bu səsi eşidəndə, həmişə özümü öz azad ölkəmdə hiss etmişəm...

Bu sözlərdən sonra Eldar dərindən köksünü ötürdü. Onun ürəyi dolu idi, nə isə demək istəyirdi, ancaq sözünü dəyişib dedi:

– Nə isə, ovçu ovda gərək... Bir azca qəlyanaltı edib gedək, indi quşun dənə çıxan vaxtıdır...

Mən etiraz etmədim, bir az sonra yola çıxdıq.



## II

## DÖRDAYAQLI VƏ İKİAYAQLI NADÜRÜSTLƏR

Gecə şehmi düşmüş, xırdaca yağışmı yağmışdı, hər nə isə, sabah günəşinin yumşaq şəfəqlərində, meyvə ağaclarının rəngarəng yarpaqları və yaşıl otlar üzərində xırdaca damcılar inci kimi parıldaşırdı. Kəndin kənarından get-gedə sıxlaşan və iriləşən qamışlıq başlanırdı. Həyətdən çıxarkən, tulanın atılıb düşərək, o yan-bu yana qaçdığını görüb, doğrusu, ovdan bir şey çıxacağına şübhələnmişdim; çünki turac-qırqovul ovunda müvəffəqiyyət tulanın məharət və təcrübəsindən asılıdır. Tula quşu tapıb, marıt verməsə və vaxtında qaldırmasa, ən mahir ovçu da bir şey edə bilməz. Bu quşlar çox vaxt tək-tək, bəzən cüt-cüt gəzər və bir təhlükə hiss etdikdə, sinib gizlənər, yalnız təsadüfən düz üstlərinə çıxdıqda, havaya qalxarlar; onda da təcrübəsiz və əsəbi ovçu diksinir, çox zaman atdığı boşa çıxır. Həmin yerdə əlli quş da olsa, tüfəng səsinə bircəsi də uçmaz. Vurulan quşu da qalın kollar arasından tapmaq asan deyildir... Bütün bunları yaxşı tula etməlidir.

Eldarın tulası Xallı, zahirən cins ov tulası idi. Ancaq öz kefinə görə atılıb-düşdüyünü, öz-özünə oynadığını gördükdə, tamamilə ümidimi kəsmişdim; xatirinə dəyməmək üçün Eldara heç bir söz demirdim, çünki ovçuların qəlbi bu cəhətdən çox kövrək olar. Hər ovçu elə güman edir ki, dünyada onun tulasından və onun tüfəngindən yaxşısı yoxdur. Buna görə də mən, ov da olmasa, ilk dəfə gördüyüm bu yerlərin gözəlliklərini doyunca seyr etmək üçün tüfəngi çiynimdən çıxartmadan, arxada gedirdim.

Birdən Eldarın məni işarə ilə yanına çağırdığını görüb getdim. Əli ilə tulanı göstərdi. Bayaqkı oynaq və dəcəl tula, quyruğunu bulaya-bulaya, on addım irəlidə yeyin, lakin ehtiyatlı addımlarla, ilan yolu, o yana-bu yana vurnuxa-vurnuxa gedirdi. Eldar pıçıltı ilə:

– İz alıb, – dedi, – bu saat tapacaq!..

Eldar sözünü qurtarmamış, tula bir anda yerə mıxlanmış kimi durdu. Bütün vücudu irəli uzanmış, sağ pəncəsini yarı qaldırıb bükmüş, iri, sallaq qulaqları yarıya qədər şəklənmiş, quyruğu çubuq kimi dikəlmiş, özü ox kimi atılmağa hazır bir vəziyyətdə hərəkətsiz durmuşdu. Ehtirasın şiddətindən bütün bədəni soyuqdan əsirmiş kimi titrəyirdi.

Eldar pıçıltı ilə dedi:

– Hazır olun, xoruzdur, xoruz!

Mən tüfəngi hazır tutdum, papirosumu atmaq istədim. Eldar gülümsəyərək dedi:

– Tələsməyin, mən deməmiş, tula yerindən tərpənən deyil, bir saat da saxlasam, quş da, o da eləcə duracaqdır.

Mənim səbrim tükənmişdi, tulaya da rəhmim gəlirdi. Yazıq heyvan, bütün vücudu uçuna-uçuna əmr gözləyirdi. Papirosu atıb, Eldara işarə etdim. Onun: – "Al!" – deməsi ilə, tulanın yerindən qopması və uzunquyruq iri bir qırqovul xoruzunun qaqqıldayaraq şiddətli bir pırıltı ilə qalxması bir oldu.

Həmin saat tüfəngin iki gözünü də çaxdım: ancaq heç biri dəymədi. Qırqovul bir qədər aralandıqda, Eldarın tüfəngi açıldı və quş daş kimi düşdü. Uçduğu yerdə – havada qalan bir çəngə xırdaca tükü əsən xəfif meh ağır-ağır bizə sarı gətirirdi.

Quşu gözdən qaçırmamaq üçün dal ayaqları üzərində dik qalxmış Xallı irəli atıldı və bir az sonra, ağzında qırqovul, qayıdıb gəldi. Quşu Eldarın qabağında yerə qoyub, ağıllı gözləri ilə bir mənə, bir quşa, bir sahibinə baxdı. Mənə elə gəldi ki, o məni danlayır, yiyəsini isə alqışlayırdı.

Eldar, hələ ölməmiş və çırpınmaqda olan xoruzu götürüb mənə uzatdı. Mən hələ bu gözəllikdə quş görməmişdim. Onun təsvirinə çalışmaq nahaqdır; çünki tüklərinin rənglərini, bunların arasındakı ahəngdarlığı, rənglərin oynaqlığını, şuxluğunu, zərifliyini, bir sözlə, quşun gözəlliyini təsvir etməyə nə mövcud rənglər, nə məlum kəlmələr kifayət etməz... İnsan bəzən rəssamlar tərəfindən çəkilmiş son dərəcə gözəl bir təbiət lövhəsi, bir quş, çiçək şəkli gördükdə, bunların təbiətdə bu dərəcə gözəl olmayıb, rəssam tərəfindən zinətləndirildiyini güman edir; lakin təbiətdə bunların əslini gördükdə, bunun müqabilində rəssamın lövhəsinin sönüklüyünü dərk edir...

Mən qırqovul xoruzunun bu dərəcədə gözəlliyinə təəccüblə və bu yekəlikdə bir quşu belə yaxın bir məsafədən vura bilmədiyimə təəssüflə, qeyri-ixtiyari olaraq bir papiros çıxarıb yandırdım. Eldar bu hərəkətimdən əsəbiləşdiyimi başa düşdü və:

– Niyə tələsdiniz? – dedi, – yaxşı ki, güllələriniz dəymədi...

Bu sözlərin həqiqi mənasını başa düşməyib, incik bir nəzərlə gənc müəllimə baxdıqda, o, sözünə davam edib dedi:



– Çünki dəysəydi, quş ələ gəlməzdi, parça-parça olardı.

Doğrudan da hər ovun öz çəmi varmış. Mən çoxdan ov həvəskarı idim. Ancaq bu müddətdə yalnız su quşları ovuna getdiyimdən, turac-qırqovul ovunda bu ilk müvəffəqiyyətsizlik təbii idi. Bir neçə belə təsadüfdən sonra bu ovun da çəmini tapdım.

Adama bir neçə turac, qırqovul vurmuşduq. Artıq günorta yaxınlaşmış, hava istiləşmiş, quşlar da yemlənib, qalına çəkilmişdilər. Daha tulanın cidd-cəhdlə axtarışları da bir nəticə vermirdi. Səhər zirək və oynaq olan və daim on-on beş addım irəlidə gedən tula, indi dilini bir qarış sallayıb, Eldarın arxasınca düşmüşdü. Sahibinin: – "Axtar! Axtar!" – deyə təkidlərinə baxmayaraq, bir neçə addım irəli gedib, boş qayıdır və quyruğunu bulaya-bulaya, onun üzünə baxır, sanki deyirdi: "Daha bəsdir, dincəlmək vaxtıdır..." Düzü, biz də yorulmuşduq.

Eldar ətrafa yaxşı bələd olduğundan, yaxında iri, sərin kölgəli bir söyüd ağacını göstərərək:

– Gedək, bir az dincələk, – dedi. – Bir də axşamtərəfi, qayıdanbaş ov edərik...

Söyüd ağacının yaxınlığında xırdaca bir qayadan göz yaşı kimi duru bir bulaq çıxıb ağacın dibi ilə axırdı. Tüfənglərimizi boşaldıb ağacdan asdıq. Çantanın xırdaca qayışlarından asılı quşlarımı çıxartdıqda heyrət etdim: qırqovullardan birinin qayışda yalnız başı və boynu qalmışdı, bir turacın isə, budları ilə gövdəsinin yarısı yox idi.

– Bu necə işdir? – deyə təəccüblə soruşdum...

Mən əvvəlcə elə güman etdim ki, bunlar yolda kol-kosa ilişib didilmişdir. Doğrudan, yol uzunu bəzən quşların nəyə isə ilişdiyini hiss edib dönür, yoxlayırdım; ancaq bir şey görə bilmirdim.

Əl-üzünü yumaq üçün bulağa yönələn Eldar qayıdıb mənə sarı gəldi. Mən əhvalatı söyləyib quşları, daha doğrusu, onların qalıqlarını göstərdim.

Eldar gülümsədi və təəssüflə başını yırğalayıb dedi:

– O nadürüstün işidir!..

Mən bu sözdən bir şey anlamayıb, daha artıq bir təəccüblə onun üzünə baxdım. O izah etdi:

– Biz qamışlıqda ov edərkən, arxamızca, yan-yörəmizcə onlarca göz baxır, bizi izləyirlər: çaqqallar, tülkülər, qamış pişikləri, çalağan və sair ov ortaqlarımız var. Tula olmasa, vurduğumuz quşların yarısını

da tapa bilməzdik. Onlar qabağa düşüb, quşu bizdən əvvəl qapıb qaçardılar. Bunların içində ən yaramazı çaqqaldır. Tülkünü hiyləgər söyləyirlər, amma o qorxaqdır. Qamış pişiyi çox ehtiyatlıdır, çaqqal isə həyasızdır. Bunları o darmalamışdır!

Bu sözlər əvvəlcə mənə inanılmaz kimi göründüsə də, sonra keçdiyimiz yerlərdəki vəziyyəti göz önünə gətirib, bunlara inanmalı oldum və axşam ovunda ehtiyatlı olmağı qərara aldım.

Əl-üzümüzü yuyub, söyüdün sərin kölgəsində oturduq.

* * *

Maraqlı və xoş bir ov gəzintisindən sonra, qarlı-şaxtalı qışda bir tonqal başında, yazın-payızın istisində bir ağac kölgəsində qısa bir istirahət də ovun özü qədər ləzzətlidir. Ovdakı yorğunluğun da, dincəlməyin də başqa bir dadı var.

Bulaq başında, söyüd kölgəsində, səfalı, axar-baxarlı bir yerdə, məxmər otların üstündə ovçu süfrəmizi açıb yenicə oturmuşduq ki, yaxındakı cığırla çiyinlərində süngülü tüfəng, yanlarında bir keşikçi köpək olan iki sərhədçi əsgərin keçdiyini gördükdə, Eldar boylanıb onları tanıdı və səslədi:

– Kolya, Qəhrəman!.. Xoş gördük, gəlin qonağımız olun.

Əsgərlər gəlib Eldarla köhnə və yaxın bir dost kimi görüşdülər. Eldar bizi tanış etdi.

Eldarın ingilis cinsindən olan ov tulası ilə sərhədçilərin alman cinsindən olan qoyun köpəyi də öz adətlərincə, əvvəl bir-birindən çəkinə-çəkinə burun-buruna iyləşdilər, sonra dostlaşıb oynaşmağa başladılar.

Qəhrəmanla Eldar cəbhə yoldaşı idilər. Müharibədən sonra o, könüllü olaraq orduda qalmış və bura, sərhəd hissəsinə göndərilmişdi. Kolya isə, çoxdan burada işlədiyindən, yerlilərin çoxu ilə tanış və dost idi. Onlar indicə növbədən çıxıb istirahət etməyə gedirdilər.

Üç yoldaş, termoslardan tökdüyümüz buğlanan tünd, "xoruz pipiyi" çaydan içə-içə cəbhə xatirələrindən, sərhəddə baş verən maraqlı hadisələrdən şirin-şirin söhbət edirdilər.

Görünür ki, zarafatcıl bir oğlan olan Qəhrəman, ağacdan asdığımız quşların arasında tək başı və boynu qalmış qırqovulla yarımçıq



turacı və süfrədəki toyuq soyutmasının qalıqlarını görüb, gülə-gülə dedi:

– Deyəsən, quşları evə aparmağa səbriniz çatmayıb, elə buradaca parçalayıb yeyibsiniz!..

Başıma gələn əhvalatı onlara danışdım. Gülüşdülər. Mən onların yekəpər köpəyini göstərib:

– O nadürüstlərin öhdəsindən bu qoçaq gələr! – dedim.

Qəhrəman dedi:

– Yox, bu, elə şeylərə baş qoşmaz; bunun öz ixtisası var. Bu, ancaq ikiayaqlı nadürüstləri ovlayır...

– Bir də qanadsız qarğaları... – deyə Kolya əlavə etdi.

– Hə, srağagünkü əhvalatı danış, Kolya...

– Nə əhvalat? – deyə Eldar soruşdu.

– Elə bir şey deyil, – deyə Kolya cavab verdi və əlavə etdi: – Sərhəd boyunda tez-tez baş verən adi hadisələrdən biridir.

Mən maraqlanıb:

– Mümkünsə, danışın, – dedim. – Sizin üçün adi bir hadisə olsa da, bizim üçün çox maraqlıdır.

Kolya nağıl etməyə başladı:

– Srağagün səhər tezdən, yanımda bu Qoçaq ilə, – deyə o köpəyi göstərdi, – iki postun arasını yoxlamağa çıxmışdım. Əvvəlki gecə zil qaranlıq və küləkli bir gecə idi. Səhər də sıx duman vardı. Belə hallar "gecə quşları" üçün əlverişlidir. (Mən sonra başa düşdüm ki, "gecə quşları" deyəndə, o, sərhəd pozanları nəzərdə tuturmuş.) Meşənin kənarı ilə keçdikdə, birdən Qoçaq duruxdu və yeri qoxulaya-qoxulaya məni meşəyə sarı çəkməyə başladı. Əyilib yeri nə qədər diqqətlə yoxladımsa da, heç bir iz görmədim. Ancaq Qoçaq da boş yerə belə etməzdi. Nə isə, tapançamı çıxarıb, onun ardınca düşdüm. Bir xeyli getdikdən sonra, Qoçaq iri, sıx yarpaqlı bir ağacın dibində durdu, ağacın dövrəsinə hərlənib gövdəsinə yanaşdı və ağaca çıxmaq istəyirmiş kimi hərəkət etməyə başladı. Mən yenə yeri diqqətlə yoxladım. Heç bir əlamət yox idi. Köpəyi qaytarmaq istədim, ancaq o, ağacdan əl çəkmirdi. Ağzını yuxarı qaldırıb, hürməyə başladı. Mən diqqətlə ağaca baxıb, qalın budaqların arasında şübhəli bir qaraltı gördüm. Tapançanı ona dikləyib:

– Kimsən, aşağı düş! – deyə çağırdım.

– O, sözsüz-sovsuz ağacdan düşüb, əllərini yuxarı qaldırdı. Bu, ətli-canlı, yekəpər bir kişi idi. Guya xaricdə pis şəraitdə yaşamaqdan narazı olub, bura pənah gətirdiyini söyləməyə başladı. Mən hər şeyin yerində aydınlaşdırılacağını dedim; onu qabağıma salıb getmək istədim. Bir neçə addım getmişdim ki, Qoçağın ağacın dibində durub, yenə hürdüyünü eşitdim. Dönüb onu səsləmək istədikdə, bu nəhəng heyvərə, arxadan mənim üstümə atılıb, qəfildən elə süpürlədi ki, hər ikimiz yerə yıxıldıq, tapança əlimdən düşdü. Elə bu anda ağacdan bir başqasının da atılıb yoldaşına kömək etmək istədiyini və Qoçağın bizdən bir neçə addım aralı onu haqladığını gördüm. Yer eniş olduğundan, biz ikimiz bir-birimizə sarmaşmış halda bir neçə dəfə diyirləndik. Birdən o, ayağını yerə dirədi, mən altda qaldım. O bütün ağırlığı ilə sinəmə çöküb dizini boğazıma dirəmişdi. Nəfəsimin kəsildiyini, gözlərimin qaraldığını hiss edirdim...

Bu zaman Qoçağın kəsik-kəsik hürdüyünü eşitdim. Bizim köpəklər xüsusi surətdə öyrədilmişlər. Yad adamı qovub yaxalayır, yerə yıxırlar, müqavimət göstərsə, boğacaq, didib-parçalayacaqlar; sakit durub təslim olsa, pəncəsini sinəsinə qoyub, kəsik-kəsik hürərək, bizim gəlməyimizi gözləyəcəklər.

Qoçağı səsləyə bilsəydim, o saat gəlib məni qurtaracaqdı, amma nəinki səsim, heç nəfəsim də çıxmırdı. Belə qalsam, yəqin ki, bir neçə dəqiqə sonra huşumu itirəcəkdim, hər iflər məni də, Qoçağı da öldürüb qaçacaqdılar. Ümidim bircə ona idi ki, Qoçaq mənim gəlmədiyimi görüb, özü mənim köməyimə yetişər...

Birdən sanki üstümdən bir dağ götürüldü. Başımı zorla qaldırıb, gördüm ki, Qoçaq mənim üstümdəki yekəpər hərifin boynunun ardından yapışıb, yerə vurmuşdur. Həmin saat səndələyə-səndələyə tapançama sarı yüyürüb, onu qapdım və havaya bir-birinin ardınca üç güllə atdım.

Bütün bunlar bir an içində oldu.

Qoçaq cumub, o biri hərifi də yerindən tərpənməyə qoymadı. Mənim yanımdakı hərif üzüqoylu düşmüşdü. Onun qollarını arxaya qardım, boğazından açılıb yerə düşmüş şərf ilə möhkəm bağladım və tərpənərsə, yerindəcə güllə ilə vuracağımı bildirib, o birinə sarı getdim. Qoçaq onun sağ əlini ağzında bərk sıxıb, pəncəsini sinəsinə qoyub durmuşdu; tapançası yanındaca yerə düşmüşdü.

Burasını da deyim ki, belə çağırılmamış qonaqları diri tutmaq vacibdir. Onlar da mümkün qədər səs-küysüz ötüşməyə çalışırlar.



Tapançaya yalnız son dəqiqədə, naəlac qaldıqda əl atırlar. Mən atəş açdıqdan sonra, artıq iş-işdən keçdiyini görüb, o da tapançaya əl atmış, ancaq Qoçaq vaxtında yetişib, macal verməmişdi.

Beləliklə, hər iki hərifi qabağıma salıb apardıqda, güllə səsini eşitmiş yoldaşlar da gəlib çıxdılar.

Bəli, Qoçaq doğrudan da qoçaqdır...

Belə deyib, Kolya bir neçə addımlıqda bizim Xallı ilə yan-yana oturmuş Qoçağı yanına çağırdı və başını tumarladı.

Mən süfrədə qalmış bir toyuq budunu götürüb Qoçağın qabağına atdım. O heç gözünün ucu ilə də baxmadı. Qəhrəman gülümsəyib dedi:

– Siz bizim Qoçağı nə bilirsiniz? O başqa acgöz köpəklər kimi deyil, acından ölsə də, kənar adamdan şey alıb yeməz!

Kolya əti Qoçağa göstərib: – "Al!" – deyə əmr etdi. Qoçaq əsla tələsmədən əti götürdü və bir-iki addım kənara çəkilib "ədəblə" gəmirməyə başladı.

Mən Xallının bir ona, bir də mənə baxıb, dodaqlarını yaladığını gördüm. Başqa bir tikə də götürüb ona atdım. O durub əti almaq istədikdə, Eldar: "Olmaz!.. – deyə səsləndi. Xallı geri çəkilib, yerində oturdu. Bir-iki dəqiqə sonra Eldar ona "Al!" – deyə icazə verdi. O da əti götürüb "ədəblə" yedi. Beləliklə, Eldar da öz tulasının "tərbiyəli" olduğunu sübut etmək istəmişdi.

Hamımız gülüşdük və ayağa qalxdıq: onlar mənzillərinə, biz də ova getməyə hazırlaşdıq.

Ayrılarkən, mən Qoçağın haradan alındığı ilə maraqlandım. Kolya dedi:

– Bu itləri xüsusi öyrədirlər. Amma bunları bəsləyib böyütməkdə gənc pioner və məktəblilər də xeyli kömək edirlər. Məsələn, Qoçağı Bakıda bir pioner qız böyüdüb sərhədçilərə hədiyyə göndərmişdir...

* * *

Axşam ovuna başlarkən, mən özümə söz vermişdim ki, necə olsa, gərək çaqqallardan xarab etdikləri iki quşun intiqamını alam. Bu məqsədlə, tüfəngin bir gözünə iri qırmalı fişəng qoymuşdum. Quşları yenə qayışlardan asıb, qəsdən tuladan aralı və qamışlığın qalın yerləri ilə ağır-ağır gedirdim ki, çaqqalları tamahlandırım. Ancaq bu dəfə, nədənsə, heç quşlara dəyib-dolaşan yox idi. Bir dəfə quşun

dartıldığını hiss edib tez geri hərləndim, amma quş doğrudan da kola ilişmişdi.

Qamışlığın axırına azacıq qaldıqda, qayışın yavaşca dartıldığını bir də hiss etdim. Buna əhəmiyyət verməyib, yoluma davam etdim, amma addımlarımı yavaşıtdım. Bir neçə addım getmişdim ki, qayış bir də, əvvəlkindən xeyli bərk dartıldı. Mən bir anda geri çevrilib, bir çaqqalın suya atılan bir daş kimi, qamışların arasına soxulduğunu gördüm və tüfəngin iki gözünü də həmin yerə sıxdım. Tez tüfəngi doldura-doldura, ora doğru yüyürdüm; Eldar da işi duyub yanıma gəldi. Qamışın qalın bir yerində yekə bir çaqqal yerə sərilmişdi. Saçmalar boynunun ardından dəymiş, çənəsi kilidlənmiş, turacın budu ağzındaca qalmışdı.

Eldar sevinmiş bir halda:

– Bax, bu yaxşı! – dedi. – Bu gün beş-on quş vurduqsa, yüzlərlə quşun canını qurtardıq. Bu məlun yazıq quşların qənimidir...

Belə deyib cibindən iri ovçu bıçağını çıxardı. Mən bunu görüb nə etmək istədiyini soruşdum:

– Dərisini soyacağam, – dedi.

– Nə lazımdır, canım, vaxt itirməyinə dəyməz; gedək.

– Yox, elə şey yoxdur. Bu, beşcə dəqiqəlik bir işdir, üstəlik mükafatı da var.

– Nə mükafat?

– Bəs necə? Ovçuluq və kənd təsərrüfatına ziyan verən heyvanları tələf edənlərə tədarük təşkilatları və ovçuluq idarəsi, üstəlik kolxoz idarələri də mükafat verirlər!..

– Mən öz quşlarımın əvəzini çıxmaqla mükafatımı aldım, – dedim.

Eldar doğrudan da beşcə dəqiqəyə çaqqalı soyub dərisini çantasına qoydu və biz yola düzəldik.

## III

## SİRR

Artıq ovlaqdan çıxıb, kəndə yaxınlaşmaqda idik.

İndi tez-tez sağsağan, qarğa, tək-tək, ikibir, üçbir uçuşan göyərçinlərə rast gəlirdik. Çöl göyərçini və "alabaxta" deyilən bir azca iri meşə göyərçini yaxşı ov quşlarından hesab olunur. Hətta vaxtı



ilə Bakı ovçuları tez-tez Bakı yaxınlığındakı qayalıq yerlərə xüsusi göyərçin ovuna gedərdilər.

Nədənsə, mənə tüfəng mənzilində bircə göyərçin də rast gəlməmişdi. Ancaq məndən on-on beş addım irəlidə gedən Eldarın lap yaxınlığından bir neçə dəfə göyərçin keçmişdisə də, o heç etina etməmişdi. Mən buna əvvəlcə təəccüb etdim. Sonra ağlıma belə bir şey gəldi:

Qədim etiqadlardan və kim bilir, bəlkə də babalarımızın cürbəcür heyvanlara, quşlara sitayiş etdikləri dövrdən qalma inamlara görə, indi də bəzi heyvan və quşlara xüsusi bir hörmət bəslənir. Məsələn, Hindistanda indi də öküzə sitayiş edən tayfalar var. Orada bir "müqəddəs" öküz göyərti bazarına girib, onun-bunun göyərtisini yedikdə, onu nəinki qovmurlar, hətta əksinə, göyərtisi yeyilən adam bunu özü üçün böyük bir xoşbəxtlik sayır. Bir çox Avropa və Şərq ölkələrinin dövlət gerblərində indi də cürbəcür heyvan və quş şəkilləri çəkilmişdir.

Bizim camaat arasında da göyərçin, qaranquş, hop-hop (şanapipik), leylək kimi quşlar dədə-babadan qalma adətlərə görə, müqəddəs sayılır. Bunlar barəsində cürbəcür nağıl və rəvayətlər də var. Elə quşlar da var ki, əti yeməli ola-ola, bəzi yerlərdə müqəddəs sayıb, onlara toxunmurlar. Məsələn, bir çox rayonlarımızda "sarıköynək", "sarısandal" adlanan, Abşeronda "zərd" deyilən və ya çox yerlərdə "qumru", Abşeronda "vanay" adlanan quş da belədir. Bunları bakılılar ləzzətlə yedikləri halda, rayonlarda əziz tutar və toxunmazlar.

Göyərçin və alabaxta da belə quşlardan olduğundan, mən Eldarın göyərçinləri ovlamamasının səbəbini bunda görürdüm.

Kəndə yaxınlaşırdıq. Eldar on-on beş addım irəlidə, mən arxada çayın sahili ilə gedirdik. Birdən bir göyərçinin sahil boyunca mənə sarı uçub gəlməkdə olduğunu gördüm. Eldara sataşmaq niyyəti ilə, göyərçin onun başı üzərindən keçərkən, mən tüfəngi qaldırıb atdım; qanadından yüngülcə yaralanan göyərçin hərlənə-hərlənə çaya düşdü. Bu anda Eldar elə yanıqlı bir səslə çığırdı ki, mən əlimdən bır xata çıxdığını, bəlkə çovuyan bir qırmanın ona dəyib yaraladığını güman etdim. Ürəyim qopdu. Tez Eldara doğru yüyürüb böyük bir həyəcanla:

– Nə oldu! Sənəmi dəydi! – deyə soruşdum.

Eldar mənim həyəcan və təlaşımı görüb, bu qeyri-ixtiyari hərəkəti ilə məni qorxutmasından peşman olmuş bir halda gülümsəyərək:

– Heç... – dedi, – heç bir şey yoxdur...

Mən doğrudan da, ona bir şey olmadığını yəqin edib, arxayın bir nəfəs aldım və quşun düşdüyü yerə baxdım. Göyərçin qanadlarını suya çırpa-çırpa, sahilə yaxınlaşmaqda idi. Xallı ona sarı yüyürdü, ancaq Eldar qəzəbli bir səslə ona acıqlandı:

– Olmaz!!!

Yazıq tula, görünür belə rəftara alışmamış olduğundan, quyruğunu qısaraq geri qayıtdı.

Nədənsə mənə elə gəldi ki, Eldar bu qəzəbli "olmaz!" əmrini "qızım, sənə deyirəm, gəlinim, sən eşit!" – məsəli mənasınca, mənə eşitdirmək istəyirdi.

Göyərçin sahilə çıxıb yeriməyə başladı, mən gedib onu tutmaq istədikdə, adətən yaralı-yabanı quşların etdiyi kimi, çox da ürküb qaçmadı. Onu asanlıqla tutdum. Qəşəng bir çöl göyərçini idi. Tək bir saçma sol qanadının ucunu dəlib keçmiş, sümüyünü sındırmamışdı. Onu diri saxlamaq niyyəti ilə, üsulluca tor çantaya salıb, Eldarın yanına qayıtdım. Bayaqkı həyəcanlı çığırtısının və bu gözlənilməz əsəbiliyinin səbəbini aydınlaşdırmaq məqsədi ilə soruşdum:

– Bu nə iş idi, dostum, məni niyə elə qorxutdun?

O gülümsünməyə çalışaraq:

– Heç, – dedi, – bizlərdə göyərçini vurmazlar...

Ancaq onun üzündən və səsinin ifadəsindən aydın hiss olunurdu ki, məsələ yalnız bundan ibarət deyildir. Buna görə, Eldarın bu həyəcanının əsil səbəbini öyrənmək istəyirdim.

– Yox, – dedim, – dostum, təkcə bu səbəbə görə sən elə həyəcanla çığırmazdın. Deyəsən, burda başqa bir iş də var. Mümkünsə, gizlətmə, söylə...

Eldar nəyi isə, yadına salırmış kimi, gözlərini bir nöqtəyə zilləyib, bir an duruxduqdan sonra, müəyyən qərara gəlmiş kimi, azca kədərli səslə:

– Bəli, – dedi, – bu əhvalat uzundur... İndi yorğunsunuz. Gedək, bir az dincələk, evdə danışaram.

Mən təkid etmədim, bu mövzunun Eldarı çox həyəcanlandırdığını görüb, verdiyi vədlə kifayətlənməyi qərara aldım. Daha bircə kəlmə danışmadan, səssizcə kəndə yönəldik.

Kəndə yaxınlaşdıqca, ətrafımızda uçuşan göyərçinlərin sayı çoxalmaqda idi. Rahatca xeyli göyərçin vurmaq mümkün idi. Ancaq Eldarın könlünə dəyməmək üçün, daha tüfəngə əl atmırdım.



Kəndin girəcəyində, ov qaydasına görə, tüfəngləri boşaltdıq.

Alçaq çəpərlə əhatə edilmiş həyətlərin yanından keçdikcə, gördüm ki, doğrudan da hər evin çardağına beş-on göyərçin qonmuşdur. Bunlardan bəziləri həyətlərdə oynaşan uşaqlardan əsla qorxub ürkmədən, oradaca, səkilərin üstündə, toyuq-cücənin arasında dənlənib gezişirdilər.

Eldargilin həyətinə çatdıqda gördüm ki, eyvanın yuxarısında, damın kənarında, qutuyabənzər kiçik bir göyərçin hini var. Bu hinin yastı damında eynən mənim vurduğuma bənzər iki göyərçin gəzişir. Bunlardan biri durub özünə bəzək-düzək verir, o biri isə, döşünü qabardıb başını dik tutaraq, quyruğunu yelpazə kimi geniş açıb yerə sürtərək: "Vaq-vaq-qurrr..." – edə-edə, birinci göyərçinin başına hərlənirdi. Çardağın üstündə də başqa evlərdə olduğu kimi, beş-altı göyərçin var idi.

Əvvəl elə bildim ki, Eldar quşbazlıq edir. Doğrusu, bu mənim heç xoşuma gəlmədi; çünki təsərrüfatda, ölkə müdafiəsində və sair bu kimi ictimai-faydalı işlərdə yarayan heyvan və quşlar yetişdirmək başqa, mənasız, yalnız şəxsi əyləncə üçün quşbazlıq, xoruzbazlıq kimi şeylərə vaxt sərf etmək başqadır. Keçmişdə bəzi avara adamlar, yalnız döyüşdürmək və qapışdırmaq üçün xoruz, qoç, it saxlar, bunların bir-birini al qana bulamasına tamaşa edib, ləzzət alardılar. Hətta daha pisi, bunları əllərində pul qazanmaq üçün bir vasitə edərdilər.

Hələ mən uşaq ikən, qonşumuzda bir cavan oğlan var idi. Quşbazlıq edərdi. Bir xeyli rəngbərəng, ayaqları tüklü göyərçinləri var idi. Axşama qədər bunları uçurub tamaşa edər, başqa quşbazların quşlarını tutar, quşları uçurtmaq üçün qonşuların damına çıxar, daş atar, şüşə-pəncərələri sındırardı. Bir gün olmazdı ki, başqa quşbazlarla, ya da qonşularla dava-dalaş etməsin. Axırda da üçmərtəbə bir evin damından yıxılıb bir neçə gün xəstə yatdıqdan sonra öldü. Buna görə o vaxtdan quşbazlıqdan zəhləm gedir...

Eldarın evində quş hinini görəndə də, ilk əvvəl ağlıma bu gəldi; ancaq hin çox kiçik idi, həyətdə də quşbazlarda gördüyüm o alabəzək göyərçinlərdən bircəsi də yox idi. Buna görə də, bildim ki, Eldar quşbaz deyildir. Buna çox sevindim və güman etdim ki, Eldarın saxladığı ya poçt göyərçinləridir, ya da eləcə quşlara rəhmi gəlib, onlar üçün bir hin qayırmışdır. Bunların hər ikisi çox yaxşı idi; çünki poçt göyərçinləri də keşikçi, axtarıcı, ov və sair xidmət edən

itlər kimi həm təsərrüfatda, həm də ölkə müdafiəsində faydalıdır. Göyərçinlər, sığırçınlar və sair faydalı quşlar üçün hin və ya evciklər tikib, onları qorumaq və artmalarına kömək etmək isə, əlbəttə, yaxşı bir işdir.

Eldarın göyərçin hinini gördükdə, mən yaralı göyərçini tordan çıxarıb ona uzatdım və dedim:

– Eldar, bu göyərçini də al, onların yanına burax, yarası çox yüngüldür, elə bilirəm ki, bir neçə günə tamamilə sağalar. Doğrusu, onu vurduğuma peşman olmuşam.

Eldar xoş bir təbəssümlə quşu məndən aldı. Eyvanın dirəyindən asılmış kiçik bir kisədən bir ovuc dən götürüb həyətə səpdi və kəsik-kəsik fit verdi. Hinin üstündəki göyərçinlər, çardaqdakılardan da bir neçəsi həmin saat uçuşub həyətə qondu və bizim qabağımızdaca dənləməyə başladı.

Quşlar uçub həyətə gələndə, hinin üstündəki göyərçinlərdən birinin sağ qanadının o birinə nisbətən az açılması və quşun bir yanı üstə uçması diqqətimi cəlb etdi. Eldar yaralı göyərçini də onların yanına buraxdı. Onun yaralı qanadının ucu sallanmışdı. Göyərçin əvvəlcə bir an durub ətrafa boylandı, sonra dimdiyi ilə yaralı qanadını düzəldib, azca yuxarı qaldırdı və heç bir şey olmayıbmış kimi, o biri quşlara qarışıb onlarla birlikdə dənləməyə başladı.

Buna baxıb ikimiz də sevindik.

Mən maraqlı bir ov günündən sonra dincimi almaq, yeyib-içmək arzusundan artıq, Eldarın göyərçinlə əlaqədar olan sirrini dinləmək ümidi ilə dostumla birlikdə eyvana çıxdım. Tüfənglərimizi silib təmizlədikdən sonra, əl-üzümüzü yuyub otağa keçdik.

## IV

## TƏZƏ KƏNDİN ADAMLARI

Bizim kəndlərdə dədə-babadan qalma qonaqpərəstlik adətinə görə, birinin evinə bir qonaq gəldikdə, ev yiyəsi çağırsa da, çağırmasa da, kəndin adlı-sanlı adamları qonağın görüşünə gedərlər.

Eldarla bugünkü ov barəsində və ordan-burdan söhbət edə-edə çay içirdik. Mən səbirsizliklə onun vəd etdiyi söhbəti gözləyir, buna görə də ayrı söhbətlərin qısa olmasına çalışırdım.

Çay araya gələndə, Eldar dedi:



– Gedim o göyərçini hinə salım, qanadı yaralıdır, özü hinə uça bilməz.

O getdi. Aradan bir az keçdikdən sonra qayıdarkən xoş bir əda ilə:

– Buyurun, buyurun! – dediyini eşitdim.

Eldar dörd nəfər yerli kolxozçu ilə birlikdə içəri girib, bizi tanış etdi.

Bunlardan biri ucaboy, enlikürək, üzügülər, əlli-altmış yaşlarında bir kişi idi. Gözlərinin kənarlarından gicgahlarına doğru uzanan cizgilər onu daim gülümsər göstərirdi. O, həqiqətən danışanda da, dinləyəndə də gülümsəyir və ortadan yoğun, getdikcə nazilib ucları aşağı sallanan çallaşmış bığlarının altından, bir az qalınca dodaqlarının arasından sədəf kimi saf dişləri ağarırdı. Yayın günəşi, qışın şaxtası yanaqlarına xoş bir qırmızılıq və təravət vermişdi. Gözlərində və sözlərində elə bir sadəlik və səmimilik vardı ki, dinləyənlərə də sirayət edirdi.

Söhbət zamanı məlum oldu ki, Daşdəmir əmi (bu kişinin adı belə idi) dünyagörmüş, bərkdən-boşdan çıxmış bir kişi imiş. O, vaxtilə, hələ bığyeri yenicə tərləmiş bir cavan ikən, Qaçaq Nəbiyə qoşulub həm bu tayda, həm o tayda vuruşubmuş.

Düzü, mən əvvəl bu qonaqların gəlməsinə çox sevinməmişdim. Deyərlər: "Qonaq qonağı sevməz, ev yiyəsi hər ikisini". Amma buna görə yox. Bu məsəl də indi bir çox digərləri kimi köhnəlmişdir. Mən Eldarın danışacağı əhvalatı maraqla gözləyirdim. Onu da bilirdim ki, qonaqların yanında danışmayacaqdır. Ancaq həyatı dastan olmuş bir qəhrəmanın silahdaşlarından birini görmək məni o qədər sevindirdi və maraqlandırdı ki, ondan iştirakçısı olduğu hadisələrdən birini danışmasını xahiş etməkdən özümü saxlaya bilmədim.

– Heç yadınızda qalan bir hadisə varmı? – deyə ondan soruşdum. – Bizə bir şey danışın.

– Eh, sağ olmuş, danışılası şey o qədər çoxdur ki, deməklə qurtarmaz... Başağrısı olar. Özünüz də ovdan qayıdıbsınız. Yəqin ki, yorğunsunuz... Sağlıq olsun, bir də buralara yolunuz düşəndə, arxayın-arxayın söhbət elərik.

Daşdəmir əminin tütün kisəsini çıxarıb cığala eşmək istədiyini görəndə, ona papiros təklif etdim.

– Sağ ol, – dedi, – qardaşoğlu, bu mənim öz həyətimdə əkdiyim tütündəndir. Başqasını çəkəndə, məni öskürdür. Çox yaxşı tütündür. Birini eşin, dadına baxın.

Mən də birini eşdim. Doğrudan da tütün çox ətirli və xoşçəkim idi. O mənə müraciətlə:

– Hə, necədir? – deyə soruşdu.

– Çox gözəl tütündür, – dedim, – lap əladır, ətrinə-dadına heç söz ola bilməz.

Daşdəmir əmi öz tütünü barəsində belə tərifləri çox eşitmiş olduğunu göstərən şən bir səslə dedi:

– Bizim torpaqlar qızıldır, qızıl!.. Keçmişdə qədrini bilən olmayıb: çayı, düyünü, portağalı, limonu, tütünü xaricdən daşıyıb ölkənin sərvətini dağıdıblar. İndi hamısını burada, onlarınkından da qat-qat yaxşı yetişdiririk. Keçən dəfə Bakıya gedəndə, bundan bir qədər aparmışdım. Nazirlikdə yaman xoşladılar. Bu ildən təcrübə üçün xüsusi bir sahədə əkməyə icazə verdilər.

Gələnlərdən xeyli cavan görünən və döşündəki orden və medal lentlərindən Böyük Vətən müharibəsi iştirakçılarından olduğu anlaşılan sarışın bir oğlan gülümsəyə-gülümsəyə söhbətə qoşulub, yarızarafat, yarıciddi bir ifadə ilə dedi:

– Daşdəmir əmi bizim rayonun Miçurinidir. Onun bağçasında elə qəribə meyvə ağacları var ki, adam görəndə gözlərinə inanmır. Qışın oğlan vaxtında tənəkdən təzə üzüm dərib gətirər. Ərik ağacında şaftalı, alma ağacında portağal görsən, gərək təəccüb etməyəsən. Özü də deyir ki, gərək bizim bağlarda dünyada olan və olmayan bütün meyvələr yetişə, ilin hər fəslində hər cür meyvə ola...

Daşdəmir əmi bu zarafatdan xoşlanmış bir halda, zarafatcıl gəncə eyni ahənglə cavab verdi:

– Niyə, a bala, burda təəccüblü nə var ki? Sən Staxanovçu olub bir gündə on-on beş norma ödəyəndə, mən niyə miçurinçi olmayım? Olaram, lap bir az da o yana keçərəm! Sən onu de görüm, dediklərim olur, ya yox?

Eldar sözə qarışıb, onun dediklərini təsdiq etdi və mənə izahat verdi:

– Düzdür, Daşdəmir əmi öz bağçasında soyuğa, istiyə, quraqlığa davamlı bir çox yeni meyvə növləri yetişdiribdir. Nəinki tək bizim kəndə, hətta rayonumuzun bir çox kəndlərinə, kolxozçuların həyətlərinə Daşdəmir əminin bağçasından cürbəcür meyvə ağacları aparılmışdır. Xüsusən məktəbli və pionerlər Daşdəmir əminin yetirdiyi meyvə ağaclarını geniş yayırlar. Pioner mətbuatının keçən illərdə



ölkəmizi meyvə bağları ilə bəzəmək çağırışına qoşulub, bizim məktəb kənddə gözəl bir meyvə bağı salmışdır! Hər məktəbli bu bağçadakı təcrübədən istifadə ilə, öz həyətlərində, qonşularının həyətlərində cürbəcür meyvə ağacları əkib yetişdirməyə çalışır və bütün bu işlərə Daşdəmir əmi lap yaxından kömək və rəhbərlik edir.

Bu sözləri eşidərkən, Daşdəmir əmi zarafatyana öskürdü və bığlarını eşməyə başladı.

Onun bu ədasına hamımız gülüşdük. Gələnlərdən üçüncüsü, nədənsə, hələ bircə kəlmə də danışmamışdı. O, bütün zahiri əlamətlərinə: gözlərinin rənginə və üzünün cizgilərinə görə rus idi. Onun danışılanları başa düşmədiyinə görə söhbətə qoşulmadığını güman etdim. Buna görə də, ona müraciətlə rusca soruşdum:

– Siz çoxdanmı burada olursunuz?

O gülə-gülə və oranın yerli şivəsinə uyğun, xalis və təmiz bir Azərbaycan dilində mənə cavab verdi:

– Biz dədə-babadan buralıyıq, qardaş...

O yəqin mənim üzümdə heyrət əlaməti görüb, əlavə etdi:

– Bəli, cəhənnəmlik Nikolayın babası bizim babaları bu yerlərə sürgün etmişdi. Çar istəyirdi ki, bir əldə iki qarpız tutsun: bizim babalar məzhəb ayrılığını bəhanə edib, çara əsgər vermir və çar qaydalarına tabe olmurdular. O da bizim babaları Rusiyanın mərkəzindən uzaqlaşdırmaq üçün buralara sürgün edibdir. Özü də istəyirdi ki, yerli xalqla bizim aramızda ədavət salıb, öz hakimiyyətini bərkitsin. Ancaq iş tərsinə oldu. Biz yerli xalqla əl-ələ verib, inqilabi mübarizəyə qoşulduq, bu mübarizədə qan qardaşı olduq. İnqilabdan sonra can bir qəlb, lap qohum-əqrəba olmuşuq; budur, – deyə o, bir az əvvəl Daşdəmir əmi ilə zarafatlaşan cavanı göstərdi, – bu qoçaq oğlan mənim kürəkənimdir!..

Daşdəmir əmi gülə-gülə əlavə etdi:

– Hələ bir nəvəsi də var, adını bir nənə Ruslan çağırır, bir nənə Rustam...

Araya yemək-içmək gəldi; ən səmimi bir ailə kimi, deyə-gülə, yeyib-içdikdən sonra, Daşdəmir əmi ayağa qalxıb yoldaşlarına dedi:

– Di, gəlin gedək, kişilər yorğundurlar, yatıb-dincəlsinlər.

O bizə: – Yuxunuz şirin olsun! – deyib yoldaşları ilə birlikdə çıxdı. Eldar onları ötürüb qayıtdı.

## V

## SİRRİN AÇILMASI

Eldar qayıdıb gəldikdə, Daşdəmir əminin sözlərini təkrar etdi:

– Yorğunsunuz, yatın, dincəlin!

Ancaq mən onun, yaralı göyərçin barəsindəki əhvalatı danışmağa söz verdiyini yadına saldım. O əvvəlcə, nədənsə, yenə bu söhbəti sabaha qoymaq istədi, ancaq mən təkid etdim və o mənimlə üz-üzə oturub, belə nağıl etməyə başladı:

– Biz sərhəd boyunda yaşayırıq: buralarda tez-tez qəribə və gözlənilməz hadisələr baş verir. Gündüz Kolyanın danışdığı hadisə bunlardan biri idi. Ancaq burada sərhədin keşiyində duranlar yalnız rəsmi sərhədçilər deyil. Hər vətəndaş bir sərhədçidir, o da Vətənin müqəddəs hüdudlarını göz bəbəyi kimi qoruyur. İşdir, sərhədi gizlin keçən "gecə quşlarından" biri sərhədçilərimizin sayıq gözündən yayına bilsə də, çox tezliklə əhali tərəfindən yaxalanacaqdır.

Mən də burada doğulub böyümüşəm və bir çox belə hadisələrin nəinki şahidi, hətta bir neçə dəfə iştirakçısı da olmuşam. Yaralı göyərçin əhvalatı da bunlardan biridir.

İki il bundan əvvəl, bugünkü kimi bir payız səhəri, sahillə sərhədçi dostlarımın yanından qayıdırdım. O tayda adi vətəndaş paltarı geymiş bir adamın çiynində ov tüfəngi, gəzişməkdə olduğunu gördüm. Bu qəribə idi: çünki lap sərhəddə, çayın kənarında ova çıxmaq hər iki tərəfdə bərk qadağan idi. Ancaq axır zamanlar biz belə qəribəliklərə alışmışdıq: çünki ingilis-amerikan "məsləhətçiləri" ora doluşduqdan sonra, sərhəd boyunda belə qəribə "ovçulara", mənzərə şəkli çəkən "rəssamlara", foto "həvəskarlarına" tez-tez rast gəlmək olurdu. Hətta bunlardan bəziləri səhvən "yol azıb" bu taya da keçirdilər. Ancaq belələrinə biz düz yolu göstərirdik...

Nə isə, bu qəribə "ovçu" məni maraqlandırdı. Yəqin ki, o bizim sərhədə yaxın yerlərdə foto şəkli çəkməyi, "elmi tədqiqat" aparmağı xoşlayan amerikan turistlərindən biri idi. O, ov bəhanəsi ilə müşahidəyə çıxmışdı. Özümü etinasız göstərib, qamışlığa girdim və onu güdməyə başladım. "Ovçunun" birdən tüfəngi əlinə alıb atmağa hazırlaşdığını gördüm. Yuxarı baxdım: onun başının üstü ilə o taydan bəri adi bir göyərçin uçurdu. Onun göyərçini vurmaq istədiyi aşkar idi. Bu məni daha da təəccübləndirdi; çünki bu tayda olduğu kimi,



o tayda da yerli əhali arasında göyərçin ev quşu kimi bir şey sayılır və ona tüfəng atmazlar. Bundan mən yəqin etdim ki, bu adam amerikan və ya ingilisdir. Göyərçin tüfəng mənzilinə çatdıqda, o bir güllə atdı. Ancaq dəymədi. Göyərçin güllə səsindən diksinib, bir az da sürətlə uçdu. Artıq çayın üstünə çatmışdı ki, o, ikinci gülləni atdı. Göyərçin bir böyrü üstə çevrildi, yan-yanı bir qədər də uçub, çayın ortasına düşdü. Sizin bayaq vurduğunuz göyərçin kimi, üzə-üzə və qanadlarını suya çırpa-çırpa, bu sahilə çıxdı.

Mən gedib göyərçini tutdum. Bu, buralarda hər bir evin çardağında dəstə-dəstə olan və həyətdə toyuq-cücələrlə gəzişən – dənləşən adi göyərçinlərdən idi.

Onu da sizə deyim ki, bu göyərçinlər başqa köçəri quşlar kimi gəldi-gedər deyil, bu yerlərin daimi, vəfalı sakinləridir. Onlar xoşlayıb yurd-yuva saldıqları yerləri tərk etməzlər...

Nə isə, həmin qəribə "ovçunun" təsadüfən vurduğu bu göyərçini götürüb, yarasını yoxladım ki, yüngül isə, aparım evdə saxlayım, yazıqdır, sağalsın.

Birdən onun qanadının altında əlimə bir şey dəydi. Diqqətlə baxdım. – Bu, papiros kimi eşilmiş bir kağız idi. Açıb oxudum. Ürək yandırıcı, lakin ümid və inam dolu bir məktub idi...

Bu göyərçin mənim üçün ikiqat əzizdir, çünki o məzlum bir elin elçisi idi. Buna görə də bayaq siz o göyərçini vuranda, bir an bütün bunları xatırladım və qeyri-ixtiyari çığırdım...

Eldar bu sözləri deyib susdu; görünür ki, bununla söhbəti qurtarmaq istəyirdi. Ancaq mən təkidlə xahiş etdim və Eldar durub həmin məktubu gətirdi. Məktubu o, müqəddəs bir şey kimi, təmiz ağ bir zərfdə səliqə ilə qalın bir kitabın içində saxlayırdı. Bu, zərrəbinlə oxunacaq dərəcədə xırda, zərif bir xətt ilə ərəb hərfləri ilə cığara kağızına yazılmış bir məktub idi. Göyərçin suya düşərkən, kağız islandığından və onun qanına bulaşdığından, çəhrayı mərmər kimi ağ ilə qırmızıqarışıq bir rəng almışdı. Eldar məktubla bərabər bir zərrəbin də verdi və birlikdə bu məktubu oxuduq:

"Əziz dostlar!

Ulu Babəkin, böyük Xətayinin, igid Səttarxanın qəhrəman elindən sizə atəşin salamlar!

Biz, bir dəstə azadlıq və sülh tərəfdarı cavan, qaranlıq zindana döndərilmiş bu ana Vətəndən sizə öz ürək sözümüzü demək üçün bir vasitə axtarırdıq. Gözlərimiz daim Vətən üfüqlərində sizə sarı

çevrilmiş olduğundan, göyərçinlərin, o xoşbəxt quşların bu xarabazarı tərk edib, o işıqlı diyara uçuşduqlarını gördük və bu məktubu onlardan birinə əmanət verdik. Biz bilirik ki, o işıqlı dünya azadlıq, ədalət, xalqlar arasında sülh və dostluq dünyasıdır. Bu, bizə inam və qüdrət verir. Bizi öz ana dilimizdən, o dildə günəşli diyarın həqiqətini dinləməkdən məhrum etmək istəyirlər. Bizi ana Vətənimizdən, hər qarış torpağı babalarımızın qanı ilə yoğrulmuş bu müqəddəs Vətəndən uzaqlara sürgün edirlər.

Ancaq biz azadlıq və Vətən uğrunda mübarizənin nə demək olduğunu bilirik. Biz azadlığı dadmış və onu qorumağı sizdən, qəhrəman gənclərdən öyrənmişik. Biz böyük azadlıq günəşindən nur və şüur almışıq.

Fəqət bizim cəlladlar anlamırlar ki, günəş üçün məsafə yoxdur! Bizim şüarımız budur: yaşasın Günəş! Var olsun sülh və azadlıq!"

Məktubu oxuyub qurtardıqdan sonra, biz bir müddət sözsüz-sovsuz bir-birimizin üzünə baxdıq. İkimizin də qəlbindən keçənlər bir-birimizə aydın idi...

* * *

Səhər gün doğarkən, ayrılmaq üçün həyətə çıxanda, eyvandakı göyərçin hininə baxdım. Orada təkcə dünən yaralanan göyərçin qalmışdı. Mən Eldarın üzünə baxdım. O nə soruşmaq istədiyimi anlayıb dedi:

– Həmin yaralı göyərçinin qanadı tamamilə sağalmışdır. O, hər səhər-axşam Araz sahilinə uçub bir müddət o tayı seyr edir və qayıdarkən, mənə elə gəlir ki, gözləri dolmuş olur... Kim bilir, bəlkə o tayda balaları qalmışdır...

Eldar bu sözləri söylərkən, yaralı göyərçinlə yoldaşı qayıdıb gəldi. Onlar evin üstündə iki-üç dairə vurub, öz hinlərinə qondular.

Mən yaralı göyərçinə diqqət yetirdim. O, Araza baxırdı. Mənə elə gəldi ki, doğrudan da onun gözləri dolmuşdur.

Eldar da mənim göyərçinə diqqətlə baxdığımı görüb dedi:

– Əlbəttə, bir gün günəşlə bərabər o da öz yurduna-yuvasına qayıdacaq, həsrət qaldığı balalarına qovuşacaqdır!..

Biz Eldarla görüşüb ayrıldıq və ona söz verdim ki, bir də göyərçinə güllə atmayacağam...

*1946*



# PADŞAH VƏ ALİM

*Məzmunu Nizami Gəncəvidən alınmışdır*

Padşah İskəndər dərin düşüncələrə dalmışdı.

Ölkə əldən gedirdi...

Adamlar həyatdan bezmiş, dünya işlərindən əl çəkmişdilər. Tarlalar əkilməmiş, dükanlar, emalatxanalar bağlanmış, arvad-uşaq başsız qalmışdı...

Ölkə əldən gedirdi.

Padşah hər çarəyə əl atmışdı: nə asdırıb-kəsdirməklə, nə də mükafat və təbliğatla bir iş görə bilməmişdi. Sarayda ağsaqqalları, alimləri başına yığıb məsləhət-məşvərət eləmişdi. Yenə bir şey çıxmamışdı...

Padşah İskəndər dərin düşüncələrə dalmışdı...

O həm fikirli, həm də qəzəbli idi: zamanın ən bilici alimi olan Sokrat onu saymamış, çağırışına əməl etməmiş, saraydakı alimlər məclisinə gəlməmişdi.

Padşah eşikağasını çağırıb əmr etmişdi:

– Sokratı harada olsa, tapıb hüzura gətirin...

* * *

Alim Sokrat da dərin düşüncələrə dalmışdı.

O düşünürdü ki, görəsən bu dünyada insan xoşbəxt olacaqmı? Budur, İskəndər özünü ən aqil və adil bir padşah sayır. Dövrəsindəki yaltaqlar da onun tərifini göylərə qaldırmışlar. Guya ondan ədalətli bir hökmdar və onun ölkəsindən xoşbəxt bir ölkə yoxmuş!..

Bəs saraydakı o müftəxorlar, bir ovuc varlının əsiri olan ac-yalavac qullar, saysız-hesabsız yoxsullar, ölkədəki bu qıtlıq və səfalət nə idi! Bəs nə üçün insanlar bu həyatdan bezmiş, baş götürüb dağlara-daşlara çəkilmişdilər. Bəs nə üçün bu ədalətli padşah ölkəni talayan hakimlərin, varlıların, qan soranların zülmünə mane ola bilmirdi?!.

Ölkə əldən gedirdi...

Alim Sokrat əldən-ayaqdan uzaq, qədim bir xarabada, tək-tənha bu acı düşüncələrə dalmışkən, İskəndərin elçisi gəlib onu tapdı, padşahın dəvətini ona yetirdi:

– Qoca, dur, bəxtin açılıb!.. Aqil və adil padşahımız səni hüzuruna çağırır!..

Bu sözləri söyləyə-söyləyə elçi gözlərini qoca alimdən ayırmır, güman edirdi ki, indi o sevinəcək, bu şad xəbəri gətirən elçiyə təşəkkürlər edəcəkdir. Lakin tərsinə oldu. Alim bir şeydən iyrənirmiş kimi, üz-gözünü qırışdırdı, heç bir cavab vermədən başını azacıq yırğaladı və onu təngə gətirən milçəkləri qovurmuş kimi, əlini yellədi.

Padşahın elçisi bunun mənasını anlamadı. Qocanın üst-başına diqqət yetirib, onu son dərəcə yoxsul, sadəcə bir ridaya bürünmüş görəndə, dayaz ağlına elə gəldi ki, alim bu üst-başından utanıb, padşahın yanına necə gedəcəyini düşünür. Elçi ona təsəlli və nəsihət verirmiş kimi, uca bir səslə dedi:

– Dur, qoca, dur... Padşah hüzuruna gedəcəksən, ayıbdır. Özündən-özgədən bir dəst ipək paltar tap, yaxşı geyin, bəzən-düzən, rəngi-ruyun açılsın...

Qoca alim onun ürəyindən keçənləri anlayıb acı-acı gülümsündü:

– Get, – dedi, – padşahına söylə ki, axtarıb tayını tapsın, məndən ona kar aşmaz!..

Padşah elçisinin ağzı açıla, gözləri bərələ qaldı. Bu necə adam idi ki, padşahın dəvətini rədd edirdi?! Qocanın üzünə diqqətlə baxıb, gözlərinin qəzəblə parladığını görəndə, canına qorxu düşdü, – bəlkə dəlidir, – deyə, orada durmaqdan çəkindi və padşah hüzurundan çıxan kimi, geri-geri çəkilib getdi.

* * *

Padşah İskəndərə qoca alimin rədd cavabını qorxa-qorxa söylədilər. Ancaq padşah nə qəzəbləndi, nə də təəccübləndi; çünki bu, birinci dəfə deyildi. Alim onun dəvətini dəfələrlə rədd etmişdi. Padşah nə olursa olsun, qoca alimin könlünü alıb onu saraya gətirmək istədiyindən, əmr verdi ki, atını hazırlasınlar; özü alimin hüzuruna gedəcəkdi...

* * *

Padşah alimin olduğu xarabaya çatdıqda, atından düşdü; atı eşikağasına verib, özü tək alimin yanına getdi. Qoca alim xaraba bir divarın dibində al günün altında yatmışdı. Padşah yetişib çəkməsinin burnu ilə onu yavaşca itələdi, qoca alim gözlərini açıb padşahı tanıdı,



bir söz demədən, nifrət dolu nəzərlərlə onu altdan-yuxarı süzdü və üzünü saymazlıqla yana çevirdi. Padşah qocanın onu tanımadığını güman edib yumşaq, himayəkar bir əda ilə dedi:

– Dur, qoca, dur, mənimlə dost olaq, səni dünya malından təmin, dünyada ən xoşbəxt bir adam edim...

Alim padşahın, bu yumşaq da olsa, lovğa sözlərinə istehza edib, saymazyana bir tövrlə soruşdu:

– Sən kimsən ki, məni xoşbəxt edəsən?!

Padşah bu sualın əsil mənasını başa düşməyib, özünü alimə belə təqdim etdi:

– Mən alimlərə hörmətkar olan hökmdar İskəndərəm...

– Hörmətini də, mərifətini də görürəm!..

Padşahın bu sözləri anlamayıb ona mat-mat baxdığını görəndə, əlavə etdi:

– Ancaq hürkmüş bir heyvan insanı təpiklə vurub oyadar!..

Padşah bu acı, lakin doğru sözlərdən qızmadı, tərsinə, öz hərəkətindən utanıb, alimdən üzr istədi:

– Bağışla, pal-paltarım dardır, əyilə bilmədim.

– Sən padşahlar hüzurunda əyilməyə bilərsən, amma elm hüzurunda əyilməlisən!..

Padşah alimin bu sözlərini də uddu. Nə deyə bilərdi? Axı o özünü elm pərəstişkarı tanıtmışdı. Ona ağır gəlsə də, başını azca əydi, qoca alimə dedi:

– Mən sənin hüzuruna pak bir məqsədlə, dostluq məqsədi ilə gəlmişəm... Mənim qapılarım alimlərin üzünə daim açıqdır. Mən bütün alimləri dost tuturam. Görürsən, özüm səni dəvət etməyə gəldim.

Qoca alim padşahın cavabında dedi:

– Dostluq sözlə olmaz. Bunu gərək sözdən başqa çox şey bildirə. Səhnənin günbəzi əyri olarsa, orada yaxşı rübab da pis səslənər!

Padşah bu sözlərin nə demək olduğunu anlamaq istəyirmiş kimi, sualedici nəzərlərlə alimin üzünə baxdı. Alim sözlərinə davam etdi:

– Sən sözdə alimləri dost tutursan, onları sarayına dəvət edirsən, ancaq saray əhli kimdir? Bir sürü canavar!.. Bu ona bənzər ki, dərin bir dərya: “Məndə dürr-gövhər var!..” – deyib bağıra, ancaq nəhənglər ağzını açıb dura... Söylə görüm, ora dürr-gövhər dalınca kim gedər?! Sən məni saraya dəvət edirsən.. Qapında, sarayında belə yırtıcılar varkən, mən ora necə gələ bilərəm?.. Bir də ki, mən bu yoxsulluğumla yenə sənə ağayam, hüzuruna gəlsəm, sənə qul olaram!

Mən arpa çörəyi ilə kifayətlənib, buğda çörəyi üçün minnət götürmərəm...

Padşah qoca alimin qarşısında acizliyini duydu və başa düşdü ki, onu heç bir vasitə ilə saraya cəlb edə bilməyəcəkdir. Ona görə, daha mülayim, yalvarıcı bir əda ilə ona müraciət etdi:

– Elə isə, – dedi, – heç olmazsa, mənə bir yol göstər, mən neyləyim ki, ölkəni bu fəlakətdən qurtarım?

Qoca alim ürəyində qövr edən dərdləri, iztirabları, çoxdan bəri düşündüklərini üz-üzə padşaha söyləməyə fürsət tapdığından, təmkinli-vüqarlı bir səslə dedi:

– Bilmirəm, bu dediklərimə əməl etmək əlindən gələr, ya yox, ancaq məndən deməkdir. Sənə üç sözüm var: birincisi budur ki, acgöz olma!..

Qoca bir az dayanıb, padşahın gözlərinin içinə baxdı. Bu gözlərdə sualedici bir ifadə görüb fikrini izah etdi:

– Sən ölkələrə malik bir hökmdarsan, ancaq gözün acdır. Dünyaya hakim olmaq istəyirsən... Səndən əvvəl də dünyaya çox cahangir gəlmiş, sonra da çox gələcək, ancaq heç biri dünyaya hakim ola bilməyəcək... Bu fikirdən əl çək!..

İkincisi, – zalım olma!.. Bil ki, dəmiri hiddətlə yox, tədbirlə yumşaltmaq olar!..

Üçüncüsü – sözdə yox, işdə ədalətli ol! Ölkəndə ağalar-qullar olduqca dinclik, rahatlıq olmayacaq... Zəncilərin üzləri qaradırsa, ürəkləri ağdır... Bütün insanları bir gözdə gör, hamı bərabər olsun!..

Padşah başını aşağı salıb durmuşdu, dərin düşüncələrə dalmışdı...

*1949*

## CİNAYƏT VƏ CƏZA

### I

Yoldaşım gedəcəyimiz yer haqqında deyirdi:

– Kəndin dörd bir tərəfi qamışlıq və sudur. Qar-yağış olsa, elə evin pəncərəsindən də ov etmək olar. Düz evin səkisindən qayığa minəcəyik.

Ovçuların da bir qismi şairlər kimi mübaliğəni çox sevdiklərindən, işin əslini bilmək üçün ondan soruşdum:



– Əzizim, bunlar bir yana... Bir düzünü de görək, beş-on ördəkdən-zaddan vurmağa güman var, ya yox?

– Nə danışırsan, əşi! İki-üç yüz patronu elə bircə gündə atarsan.

– İş patron atmağa qalsa, onun üçün bir-iki yüz kilometr yol getməyə dəyməz... Bir de görüm, özün bu yaxında həmin yerdə olubsanmı?

Bu sualın qarşısında dostum bir az duruxdu, bir-iki dəfə udqunub çox da möhkəm olmayan bir ifadə ilə:

– Olmuşam, – dedi, – dəfələrlə...

– Məsələn, nə vaxt?

– Üç-dörd il əvvəl...

– Əzizim, bizim ölkədə üç-dörd ilin ərzində otuz-qırx ildə görünməyən işlər görülür. Bəlkə indi orada...

Yoldaşım sözümü kəsib dedi:

– Yəni göllər də quruyacaq, iqlim də dəyişəcək?

– Çox ola bilər...

Nə isə, xeyli müzakirə və mübahisədən sonra həmin yerə getməli olduq.

Dostum həmçinin xəbərdarlıq etdi ki, yol çox xarabdır, əgər yağış və ya qar yağmış olsa, on-on beş kilometr yolu öküz və ya kəl arabası ilə getməli olacağıq. Bir də ki, bataqlığın ortasında olan kənd, əlbəttə, qızdırma mədənidir, buna görə də ehtiyat tədbiri olaraq, hər gün üç dəfə kinə atmalıyıq... Özü həkim olduğundan, dava-dərmanı həmişə yanında gəzdirərdi.

İlk çətinlik asfalt yoldan həmin kəndə sarı döndüyümüz zaman meydana çıxdı. Yoldan həmin kənd tərəfə gözəl, işarə və göstəricilərə malik səliqəli bir qol ayrılırdı. Buranı enişli-yoxuşlu, qışda palçıqdan, yayda tozdan keçilməz bir torpaq yolu halında görmüş olan yoldaşım azdığımızı, yolun buradan olmadığını iddia edirdi. Şofer isə, bu yolun həmin kəndə getdiyini və iki il əvvəl salındığını inamla söyləyirdi.

Bu gözəl və rahat yolda bir neçə kilometr getdikdən sonra yoldaşım narahat bir halda ətrafa baxıb, maşını saxlatdı:

– Dayan, a bala, dayan! Mən sənə dedim ki, bura deyil də!..

Hamımız düşüb ətrafa baxdıq.

Yolun hər iki tərəfi bir neçə cərgə ağaclıq idi. O tərəfdə ucsuz-bucaqsız pambıq tarlaları uzanıb gedirdi. Bir az kənarda maşın-traktor stansiyası olduğu anlaşılan, qırmızı kirəmid damlı geniş ağ

korpuslar, yaşayış evləri və böyüklükdə meşəyə, səliqədə parka bənzər qalın ağaclıq görünürdü.

Yoldaşım bunları gördükdə qəti bir səslə:

– Yox, yox, – dedi, – bura deyil, geri qaytar, azmışıq...

"Ən çox qorxduğum şey başıma gəldi!" – deyə öz-özümə düşündüm və belə "bəlkəyə" aldanıb yola çıxdığıma peşman oldum. Çünki ovda azmaqdan pis şey yoxdur: gedəcəyin yerə yol axtara-axtara vaxt boş-boşuna itib gedir, adam yorulub əsəbiləşir və ovdan alınacaq zövq və səfa əzab və cəfaya çevrilir.

Nəhayət, şofer yoldaşımın bu inadına dözməyib, narazı bir halda soruşdu:

– Axı niyə şübhə edirsiniz, doktor? Mən ki, yolu yaxşı tanıyıram!..

– A bala, axı oranın yolu bataqlığın içindən, palçığa döşənmiş qat-qat qamışların üstündən keçirdi. Batmış maşını saatlarla çıxarmağa o qədər əlləşmişik ki...

Şofer bu dəfə gülə-gülə dedi:

– A doktor, bura elə həmin o bataqlığın tən ortasıdır. Bataqlıq çoxdan qurudulub. Yerində həmin bu gördüyünüz meşə zolaqları salınıb, tarla əkilib, maşın-traktor stansiyası, yaşayış binaları tikilib... Oturun gedək, on-on iki kilometr yolumuz qalıbdır...

Doktor təəccüblə mənim üzümə baxdı: o nə şoferin sözlərinə, nə də öz gözlərinə inanmayıb, yenə də tərəddüd edirdi.

Şəhərdəki söhbətimizi xatırlayıb ona dedim:

– Ola bilər, əzizim, təəccüb etmə! Cəfər Cabbarlının "Firuzə"si yadındadırmı? Üç-dörd il əvvəl elə Bakıdan da çıxmış olsaydın, indi şəhərin nəinki kənarlarını, hətta mərkəzini də çətin tanıyardın... Otur, gedək...

Kəndə çatdığımız zaman artıq hava qaralmışdı.

Enli, iki tərəfi xiyaban baş küçədə birdən cərgə-cərgə iri ağ şarlı işıqlar yandı. Bunu görən yoldaşım artıq tamamilə çaşıb qaldı, sanki kəndə deyil, Bakı ətrafındakı gözəl və abad fəhlə qəsəbələrindən birinə gedirdik, hara, hansı küçəyə dönəcəyimizi bilmirdik.

Maşını saxlayıb, enli səkinin üstü ilə söhbət edə-edə gedən, əyinlərində məktəbli forması, boyunlarında pioner qalstuku olan on-on iki yaşlı iki qızdan Süleyman kişinin evini xəbər aldıq (doktor onunla köhnə dost idi, biz onun evinə gedirdik). Durduğumuz yerdən əlli-altmış metr aralı, eyvanlı, iri, qəşəng darvazalı bir evi nişan verdilər.



Alaqapının çərçivəsində elektrik zəngi düyməsi vardı. Doktor zəngi basdı. Bir az keçmədi, alaqapının kiçik gözü açıldı. Ucaboylu, iri, dolğun bədənli, girdəsifət, yoğun, çalbığlı bir kişi çıxdı. Maşının işığında bizi görə bilmədiyi üçün, əlini gözünün önünə tutub, diqqətlə baxdı. Onun döşündə orden və medal lentləri, Sosialist Əməyi Qəhrəmanı ulduzu da parıldayırdı. Əynində boz rəngdə koverkot buluz və eyni parçadan qolife şalvar, ayağında qəhvəyi uzunboğaz çəkmə, başında sür dəridən papaq vardı.

Doktor yoldaşım deyəsən yolu və kəndi tanımadığı kimi, kişini də tanımırdı; çünki dinməz-söyləməz onun üzünə baxıb dururdu.

Kişi də qabağındakı adamı seçən kimi, əvvəl bir an heyrətlə duruxdu, sonra birdən gur və şən bir səslə dilləndi:

– Bay, doktor... Xoş gəlmisən, sən hara, bura hara! Gün hayandan çıxıb...

Çoxdan görüşməmiş iki yaxın dostun arasında belə hallarda təbii olan qarşılıqlı məzəmmətlərdən sonra mən də Süleyman kişi ilə tanış oldum...

* * *

Evə keçdik, həyətdə alaqapı ilə üzbəüz geniş, səliqəli bir qarajı açıb, bizim maşını oraya sürdülər. Evə çıxan üstüörtülü pilləkənin yuxarısına vurulmuş güclü elektrik lampasının işığında həyətdə cərgə ilə əkilmiş meyvə, bəzək ağacları və gözəl bir çiçəklik görünürdü.

Pillə ilə çıxıb, eyvandan otağa girdik. Bura şəhər səliqəsi ilə döşənmiş iri, işıqlı bir otaq idi. Divarlar zövqlə rənglənmişdi. Ortada açılma yemək stolu, dövrəsində yarıyumşaq stullar, oturacağına və söykənəcəyinə zərif xalça salınmış bir divan vardı. Bir küncdə qıyqacına qoyulub, üzərinə cürbəcür kiçik büst və fiqurlar düzülmüş bir pianino, yanında kiçik bir tumba üstündə "Bakı" radioqəbuledicisi, o biri küncdə yazı stolu, yanında kreslo, iki kitab şkafı; yuxarı başda qəşəng bir bufet vardı. Baş divarda partiya və hökumət rəhbərlərinin şəkilləri, onun altında hərbi geyimli, döşü orden və medallarla bəzənmiş bir gəncin şəkli asılmışdı.

Süleyman kişi o biri otağa keçdi. Mən bir-bir pəncərələrin önündə durub, bayıra baxdım; hər pəncərədən kəndin elektrik işığında üzən abad, evli-eşikli, bağlı-bağçalı bir mənzərəsi görünürdü.

Yoldaşımın şəhərdə söylədiyi sözlər yadıma düşdü və gülə-gülə ondan soruşdum:

– Bəs ördəkləri hansı pəncərədən atacayıq? Deyəsən qazlar bu "Azərkitab" mağazasının üstündəki balkonun məhəccərinə qonacaqlar...

Yoldaşım gördüklərindən həm çox şad, həm də yalanının üstü açılmış bir adam kimi, pərt bir halda dedi:

– Daha demə, özüm də lap məəttəl qalmışam. Öz gözlərimlə görməsəydim, bir kəndin üç-dörd il ərzində bu qədər dəyişilə biləcəyinə əsla inanmazdım.

Süleyman kişi içəri girib, mülayim bir səslə dedi:

– Niyə belə durubsunuz? Soyunun, əl-üzünüzü yuyun, bir az çörəkdən-çaydan yeyib-içək...

Çay içməyə oturanda, doktor dostum çantadan dərman qutusunu çıxarıb, kağıza bükülmüş bir qaşıq qədər ağ tozu stəkana tökdü və qarışdırmağa başladı. O həmişə mədəsindən şikayət edər, çaya və suya soda töküb içərdi. Mən bunu bilə-bilə, qəsdən ona sataşıb:

– Doktor, – dedim, – bəs kinə atmırsanmı?

Süleyman kişi təəccüblə:

– Necə məgər? – deyə doktorun üzünə baxdı: – olmaya qızdırırsan, doktor?

Doktor gülümsündü. Mən onun əvəzinə cavab verib, doktorun buranı qızdırma mədəni bildiyini, buna görə də həm özü, həm də mənim üçün ehtiyat tədbiri olaraq xeyli kinə gətirdiyini söylədim.

Süleyman kişi qəh-qəh çəkib güldü:

– Hə, – dedi, – bu, doktorun köhnə adətidir. Həmişə bura ova gələndə, özü ilə bir aptek dava-dərman gətirərdi. Ancaq daha arxayın ol, doktor, burada indi, necə deyərlər, dərman üçün də bircə ağcaqanad tapılmaz. Bataqlıq qurudulub, yerində meşə zolaqları və tarlalar salındıqdan sonra qızdırmanın kökü kəsildi.

Bu zaman bayırdan maşın səsi gəldi. Mən pəncərədən boylanıb, bir "Moskviç" maşınının həyətə girdiyini gördüm və Süleyman kişiyə:

– Deyəsən, yenə qonağınız gəldi, – dedim və əlavə etdim: – "Qonaq qonağı istəməz, ev yiyəsi hər ikisini..."

Süleyman kişi həyətə baxmadan, yenə gülə-gülə dedi:

– Bu məsəl də doktorun kinəsi kimi köhnəlib...



O, keçmiş zamanda idi ki, ev yiyəsi qonaqdan xəcalət çəkər, qonaq ev yiyəsindən utanardı... İndi, necə deyərlər, Allaha şükür, nə desən varımızdır: otaq da, yorğan-döşək də... İstəyir lap on qonaq gəlsin, xoş gəlib, səfa gətirir! Bu yaxında kənd mədəniyyət sarayında bizim uşaqlar bir tamaşa verirdilər. Orada bir kişi lap düz deyirdi: Keçmişdə ayağımızı yorğanımıza görə uzadardıq, indi daha yorğanımızı ayağımıza görə!..

Doktor nigaran-nigaran həyətə boylanıb soruşdu:

– A Süleyman, bəs o gələn kimdir?

– Oğlumdur, – deyə Süleyman kişi divardakı hərbi geyimli cavan şəklinə işarə etdi. – Çoxdandır ordudan qayıdıb. Orada texniki kurs qurtarıb, indi maşın-traktor stansiyasının müdiridir. Maşın da özünündür, bu yaxında alıb.

Kənddə və şəhərdəki yeniliklər, təsərrüfat və məişətdəki yüksəlişdən xeyli söhbət etdik. Xüsusən doktorun "azıb" kəndi tanımamasından danışıb gülüşdük...

Doktor bu kənd barəsindəki köhnə təsəvvüründən utandığını boynuna alıb dedi:

– Düzü, a Süleyman, qoy boynuma alım: nəinki kəndi, birdənbirə elə sənin özünü də tanımadım. Göz dəyməsin, yaman cavanlaşıbsan...

Süleyman kişi zarafatyana bir-iki dəfə cavansayağı öskürüb, bığlarını eşdi və gülə-gülə dedi:

– Bəs necə? Siz doktorlar cavanlaşmağın sirrini çox axtardınız, amma biz tapdıq. İnsan ölkəni, torpağı cavanlaşdıra-cavanlaşdıra, özü də cavanlaşır...

* * *

Əlbəttə ki, kənddə gördüklərimiz və Süleyman kişidən eşitdiklərimiz çox fərəhli və ürəkaçan şeylərdi. Amma mən bir məsələdən nigaran idim: bataqlıq qurudulub, qamışlıq qırıldıqdan, təbiətdə bu qədər böyük dəyişiklikdən sonra bura ova nahaq gəlməmişikmi?..

Bu məsələni Süleyman kişidən soruşduqda, mənim nigarançılığıma gülüb dedi:

– Yox, heç nigaran qalmayın... Azərbaycan, Sovet İttifaqının ən zəngin ovlaqlara malik bir guşəsidir və həmişə də belə qalacaqdır. Yəqin yaxşı bilirsiniz ki, Qızılağac dövlət qoruğu bizə yaxındır. Bizim ölkə, xüsusən cənub rayonlarımız, su quşlarının qışlağıdır. Bir parça bataqlığı qurutmaqla quş azalmaz. Əksinə, əvvəl xırda göllər, axmazlar quraqlıq olanda quruyur, ya da qış bərk olanda donurdu. Onda quşlar ya uçub İrana və daha uzaqlara gedir, ya da çox vaxt qırılıb tələf olurdu. Biz indi ətrafdakı göl və axmazların ağzını bir yerə yığıb, elə bir göl yaratmışıq ki, bir ucundan o biri ucu görünmür. Oradakı bənddən həm elektrik stansiyası işləyir, həm də suvarma arxları gedir. Gölün ortasındakı adalarda, dövrəsindəki qamışlıqlarda quşların da kefləri kök, damaqları çağdır.

* * *

Səhər ovuna gecikməmək üçün, hələ ulduzlar sönməmiş evdən çıxdıq. Kəndin kənarında, üstündən qəşəng, ağ məhəccərli bir körpü salınmış enli bir arxın kənarına çatdıqda, Süleyman kişi dedi:

– Siz bu taydan gedin, mən o taydan. Bu arx boyu yəqin quş olacaq. Bəri uçsa, siz atarsınız, o yana uçsa, mən... – Bir-iki addım ayrıldıqdan sonra əlavə etdi: – Ehtiyatlı olun ha, qamışın ətəklərində qaban da rast gələ bilər!

Mən dedim:

– Qabanı neyləyirik. Kimdir onu yük eləyib aparan?

– Yox, yox, rast gəlsə, buraxmayın. Aparmaq istəməsəniz, burada tədarük məntəqəsinə təhvil verərik.

Doktor, əvvəlcə qaban söhbətini zarafat bilmişdi. İndi məsələnin ciddi olduğunu başa düşüb, nigaran-nigaran dedi:

– Yəni doğrudan burada qaban da ola bilər? Axı mən heç qaban gülləsi götürməmişəm...

Mən doktora sataşıb dedim:

– Ziyan yoxdur, qaban gəlsə, məni qabağa ver. Məndə güllə var.

Doktor sevindi:

– Onda bir-ikisini mənə ver!

Mən gülə-gülə cavab verdim:

– Axı sənin tüfəngin on iki, mənimki on altı... Necə ola bilər?



– Ver də, bəlkə oldu!..

Bu sözə hamımız bərkdən gülüşdük. Hətta doktor özü də səhvini yalnız indi başa düşüb, pərt halda gülümsündü.

Bu zaman Süleyman kişi məzəmmətləyici bir əda ilə doktora müraciətlə dedi:

– A doktor, sən nə vaxta qədər belə ehtiyatsız olacaqsan? Özün də həmişə ehtiyatdan danışırsan. Bir iynə ucu boyda ağcaqanaddan qorxub, yanında bir kilo kinə gəzdirirsən, amma bu öküz boyda nəhəng üçün yanına iki qaban gülləsi qoymursan... Ovçu da əsgər kimi həmişə, hər ehtimal üçün hazır və ehtiyatlı olmalıdır...

* * *

Süleyman kişidən ayrılıb, bir xeyli getmişdik. Birdən qamışın qalın bir yerindən bərk xışıltı gəldi. İkimiz də durduq.

Arxın kənarına yaxın, qamışlığın içinə doğru uzanıb gedən araba yolunun ortasında yekə bir qaban, dalınca da bir vəhşi donuz göründü. Qaban açığa çıxan kimi, durub ehtiyatla yan-yörəsini yoxladı. Donuz isə birbaşa, xortuldaya-xortuldaya bizə sarı gəlirdi. Qaban da bir az durduqdan sonra onun dalınca düşdü.

Aramız qırx-əlli metr olardı. Alaqaranlıqda heyvanlar yekə və qorxunc görünürdü. Xüsusən heç çəkinmədən sürətlə dümdüz üstümüzə gəlmələri adamı dəhşətə salırdı.

Ancaq hələ atmaq olmazdı. Quş tüfəngi üçün bu məsafə uzaq idi. Heyvanları yaxın buraxmaq üçün isə, cürət və əsəb möhkəmliyi lazım idi.

Məndən bir-iki addım irəlidə olan doktor, birdən tüfəngi qaldırdı. Mən heyvanları ürkütməmək üçün, səs çıxarmadan, doktoru bu yersiz hərəkətindən saxlamaq niyyəti ilə addımlarımı yeyinlətdimsə də, ancaq tüfəngə qaban gülləsi qoymaqla məşğul olduğumdan, buna macal tapmamış, doktor dalbadal iki güllə atdı...

Bu atış, əlbəttə, əsəbilikdən doğan yersiz və mənasız bir atış idi. Çünki doktor özünü itirdiyindən tüfəngində güllə deyil, xırda qırma olduğunu unudub, necə gəldi atmışdı.

Mən irəli keçib, onu məzəmmətlədim:

– A doktor, bu nə idi! Heç qabana da qırma atarlarmı, özü də bu məsafədən! Heyif!..

– Neyləyim, – deyə o da təəssüfləndi, – özümü saxlaya bilmədim də...

Birdən doktor dəhşətlə gözlərini bərəldib:

– Vay, gəlir! – deyə qaçmağa bir yer axtarırmış kimi, həyəcanla o yan-bu yana boylandı.

Doğrudan da yaralı qaban çox qorxuludur. Ancaq burada elə bir şey ola bilməzdi. Çünki doktorun atdığı məsafədən qırma qabanı heç yaralaya da bilməzdi. Heyvanlar hər ikisi tüfəngin səsinə ürküb qaçmış olmalı idilər.

Bəlkə dostumu qorxudan qara basıb, – deyə mən də onun baxdığı tərəfə baxdım: heyvanların biri yox idi. O biri isə tüfəngin səsinə, dostumun hay-küyünə və hər ikimizin yaxından açıq-aşkar göründüyümüzə baxmayaraq, saymazca düz üstümüzə gəlirdi. Daha şübhə ola bilməzdi. Bu heyvan ya yaralı, ya da bundan daha dəhşətlisi, – quduz ola bilərdi. Çünki normal halda olan hər bir vəhşi heyvan, hətta dəhşətli pələng və aslan da harada olsa, insana nəinki hücum etməz, hətta ondan qorxub qaçar.

Nə isə, heyvan on-on beş addımlıqda olanda, mən tüfəngi qaldırıb heyvanın sol çiynini nişan aldım. Tüfəng açılan kimi, heyvan gövdəsinin bütün ağırlığı ilə sol qolu üstə yıxıldı, ikinci gülləni qulağının dibinə, gicgahına çaxdım.

Yalnız indi, daha təhlükədən arxayın olduqda, diqqətlə baxıb gördüm ki, bu vurduğum heyvan qaban deyil, vəhşi donuzdur.

Dalbadal atılan tüfəng səslərini eşidən, havada isə, quş görməyən Süleyman kişi, arxın o tayından səsləndi:

– Nə var, nəyə atırsınız?

– Qaban! – deyə ikimiz də birdən çığırdıq.

– Vurdunuzmu?

– Vurduq!

Süleyman kişi hərlənib yanımıza gəldi. Yerə sərilmiş heyvanı hələ on-on beş addımlıqdan görüb:

– Paho!.. – dedi. – Nə heyvərəsidir. Əhsən!.. Siftəmiz pis olmadı.

Süleyman kişi bir az da yaxın gəlib, heyvana diqqətlə baxdı. Birdən təəccüblə, hətta böyük bir təəssüflə:

– Vay səni! – dedi, – bu ki, yazıq Maşadır!.. Nə pis oldu!..

Bu axırıncı sözdə artıq təəssüfdən başqa danlaq da var idi...



Məlumdur ki, bəzən ev heyvanlarını əzizləyib onlara insan adı qoyurlar. Ancaq bu ki, ev heyvanı deyil, bütün əlamətlərinə görə bir çöl donuzu idi!..

Bəzi ovçu hekayələrində deyirlər ki, guya ovçular maskalanmaq üçün hərdən əyinlərinə heyvan dərisi geyirlər və öz yoldaşları onları doğrudan da heyvan bilib vururlar...

Ovda ehtiyatsızlıq nəticəsində belə bədbəxt hadisələr ola bilər. Amma indiki halda bu da mümkün deyil, çünki qarşımızda yerə sərilən insan deyil, yekə bir heyvan idi.

Bütün bu aşkar dəlillərə baxmayaraq, mən heyrətlə soruşdum:

– Necə yəni Maşa? Niyə pis oldu? Nə deyirsiniz, Süleyman əmi?!

Süleyman kişi mənim nigarançılıq və həyəcanımı görüb, sakitləşdirici bir əda ilə dedi:

– Sizdə təqsir yoxdur. Özgəyə quyu qazan, bir gün özü düşər!..

Süleyman kişinin ifadə və ahəngində sakitləşdirici bir əda vardısa da, ancaq bu sözlərdən yenə aydın bir məna çıxarıb, sakit ola bilmədim: özgəyə quyu qazan kim idi? Quyuya düşən kim idi? Maşa kim idi?.. Və bütün bunların bu yekə çöl donuzuna nə dəxli ola bilərdi?..

Məsələ sonra aydın oldu: belə ki...

## II

Ovçular İttifaqının yerli şöbəsinin bələdçisi Nikolay Petroviç yaz-qış, ovçuların "xana" deyilən düşərgəsində yaşayırdı. O, iki il bundan əvvəl bir çöl donuzu balası tutub, əldə böyütmüşdü. Nikolay Petroviçin yaşadığı xana kəndin yaxınlığındakı böyük su quşları ovlağının lap ortasında idi. Xana bir neçə iri, rahat otaqdan ibarət idi. Ova gələnlər burada bütün rahatlıq vasitələrindən istifadə edib, dincələ bilərdilər. Burada göldə ova çıxmağa xırdaca ikinəfərlik qayıqlar, bələdçi sürücülər də vardı. İstəyənlər vurduqları quş və heyvanları buradaca təhvil verib, qəbz alar və bu qəbz ilə istədikləri şəhər və rayon mərkəzlərində hər cür ərzaq, sənaye malları və ov ləvazimatı ala bilərdilər.

Petroviç və arvadı bala donuzu əzizləyib ona "Maşa" adı qoymuşdular. "Maşa" onlara və xanadan heç bir zaman əskik olmayan

ovçulara elə öyrəşmişdi ki, onu "Maşa", "Maşa!" – deyə çağırdıqda, harada olsa, xortuldaya-xortuldaya yüyürüb gələr, ovçular da ona meyvədən, kolbasa-çörəkdən verərdilər.

"Maşa" böyüdükcə, adamlara daha çox isinişmişdi. O, çıxıb xananın ətrafında gəzişir, orada-burada atılan tüfənglərin səsindən nəinki hürkmür, əksinə, haradan tüfəng səsi gəlsə, harada tüfəngli bir adam görsə, ov tulası kimi, yüyürə-yüyürə ona sarı gedərdi.

"Maşa" böyüyüb daha yekə bir donuz olmuşdu. O, bəzən bütün günü qamışlıqda gəzir, ancaq axşam, necə olsa, xanaya qayıdırdı.

Bir axşam "Maşa" gəlib çıxmadı. Petroviç bir xeyli gözlədikdən sonra nigarançılığı artmağa başladı. O, xananın ətrafında hər yeri axtarıb "Maşa", "Maşa!" – deyə nə qədər səslədisə də, "Maşa" tapılmadı ki, tapılmadı...

– Bəlkə yenə gedib öz vəhşi həmcinslərinə qoşulub?

– Bəlkə qamışlığın qalınlıqlarında azıb?

– Bəlkə tanımayan bir ovçuya rast gəlib, vurublar?..

Bu cür təxminlərlə Petroviç və arvadı özlərini xeyli yormuş və "Maşa"nı başlı-başına buraxdıqları üçün bir-birini məzəmmətləmişdilər. On beş ildən artıq bir-biri ilə xoş və mehriban yaşamış ər-arvad "Maşa"nın üstündə hətta küsüşən kimi də olmuşdular...

Payızın sərin, aylı gecələrindən biri idi.

Ov mövsümü rəsmən başlanmışdısa da, ancaq hələ şimaldan quşların kütləvi dönüşü başlanmadığından, Petroviçin xanasında kənar adam yox idi. Gecədən xeyli keçmişdisə də, Petroviç ilə arvadı yata bilmirdilər. Onlar tez-tez eyvana çıxır, ay işığında ətrafı gözdən keçirir, içəri girib, otaqda vurnuxur, yenə eyvana çıxıb naümid bir səslə "Maşa!", "Maşa!".. – deyə çağırırdılar. Xüsusən arvad çağıranda, səsində ağlamsınmağa bənzər bir titrəyiş hiss olunurdu.

Petroviç artıq "Maşa"dan tamamilə ümidini kəsib yatmaq istədisə də, bacarmayıb, son dəfə bir də eyvana çıxdı. Gecədən bəri neçə dəfə belə etmişdi. Bu dəfə də boşuna çıxsaydı, kim bilir, bu "son dəfə"lər nə qədər təkrar olunacaqdı.

Ancaq bu dəfə deyəsən qulağına tanış bir xorultu səsi gəldi. Petroviç hərəkətsiz durub dinlədi. Səs bir az da yaxından, bir də, bir də təkrar olundu... Petroviç səs gələn tərəfə baxanda, qamışlığın ətəyindən iki qaraltının çıxıb, xanaya yaxınlaşdığını gördü. O, bütün diqqətini gözlərinə toplayıb baxdı.



Gələnlərdən biri "Maşa", biri də iri, xəncər kimi iti ağ dişli bir qaban idi.

Qaban duruxub xanaya yaxınlaşmaq istəmir, qayıdıb qamışlığa sarı yönəlirdi.

"Maşa" isə, dönüb onun yanına gedir, şirin-şirin xortuldayıb, xanaya sarı gəlir, sanki onu da dəvət edirdi.

Petroviç səssizcə içəri girib, tüfəngini götürdü və xananın qamışlığa açılan qapısına lap yaxın olan qabanı elə oradaca vurub yıxdı.

"Maşa", heç bir şey olmayıbmış kimi, xortuldaya-xortuldaya sahibinin yanına gəldi. Petroviç ilə arvadı o gecə "Maşa"ya ən əziz bir qonaq kimi ən ləzzətli yeməklər verdilər.

Bu hadisədən sonra həm "Maşa", həm də Petroviç özü bu asan ovçuluğa dadandılar.

"Maşa" hər gecə qamışlığa gedir və səhərə qədər iki-üç dəfə qayıdırdı. Hər qayıdanda da, özü ilə bir "qonaq" gətirirdi. Petroviç isə, pusquda durub, "Maşa"nın şirin xorultularına aldanan "qonaqları" – xəncər dişli yekə qabanları acı güllələrə qurban edirdi...

* * *

İndi qarşımızda yerə sərilən "Maşa" həmin bu gecə macəralarının qəhrəmanı olan "Maşa" idi...

Görünür, bu gecə rast gəldiyi "qonaq" çox da şirin dilə aldanan deyilmiş. Maşa onu tovlayıb aparmaq üçün ləngiyib bu vaxta qalıbmış və nəhayət, özgələrinə qazdığı quyuya özü düşüb...

Mən müqəssir olmasam da, ancaq belə, ev heyvanı kimi bir heyvanı vurduğuma peşman idim. Kimsəyə müraciət etmədən:

– Doğrudan, bu heç yaxşı olmadı... – dedim və sonra Süleyman kişiyə dönüb soruşdum: – Bəs indi necə edək?

Süleyman kişi səsimin ifadəsindən peşmanlığımı duyub dedi:

– Kefinizi pozmayın, nə olacaq: su qabı suda da sınar! Nəyi necə edəcəyik? İndi elə Petroviçin yanına gedirik. Orada ova çıxacayıq. Yerini deyərik, özü gəlib aparar...

– Axı bu heç yaxşı olmadı!..

– Lap yaxşı oldu: həmcinsinə xəyanət edənin cəzası budur!..

*iyul, 1951*

# TƏZƏ TÜFƏNGİN SİFTƏSİ

Dər ilinin qurtarmasına az qalırdı. Rayon mərkəzində komsomol təşkilatı yay tətilini mədəni və səmərəli keçirmək məsələsinə həsr olunmuş müşavirə çağırmışdı. Müşavirədə pioner və məktəblilərə kolxozlara kömək etmək, ölkəmizi bağ-bağçalarla bəzəmək, heyvanları qorumaq barəsində məruzələr edilmiş, lazımi göstərişlər verilmişdi.

Səlim də öz kənd məktəblərindən bu müşavirəyə nümayəndə göndərilmişdi. Faydalı quşları qorumaq barəsindəki məruzəni o çox xoşlamışdı.

Məruzəçi demişdi: – Ölkəmizin geniş düzlərində, güllü-çiçəkli dağlarında, göy dənizlərində, büllur göllərində yaşayan heyvan və quşlar: ceyranlar, qırqovullar, turaclar, kəkliklər, ördəklər, qazlar – hamısı xalqın öz malıdır. Bunlar xalq təsərrüfatının ayrılmaz hissəsidir. Bunları vaxtsız və qanunsuz qırıb tələf etmək, məsələn, kolxozun əkin və heyvanlarını tələf etmək kimi bir cinayətdir. Buna görə də hər bir məktəbli, pioner və komsomolçu ziyançılarla mübarizə aparmalıdır. Ölkəmizin faydalı heyvan və quşlarını tələf edənlər yalnız qurd, çaqqal, tülkü və sair yırtıcı heyvanlar deyil, adını ovçu qoyan bəzi nadan adamlar da vardır. Dəcəl və tərbiyəsiz uşaqların itə, pişiyə və ya qonşuların qapı-pəncərəsinə daş atıb əyləndikləri kimi, bunlar da ölkəmizin sərvət və zinəti olan gözəl quş və heyvanları vaxtlı-vaxtsız qırıb tələf etməkdən ləzzət alırlar. Halbuki əsil ovçular hər il dövlətə milyon manatlarla xeyir gətirən xəz-dəri və min tonlarla ət təhvil verirlər. Həvəskar ovçuluq Sovet ölkəsində idmanın ən gözəl və faydalı növlərindən biridir.

Əsil ovçu qayğıkeş bağban kimidir. O, ov quşlarını və heyvanları qoruyar, lazım gələndə, hətta yem verib bəslər və yalnız vaxtında qanun üzrə ovlar...

Məruzəçinin bu sözləri Səlimin ürəyindən idi; çünki Səlimgilin kəndi dövlət qoruğu sahəsində yerləşirdi. Atası da qoruqçulardan biri idi. Qış, yaz, yay tətillərində Səlim də atası ilə qoruğu gəzməyə çıxırdı.

* * *

Qoruq gözəl bir körfəzin kənarında qamışlıq, kolluq, xırda meşəlikdən ibarət ucsuz-bucaqsız bir yer idi. Burada hər şey öz təbii halında saxlanılmışdı. Qamışlıqlar arasında güzgü kimi parıldayan



dumduru göllər, gölməçələr, axmazlar, körfəzin içərisində xırdaca, qəşəng adacıqlar vardı. Uzaq-uzaq ölkələrdən: buzlu Şimaldan, çox isti Afrikadan, dünyanın hər bir yerindən uçub gələn quşlar burada özlərini "öz evlərində" olan kimi, bəlkə oradan daha rahat və asudə hiss edirdilər. Burada onlara nəinki insanlar dəyib-dolaşmır, hətta yırtıcı heyvan və quşları da qoymurlar. Göllərdə və çəmənlərdə onlar üçün yem, yatıb dincəlmək, yuva qurub balalamaq və balalarını bəsləyib-böyütmək üçün nə lazımsa, hamısı vardı. Hətta cürbəcür səbəblərə görə təbii yem az olanda, onlar üçün suya və quruya bol-bol arpa, buğda, çəltik və sair yemlər tökürdülər. Burada işləyən qoruqçuların vəzifəsi təyin edildikləri sahəni gəzmək, qanun pozanları, yəni qadağan olunmuş yerdə quş ovlayanları tutmaq, canavar, çaqqal, tülkü, qamış pişiyi, quzğun, çalağan, qaraquş və sair yırtıcı quş və heyvanları tələf etməkdən ibarətdir.

Səlim hələ uşaqlıqdan atası ilə birlikdə qoruğu qarış-qarış gəzmişdi. O, xırdaca, sərçə boyda olan cüllütlərdən tutmuş iri, quzu boyda dovdaq və qu quşlarına qədər bütün quşları tanıyır və sevirdi. Qoruqda elmi işçilər quşların həyatını: haradan gəlib haraya getdiklərini, necə yaşadıqlarını və artdıqlarını öyrənirdilər. Səlim də quşları tutmaq, ayaqlarına yazılı yüngül alümin halqa taxmaq işində elmi işçilərə kömək edirdi. O, özünə söz vermişdi ki, orta məktəbi qurtardıqdan sonra ali məktəbə girib heyvanat alimi olacaq, gəlib burada, həmin bu qoruqda işləyəcəkdir. O, hələ indidən bir çox quşların bizim yerlərə nə vaxt və haradan gəldiklərini, nə vaxt və hara uçub getdiklərini, nə vaxt və necə bala çıxartdıqlarını, nə yediklərini yaxşı bilirdi. O, quşların həyatından elə qəribə söhbətlər edirdi ki, bəzən məktəb yoldaşları ona inanmayıb çox şeyləri özündən uydurduğunu güman edirdilər.

Məsələn, bir gün Səlim qamışların arasından körfəzdəki quşlara tamaşa edirdi. Körfəzdə iri, çəhrayı rəngli qutanlar və onlardan xeyli kiçik olan qara rəngli qarabattaq quşları üzüşürdülər. Qutanlar suyun üzündə tənbəl-tənbəl durub, uzun boyunlarını bükmüş, altı kisə kimi olan yekə dimdiklərini bellərinə qoyub, mürgüləyirdilər. Qarabattaqlar isə, böyük bir yarımdairə halında cərgəyə düzülüb, qanadlarını suya çırpa-çırpa, sürətlə sahilə doğru üzür, beləliklə balıqları suyun dayaz yerinə qovurdular. Burada isə, dalbadal suya baş vurub, balıqları tutur və udurdular.

Qarabattaqlar bir müddət belə balıq ovladıqdan sonra, görünür ki, yorulduqlarından dincəlmək istədilər. Körfəz böyük, sahil isə

qamışlıq idi. Sudan çıxıb dincəlmək üçün yaxında nə bir ada, nə də bir qaya var idi. Onda bir neçə qarabattaq, hərəsi dimdiyinə iri bir balıq alıb, qutan quşlarına yaxınlaşdılar, balıqları onlara verdilər. Qutanlar yekə dimdiklərini açıb, balıqları uddular. Qarabattaqlar isə, onların belinə çıxıb, qanadlarını çırparaq, qurunmağa və rahat-rahat oturub dincəlməyə başladılar...

Səlim öz gözü ilə gördüyü bu hadisəni yoldaşlarına danışdıqda, onlar buna inanmayıb, gülüşmüş və demişdilər:

– Heç elə də şey olarmı?..

Belə hallarda Səlimin gah acığı tutar, gah da deyərdi:

– Yaxşı, indi inanmayın... Böyüyüb, alim olanda bunları dəlil-sübutla kitabımda yazaram, onda oxuyub inanarsınız!..

* * *

Səlim indi yeddinci sinifdə oxuyurdu. Qoruqçuluq işində də atasına xeyli köməyi dəyirdi. Hətta keçən qış qoruğu yoxlamağa çıxanda, bir neçə çaqqal, tülkü və yırtıcı quş vurmuş, bunun üçün qoruğun müdiriyyəti ona xeyli mükafat vermişdi. O, özünə bir dəst yaxşı ov paltarı, rezin çəkmə və bir təklülə qatlama tüfəng almışdı. Bu tüfəng yaz-qış, həmişə onun çiynində olardı.

İndi Səlim müşavirədən çıxıb, kəndlərinə qayıdırdı. Axşamüstü idi. Səlim şose yolunun kənarı ilə kəndə yaxınlaşmaqda idi.

Səhərdən yağan bahar yağışı günortadan sonra kəsmiş, yolun hər iki tərəfində geniş çəltik tarlalarının torpağı bol-bol islanıb şişmişdi. Səlim yağışın torpağa çoxmu, azmı işləmiş olduğunu yoxlamaq üçün bir addım şosedən kənara çıxdı. Ayağı az qala topuğa qədər islaq torpağa girdi. Səlim sevinmiş bir halda geri qayıtdı. Baharın bu vaxtında belə bol yağış xalis bərəkət deməkdi. O boylanıb ətrafı seyr etdi. Yağışdan sonrakı saf və şəffaf havada ən uzaq yerlər də apaydın görünürdü.

Yaxında, yolun hər iki yanında çəltik və taxıl tarlaları, bir az uzaqda çiçəklənmiş və rəngdən-rəngə çalan meyvə bağları, səliqə ilə cərgə-cərgə düzülmüş limon-naringi ağacları görünürdü. Daha uzaqda, düzənlə birləşən yamacda salınmış çay əkinləri, onların ardında get-gedə ucalan və gülməxmər döşənmiş kimi görünən



meşəli dağların başları tünd göy, bozumtul-bənövşəyi rənglərə çalır, qat-qat, pillə-pillə bir-biri üzərinə qalanıb, göyə dirənirdi. Bu dağlar axşam günəşinin yumşaq şəfəqlərini əks etdirən buludlara elə qarışırdı ki, dağlarla buludları bir-birindən seçmək mümkün olmurdu. Qarşı tərəfdə, üfüqdə isə, dəniz bu gözəl lövhənin kənarına çəkilmiş nəqşəli gümüş bir haşiyə kimi görünürdü...

Bütün bunları fərəhlə seyr edən Səlim köks dolusu bir nəfəs aldı. Oyanmış islaq torpağın xoş nəfəsi, taxılın, təzə otların, bağlarda və yamaclardakı gül-çiçəyin ətri ilə dolu olan o təravətli saf Vətən havası ciyərlərinə dolduqca, Səlim sanki anbaan böyüyür, ucalır, başı buludlara çatırdı. O, qəlbində, qollarında sonsuz bir qüvvət və qüdrət hiss edir, belə gözəl və azad bir ölkənin oğlu olduğu üçün sonsuz bir qürur və iftixar duyurdu. Belə coşqun dəqiqələrdə bildiyi və sevdiyi nəğmələrdən birini oxuyardı. İndi də köksünü qabardıb, əsgərsayağı, nəğmənin ahənginə uyğun müntəzəm və möhkəm addımlar ata-ata, xoş bir səslə oxumağa başladı:

Ana yurdun qucağında
Boy atırıq azad, şən.
Bəslər bizi,
Səslər bizi
Xoş günlərə bu Vətən!..

Səlim şirin arzu və xəyallar içində, ətrafını doymaq bilməyən nəzərlərlə seyr edə-edə yol gedərkən, qaz qaqqıltısına bənzər tanış səslər eşitdi. Başını qaldırıb baxdı. Xeyli uzaqda iti bucaq şəklində düzülmüş bir dəstə quş gördü. Quşların boyun və ayaqları o qədər uzun idi ki, bunlar ortalarına qanad taxılmış oxlara bənzəyirdi. Səlim adəti üzrə tez yolun kənarındakı iri bir kolun dalına girib gizləndi. Quşlar düz ona sarı gəlir və gəldikcə alçalırdılar. Ona çatdıqda, başının üstündə bir dairə vurdular. Səlim indi quşları yaxından görür, qaqqıltılarını eşidirdi. Quşların iri, əyri dimdiklərinin ucu, qanadlarının altı və üstü al-qırmızı, bədənləri və ayaqları açıq-çəhrayı rəngdə idi. Dəstə lap alçalıb, Səlimdən iki yüz addım qədər aralı, dənizlə tarlaların arasındakı dayaz gölməçəliyə qondular. Əvvəlcə uzun boyunlarını uzadıb ətrafı yoxladıdan sonra, bir təhlükə əlaməti görmədiklərindən, arxayınlaşıb, dənlənməyə başladılar.

Bunlar çox qəribə quşlar idi. Elə bil başqa-başqa quşların bədənlərinin ayrı-ayrı üzvlərindən quraşdırılmışdılar: ayaqları qaz ayağı ilə leylək və ya durna ayağı, boyunları qu boynu, bədənləri qaz bədəni, dimdikləri isə həddindən artıq iri və ucu qarmaq kimi əyri idi. Quşlar boyunlarını qatlayıb gəzişdikdə, elə bil gölməçənin içində canlı sual işarələri gəzişirdi.

Səlim çox zaman qoruqda etdiyi kimi, kolun arxasından bunları seyr edib ləzzət alırdı. Bu quşları yaxşı tanıyırdı. Bunlar qızıl qaz idi. Yumşaq, yaraşıqlı tüklərinə və ətlərinə görə, bunları vaxtilə çox qırmış olduqlarından, quşlar çox azalmışdı. Hökumət bu zərif və yaraşıqlı quşların nəslini artırmaq üçün neçə il idi ki, onları ovlamağı qadağan etmişdi...

* * *

Səlim böyük bir maraq və diqqətlə bir az görünən quşlara tamaşa edərkən, birdən gizləndiyi kolun yanından hənirti eşitdi. Dönüb baxanda, səssizcə gəlmiş bir "Moskviç" maşınının kolun yanında durduğunu gördü.

Maşından gödək, ətli-canlı, eni ilə uzunu bir olan girdəsifət, qalındodaq, bığı-saqqalı təmiz qırxılmış bir adam xeyli çətinliklə çıxdı. Onun əynində tünd-qəhvəyi, zolaqlı bir kostyum, ipək köynək, boğazında ala-bəzək bir qalstuk, başında açıq-yaşıl bir panama, ayağında qara laklı tufli və təzə qaloş vardı. Panamasının kənarı o qədər enli, özünün boyu isə o qədər gödək idi ki, göbələyə bənzəyirdi. O, maşının dal qapısını açıb, oradan par-par parıldayan zərli-bəzəkli bir qoşalülə tüfəng çıxartdı və quşların qonduğu səmtə boylanmağa başladı.

Bu adam birdən kolun yanında durub, ona heyrətlə baxmaqda olan Səlimi gördükdə, əvvəlcə diksinən kimi oldu, sonra özünü düzəldib, əmredici bir əda ilə ondan soruşdu:

– Ə, o durnalar hara qondu?

Səlim quşlara sarı baxmadan cavab verdi:

– Onlar durna deyil, qızıl qazdı.

Həmin adam təəccüblə soruşdu:

– Nə?



– Qızıl qaz.

– Qızıl qaz? Daha yaxşı!..

O, sevinmiş bir halda maşında, sürücü yerində oturmuş yoldaşına dönüb, lovğa-lovğa dedi:

– Eşitdinmi? Qızıl qaz!.. Sənə demişdim ki, belə tüfəngin siftəsi ya gərək qaz ola, ya ceyran!..

Sonra o yenə Səlimə dönüb, sualını təkrar etdi:

– Ə, qızıl qazlar hara qondu?

– Onları vurmaq qadağandır, yoldaş!

– Yaxşı, uzun danışma! Sənə nə dəxli var?

Səlim müşavirədəki məruzəçinin sözlərini yadına salıb, yaşlı adamlara məxsus ciddi bir əda ilə cavab verdi:

– Sovet qanunları hamı üçün əzizdir. Qanunpozanlara mane olmaq isə, hər vətəndaşın borcudur.

Bir kənd uşağından belə qəti cavab gözləməyən gödək adam əvvəl bir az duruxdu, sonra işi zarafata salıb, saymazyana dedi:

– Yaxşı-yaxşı! Çox danışma, ağzın böyük olar! İndicə qazlardan beş-altısını vurub, birini də sənə verərəm: yeyərsən qaz ətini, görərsən ləzzətini, qanun-zad da yadından çıxar...

Gödək "ovçu" Səlimlə danışa-danışa qazların qonduğu tərəfə boylandı.

O, maşından quşların qonduğu səmti təxminən görmüşdü. Boyu gödək olsa da, gölməçəyə qonmuş qızıl qazları görmək çətin deyildi.

Birdən quşları gördü və sevincək o tərəfə getmək istədikdə, şosedən kənara bircə addım atar-atmaz, topuğa qədər palçığa batdı. Ayağını palçıqdan çəkib çıxarmaq istədikdə, qaloşu çıxıb orada qaldı. İşi belə gördükdə pərt oldu. Tüfəngin lüləsi ilə qaloşu çəkib çıxardı və ayağına geyə-geyə yoldaşını çağırdı:

– Ə, bir bayıra çıx görək, nə çarə qılaq...

Maşındakı adam da çıxıb onun yanına gəldi.

O arıq, ucaboylu, sadə geyimli bir adam idi. Onlar yan-yana durduqda, Don Kixot ilə onun silah daşıyanı Sanço kimi qəribə və gülünc görünürdülər.

Uzun adam qazlara sarı baxıb dedi:

– A kişi, çox uzaq deyil ki!.. Yəni tərifləməkdən zəhləmizi tökdüyün bu tüfəng buradan oranı da vurmaz? Elə buradan at, çatar...

– Çatmağına çatar... Bəs vurdum, necə götürək?

– Sən bir vur, qalsın götürməyin.

Onların bu söhbətlərinə Səlim ürəyində güldü. Bu sözlərindən heç birinin nə ovdan, nə tüfəngdən başı çıxmadığı aşkar oldu; çünki bu məsafədən quşa qırma tüfəngi ilə atmaq, məsələn, elektrik lampasını üfürməklə söndürməyə çalışmaq deməkdir. Səlim bildi ki, belə "ovçulardan" bu quşlara bir xətər gəlməz. Olsa-olsa, quşları tüfəngin səsinə ürküdüb qaçıracaqlar ki, Səlimin də istədiyi elə bu idi.

Yeri gəlmişkən, onu qeyd edək ki, ovçuluqda, bir bu işi idmanın maraqlı və faydalı növü kimi sevənlər, buna görə də ovun hər cür cəfasını da səfa bilən əsil həvəskarlar, bir də onları təqlid edən saxtakarlar var. Yəni elə adamlar da var ki, ova nə həvəs, nə dözümləri olduğu halda, özlərinə bir tüfəng alır, sonra "nənəm mənə kor deyib, hər yetəni vur deyib" sayağı "ovçuluğa" başlayırlar. Bunlar, adətən, tüfəngin ən yaraşıqlısını, bəzək-düzəklisini alırlar ki, heç olmasa, ovla öyünə bilməsələr də, tüfəngləri ilə öyünsünlər. Belə "ovçular" yolda teleqraf məftillərinə qonmuş yazıq sığırçınların, insana öyrəşib, ondan qaçmayan fağır göyərçinlərin, sürü-sürü yolun ortasına qonan ehtiyatsız qarğa və dolaşaların qənimidirlər. Elə maşının pəncərəsindəncə tüfəngin ucunu çıxarıb atır, sonra da şücaətləri ilə öyünürlər. Təbiətin qəribə mənzərə və ya hadisəsini saatlarla seyr və müşahidə etməyi sevən əsil həvəskar ovçular bəzən evə "əli boş", lakin ürəkləri xoş təsirlərlə dolu qayıdırlarsa da, o birilərinin çantaları heç boş olmaz. Qonaq düşdükləri ev yiyəsinin və üzə salıb qoşulduqları ovçu dostlarının səxavəti sayəsində, ya da yolda rast gəldikləri peşəkar ovçulardan sadəcə satın almaq sayəsində, çantalarında həmişə bir neçə qırqovuldan, turacdan, ördəkdən olar...

Səlim belə "ovçulara" çox rast gəldiyindən, qarşısındakı adamın da belələrindən olduğunu həmin saat duydu. Qaz vurmaq belələrinin hünəri olmadığını bilib sevindi. Ancaq işin necə qurtaracağını bilmək üçün, durub tamaşa etməyə başladı; çünki belə "ovçuların" bu cür ovları, sirkdəki yalançı pəhləvanın oyunu kimi çox zaman qəribə və gülünc qurtarır.

"Ovçu" ilə yoldaşı ağzı ətə çatmayan tamahkar pişiklər kimi boylanıb qazlara sarı baxır, yerlərində vurnuxur, nə edəcəklərini bilmirdilər.

Axırda "ovçu" əmredici bir əda ilə Səlimə dedi:

– Bura bax, qoçaq. Durma, tez bu yaxından bir atdan-eşşəkdən tap gətir, minib quşlardan vurum.



Səlim bayaq gələrkən, yaxında, yolun kənarında çidarlanıb otlağa buraxılmış bir eşşək görmüşdüsə də, qəsdən belə cavab verdi:

– Buralarda eşşək yoxdur, atlar da hamısı işdədir.

Səlimin bu cavabının mənasını "ovçu" başa düşmədisə də, yoldaşı duyub güldü:

– Afərin! – dedi, – yaxşı cavab verdin...

Sonra o, yoldaşına dönüb dedi:

– Ayə, heç ömründə at minibsənmi ki, belə böyük-böyük danışırsan. Yenə qatırdan-eşşəkdən olsa, bir təhəri var...

"Ovçu" bu sözlərə də fikir və cavab verməyib, yola və ətrafa göz gəzdirməkdə idi. Birdən sevinmiş bir halda:

– Odur ha, Allah yetirdi! – deyə səsləndi.

Səlim onun göstərdiyi səmtə baxdı. Doğrudan da bayaq gördüyü eşşək lap yolun kənarına çıxmışdı; kolun ardından onun yekə başı və uzun qulaqları aşkar görünürdü: "Ovçu" tez ona sarı getdi.

İş indi doğrudan da ciddi bir hal alırdı. Əgər "ovçu" eşşəyə minib, ehtiyatla gedə bilsəydi, quşlara yaxınlaşıb, doğrudan da onlardan bir neçəsini vura bilərdi.

Səlim, həmişə çiynində gəzdirdiyi tüfəngini, bu dəfə rayon mərkəzinə gedərkən, utanıb götürmədiyinə təəssüf etdi. Tüfəngi yanında olsaydı, indi havaya bir güllə atıb, quşları ürküdər və canlarını bu naşının əlindən qurtarmış olardı. Hər halda indi boş durmayıb, bir tədbir görmək lazım idi.

Səlim, hər şeydən əvvəl, maşının nömrəsinə baxdı və dəftərçəsini çıxarıb, nömrəni oraya yazdı ki, bu qanunpozuculuq hərəkətini yazıb, dövlət ovçuluq müfəttişliyinə xəbər versin; maşının nömrəsi vasitəsilə bunların kimlər olduğunu təyin etmək çətin deyildi. Bunu etdikdən sonra, Səlim bir az kənarda, şose yolunun altından keçib sahilə doğru uzanan arxa sarı yönəldi. Arxın hər iki dik kənarını qalın ot və qamış basmışdı. Buradan quşlara sarı gedib "ovçu" ora çatmazdan əvvəl onları ürkütmək mümkün idi. Səlim də belə edəcəkdi. Ancaq sürüşkən otların üstü və sıx qamışların arası ilə yeyin getmək o qədər də asan bir iş deyildi. Bir də "ovçu" Səlimə nisbətən daha qısa və yaxın bir yol gedirdi.

Səlim arxın qırağı ilə gedə-gedə, tez-tez dönüb "ovçuya" baxırdı. O, çulsuz eşşəyin üstündə əvvəlcə bir-iki dəfə yırğalanıb, az qala palçığın içinə yıxılacaqdı. Sonra tüfəngini çiyninə çarpaz salıb, eşşəyin

noxtasından möhkəm yapışdı və sürməyə başladı. Ayaqları bir-birinə dolaşan arıq və qoca eşşəyin üstündə, çiyni tüfəngli, başı panamalı bu "ovçu" indi doğrudan da yeni bir Sançoya bənzəyirdi.

Onun bu görkəminə Səlim həm gülür, həm də onun quşlara daha tez çata biləcəyini düşünüb, qəzəblənirdi.

"Ovçu" ilə Səlim, get-gedə bir-birinə yaxınlaşırdılar. Aralarında on-on beş metrlik bir məsafə qalanda "ovçu" birdən eşşəyi saxladı və tüfəngi çiynindən aşırıb, əlinə aldı. Səlim buna təəccüb etdi: çünki quşlar hələ tüfəng mənzilindən çox uzaqda idi.

Lakin ömründə rast gəlmədiyi bu iri və qəribə quşların gözü önündə gəzişdiyini görən "ovçunun" gözü qızmış, hər cür haqq-hesabı itirmişdi. O, özündən uzun olan tüfəngi gülünc bir halda döşünə dirəyib, nişan aldı. Səlim quşlar sarıdan arxayın olduğu üçün, daha o tərəfə baxmayıb, bu "ovçu"nun tüfəng atmasına tamaşa etməyə başladı və bu zaman qəribə bir hadisə baş verdi:

Tüfəng açılan kimi, onun səsindən ürkən eşşək bir qoşa şıllaq atdı və "ovçu" aşıb başı üstə sıyıq palçığın içinə yıxıldı. Əlindən çıxıb palçığa duşən tüfəng bir də açıldı. Bundan bir də ürkən eşşək baş götürüb qaçdı...

Təpədən-dırnağa qədər palçığa bulaşmış bayaqkı qalstuklu-panamalı "ovçu" qalxıb, üz-gözünün palçığını silə-silə yoldaşını səslədi:

– Ayə, neçəsi qaldı?

"Ovçu"nun bu gülünc halına və bu halından daha gülünc olan sualına uğuna-uğuna gülməkdə olan yoldaşı qəhqəhələr arasında kəsik-kəsik cavab verdi:

– Hamısı! Sən öləsən, hamısı!

– Qaldı?

– Yox, uçdu...

Bu sual-cavabdan sonra tamam pərt olmuş "ovçu" çaşqın-çaşqın yan-yörəsinə göz gəzdirdi. Bir tərəfdən tüfəngini, o biri tərəfdən içi sulu palçıqla dolmuş panamasını tapıb, dizə qədər palçığa bata-çıxa şoseyə sarı gəlməyə başladı. İndi o, əvvəlkindən də gödək görünürdü.

Tüfəngin ikinci dəfə yerdə açılmasından nigaran qalmış Səlim, hər ovçu kimi, yaxşı tüfəngə heyfi gəldiyindən, ona bir şey olub-olmadığını bilmək üçün maşına sarı getdi.



"Ovçu"nun yoldaşı hələ də gülür və tez-tez təkrar edirdi:

– Yeyərsən qaz ətini, görərsən ləzzətini!..

"Ovçu" dinməz-söyləməz, pərt bir halda üst-başına yapışmış qatı palçığı təmizləyirdi. Yoldaşı onun doğrudan da bikef olduğunu görüb daha gülmür, ona kömək edib, ürək-dirək verirdi:

– Yaxşı, qoy qalsın, indi bundan artıq təmizlənməz. Mənim plaşımı gey. Paltarların quruyandan sonra bir də təmizlərik, qurtarıb gedər. Kefini pozma, ovda belə şeylər çox olar, "könlü balıq istəyən özünü suya vurmalıdır!"

"Ovçu" paltarlarını ala-babat təmizləyib, növbə ayaqlarına çatdıqda, məlum oldu ki, qaloşlarının ikisi də çıxıb palçığın içində qalmışdır. O, ümidsiz nəzərlərlə bayaq yıxıldığı yerə və gəldiyi yola baxdı. Yenidən oraya getmək və qaloşları tapmaq çox çətin iş idi.

"Ovçu"nun üzündə hələ nazik bir palçıq təbəqəsi qaldığındanmı, yoxsa qorxu və qəzəbindənmi, nə isə, onun bir az əvvəlki qızarmış gülər üzü indi sapsarı idi. Solğun dodaqları əsir; bir-birindən xeyli aralı, qövsə bənzər qaşları çatılmışdı.

"Ovçu"nun tamamilə yaddan çıxardığı əziz-xələf tüfəngi də nəhayət, yadına düşdü. Tüfəng bütün palçıq içində olduğundan, heç bir yeri görünmürdü. "Ovçu" əyilib tüfəngi yerdən götürdükdə, bu vaxta qədər bir az kənarda durmuş Səlim yaxına gəldi.

"Ovçu" çəkmələrini sildiyi əsgini əvvəl tüfəngin qundağına çəkdi, sonra qundaqdan yapışıb, lüləsini siləndə, əlini bıçaq kəsmiş qorxaq bir uşaq kimi zarıdı:

– Vay, aman!..

Tüfəngin sol lüləsi, içi palçıqla dolduğundan patron xəzinəsinin ağzından lülənin ucuna qədər partlayıb tam açılmış, partlayışın zərbindən sağ lülə də ortadan içəri batıb əyilmişdi. Bir az əvvəlki o yaraşıqlı, bəzəkli tüfəng indi bir parça metal qırığından başqa bir şey deyildi...

"Ovçu" ağlamsınmış bir pıçıltı ilə öz-özünə dilləndi:

– Yaxşı siftə elədik!..

Səlim başa düşdü ki, bu adam bir də nəinki qızıl qaza tüfəng atmaz, daha ömründə əlinə tüfəng almaz. Bundan arxayın olan Səlim dinməz-söyləməz onlardan ayrılıb yoluna davam etdi və bir neçə addım getdikdən sonra maşının nömrəsini yazdığı kağızı cırıb atdı.

*iyul, 1951*

# QU GÖLÜ

## I

### "İLANLI"NIN DƏRDİ

Hələ üfüqdən ucalmamış günəşin şəfəqləri altında min rəngə boyanan qayalığın dik sıldırım təpəsindən qaqqıltı və pırıltı ilə bir dəstə sona kəklik qalxdı. Bir anda iki güllə açıldı. Cərgə-cərgə düzülən qat-qat qayalara səs düşdü. Hələ əks-səda kəsilməmiş, təpəyə dırmaşan bir gənc, qayaların üstü ilə atıla-atıla yüyürüb, bir an durdu, ətrafa göz gəzdirdi və çapalayıb özlərini qayalara çırpan iki quşu götürdü...

Çox keçmədi ki, qayalığın aşağısından cığırla əlli yaşlarında, dalğalı saçları gümüşü rəngə çalan bir kişi də çıxıb, gənci görər-görməz, onu şən bir səslə alqışladı...

Aralarında ata-oğul qədər yaş fərqi olan bu iki adamı payızın ayazlı səhərində bu sıldırımlı dağların başına gətirib çıxaran nə idi?

Deyəcəksiniz: – Ovçuluq həvəsi!

Bundan daha artıq: Yaradıcılıq eşqi!..

Bunlardan biri – texnikumun son kursunda oxuyan gənc elektrotexnik Aslan, o biri isə – məşhur energetika professoru Cavanşir idi.

Aslan bu dağların qoynunda doğulmuşdu. Balacalıqda bu qayaların arasında oynaq çəpişləri otarmış, kolxoz çobanı olan atasına dərsdən sonra boş vaxtlarında kömək etmiş, kənddən bir qədər aralı xırmanda vəl sürmüş, sözün qısası, bu yerlərin suyuna, havasına, sərt, amma cazibəli təbiətinə isinişmişdi.

Aslanın yaxşı yadındadır: on-on iki yaşı ancaq olardı. Bir gün xırmanda vəl sürürdü. O il quraqlıq keçdiyindən zəmilər yanmış, kolxozçular səpdikləri toxumu güclə yığmışdılar. Yemsiz qalmış mal-qara da yaman qırılmışdı. Həmin gün xırmanda iki adamı ilan vurmuşdu... Hamının qanı qara idi.

Axşama doğru günəş çəkilmişdisə də, amma qızmış qayalar, qupquru bağrıyanıq torpaq hələ də dəm çalırdı. Bürküdən təngə gəlmiş Aslan və atası evə qayıdırdılar. Aslan yanıqlı-yanıqlı atasından soruşdu:



– Ay ata, bu gen dünyada məgər yer qəhət idi ki, bizim babalar gəlib bu çılpaq qayaların arasında kənd salıb, hələ bir adını "İlanlı"da qoyublar?

– Elədir ki, var, oğlum! Bu gen dünya bir zaman bizim babaların başına dar idi. Aşağıdakı bütün yaxşı yerlər, suvarılan bərəkətli torpaqlar bəylərin-xanların mülkü idi...

– Bəs sonra, sovet zamanı niyə yaxşı yerlərə köçmədiniz?!

Oğlunun bu məzəmmətli sualı deyəsən kişinin ürəyini qanatdı, onu yaman incitdi. Dönüb narazı və danlayıcı bir nəzərlə oğluna baxdı və dedi:

– Bala, yaxşı oğul ata-baba yurdunu atıb getməz! Bacarsa, abad elər, bacarmasa, onunla bir yerdə batıb gedər!..

Elə uşaqlıqdan öz sözündən və fikrindən dönməz olan Aslan, atasının danlağını duydusa da, yenə inadla soruşdu:

– Bəs niyə abad etmədiniz?

Ata hələ çox uşaq hesab etdiyi oğlundan deyəsən bu sualı gözləmirdi. O duruxdu, ayaq saxladı. Oğlu da dayandı. Ata-oğul bir an bir-birinin üzünə baxa-baxa qaldı, sonra ikisi də gözlərini kənara çevirib, ətrafı nəzərdən keçirdi.

Qayalıqlı dağın ətəyində pillə-pillə salınmış kəndin bomboz evləri ətrafdakı boz qayalıqdan seçilmirdi: nə bir kol, nə bir yarpaq... Yalnız aşağıda, kəndi ortadan bölən bir yarğanın iki yanındakı bir neçə həyətdə beş-altı söyüd ağacı yetim cücələr kimi qanadlarını sallayıb durmuşdu. Bütün kənddə yalnız bircə bulaq vardı ki, bu da əlüzyuyan lüləyindən axan su kimi süzülür, get-gedə azalıb, göz yaşı kimi damcılayır və nəhayət, kəsilirdi.

– Su!..

Kəndin dörd bir tərəfindən, başı qarlı dağlardan coşqun çaylar axıb gedir; yaz daşqını və payız yağmurlarının əmələ gətirdiyi sellər azğın nərələrlə yeri-göyü titrədir, nəhəng qayaları gurultu ilə sürüyür, qabağına düşən mal-qaranı, ətəklərdəki ev-eşiyi alıb aparır, əkinləri silib-süpürürdü. Amma birdən coşan bu sellər birdən də kəsilirdi; bağrıyanıq torpaq yenə aylar uzunu suya həsrət qalır, seldən salamat çıxan taxılı və qoyun-quzunu da yayın qara yeli yandırıb-yaxırdı...

Bəs buna bir çarə yoxdumu?

Vardı, amma...

## II

## İLK ADDIM

...Biz, Aslanın uşaqlıq xatirələri ilə məşğul olub, özünü və onunla bir yerdə ova gəlmiş professor Cavanşiri tamam yaddan çıxardıq.

Budur, onlar kəndin yaxınlığındakı ən uca qayanın təpəsində durub, nə barədə isə qızğın-qızğın danışırlar.Buradan bütün ətraf, təyyarədən görünən kimi görünür; solda alçala-alçala gedən yastıq kimi yumru təpələr, günəşin şüaları altında parıldayan asfalt yol; bir az sağda, ovçuların durduğu qaya başı ilə qarşıdakı dağın ətəkləri arasında sellüloid oyuncaqlara bənzər mal-qara otlayır. Uca dağın haça zirvəsi isə, ətrafına toplaşmış ağ-bozumtul buludları dəlib mavi səmaya sancılmışdır.

Aslan bir neçə il bundan əvvəl kəklik ovuna çıxıb, xeyli yuxarılara qalxmış və qəribə bir hadisə görmüşdü: dağların üstü ilə uçan bir cüt qu quşu dairə vura-vura aşağı enmiş və birdən-birə yox olmuşdu. Burada göl-gölməçə olmadığını güman edən Aslan quşların hara qonduğu ilə maraqlanıb, qayalara dırmaşa-dırmaşa xeyli getdikdən sonra dağların qoynunda, ovuc içi kimi bir çuxurda xırdaca bir göl görmüş, bunun adını "Qu gölü" qoymuşdu. Bu cür adsız xırdaca göllər-gölməçələr çox olur. Əlbəttə, bu gölü Aslandan başqa adamlar da görmüşdülər, amma buna əhəmiyyət verməmişdilər.

İndi Aslan, həmin dağın döşünü professora göstərib, iki əlini qoşa ovuc edərək, professorun qabağına tutdu:

– Professor, dağın döşündəki o gölün yatağı, bax, bu qoşa ovuc kimidir. Əriyən qarların, yağan yağışların suları orada yığılır, sonra aşıb-daşır, aləmi yıxıb-dağıdır. Əgər onun açıq olan bir tərəfi bağlansa, burada o qədər su yığılar ki, il uzunu taxıl əkinlərinə də, mal-qaraya da bol-bol çatar. Hələ bağ-bostan da salmaq olar. Kiçik bir kolxoz su-elektrik stansiyası da qurmaq olar...

– Olar, olar, bala, gölün ortasında bir büllur saray, içində gözəllər gözəli... – deyə professor Aslana sataşdı, – hamı da Aslan şahın qulluğunda, ha-ha-ha...

Aslanın qəlbinin dərinliklərindən gələn bu arzuya professorun belə gülməsi əvvəlcə ona yaman toxundu. Əli-qolu sustaldı. Amma azacıq sonra professor ov çantasından durbin, fotoaparat və bir çox xırda cihazlar çıxarıb, lazımi müşahidə və hesablamalar etməyə



başladı. Aslan onun suallarına elə inamlı və dürüst cavablar verir, ona elə mənalı fikirlər söyləyirdi ki, professor buna heyran qalırdı.

Aslan kənddə ibtidai məktəbdə oxuduğu zamanlar, gecə-gündüz bu xəyallarla yaşayırdı. Gündüzlər kağızda rəngbərəng karandaşlarla gələcək kəndin şəklini çəkər, onu su fəvvarələri ilə, al-əlvan güllərlə-çiçəklərlə bəzər, xoşagəlməz "İlanlı" adı əvəzinə cürbəcür qəşəng, sevimli adlar qoyardı: "Bağçalı", "Çeşməli", "Laləli"... Gecələr isə, kəndi yuxuda öz xəyalında yaratdığından da gözəl bir şəkildə görərdi.

Aslan böyüdükcə, bu əziz xəyal və arzular da onunla bərabər böyümüş, yetişmiş, xəyal aləmindən həqiqət aləminə qədəm qoymuş, amma burada böyük çətinliklərlə qarşılaşmışdı. Bu çətinliklərdən biri də elə bu idi ki, görəsən dağlar qoynundakı "Qu gölündən" buraya su çəkmək mümkündürmü?

Aslan dərslərdən sonra boş vaxtlarında bu barədə kitablar oxuyar, bu mövzuda məruzələrə gedərdi. Professor Cavanşir ilə də, elə onun həmin mövzuda bir məruzəsindən sonra sual-cavab zamanı tanış olmuş, daha sonra onunla dəfələrlə görüşüb danışmışdı.

Aslan "Qu gölü" və öz arzuları barəsində professorla elə coşqun bir səmimiyyətlə söhbət etmişdi ki, bir qədər romantik olan professor özü də onun xəyallarına şərik olmuşdu.

Bugünkü ov, – həmin xəyalı həqiqətə çevirmək üçün atılan ilk addım idi.

Professorla olan ümidverici söhbətdən sonra Aslan bu arzunun, necə deyərlər, dəlisi olmuşdu. Özü ilə bərabər məktəbi qurtaracaq gənclərdən bir çoxunu və rayon komsomol komitəsini, hətta professorun vasitəsi ilə tanış olduğu bir neçə gənc alimi də maraqlandırıb, bu işin coşqun həvəskarları etmişdi.

İndi, demək olar ki, hər həftə, istirahət günlərində "İlanlı" qayalıqlarında bir neçə dəstə adam görmək olardı. Bunların əllərində ov tüfəngi deyil, cürbəcür alətlər və cihazlar vardı. Kolxozun cavanlı-qocalı fəalları da bunlara qoşulmuşdu. Beləliklə, gənc mütəxəssis və alimlərlə kolxozçular əlbir olub, bir kollektiv yaratmışdılar. Onlar öz qarşılarında, əlaqədar təşkilatların köməyi ilə xırdaca bir kolxoz su-elektrik stansiyası qurmaq məsələsi qoymuşdular.

Aradan çox keçməmiş bu gənc alim və mütəxəssislər kollektivi "Qu gölündən" kəndə su çəkmək və kiçik bir elektrik stansiyası qurmaq üçün layihə, smeta, texniki iş planı... hər şey hazırlamışdı.

Hətta Aslan öz son sinif yoldaşları ilə birlikdə gölün, su kəmərinin, kəndin ətrafındakı taxıl zəmilərini suvaran fəvvarələrin, bağ-bağçaların, elektrik stansiyası və şəbəkəsinin bir maketini də hazırlamışdı. Maket işə salındıqda, ətraf dağlardan gölə şırhaşırla su tökülür, bir yandan da su göldən axıb, elektrik stansiyasını işə salırdı. Kəndin evlərində, küçələrində, meydanında xırdaca rəngbərəng elektrik işıqları yanır, uca göldən kəmərlə təzyiq altında gələn su cərgə-cərgə düzülmüş incə borulardan fəvvarə vururdu.

Bu mənzərə Aslanın hətta uşaqlıq xəyallarından və röyalarından da gözəl idi. Ona görə gözəl idi ki, bu – daha xəyal və röya deyil, maket də olsa, gözlə görünən, əl ilə toxunulan bir həqiqət idi.

Maket ilə həqiqi həyat arasındakı məsafə böyükdür, maketi stansiyaya çevirmək çox çətin bir işdir. Ancaq dalğalar üzərində şəhər quran, nəhəng çayların ağzına polad və betondan bənd vuran sovet adamları uzağı yaxın, çətini asan etməyi bacarırlar...

* * *

Həmişə olduğu kimi, məktəbin son sinfini qurtaranlar arasında böyük bir həyəcan var idi. Uzun illər boyu bir-birinə isinişmiş, bir ailə üzvü kimi mehribanlaşmış ürək dostları bir-birindən, əziz müəllimlərindən, sevimli məktəbdən ayrılacaqdılar...

Onlar ayrılacaqlarına görə sıxılırdılarsa da, illərdən bəri bəslədikləri ümid və arzularına qovuşacaqlarına görə sevinirdilər. Hamı öz işində, öz sahəsində yeniliklər yaradacağına, müvəffəqiyyətlər qazanacağına inanırdı. Məktəbdə oxuduqları müddətdə müəllimlərdən eşidib-öyrəndiklərini, kitablardan, kino və teatrlardan, həyatdan görüb-götürdüklərini, böyük arzularını həyata keçirmək vaxtı gəlib çatmışdı.

* * *

Aslan məktəbdə təyinat komissiyasının otağına girəndə, sədr ona dedi:

– Komissiya sizi, öz ixtisasınız üzrə ali təhsil almaq üçün institutа göndərməyi qət etmişdir. Təbrik edirəm!



Sədr bu sözləri deyib şəhadətnamə ilə birlikdə lazımi kağızları ona uzatdı və gülə-gülə əlini sıxaraq, soruşdu:

– Etirazınız yoxdur ki?

– Var, yoldaş sədr! – deyə Aslan cavab verdi. – Mən hələlik oxumaq yox, işləmək istəyirəm!..

Aslanın arzu və məqsədini yaxşı bilən məktəb direktoru və rayon komsomol komitəsinin nümayəndəsindən başqa, komissiyanın o biri üzvləri təəccüblə Aslana baxdılar. Hətta həmkarlar ittifaqının qoca nümayəndəsi, yaxşı eşitmədiyini güman edib, bir də soruşdu:

– Necə, oğul, oxumaq istəmirsən?

– Mən işləmək istəyirəm? – deyə Aslan həyəcandan qızarıb başını aşağı saldı.

Qoca nümayəndə bundan tamam başqa məna çıxarıb, ona ata kimi nəsihət verməyə başladı:

– Oğul, nə üçün oxumaq istəmirsən? Ayıb deyilmi? Mən ömrümün on beş ilini fəhlə olmuşam, ancaq Sovet hakimiyyəti illərində oxuyub, bir sənət qazanmışam. Altmışa yaxın yaşım var, yenə arabir fürsət düşəndə, ixtisasımı artırmağa, oxumağa gedirəm... Bəlkə... – deyə qoca bir an duruxdu. Sonra daha mehriban bir səslə sözünə davam etdi: – Bəlkə ailən... maddi ehtiyac... kömək edərik...

Aslan qoca nümayəndəyə cavab verməyə hazırlaşırdı ki, komsomol komitəsinin nümayəndəsi onun əvəzinə komissiya üzvlərini başa salmaq üçün ayağa qalxdı. O, böyük salonun bir küncünə sarı yönəldi. Aslan və yoldaşlarının hazırladığı maket orada idi. O, maketin önündə durub:

– Bura zəhmət çəkin! – deyə, maketi işə saldı...

Bu gözəl mənzərənin önündə durub, heyran-heyran baxan komissiya üzvlərinə müraciətlə komsomol nümayəndəsi izahat verdi:

– Aslan öz uşaqlıq arzularının timsalı olan bu tikintidə iştirak etmək və burada işləmək istəyir. Tikintinin layihə və smetası dövlət tərəfindən təsdiq edilmişdir... – deyə o, divardan asılmış Azərbaycan xəritəsində ucqar dağlar qoynunu göstərdi.

Qoca nümayəndə Aslanı yalnız indi görürmüş kimi, gözlərini ona zilləyib, dinməz-söyləməz xeyli baxdı, sonra birdən-birə onu qucaqlayıb alnından öpdü və:

– Sağ ol, bala, var ol! – deyə, nədənsə, bir əli ilə gözlüyünü, o biri əli ilə yaylığını çıxarıb gözlərini və gözlüyünü silə-silə əlavə etdi:

– Get, oğul, uğur olsun!

# III

## BÖYÜK ARZULAR

Aslanın müəllim və yoldaşlarından ayrılıb getdiyi gündən bir il, bəlkə bir qədər də çox keçmişdi. O, indi bir ilə yaxın idi ki, "Qu gölü" sahilində qurulmuş xırdaca kolxoz elektrik stansiyasının rəisi vəzifəsində çalışırdı. Kənd məktəbinin son sinfində oxuyan iki-üç gənc kolxozçunu da kolxoz burada işə təyin etmişdi. Aslan onlara ixtisas üzrə bilik verir, müstəqil işləməyə öyrədirdi.

* * *

Ov mövsümünün son günləri – fevralın axırları idi. Aslan və yoldaşları ilə birlikdə "İlanlı" qayalıqlarına çox gəlmiş professor Cavanşir buranı bir ovlaq kimi də çox xoşlamışdı. Tez-tez bura gəlib Aslanla ova çıxırdı.

İndi də professor, Aslanla şərtləşdiyi yerdə görüşüb bir qədər ov etdikdən sonra, elektrik stansiyasına, oradan da "Qu gölünə" getməyi qərara aldı. Professor tikinti qurtardıqdan sonra buranı görməmişdi.

"Qu gölü" – döşləri məxmər kimi yamyaşıl, dikləri mərmər kimi damar-damar, zolaq-zolaq, rəngdən-rəngə çalan sıldırımlı dağların qoynunda büllur bir güzgü kimi parıldayırdı. Cərgə-cərgə ağ-çəhrayı bulud karvanları bu güzgüdə əks etdikcə, firuzəyi göy üzü, sərin dağ mehinin nəfəsi ilə hərdən yavaş-yavaş yırğalanan sularla birlikdə sanki canlanır, hərəkət edirdi.

Biri, bütün gənclər kimi – yaşına görə, o biri isə, – təbiətinə, xasiyyətinə görə ömürlük şair olan iki dost – Aslanla Cavanşir bu gözəlliyi bir müddət heyran-heyran seyr edib, dinməz-söyləməz durdular. Sonra ordan-burdan söhbətə başladılar. Axırda professor söhbəti Aslanın təhsilinə gətirdi; çünki bu narahat, diribaş gəncdən çox şey gözləyirdi, onun əsil yaradıcı bir alim olmaq üçün hər bir imkanı var idi.

– Yaxşı, ovçu yoldaş, deyəsən çox tez yorulub dincəlirsən! – deyə professor mətləb üstünə gəldi. – Bəs bu işin dalısı necə olsun?

Aslan məsələni başa düşüb, gülümsünə-gülümsünə cavab verdi:

– Bilirəm nəyi deyirsiniz, professor! Ancaq hələ tezdir. Kolxozumuz iriləşmişdir, stansiyanın gücünü artırmaq fikrindəyik. Bir-iki il də işləmək istəyirəm.



Professor bir qədər təəccüblə soruşdu:

– Buradamı? Bura çox gözəldir, çox rahatdır, amma... çox rahatlıq sevən adam ovçu olmaz... Bir də dədə-babalar deyiblər ki, qaz vur, qazan dolsun!

– Elədir, professor, mən də bir-iki il sonra yəqin ki... – deyə Aslan birdən sözünü kəsdi və dik yuxarı baxdı: – Professor, ora baxın!!!

Professor da başını qaldıranda, gölün o biri ucundan dağın təpəsi ilə iki qu quşunun vüqarla qanad çala-çala gəldiyini gördü. Aslan və professor bir anda ovçu vərdişi ilə yerə sinib hərəkətsiz qaldılar.

Quşlar yaxınlaşdıqca, aşağı enə-enə, gölün üzərində get-gedə kiçilən bir neçə dairə vurdular, sürahidən piyaləyə tökülən su səsinə bənzər qəribə xoş bir səslə sanki bir-biri ilə məsləhətləşdikdən sonra, süzə-süzə gölə endilər.

Quşların ən böyüyü, ən qəşəngi olan bu ağappaq gözəllər ipək tüklərini qabardıb uzun zərif boyunlarını, qaragözlü, qaradimdikli uzunsov yumru başlarını o yan-bu yana çevirə-çevirə büllur göldə üzdükcə, elə bil bayaqkı gözəl mənzərə bir anda tamam dəyişdi, daha da gözəlləşdi, ona bir dirilik, yeni bir həyat gəldi...

Təbiət kimi, gözəl musiqiyə də aşiq olan professor, sanki Çaykovskinin "Qu gölü" baletinin zərif, əfsanəvi musiqisinin ahəngini duydu. Sanki gözünün önündəki qu quşları bu saat göldən çıxacaq, gözəl qızlara dönüb, bu incə musiqinin ahənginə uyaraq, rəqsə başlayacaqdılar...

Lakin bir an, bircə an ibtidai babalardan qalma ovçuluq ehtirası professorun bu zərif duyğularına qalib gəldi. O, əlini yaddan çıxıb yanında düşüb qalmış tüfənginə atdı. Otuz ildən bəri ovçu idi. Amma hələ bircə qu da vurmamışdı. İndi düşən bu fürsət onu aldatdı... O, pıçıltı ilə Aslanı səslədi.

Aslan gözəl bir röyadan ayılan kimi oldu. Başını professora tərəf çevirib, gözlərini döyə-döyə ona baxdı. Professor pıçıltı ilə dedi:

– Aslan, mən o biri sahilə gedirəm. Quşlar uçub sənə sarı gəlsə, qoyma ha...

Professor getdi, bir az sonra quşlar narahat bir halda, boylana-boylana, sürətlə üzüb Aslana sarı gəlməyə başladılar, birdən qaqqıldaşa-qaqqıldaşa, ayaqlarını suya çırpa-çırpa havalandılar. Aslanın başı üstündən o qədər yaxından keçdilər ki, su damcıları onun üzərinə çiləndi, qanadlarının yeli onun üzünü yelpiclədi. Aslan heç əlini tüfəngə uzatmadı da, heç yerindən tərpənmədi də. Yalnız

başını çevirdi, şimala doğru uçub gedən quşların dalınca qəribə, həyəcanlı – həsrətli nəzərlərlə baxa-baxa qaldı...

Professor qayıdıb gəldikdə, quşlar artıq üfüqdə iki xırdaca nöqtə kimi görünürdüsə də, ancaq Aslan hələ gözlərini onlardan ayırmamışdı.

...Yəqin ki, bu aramsız, bu coşqun, bu xəyalpərvər gənc indi də onların getdiyi yerə, şimala – əsrlərdən bəri yatıb qalmış xam torpaqları oyatmağa, ucsuz-bucaqsız cansız düzənlərdə yeni həyat yaratmağa gedəcəkdi!

*aprel, 1954*

## TƏZƏ ŞƏHƏR – KÖHNƏ ŞƏHƏR

Altaygil təzə evə köçmüşdülər. Təzə ev Bakıda, Dağüstü parkın yaxınlığında idi. Maşın qapıda duran kimi, Altay atası ilə beşinci mərtəbəyə çıxdı. Atası qapını açanda, o küçə balkonuna qaçdı. Balkonda geniş bir nəfəs aldı:

– Oh, nə gözəldir!..

Doğrudan da bura çox gözəl idi:

Gömgöy dəniz payız günəşinin altında par-par parıldayırdı. Uzaqda cərgə-cərgə dəniz buruqları, nəhəng ağ gəmilər, yelkənli qayıqlar, yaxında "Dağüstü park"ın meşə kimi sıx yaşıl ağacları, şəbəkəli televiziya qülləsi, ağacların arasında qəşəng binalar, pavilyonlar, funikulyor stansiyası, aşağıda dənizkənarı park – bulvar, küçələr, evlər, rəngbərəng trolleybuslar, maşınlar...

Altay elə bil quş kimi göydə uçurdu. O bir də geniş nəfəs aldı və bərkdən səsləndi:

– Atacan, gör nə qəşəngdir!..

Ancaq atası orada yox idi. O aşağı düşmüş, şeyləri daşımağa kömək edirdi. Altay da şirin yuxudan ayılan adam kimi, özünə gəlib aşağı boylandı. Qapıda avadanlığı boşaldan maşını görüb, o da köməyə getdi...

* * *

Üç gün keçmişdi. Altay bu təzə işıqlı, yaraşıqlı mənzili çox sevirdi. Bura köçdüklərinə çox sevinirdi. Küçə balkonuna çıxıb dənizə, parklara, şəhərə tamaşa etməkdən doymurdu. Amma hərdənbir azacıq darıxırdı da...



Burada təzə qonşuların uşaqları ilə hələ yaxşı tanış olmamışdı. Öz əvvəlki məhəllə yoldaşları yadına düşür, onlarla görüşmək, oynamaq istəyirdi. Altayın ən yaxın yoldaşlarından biri Aydın idi. Onlar İçərişəhərdə yaxın qonşu idilər. Evləri üzbəüz idi. Amma küçə o qədər dar idi ki, üzbəüz pəncərədən bir-biri ilə söhbət edər, əllərini uzadıb bir-birinə kitab-dəftər verib-alardılar.

Onlar bir yerdə böyümüşdülər. Üç il idi ki, bir məktəbdə, bir sinifdə oxuyur, bir partada otururdular. Dərslərini də bir yerdə hazırlayır, bir yerdə futbol oynayırdılar. Altay komandanın hücumçusu, Aydın da qapıçısı idi...

İndi görəsən onlar nə edirlər? Görəsən Altayın yerinə kim oynayır?..

Bu gün istirahət günü idi. Evdə hələ yır-yığış gedirdi. Altay da ata-anasına kömək edirdi. Ancaq nədənsə, bir az könülsüz işləyirdi.

Atası bunu görüb soruşdu:

– Hə, Altay, nə var? Deyəsən yorulmusan? Yoxsa yoldaşların üçün darıxırsan?

Altay da elə bunu gözləyirdi. Bir az çəkinə-çəkinə dedi:

– Atacan, olar, evi yığışdırandan sonra mən Aydıngilə gedim?

Atası bilə-bilə bir az acıqlı səslə dedi:

– Yox!.. Olmaz!..

Həmişə mehriban, üzügülər olan atasının belə cavabından Altay qıpqırmızı qızardı, ürəyi sıxıldı. Bunu görən atası gülə-gülə dedi:

– Olmaz... Axı bu gün Aydıngil bizə qonaq gələcəklər!..

Elə bu vaxt qapının zəngi çalındı. Aydıngil gəldilər.

– Ay xoş gəlibsiz!..

– Ay çox mübarək, çox mübarək, sağlığınıza qismət olsun... Bura toylara gələk...

* * *

Xoş-beşdən sonra böyüklər süfrəyə oturdular, Altayla Aydın balkona çıxdılar. Altay qollarını açıb dənizi, parkları, bütün şəhəri göstərə-göstərə, sevinə-sevinə dedi:

– Bir bax, Aydın, gör nə gözəldir!..

Aydın da yoldaşına qoşuldu:

– Çox gözəldir, Altay, doğrudan da çox qəşəngdir!..

Altay sevindiyindən coşdu:

– Eh, İçərişəhər nəyə gərək! Bura yaxşıdır!..
Aydın duruxdu, bir az tutuldu, amma dinmədi. Bunu görən Altay daha da qızışdı.
– Hə, düz demirəm? İçərişəhəri kökündən uçurub dağıtmaq lazımdır...
Aydın fikirli-fikirli dilləndi:
– Hamısını?
– Lap hamısını!..
– Qız qalasını da, Xan sarayını da, bürcləri də?..
– Hə, hamısını, hamısını!..
Birdən Aydın da qızışdı:
– Yox, elə şey olmaz!
– Lap yaxşı olar!..
– Heç yox! Ola bilməz!
İki yoldaş əl-qollarını ata-ata elə bərkdən çığırırdılar ki, atalarının balkona çıxdıqlarından heç xəbərləri olmadı. Altayla Aydının ataları gülə-gülə onlara yaxınlaşıb soruşdular:
– Nə olub, ay qoçaqlar?
– Belə çığıra-çığıra nədən danışırsınız?
Onların nə üçün mübahisə etdiklərini biləndə, Altayın atası gülümsünüb dedi:
– İkiniz də düz deyirsiniz.
Uşaqlar bir-birinin üzünə baxdılar. Bu cavabdan bir şey başa düşmədilər. Altay soruşdu:
– Axı necə?
Atası cavab verdi:
– Bax, belə: İçərişəhərdə əyri-üyrü küçələri, sınıq-salxaq evləri sökəcək, yaraşıqlı evlər tikəcəklər...
Altay sevinmiş halda Aydına baxdı. Aydın qızarıb tutuldu. Altayın atası sözünün dalını dedi:
– Ancaq qədim yadigar binalar qalacaq: Qız Qalası, Xan Sarayı, bürclər və başqaları... axı bunlar bizə babalardan əziz yadigardır!..
İndi Aydın da sevinə-sevinə Altaya baxdı. Onlar belə dinməzsöyləməz bir-birilə razılaşdılar, barışdılar.
Aydının atası da söhbətə qoşulub dedi:
– Elədir, balalar, təzə şəhəri yaradıb qurmaq, köhnə şəhəri abad edib qorumaq lazımdır!..

*1963*



# MÜNDƏRİCAT

*Ön söz* .....4

## ŞEİRLƏR

Bəyaz gecələr .....7
Çağırış .....8
Ana öyüdü .....9
And .....11
Səadət və zəfər .....13
Yadındamı?.. .....15
Günəş .....17
Haqqın zəfəri .....19
Daha da yüksəklərə .....20
Vətən nəğməsi .....21
İlk addımlar .....23
Xəzri, gəl! .....25
Kim .....26
Bulvarda .....27
İki bulvar .....29
Rəssam-snayper .....32
Minarələr .....33
Axşam günəşi .....33
Ürəkdə izlər .....34
Ürək yanır .....34
İnsan ürəyi .....35
Həkimlə söhbət .....35
Öpüşlər .....36
Körpələr .....39
Planetdaş .....40
Küsü-barış .....40
Eşq olsun .....41
Adam var ki... .....41
Hərəkət .....42
Sürünənlər, uçanlar .....44
Almaz .....44
Odlar quşu .....46

Bizim günəş .....47
İnam .....49
Xoş gördük .....50
Yanğı .....51
Bənövşələr açılanda .....52
Gözlər .....52
İnsan ömrü .....53

SATİRALAR

Məsləkbaz timsah .....57
Kamal və camal .....57
Dağ kəlinin heykəli .....58
Adam – alim .....59
Tovuz və dəniz .....61
Səxavətli xanım .....62
Gözəllik barəsində .....64
Uşaq, at və həyat .....66
Qorucu .....67
Mərd-namərd .....69
Canavarlar .....70
Bədbin-nikbin .....71
Cəlladın ölümü .....72
Tikanlı sözlər .....72

RƏVAYƏTLƏR

Uzun və böyük .....77
Torağayın nəğməsi .....78
Dozanqurdu və sair həşərat .....81
Aslan ürəyi .....83
Düşüncə .....85
Tərifnamə .....85
Rəssam və hökmdar .....87
Yuxu dərmanı .....89
Qurbağacıq .....90
Dostluq .....91
Dirilik suyu .....92



MƏNZUM NAĞILLAR

Nağıl .....97
Dəcəl çəpiş .....98
Şirinbulaq .....110

POEMALAR

Qaranquş yuvası .....125
Leyla .....143
Boz bülbülün nəğmələri .....157
Beşbarmaq .....173
Naxışlar .....209

HEKAYƏLƏR

Yaralı göyərçin .....249
Padşah və alim .....273
Cinayət və cəza .....276
Təzə tüfəngin siftəsi .....288
Qu gölü .....298
Təzə şəhər – köhnə şəhər .....306

Buraxılışa məsul: *Əziz Güləliyev*

Texniki redaktor: *Rövşən Ağayev*

Tərtibatçı-rəssam: *Nərgiz Əliyeva*

Kompyuter səhifələyicisi: *Aslan Almasov*

Korrektorlar: *Elsevər Muradov*
*Elnaz Xəlilqızı*

Yığılmağa verilmişdir 07.08.2006. Çapa imzalanmışdır 07.09.2006.
Formatı 60x90 $^1/_{16}$. Fiziki çap vərəqi 19,5. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 142.

Kitab "Şərq-Qərb" mətbəəsində çap olunmuşdur.
Bakı, Aşıq Ələsgər küçəsi, 17.